AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
QAFQAZŞÜNASLIQ İNSTİTUTU

**Vahid Ömərov, Elnur Kəlbizadə,
Samirə Həbibbəyli, Naziyə Məmmədova,
Kamal Salayev**

# GÜRCÜSTAN:
# İNZİBATİ-ƏRAZİ QURULUŞU, İDARƏÇİLİYİ VƏ DEMOQRAFİYASI

*AMEA Qafqazşünaslıq İnstitutu
Elmi Şurasının 29 may 2019-cu il tarixli
qərarı ilə (Protokol № 14)
çapa tövsiyə olunmuşdur.*

**BAKI – 2019**

**İDEYANIN VƏ ÖN SÖZÜN MÜƏLLİFİ, ELMİ REDAKTOR:**

**Musa Qasımlı,**
*AMEA-nın müxbir üzvü, professor*

**RƏYÇİLƏR:**

**Ramiz Sevdimalıyev,**
*siyasi elmlər üzrə elmlər doktoru, professor*

**Qasım Hacıyev,**
*tarix üzrə elmlər doktoru*

**Südabə Hüseynova,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*

Öмərov V., Kəlbizadə E., Həbibbəyli S., Məmmədova N., Salayev K.
Gürcüstan: inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası.
– Bakı: MTM Innovation MMC. 2019, – 320 s.

*Kitabda Gürcüstanın siyasi-tarixi coğrafiyası, inzibati ərazi quruluşunun əsas xüsusiyyətləri, diyarlara bölünməsi, rayonlaşdırılması, muxtar qurumları, idarəçilik sistemi, prezidentlik institutunun və onun parlament idarə üsuluna keçməsinin zəruriliyi, demoqrafik şəraiti, əhalisinin milli-etnik tərkibi, demoqrafik böhranı şərh olunmuş, ondan çıxış yolları göstərilmişdir. Əsər siyasi elmlər üzrə mütəxəssislər, politoloqlar, regionşünaslar, müvafiq dövlət qurumları, tələbələr, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

ISBN: 978-9952-28-457-7

© AMEAQİ, 2019

# MÜNDƏRİCAT


ÖN SÖZ ... 4
GİRİŞ ... 8

**I FƏSİL**
**GÜRCÜSTANIN İNZİBATİ-ƏRAZİ QURULUŞU**

1.1. Gürcüstanın tarixi-siyasi coğrafiyası, inzibati-ərazi quruluşunun əsas prinsip və xüsusiyyətləri ... 18
1.2. Diyarlar və onların rayonlaşdırılması ... 40
1.3. Gürcüstanın muxtar qurumları ... 61

**II FƏSİL**
**GÜRCÜSTANIN İDARƏÇİLİK SİSTEMİ**

2.1. Gürcüstanda prezidentlik institutunun formalaşması ... 73
2.2. “Qızılgül inqilabı”ndan sonra prezidentlik institutunun zəifləməsi ... 80
2.3. Gürcüstanda parlament institutunun formalaşması95 və Baş Nazir təsisatı ... 95

**III FƏSİL**
**GÜRCÜSTANIN DEMOQRAFİYASI**

3.1. Demoqrafik şəraitə tarixi baxış: köçürmə siyasəti və demoqrafik dəyişikliklər ... 107
3.2. Əhalinin milli-etnik tərkibi ... 112
3.3. Gürcüstanda demoqrafik şərait: proqnozlar və perspektivlər .. 222

NƏTİCƏ ... 274
ЗАКЛЮЧЕНИЕ ... 281
CONCLUSION ... 274
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ... 296

# ÖN SÖZ

Qafqazşünaslıq İnstitutunun elmi-tədqiqat istiqamətləri arasında qonşu və dost Gürcüstanın daxili ictimai-siyasi şəraitinin tədqiqi başlıca yerlərdən birini tutur. Məlum olduğu kimi, dövlət müstəqilliyi bərpa edildikdən sonrakı illərdə Azərbaycan Respublikası və Gürcüstan arasındakı münasibətlər strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bütün beynəlxalq təşkilatlarda hər iki ölkə bir-birini dəstəkləyir. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il fevralın 27-də Gürcüstan Prezidenti Salome Zurabişvilinin Azərbaycana səfəri zamanı demişdir:

*"Xalqlarımız əsrlər boyu bir-birinin yanında, bir yerdə olmuşdur. Biz həmişə dostluq, qardaşlıq şəraitində yaşamışıq. Bu gün də dostluq və qardaşlıq əlaqələrimiz bizim dövlətlərarası əlaqələrimiz üçün əsas amildir. Biz dövlətlərarası əlaqələri bu möhkəm təməl üzərində qururuq. Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir. Bizim siyasi əlaqələrimiz yüksək səviyyədədir, müntəzəm olaraq yüksək səviyyəli görüşlər keçirilir, məsləhətləşmələr aparılır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi daim dəstəkləyirik. Gürcüstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ərazi bütövlüyü məsələləri ilə bağlı daim həmrəylik göstərir və bir-birini dəstəkləyir. Bir sözlə, deyə bilərəm ki, bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik. Əminəm ki, xalqlarımızın, dövlətlərimizin çox gözəl gələcəyi var".*[1]

---

[1] *İlham Əliyev: "Gürcüstan və Azərbaycan daim həmrəylik göstərir və bir-birini dəstəkləyir".* 27.02.2019, https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi

Bütün bunları əsas götürən Gürcüstanşünaslıq şöbəsinin əməkdaşları tərəfindən növbəti kitab nəşrə hazırlanmışdır. Qeyd etmək istəyirəm ki, 2018-ci ildə oxuculara təqdim olunan "Gürcüstan: daxili ictimai-siyasi şərait" adlı kitabda müəlliflər qonşu ölkənin daxili ictimai-siyasi inkişafını araşdırmışdılar. Təqdim edilən "Gürcüstan: inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası" adlı kitabda isə Gürcüstanın coğrafiyası, inzibati-ərazi quruluşu, prezident, parlament və baş nazirlik institutlarının fəaliyyət prinsipləri, ölkənin demoqrafik şəraiti və əhalinin milli-etnik tərkibi müxtəlif dillərdə olan ən mötəbər mənbələr əsasında tədqiq olunmuşdur. Üç fəsildən ibarət əsəri Azərbaycan Respublikasında Gürcüstanşunaslıq elminə yeni, növbəti töhfə hesab etmək olar. Bu əsər elmi-nəzəri, praktiki əhəmiyyət və aktuallıq kəsb edir.

Müəlliflər Gürcüstanın coğrafiyası, inzibati-ərazi quruluşu, diyarlaşdırma və rayonlaşdırma məsələlərini əsərin birinci fəslində tədqiq etmişlər. Qeyd edilmişdir ki, hazırda Gürcüstan 2 muxtar respublika, 9 diyar və 72 rayondan ibarətdir. Muxtar respublikalara Acarıstan və Abxaziya aiddir. Sovet dövründə yaradılmış bu qurumların hüquqi statusunu müasir Gürcüstan Konstitutsiyası müəyyən edir. Keçmiş Cənubi Osetiya isə müasir Gürcüstanın inzibati-ərazi bölgüsündə Şida Kartli diyarına daxil edilmişdir.

Gürcüstanda sovet idarəetmə sistemindən sonra yaradılmış idarəçilik sistemi, prezidentlik, parlament və baş nazirlik təsisatlarının zəifləməsi və güclənməsinin səbəbləri əsərin ikinci fəslində ətraflı araşdırılmışdır. Fəsildə yazılır ki, müstəqilliyin ilk illərində yaradılmış prezidentlik əslində Zviad Qamsaxurdianın əlində rəqiblərinə və vətəndaş cəmiyyətinə yönəlmiş təzyiq

---

/2019/02/27/ilham-liyev-gurcustan-v-az-rbaycan-daim-h-mr-ylik-gost-rir-v-bir-birini-d-st-kl-yir-1153821 [İstifadə tarixi: 01.03.2019]

vasitəsi idi. Əsərdə prezidentlik idarə üsulunun ləğv edilməsi, əvəzinə Dövlət Şurası sədri institutunun yaradılması, Gürcüstanın yeni Konstitusiyasının qəbul edilməsi ilə prezidentlik institutunun yenidən təsis edilməsi, "Qızılgül inqilabı"ndan sonra onun daha da gücləndirilməsi, Gürcü Arzusu Partiyasının hakimiyyətə gəlməsi ilə prezidentlik idarə üsulunun zəifləməsi, prezidentlik səlahiyyətlərinin məhdudlaşdırılması, parlament idarə üsulunun gücləndirilməsi və baş nazirlik institutunun səlahiyyətlərinin genişləndirilməsi tədqiq edilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında yaşayan gürcülər və çoxmillətli Gürcüstanda özlərinin etnik-tarixi torpaqlarında yaşayan azərbaycanlılar iki ölkə arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə demişdir:

*"Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafı üçün çox önəmli rol oynayırlar. Gürcüstan və Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Bu, bizim böyük sərvətimizdir. Ölkələrimizdə yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss edirlər. Bu, ölkələrimizin bugünkü və gələcək inkişafı üçün çox önəmli amildir".*[2]

Müəlliflər Gürcüstanın əhalisinin dinamikasını, milli-etnik tərkibini, millətlərarası münasibətləri araşdırmış və çoxmillətli Gürcüstanın da Azərbaycan kimi tolerant ölkələrdən hesab olunduğu qənaətinə gəlmişlər. Bu barədə Gürcüstan Prezidenti Salome Zurabişvili demişdir:

*"Biz istərdik ki, insani münasibətlər hər iki tərəfdən daha da fəallaşsın. Bu, bizim qərarlardan asılı olacaq. Biz istəyirik ki, Gürcüstanda Azərbaycan mədəniyyət günləri keçirilsin və bu, Batumidə artıq planlaşdırılıb. Biz buna mütəmadi forma verməliyik və*

---

[2] *İlham Əliyev: "Gürcüstan və Azərbaycan daim həmrəylik göstərir və bir-birini*

*müxtəlif sahələrdəki əlaqələrimiz mədəniyyət sahəsində də fəallaşmalıdır. Biz Gürcüstanın tolerantlığını UNESCO-nun qeyrimaddi mədəni irs siyahısına daxil etmək istərdik. Lakin bu, Qafqazda bizim ümumi dəyərimizdir. Biz buna Qafqaz xarakteri verə bilərik və bu, regionumuzdan dünyaya çox mühüm mesaj olacaq. Dünyanın bu dəyərlərə ehtiyacı var".*[3]

Gürcüstanda demoqrafik şərait, əhalinin tarixən məskunlaşması, ermənilərin Qafqaza, o cümlədən Gürcüstan ərazisinə məqsədyönlü şəkildə köçürülməsi, müxtəlif xalqların ölkəyə miqrasiyası və immiqrasiyası, milli-etnik tərkibi, aborigen azərbaycanlıların Gürcüstanın demoqrafiyasında yeri və s. məsələlər əsərin üçüncü fəslində araşdırılmışdır. Fəsildə qeyd edilir ki, Gürcüstandakı azərbaycanlılar bu torpaqlarda tarixən yaşayan və sonralar doğulan azərbaycanlılardır. Onların etnogenezisində oğuzlar, qıpçaqlar, saklar, gögərlər və digər türk tayfaları iştirak etmişlər. Hazırda azərbaycanlılar əsasən Gürcüstanın Borçalı (Aşağı Kartli – Kvemo-Kartli diyarı), Kaxeti və Msxeta-Mtianeti bölgələrində, Acarıstan Muxtar Republikasında, həmçinin Tbilisi, Rustavi şəhərlərində tarixən olduğu kimi yığcam şəkildə yaşayırlar.

Kitabda aparılan tədqiqatların nəticələri ümumiləşdirilmiş və əsaslandırılmış elmi proqnozlar irəli sürülmüşdür.

Əsərin mütəxəssislər, siyasətçilər və geniş oxucu kütləsi üçün faydalı olacağına inanıram.

***Musa Qasımlı,***
*AMEA-nın müxbir üzvü, professor*

---

[3] *İlham Əliyev: "Gürcüstan və Azərbaycan daim həmrəylik göstərir və bir-birini dəstəkləyir".* 27.02.2019, https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2019/02/27/ilham-liyev-gurcustan-v-az-rbaycan-daim-h-mr-ylik-gost-rir-v-bir-birini-d-st-kl-yir-1153821 [İstifadə tarixi: 01.03.2019]

# GİRİŞ

Gürcüstanın Şərqlə Qərb, Şimalla Cənub arasındakı əlverişli ticarət yolları üzərində olması, hələ qədim dövrlərdən etibarən dəniz ticarətinin əsas tranzit xətlərinin keçdiyi Qara dənizin sahilində yerləşməsi onun dünyanın ən qüdrətli dövlətlərinin diqqətini cəlb etməsinə səbəb olmuş, əhəmiyyətli geostrateji mövqeyi ölkənin tarixi coğrafiyasına, inzibati-ərazi quruluşuna da ciddi təsir göstərmişdir.

Üç fəsildən ibarət olan əsərin birinci fəslində müstəqillik illərində Gürcüstanın inzibati-ərazi quruluşunda baş verən dəyişikliklərdən bəhs olunur. Tədqiqatlar sübüt edir ki, ölkənin inzibati-ərazi quruluşunda transformasiya prosesləri əsasən üç mərhələdə həyata keçirilmişdir. SSRİ-nin dağılması və Gürcüstanın müstəqilliyini əldə etməsindən sonrakı birinci mərhələ həm də mərkəzsizləşmə dövrü kimi xarakterizə edilə bilər. İkinci mərhələ 1994-1996-cı illərdə inzibati islahatların həyata keçirilməsi ilə başlamış və 2006-cı ilə qədər davam etmişdir. İctimai-iqtisadi və siyasi şərtlərə uyğun olaraq bu illərdə inzibati baxımdan yenidən mərkəzləşmə siyasəti həyata keçirilmişdir. 2006-cı ildən sonra isə ölkənin inzibati quruluşunda aparılan dəyişikliklər əsasən Avropaya inteqrasiya məsələləri ilə bağlı olmuş, səlahiyyətlərin mərkəzdən regionlara ötürülməsi ilə nəticələnmiş və inzibati idarəçilikdə yerli özünüidarəetmənin rolu xeyli dərəcədə artmışdır.

Kitabın II fəsli Gürcüstanın idarəçilik sisteminin tədqiqinə həsr olunmuşdur. Burada prezidentlik institutunun Gürcüstan xalqı və cəmiyyəti üçün rolu və əhəmiyyəti araşdırılmışdır. Əsərdə Gürcüstanda prezidentlik institutunun quruluşu, inkişaf mər-

hələləri təhlil edilmişdir. Məlum olduğu kimi, SSRİ dağıldıqdan sonra Gürcüstan müstəqilliyini bərpa etdi. Eyni zamanda, prezidentlik institutu yaranmağa başladı. Sovet dövründə Gürcüstanda mövcud olan idarəçilik sistemi müstəqilliyin bərpasından sonra məhv edilmişdi. Buna görə müasir şəraitə uyğun yeni bir idarəetmə sistemi yaratmaq lazım idi. Gürcüstanda prezidentlik institutunun təsis edilməsi dövlət hakimiyyətinin təşkili sisteminin dəyişdirilməsi zərurəti ilə birbaşa əlaqədar olmuşdur. Kitabda Gürcüstanda prezidentlik institutunun yaranmasının ümumi və xüsusi səbəbləri göstərilmiş, tarixi mənşəyi və şərtləri, respublika idarəçiliyinin əsas təsisatı olaraq prezidentlik institutu quruluşunun meydana gəlməsi və səbəbləri müəyyən edilmişdir.

Məlum olduğu kimi, "prezident" termini müasir mərhələdə respublika idarəetmə forması olan əksər ölkələrdə dövlət başçısı kimi istifadə olunur. "Dövlət başçısı ənənəvi olaraq dövlət təsisatlarının və vəzifələrinin ierarxiyasında ən yüksək yeri tutan və ölkənin daxili siyasətində və digər dövlətlərlə münasibətlərdə ali təmsilçi şəxs kimi başa düşülür. Prezident institutunun təşəkkülü prosesini öyrənmədən, konstitusiya quruluşunu, hakimiyyət sistemini dərindən araşdırmaq mümkün deyildir. Dövlət başçısı institutunun xüsusiyyətlərində ölkədəki siyasi rejimin spesifikliyi, siyasi, tarixi inkişafı və siyasi mədəniyyəti əks olunur".[4]

Hər bir dövlətin öz milli-tarixi xüsusiyyətləri və ənənələri hakimiyyətin, o cümlədən prezidentin rolunun da məzmununa və formasına təsir göstərir. Prezidentin səlahiyyətləri, onun öl-

---

[4] Кудряшов К.В. *Генезис, правовая природа и правовая география института президентства в современном мире* // Вестник Ставропольского государственного университета, 2004 г, с 194

kənin siyasi həyatında rolu və statusu əsasən müvafiq konstitusiya normaları ilə müəyyən edilir. Prezidentin konstitusion hüquqi statusu müxtəlif ölkələrdə fərqli cəhətlərə malikdir. Dövlət başçısının funksiyaları və səlahiyyətləri siyasi ənənələrdən, prezident və digər hakimiyyət qolları arasında qüvvələrin qarşılıqlı münasibətindən, siyasi və digər amillərdən asılı olaraq müəyyənləşdirilir.[5]

Ümumiyyətlə, Gürcüstanda prezidentlik institutunun formalaşması prosesini bir neçə mərhələyə ayırmaq olar:

1) "Keçid dövründə" prezident institutunun təşəkkülü;
2) "Qızılgül inqilabı"ndan sonra prezidentlik institutunun gücləndirilməsi;
3) Prezident institutunun zəifləməsi, prezident idarəetmə formasından parlament idarə üsuluna keçid.

Kitabın III fəslinin əsas məqsədi Gürcüstan əhalisini kompleks təhlil etmək, sayını, strukturunu, milli-etnik tərkibini, məkan-zaman dəyişmələrini, ərazi yerləşmələrini araşdırmaq olmuşdur. Məlumdur ki, əhalinin öyrənilməsi prosesində demoqrafiya digər elmlərlə qarşılıqlı əlaqədə qarşıya qoyulan vəzifələri yerinə yetirir. Əhalini təkcə demoqrafiya deyil, coğrafiya, demoqrafik statistika, əməyin iqtisadiyyatı, əhalinin coğrafiyası və etnoqrafiya elmləri də öyrənir. Hər bir elm əhalinin özünəməxsus tərəflərini araşdırır.

Məlum olduğu kimi, demoqrafiya yunanca "demos" xalq və "qrafo" yazmaq sözlərindən olub əhalinin təkrar istehsalının qanunauyğunluqlarını, onun sosial-iqtisadi və təbii şəraitdən asılılığını, miqrasiyasını, sayını, ərazi yerləşməsini, əhalinin

---

[5] *Общая и прикладная политология: Учебное пособие.* Под общей редакцией В.И. Жукова, Б.И. Краснова. Москва: Союз, 1997

milli-etnik tərkibini, baş verən dəyişikliklərin səbəb və nəticələrini öyrənən, onun yaxşılaşmasına dair nəzəri və təcrübi təkliflər irəli sürən elmdir.

Demoqrafik tədqiqatlar hökümətin demoqrafik siyasətinin hazırlanmasına və əmək ehtiyatlarının planlaşdırılmasına xidmət edir.

*"Demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur. Hökümətin demoqrafik siyasətində ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, orta ömür müddətinin uzadılması, miqrasiyanın tənzimlənməsi və s. məsələlər yer tutur. Demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesinə şərait yaradılmasına nail olmaqdır".*[6]

Gürcüstan ərazisində bir-biri ilə qohum olan tayfaların qaynayıb-qarışması prosesi nəticəsində gürcü xalqı formalaşmışdır. Tarixi tədqiqatlar sübüt edir ki, Cənubi Qafqaz azərbaycanlılarla yanaşı, gürcü xalqının da formalaşdığı məkandır. Cənubi Qafqazda əsasən bu iki xalq qədimdən mövcud olduğu halda ermənilər XIX əsrdən bu regiona köçürülmüşlər.

[6] Hüseynov S. *Davamlı insan inkişafının strateji istiqamətləri.* Bakı: Adiloğlu, 2003, s. 147

XX əsrin sonlarında SSRİ-nin dağılması, ölkə xaricində və daxilində baş verən dəyişikliklər Gürcüstanda demoqrafik şəraitə təsir etmişdir.

Gürcüstanın demoqrafik şəraiti tədqiq olunarkən aşağdakı məsələlərin araşdırılması nəzərdə tutulmuşdur:

- Demoqrafik göstəricilərin müqayisəli təhlili;
- Əhalinin demoqrafik strukturunun təsnifatı;
- Əhalinin ölüm və doğum səviyyəsinin təhlili;
- Ailə iqtisadiyyatı, nikah və boşanma məsələlərinin öyrənilməsi;
- Demoqrafik qocalma və miqrasiya proseslərinin tədqiqi.

Gürcüstanda demoqrafik şəraitə bir çox amillər təsir etmişdir:

1. XIX əsrdə Yaxın Şərq ölkələrindən, xüsusilə Osmanlı imperiyası və İrandan Gürcüstana ermənilərin köçürülməsi;
2. kürdlər, yunanlar, rus sektantları və ləzgilərin Gürcüstana köçürülməsi;
3. XX əsrin əvvəllərində Birinci Dünya müharibəsi illərində (1914-1918-ci illərdə) xarici müdaxilə, ilk müstəqillik dövründə Ermənistan-Gürcüstan müharibəsi, sovetləşmə, repressiyalar, deportasiyalar və sürgünlər nəticəsində gürcülərin sayının azalması.
4. İkinci Dünya müharibəsi illərində (1941-1945-ci illər) gürcülərin də böyük itkilər verməsi;
5. XX əsrin 90-cı illərinin başlanğıcında Z.Qamsaxurdianın prezidentliyi illəri iqtisadi vəziyyətin ağırlığı, ultramillətçi qrupların təzyiqləri nəticəsində əhalinin 1,5 milyon nəfərinin ölkədən yaxın və uzaq dövlətlərə mühacirət etməsi.

Nəticədə müasir dövrdə Gürcüstanda demoqrafik şərait yerli və xarici mütəxəssislər tərəfindən "böhran" həddi kimi sə-

ciyyələndirilir. Buraya sosial-iqtisadi vəziyyətin, həyat səviyyəsinin aşağı, ölüm səviyyəsinin doğum səviyyəsindən yüksək olması, bazar iqtisadiyyatı ilə əlaqədar yaranan çətinliklər, ərazi bütövlüyünün pozulması, vətəndaş müharibəsi və digər amillər də mənfi təsir etmişdir.

Cənubi Qafqaz respublikaları içində polietnik dövlətlərdən biridə Gürcüstandır. Gürcüstan ərazisində 30-dan çox xalq və etnik qrup yaşayır. Əsas xalqlar gürcülər, azərbaycanlılar, ermənilər, osetinlər, abxazlar, kürdlər, kistinlər, ruslar, ləzgilər, ukraynalılar və başqalarıdır.[7]

Gürcüstan əhalisinin milli-etnik tərkibində gürcülər və onların subetnik qrupları üstünlük təşkil edirlər. Ölkə əhalisinin 2014-cü ildəki son siyahıyaalınmasının nəticələrinə əsasən gürcülər ümumi əhalinin 86,83 faizini təşkil edirlər. Onların sayı 3,224,564 nəfərdir.[8] Əvvəlki illərin statistik məlumatlarından aydın olur ki, gürcülərin ümumi əhali sayındakı payı daha aşağı olmuşdur. Belə ki, 1926-cı il əhalinin siyahıyaalınmasına əsasən gürcülər 67,06 faiz, 1939-cu il 61,41 faiz, 1959-cu il 64,31 faiz, 1979-cu il 68,75 faiz, 1989-cu ildə isə 70,13 faiz olmuşdur. Gürcüstan müstəqillik qazandıqdan sonra aparılan ilk siyahıyaalınmanın nəticəsində gürcülərin ümumi əhali arasındakı payı 83,75 faiz göstərilmişdir.[9] Gürcülərin sayında kəskin artımın olması heç də inandırıcı deyildir. Bu, bir tərəfdən Gürcüstanın dövlət müstəqilliyinin bərpasından sonra digər xalqların və et-

---

[7] *Georgia Population 2019* http://worldpopulationreview.com/countries/georgia-population/

[8] *CSEM. Ethnic Composition of Georgia 1926 – 2014. Infographics are designed and compiled by the Centre for the studies of ethnicity and multiculturalism* October, 2016

[9] *Yenə orada*

nik qrupların sıxışdırılıb ölkəni tərk etməyə məcbur edilməsi, digər tərəfdən Abxaziya və Cənubi Osetiyada yaşayan əhalinin sayının nəzərə alınmaması ilə əlaqədardır. Səbəblərdən biri kimi gürcü xalqının tərkibindəki etnik qrupların XX əsrin əvvələrində ayrıca etnik qrup kimi qeyd edilməsinə baxmayaraq sonrakı dövrdə onların ayrıca göstərilməməsidir.

Gürcüstanın demoqrafik şəraitinə təsir edən amillərdən biri də dövlət gənclər siyasətidir. Gənclər siyasəti dövlətin ümumi siyasətinin tərkib hissəsidir. Gənclər siyasətinin məqsədi onların potensialını inkişaf etdirməkdən və həyata keçirməkdən ibarətdir. Bu siyasətin səmərəliliyini sosial, hüquqi, təşkilati və psixoloji sahələrdə həyata keçirilən tədbirlər müəyyən edir.

Gürcüstan qanunvericiliyinə əsasən 18 yaşından 26 yaşına qədər olan hər bir vətəndaş gənc hesab olunur. Mövcud şəraitlərini və ehtiyaclarını nəzərə alaraq Gürcüstanda gəncləri yaş həddinə görə 2 qrupa bölmək olar:18 yaşından 22 yaşına, 22 yaşından 26 yaşına qədər olan gənclər.

Gürcüstan qanunvericiliyinə əsasən ölkədə çox sayda qeyrihökumət gənclər təşkilatları fəaliyyət göstərir. Həmin təşkilatların əsas məqsədi gənclərin maraq və mənafelərinin müdafiəsidir. Ölkədə gənclərin inkişafı üçün milli hərəkat planı da hazırlanmışdır.

Artıq müasir şəraitdə Gürcüstanda məqsədyönlü demoqrafik siyasətin həyata keçirilməsinə başlanılmışdır. Məlum olduğu kimi, demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi demoqrafik proseslərdə yaranmış mənfi meyilləri aradan qaldırmaqla ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət-keyfiyyət artımını təmin etməkdən ibarətdir.

Demoqrafiya sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Əhalinin kəmiyyət və keyfiyyətcə normal təkrar istehsalı üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şəraitin yaradılması;
- Ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyat səviyyəsinin yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması;
- Nikah və boşanma proseslərinin bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması;
- İctimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə dair perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin, ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və müdafiəsi, sağlam həyat tərzinin formalaşdırılmasının normalara uyğun tənzimlənməsi.[10]

Bu deyilənlərə Gürcüstanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq işğal edilmiş regionlardan – Abxaziya və Cənubi Osetiyadan köçürülmüş əhalinin ölkə ərazisində məskunlaşmasının yaxşılaşdırılması və demoqrafik potensialının artırılması üçün şəraitin yaradılmasını da əlavə etmək olar.

Gürcüstanın demoqrafiya sahəsində dövlət siyasəti davamlılıq, uzunmüddətlilik, sosial ədalətlilik və komplekslilik prinsiplərinə əsaslanır. Bütün bunları nəzərə alan Gürcüstan dövləti Demoqrafik Təhlükəsizlik Konsepsiyasını qəbul etmişdir. Bundan başqa demoqrafiya ilə əlaqədar müxtəlif fondlar yaradılmışdır (məsələn, Demoqrafik Dirçəliş Fondu və s.).

Gürcüstanda demoqrafik şəraitin öyrənilməsi zamanı orada əhalinin sayı ilə yanaşı, milli-etnik, cins-yaş tərkibi, dili, savadlılıq

[10] Hüseynov S. *Davamlı insan inkişafının strateji istiqamətləri.* Bakı: Adiloğlu, 2003, s. 156

səviyyəsi, urbanizasiya prosesi, əhalinin sıxlığı, ömrün davamlılığı, demoqrafik proqnozlar və s. problemlər də araşdırılmışdır.

Gürcüstanda bədbin demoqrafik proqnozlara görə, gələcəkdə, təxminən 2050-ci illərdə əhalinin sayı 1 milyondan bir qədər çox olacaqdır. Buna görə də Gürcüstan dövləti demoqrafiya siyasəti sahəsində aşağıdakı strateji istiqamətləri müəyyənləşdirmişdir:

- Ölüm səviyyəsinin azaldılması, ömür müddətinin uzadılması;
- Ailələrə sosial yardımların artırılması;
- Sağlam həyat tərzinin yaradılması;
- Ailə planlaşdırılmasının həyata keçirilməsi;
- Məşğulluq sisteminin inkişaf etdirilməsi;
- Miqrasiya proseslərinə nəzarətin gücləndirilməsi;
- Yoxsulluğun azadılması üçün tədbirlərin görülməsi.

Əsərin "Gürcüstanın demoqrafiyası" adlanan III fəslinin "Demoqrafik şəraitə tarixi baxış: köçürmə siyasəti və demoqrafik dəyişikliklər" adlanan birinci yarımfəsli Gürcüstanşünaslıq şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Vahid Ömərov tərəfindən;

"Gürcüstanın inzibati-ərazi quruluşu" adlanan I fəsli Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Elnur Kəlbizadə tərəfindən;

"Gürcüstanın demoqrafiyası" adlanan III fəslin "Əhalinin milli-etnik tərkibi" adlı ikinci yarımfəsli Vahid Ömərov və Qafqazşünaslıq İnstitutunun əməkdaşı Samirə Həbibbəyli tərəfindən;

"Gürcüstanın idarəçilik sistemi" adlanan II fəsli Gürcüstanşünaslıq şöbəsinin elmi işçisi Naziyə Məmmədova tərəfindən;

"Gürcüstanın demoqrafiyası" adlı III fəslin "Gürcüstanda demoqrafik şərait: pronozlar və perspektivlər" adlı üçüncü ya-

rımfəsli Vahid Ömərov və Gürcüstanşünaslıq şöbəsinin mütəxəssisi Kamal Salayev tərəfindən yazılmışdır.

Müəlliflərin Azərbaycan, türk, gürcü, ingilis, rus dillərində olan çoxsaylı elmi ədəbiyyatlardan, dövri mətbuat və elektron informasiya ehtiyatlarından, müasir tarix, siyasətşünaslıq elmlərinin müxtəlif tədqiqat metodlarından istifadə etmələri qarşıda qoyulan tədqiqat vəzifələrinin daha sanballı şəkildə yerinə yetirilməsinə kömək etmişdir.

Gürcüstanşünaslıq sahəsində növbəti tədqiqatlardan olan bu əsərin gələcəkdə Azərbaycan Respublikasında daha faydalı tədqiqatların aparılması üçün yol açacağına, həmçinin problem ilə maraqlanan oxucular üçün maraq doğuracağına ümid edirik. Əsər haqqında xeyirxah qeydlərini söyləyəcək şəxslərə əvvəlcədən təşəkkürümüzü bildiririk.

İstifadə edilmiş bəzi gürcü mənbələrini Azərbaycan dilinə tərcümə etdiyinə görə filologiya üzrə fəlsəfə doktoru Fatma Əliyevaya, kitabın üz qabığını hazırlayan, əsərin "Nəticə" hissə-sini və xülasəsini ingilis dilinə tərcümə edən Qafqaz siyasəti şöbəsinin əməkdaşı Əliyar Əzimova öz minnətdarlığımızı bildiririk.

# I FƏSİL

## GÜRCÜSTANIN İNZİBATİ-ƏRAZİ QURULUŞU

### 1.1. Gürcüstanın tarixi-siyasi coğrafiyası, inzibati-ərazi quruluşunun əsas prinsip və xüsusiyyətləri

Ön Qafqaz regionunda yerləşən Gürcüstan şimaldan Rusiya Federasiyası, şərqdən və cənub-şərqdən Azərbaycan Respublikası, cənubdan Ermənistan, cənub-qərbdən isə Türkiyə Cümhuriyyəti ilə həmsərhəddir. Ölkənin qərb sərhədlərində Qara dəniz yerləşir. Gürcüstanın paytaxtı Tbilisi, böyük şəhərləri Kutaisi, Batumi, Rustavi və Suxumidir. Ölkənin ərazisi 69,700 $km^2$, əhalisi isə rəsmi məlumata görə, təxminən 3,7 milyon nəfərdir.[11]

Gürcüstan ərazisinin böyük hissəsi dağlıqdır. Ölkənin şimalında Böyük Qafqaz, cənubunda Kiçik Qafqaz dağlarının silsilələri yerləşir. Böyük və Kiçik Qafqaz sıra dağlarının silsilələri arasında Kolxida düzənliyi və Kartli vadisi, şərqdə isə Alazan (Qanıx) vadisi yerləşir.

Gürcüstan ərazisinin şimal hissəsində – Böyük Qafqazın dağ silsilələri yerləşən Şaxara (5068 m.) və Kazbek (5033 m.)

---

[11] მოსახლეობის რიცხოვნობა 2018 წლის 1 იანვრის მდგომარეობით. სტატისტიკის ეროვნული სამსახური. www.geostat.ge/cms/site_images/_-files/georgian/population/Population%20press_30%2004%20Geo_1.pdf [İstifadə tarixi: 30.04.2018]

Gürcüstanın ən hündür zirvələri sayılır. Ölkənin yüksək dağlıq zonaları üçün buzlaqlar xarakterikdir. Ölkə ərazisindəki buzlaqların sayı 600-dən çoxdur. Hesablamalar göstərir ki, buzlaqlar ölkə ərazisinin 520 $km^2$-ni əhatə edir. Ölkənin dağlıq və nisbətən əlverişsiz bölgələrindən hesab edilən Svaneti ən iri buzlaqların olduğu regiondur. Gürcüstanın cənub hissəsində isə Kiçik Qafqaz silsiləsi uzanır. Ölkənin cənub-qərbində yerləşən vulkanik dağlığı ərazidən axan çaylarla birlikdə maraqlı bir mənzərə - dərin kanyonlar əmələ gətirir. Gürcüstanın qərb hissəsi isə əsasən ovalıqlardan ibarətdir. Böyük və Kiçik Qafqaz dağları arasında Kolxida ovalığı, şərqində İberiya çökəkliyi yerləşir. Beləliklə, ölkənin təbii relyef quruluşu onu üç bölgəyə ayırır:

1) ölkənin şimalında yerləşən və Böyük Qafqaz sıra dağlarının yerləşdiyi bölgə;
2) əsasən cənub regionlarını əhatə edən Acara-İmereti, Trialeti, Borjomi-Bakuriani və Axalsıx dağlarının yerləşdiyi Kiçik Qafqaz silsilələrinin yerləşdiyi bölgə;
3) Böyük və Kiçik Qafqaz dağları arasında yerləşən ovalıq və düzənliklərin yer aldığı Engebeli bölgəsi.

Gürcüstan zəngin bitki və heyvanat aləmi, rəngarəng iqlimi və relyefi ilə fərqlənir, iqlimi coğrafi bölgələr üzrə dəyişkəndir. Əsasən subtropik və rütubətli mülayim iqlim muşahidə edilir. Ölkə ərazisində rütubətli Aralıq dənizi iqlim tipi ilə yanaşı arid kontinental iqlim tipləri də yayılmışdır. Subtropik iqlim əsasən ölkənin qərb regionlarında hakimdir. Gürcüstanın şərqindən qərbinə doğru hərəkət etdikcə iqlim subtropikdən mülayimə keçir. Qafqaz dağlarının soyuq şimal küləklərinin və ölkənin Qara dənizdən gələn rütubətli, isti hava axınının təsiri altında qalması iqlimin yumşaq və yağışlı olmasına imkan yaradır. Qara dənizə

yaxın Kolxida ovalığında isə subtropik iqlim özünü göstərir. Əsasən payız və qış aylarında yağan yağışlar qərbdən şərqə doğru getdikcə azalır. Kolxida ovalığında ildə orta hesabla 1600-2000 mm olan yağışın miqdarı Kartli və Kaxeti yaylalarında 508 mm-ə qədər azalır. Yay və qış arasındakı istilik fərqi qərbdə çox dəyişkən, quru iqlimin hökm sürdüyü şərqdə isə daha çoxdur.[12]

Ölkənin su ehtiyatlarına gəlincə qeyd etmək lazımdır ki, Cənubi Qafqazın digər böyük ölkəsi olan Azərbaycana nisbətən Gürcüstan şirin su ehtiyatları ilə daha yaxşı təmin olunmuşdur. Lakin şirin suyun əsas mənbələri sayılan çay sistemləri ölkənin bütün ərazisi üzrə eyni dərəcədə inkişaf etməmiş və paylanmamışdır. Qeyd etmək lazımdır ki, Gürcüstan ərazisindən axan çayların 75 faizi Qara dəniz hövzəsinə, qalan 25 faizi isə Kür-Xəzər hövzəsinə aiddir. Ölkənin ən iri çayları Kür, Rioni, İnquri hesab edilir. Qara dəniz hövzəsinə daxil olan Bzibi, Kodori, İnquri, Sxeniskali və Rioni çayları əsasən Böyük Qafqaz dağlarının buzlaqlarından qidalanırlar. Mənbəyi Türkiyədən başlayan Çoruk çayı Batumi yaxınlarında Qara dənizə, Kür isə Azərbaycan ərazisindən keçməklə Xəzər dənizinə tökülür. Kürün qolları olan Liaxvi, Çama, Tana, Tedzami, Araqvi, İori və Alazan əkin sahələrinin suvarılmasında əhəmiyyətli yer tutur.

Şirin su ehtiyatlarının digər mənbəyi olan göllər isə ölkə ərazisində elə də çox deyildir. Göllərin çoxu Samtsxe-Cavaxeti regionunun payına düşür və bu regionun orta dağlıq ərazisində yerləşir. Bunların içərisində ən böyük olanı Paravani (Pərvanə) gölüdür. Bundan əlavə Paliastomi, Risa və Aletxeli gölləri də ölkənin böyük gölləri sırasına daxildir. Cavaxeti vulkanik yaylasında olan irili-

---

[12] *Климат Грузии.* www.world-globe.ru/countries/georgia/climate/ [İstifadə tarixi: 3.02.2018]

xırdalı bir neçə göl yağış və yeraltı su mənbələrindən qidalanır. Bu göllər farel (qızıl balıq) və sazan balıqları ilə zəngindir.

Gürcüstan ərazisi həmçinin zəngin bitki örtüyü ilə də fərqlənir. Xüsusən ölkə ərazisində meşə əraziləri çoxluq təşkil edir və demək olar ki, müasir Gürcüstan ərazisinin üçdə bir hissəsini örtür. Bol yağışlar Kolxida ovalığında subtropik bitki örtüyünün və bambuk, evkalipt, palma kimi ağacların da yetişməsinə şərait yaradır. Qara dənizə yaxın bölgələrdə 1000-1200 metrə qədər gürgən və 2000 metrə qədər şam ağaclarından yaranan meşələr üstünlük təşkil edir. Torpaqlarının üçdə biri meşələrlə örtülü olan ölkədə şam, ladin, şabalıd, ağcaqayın, küknar, dişbudaq və cökə boldur.

Gürcüstanın 2800-3500 metr yüksəklikdə yerləşən ərazilərində alp çəmənlikləri yayılmışdır ki, bu da kənd təsərrüfatının və xüsusən xırdabuynuzlu heyvandarlığın inkişafı üçün mühüm əhəmiyyətə malikdir.

Ölkənin fauna və florasının qorunması üçün bir sıra qoruqlar yaradılmışdır. Gürcüstanda hələ 1912-ci ildə Laqodexidə qoruq yaradılmışdır. Hazırda ölkə ərazisində 14 dövlət qoruğu, 8 milli park, 12 qorunan ərazi, 14 təbii abidə və 2 qorunan landşaft mövcuddur. Ümumilikdə bunlar Gürcüstan ərazisinin 7 faizini təşkil edir (386684 hektar). Ölkədə 75 faizə yaxın xüsusi qorunan meşələr vardır.[13]

Gürcüstan ərazisi təbii cəhətdən zəngin olduğu kimi, təbii ehtiyatlar baxımdan da seçilir. Doğrudur, Gürcüstanın karbohidrogen ehtiyatları yalnız çox da böyük olmayan neft yataqları ilə məhdudlaşır. Əvəzində Çiaturada marqans, Tkibulidə daş kömür yataqları vardır. Müasir Gürcüstanda dövlətin siyasətinin

---

[13] *Заповедники в Грузии.* 03.06.2016, www. mygeotrip. com/ru/заповедники-в-грузии [İstifadə tarixi: 22.02.2018]

əsas istiqamətlərindən biri turizmin inkişafıdır. Ölkənin ərazisindəki termal və mineral su mənbələri hələ sovet dövründən bu sahənin inkişafına imkan verirdi. Bu gün isə Borjomi və Sxoltubo başda olmaqla Gürcüstan ərazisində 50-dən artıq kurort turizm bölgələri vardır. Ölkənin Qara dəniz sahili hissəsinin də zəngin turizm imkanları vardır. Gürcüstan bu sahədən çox böyük gəlir əldə edir.

Tarixi coğrafiyasına nəzər saldıqda aydın olur ki, Gürcüstan ərazisində qədim Kolxida, İberiya, Kartli, Laz, Abxaz çarlıqları mövcud olmuşdur. Gürcüstan Makedoniyalı İsgəndərin, Roma və Sasani imperiyalarının, Ərəb xilafətinin tərkibinə daxil olmuşdur. Fərqli sivilizasiyalarla əlaqələr, etno-konfessional cəhətdən dəyişkən bir regionda yerləşməsi nəticəsində hələ orta əsrlərdən etibarən Gürcüstanda mitraizm, zərdüştlük, xristianlıq, iudaizm və islam dinləri geniş yayılmışdır. Kartlinin paytaxtı VI əsrdən Tiflis (şəhər 1936-cı ilə qədər "Tiflis", sonra isə "Tbilisi" adlandırılmışdır) şəhəri olmuşdur. X əsrdə Kartli (Gürcüstan) anlayışı meydana gəlmişdir. XI-XII əsrlərdə feodal Gürcüstanı siyasi, iqtisadi, mədəni cəhətdən inkişaf etmişdir. Uzun zaman ərzində müsəlman əmirlərin, Səlcuq dövlətinin yaranmasından sonra isə türklərin nəzarətində olan Tiflis şəhərini IV Qurucu David qıpçaqların köməyi ilə ələ keçirərək yenidən paytaxta çevirmişdir. Qurucu Davidin varisləri I Demetre, V David, III Georgi ölkəni daha da inkişaf etdirmişlər. IV Davidin nəticəsi çariça Tamaranın hakimiyyət illəri Gürcüstanın "qızıl əsri" olmuşdur. XII əsrdə Gürcüstan monqollar, XIV-XV əsrlərdə isə Əmir Teymur tərəfindən işğal olunmuşdur.

XVI əsrdə Gürcüstan Səfəvi və Osmanlı dövlətlərinin mübarizə meydanına çevrilmişdir. 1555-ci ildə Osmanlı və Azərbaycan

Səfəvi dövlətləri arasında bağlanmış sülh müqaviləsinə əsasən Cənubi Qafqaz nüfuz dairələrinə bölündü. Müqaviləyə əsasən İmereti Osmanlı dövlətinin, Kartli-Kaxeti isə Azərbaycan Səfəvi dövlətinin nəzarətinə keçdi. Gürcüstanın Səfəvilərin tərkibinə daxil olduğu dövr burada xeyli dərəcədə quruculuq işləri ilə yadda qalan olmuşdur. Azərbaycan Səfəvi imperiyası hökmdarlarının bir çoxunun xanımlarının məhz gürcü əsilzadələrinin övladlarından olması bu ölkəyə xüsusi diqqət yetirilməsinə səbəb olmuşdur.[14]

XVII əsrdə bütün ölkə miqyasında baş verən iqtisadi tənəzzül prosesləri, eləcə də xarici müdaxilənin güclənməsi Gürcüstana da təsirsiz ötüşməmiş, baş verən müharibələr və iqtisadi əlaqələrin xeyli dərəcədə zəifləməsi nəticəsində XVII əsrdə Gürcüstan hədsiz dərəcədə yoxsullaşmışdır. XVIII əsrdən etibarən gürcü hakimləri çar Rusiyasına yaxınlaşmağa başlamışlar.

Gürcüstan və Rusiya arasında 1783-cü ildə bağlanmış Georgiyevsk müqaviləsinə əsasən Kartli-Kaxeti çarlığı üzərində Rusiyanın protektoratlığı bərqərar olmuşdur.[15] 1795-ci ildə keçmiş Səfəvilər imperiyasının sərhədlərində dövlət nəzarətini bərpa etməyə çalışan Ağa Məhəmməd şah Qacar Tiflisə hücum etmişdir. İqtisadi və siyasi cəhətdən xeyli zəifləmiş olan Qacara qarşı gürcülərin çar Rusiyası ilə anlaşması şahın qəzəbinə səbəb olmuş, bu səbəbdən də o, Tiflis şəhərini darmadağın etmişdir.

1798-ci ilin yanvarında XII Georgi Rusiya imperatoru I Paveldən Gürcüstanı-Kartli-Kaxetini Rusiyanın tərkibinə daxil et-

---

[14] Кальбизаде Э. *Диларам-султан. Грузинка при сефевидском дворе* // «Каспий» № 85 (981), 12 мая 2018, с. 18.

[15] Вачнадзе М., Гурули В., Бахтадзе М. *История Грузии (с древнейших времен до наших дней)* www.ereading.club/bookreader.php/4682/Bahtadze%2C_Vachnadze%2C_Guruli__Istoriya_Gruzii_%28s_drevneiishih_vremen_do_nashih_dneii%29.html [İstifadə tarixi: 1.06.2018]

məyi xahiş etmişdir. 1802-ci il mayın 8-də yeni idarəetmə – “Gürcüstanın ali hökuməti” yaradılmışdır. 1803-cü ildən etibarən general Pavel Sisianov (Sisişvili) Tiflisdə yeni idarəçiliyi həyata keçirməyə başlamışdır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Gürcüstanda milli-azadlıq hərəkatı güclənmiş, 1918-ci ildə Gürcüstan Demokratik Respublikası yaradılmışdır.

1921-ci ilin fevralında XI Qırmızı Ordu hissələri Gürcüstanı işğal edərək onu sovetləşdirdi. 1922-1924-cü illərdə ölkədə sovet hökumətinə qarşı antisovet üsyanlar baş vermişdir.

II Dünya müharibəsi zamanı SSRİ respublikalarından biri kimi Gürcüstan SSR də müharibədə fəal iştirak etmişdir. Müharibə zamanı bir neçə milli gürcü diviziyası təşkil olunmuş və onlar alman qoşunları ilə döyüşmüşlər. Müharibədən sonrakı dövrdə həm iqtisadi, həm də gizli ideoloji proseslərin təsiri nəticəsində Gürcüstanda 1956-cı ildə hökümətə qarşı kütləvi çıxışlar baş vermişdir. 1972-ci ildə Eduard Şevardnadzenin Gürcüstan KP MK-nın birinci katibi seçilməsi Gürcüstanın siyasi və iqtisadi həyatında yeni mərhələnin başlanğıcı oldu. 1985-ci ildə E.Şevardnadze SSRİ rəhbərliyinə irəli çəkildiyinə – SSRİ Xarici İşlər naziri vəzifəsinə təyin edildiyinə görə onu C.Patiaşvili əvəz etdi.

Gürcüstanda 1989-cu ildə SSRİ tərkibindən çıxmaq uğrunda mübarizə başladı. 1991-ci ilin martında Gürcüstan hakimiyyəti SSRİ-nin gələcəyi haqqında referendumun keçirilməsindən imtina etmiş, bunun əvəzində həmin ilin mart ayının 31-də Gürcüstanın müstəqilliyinə dair referendum keçirilmişdi. Referendumda iştirak edən 95 faiz seçicidən 93 faizi Gürcüstanın dövlət müstəqilliyinə səs vermişdi. Referendum nəticəsində 1991-ci il aprelin 9-da Gürcüstanın Ali Soveti Müstəqilliyin bərpası haqqında aktı təsdiqlədi. “Dəyirmi Masa - Azad Gürcüstan” millətçi

blokundan olan və milli-azadlıq hərəkatının genişləndiyi bir dövrdə hərəkatda fəal iştirak etmiş Zviad Qamsaxurdia Ali Sovetin sədri seçildi.[16] 1991-ci il aprelin 14-də Ali Sovetin fövqəladə iclası zamanı Zviad Qamsaxurdia Gürcüstanın birinci prezidenti elan edildi. Mayın 26-da ilk prezident seçkilərində Zviad Qamsaxurdia seçicilərin 87 faizinin səsini toplamaqla qələbə qazandı. O, prezident kimi 5 il müddətinə heç bir maneə olmadan vəzifələrini icra etmək üçün seçilmişdi. Zviad Qamsaxurdianın millətçilik siyasəti nəticəsində xeyli sayda digər millətlərdən olan əhali ölkəni tərk etməli olmuşdu. Gürcü dilini mükəmməl bilmək yeni qurulmuş və təşkil edilmiş dövlət strukturlarında ən ilkin tələblərdən biri olduğundan bu gürcü dilini zəif bilən digər xalqlar üçün maneələr yaratmışdı. Zviad Qamsaxurdia tərəfindən irəli sürülən "Gürcüstan gürcülər üçündür" şüarı nəinki Gürcüstanda yaşayan digər millətlərin ona qarşı çıxmasına, hətta gürcülərin özlərinin belə narazılığına səbəb olmuş, ölkədə separatizmin güclənməsinə rəvac vermişdir.

Bunun kimi bir sıra səbəblər və ilk prezidentin yalnış addımları onun keçmiş tərəfdarlarının müxalifətə keçməsinə səbəb olmuşdu. Məsələn, Baş Nazir Tengiz Siqua, Milli Qvardiyaya rəhbərlik edən Tengiz Kitovani dövlət başçısı Zviad Qamsaxurdianın istefasını tələb etməyə başlamışdılar.[17] Genişlənən etiraz dalğası tezliklə 1991-ci ilin dekabrı – 1992-ci ilin yanvarında hərbi çevrilişlə nəticələnən vətəndaş müharibəsinə gətirib çıxartmış və Gürcüstanın ilk prezidenti Zviad Qamsaxurdia devrilmişdi.

---

[16] *Первому президенту Грузии исполнилось бы 78 лет.* 31.03.2017, www.sputnik- georgia.ru/society/20170331/235426496/Pervomu-prezidentu-Gruzii-ispolnilos-by-78let.html [İstifadə tarixi: 5.06.2018]

[17] *1991 წლის 22 დეკემბერს თბილისის ომი დაიწყო.* 22.12.2017, www.tabula.ge/ge/story/127954-1991-tslis-22-dekembers-tbilisis-omi-daitsko [İstifadə tarixi: 19.08.2018]

1992-ci ilin martında Hərbi Şura özünü buraxmaq haqqında qərar qəbul etmiş və 36-sı müxalif partiyadan olmaqla 70 nümayəndədən ibarət Dövlət Şurası yaradılmışdı. Dövlət Şurasının sədri E.Şevardnadze təyin edilmişdi. 1992-ci ilin oktyabr ayında yeni parlamentin təşkili üçün seçkilər keçirilmişdir. 235 yerlik parlamentdə 26 partiya təmsil olunmuşdur ki, onlar da 11 fraksiyada birləşmişdirlər. E.Şevardnadze seçicilərin 96 faiz səsini toplamaqla parlamentin sədri seçilmişdir. Parlamentə əksər səlahiyyətlər həvalə olunsa da, o, hakimiyyəti dəyişdirə bilməz (2/3 səs çoxluğu ilə) və yeni seçkilərin keçirilməsinə dair qərar verə bilməzdi.

Yeni hakimiyyət milli siyasət sahəsində xeyli dəyişiklik etdi. İnzibati islahatlar həyata keçirildi. 1995-ci ilin oktyabr ayında Gürcüstan demokratik respublika elan edildi. Eduard Şevardnadze Gürcüstanın ikinci prezidenti oldu. O, 1995-ci ildən 2003-cü ilə qədər dövlətə rəhbərlik etdi.[18]

Gürcüstanda 2003-cü ildə növbəti parlament seçkiləri keçirildi. Həmin dövrün rəsmi məlumatlarına görə, parlamentə E.Şevardnadzenin, A.Abaşidzenin və M.Saakaşvili-Z.Jvanianın bloku daxil oldu. Lakin seçkinin nəticələri müxalif liderlərindən-Mixeil Saakaşvili, Zurab Jvania və Nino Burcanadzeni razı salmadı. Buna görə də onlar Qərb ölkələrinin, bir sıra beynəlxalq və qeyri-hökumət təşkilatlarının yardımı ilə kütləvi etiraz aksiyaları keçirməyə başladılar.[19] Ölkədə "Qızılgül inqilabı" baş verdi. Baş verən inqilabdan sonra ölkənin tarixi coğrafiyasında baş verən de-fakto dəyişikliklər və inzibati-ərazi quruluşu ilə bağlı

---

[18] *Шеварднадзе и его роль в судьбе советской страны.* 25.01.2018, www.topwar.ru/134473-shevardnadze-i-ego-rol-v-sudbe-sovetskoy-strany.html [İstifadə tarixi: 2.04.2018]

[19] *«Революция роз» и приход к власти М. Саакашвили.* 11.07.2016, www.hyno.ru/tom1/589.html [İstifadə tarixi: 9.04.2018]

islahatlar nəzərə alınarsa "Qızılgül inqilabı"nın gerçək mahiyyətinin aydınlaşdırılması böyük əhəmiyyət kəsb edir.

2003-cü ildə Gürcüstanda başlayan "Qızılgül inqilabı"nın mahiyyətinə nəzər salarkən başlıca diqqət yetirilməli olan amillər inqilabı doğuran səbəblərin onun başlaması üçün bəhanələrdən fərqləndirilməsindən, proseslərin başlamasında fəal rol oynamış xarici və daxili amillərin müəyyənləşdirilməsindən, "Qızılgül inqilabı"nın iştirakçısı olan daxili siyasi qüvvələrin məqsədlərinin, mövqelərinin və prosesə yanaşmalarının aydınlaşdırılmasından, "Qızılgül inqilabı"nın Gürcüstan üçün nəticələrinin öyrənilməsindən ibarətdir.

"Qızılgül inqilabı"nı doğuran daxili səbəblər hadisələrin başlamasından çox-çox əvvəl meydana çıxmış, bəzi səbəblər isə SSRİ-nin mirası kimi müstəqil Gürcüstana ötürülmüşdü. Proseslərin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, Gürcüstanda "Qızılgül inqilabı"na gətirib çıxaran üç başlıca səbəb olmuşdur:

1) Ağır sosial-iqtisadi vəziyyət;

2) Korrupsiyalaşmış rejim və kriminallaşma;

3) Separatizm probleminin həll edilməməsi.

"Qızılgül inqilabı"nın başlaması ərəfəsində dəyişikliklər üçün ən mühüm amil olan ağır sosial-iqtisadi vəziyyət dözülməz həddə idi. Hələ 2000-ci ildən etibarən ölkənin iqtisadi idarəçiliyində problemlər açıq-aşkar ortaya çıxmışdı. 1998-ci ildən etibarən faktiki büdcə gəlirləri ilə proqnozlaşdırılan gəlirlər arasında ciddi fərq müşahidə edilməyə başlamışdı. Büdcədə yaranan bu çatışmazlıqları gizlətmək üçün hökumət keçmiş sovet taktikasından istifadə etməyə başlamışdı. Vladimer Papava "Gürcüstanda "Qızılgül inqilabı"nın siyasi iqtisadiyyatı" adlı əsərində bu məsələyə toxunaraq göstərir ki, məhz bu zamandan

etibarən hökumət büdcə çatışmazlığını maskalamaq üçün aldadıcı mühasibat taktikasından istifadə etməyə başlamışdır.[20] Gürcüstanın getdikcə maliyyə davamlılığının azaldığını və kreditləri ödəmə gücündə olmadığını görən Beynəlxalq Valyuta Fondu (BVF) iqtisadi səbəbləri və tövsiyələri yerinə yetirmədiyini bəhanə edərək Gürcüstanın kreditləşməsini dayandırmışdı.[21] Pərdəarxası məqamda isə BVF-nin Gürcüstana qarşı belə münasibəti daha çox ölkəni inqilaba hazırlayan xarici texnoloqların planları ilə bağlı olmuşdur. 1998-ci ildə o zamana qədər Gürcüstanın əsas iqtisadi tərəfdaşlarından biri olan Rusiyada iqtisadi böhranın baş verməsi bu ölkədən Gürcüstana gələn maliyyə axınını da xeyli dərəcədə məhdudlaşdırmışdı. Bu isə ölkənin onsuz da SSRİ-nin dağılmasından sonra məhdudlaşmış iqtisadi əlaqələrini daha da zəiflətmişdi. Gürcüstan hökuməti maaşların, müavinət və təqaüdlərin ödənilməsində çətinliklərlə qarşılaşmış və 2003-cü ildə narazılıqlar yüksək həddə çatmışdı. Dövlət müəssisələrində, Gürcüstanın milli şirkətlərində işləyən əhali qrupları iqtisadi məhrumiyyətlərlə üzləşərkən, Gürcüstanı inqilaba hazırlamaqda maraqlı olan xarici fondlar ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına və hökumətə xeyli dərəcədə müxalif mövqedə dayanan media qurumlarına maliyyə dəstəyini artırmışdı. Bu isə əhali arasında Qərb demokratiyasına meyli gücləndirmişdi.

E.Şevardnadze hakimiyyətinə qarşı qəzəbi artıran ən mühüm məsələlərdən biridə korrupsiyalaşma və onun məntiqi nəticəsi olan kriminallaşma idi. Gürcüstanda korrupsiya təfəkkürü

---

[20] Papava V., *The Political Economy of Georgia's Rose Revolution.* // Orbis. Vol. 50, Issue 4, Autumn 2006, pp. 657-667

[21] Welt C. *Georgia: causes of the Rose Revolution and lessons for democracy assistance.* USAID, 2005, p. 9

əsasən keçmiş SSRİ-dən qalma miras idi. Lakin iqtisadi vəziyyətin getdikcə pisləşməsi bu məsələni daha pis həddə doğru sürükləyirdi. Bu məsələyə toxunan "Gürcüstan milli oyanışdan "Qızılgül inqilabı"na: keçmiş Sovet İttifaqında gecikmiş dəyişiklik" kitabının müəllifi Conatan Vitli maraqlı bir müqayisə aparmaqla korrupsiyalaşmanın həddini ortaya qoyur. Müəllif yazır ki, 1998-ci ildə Gürcüstanda dövlət nazirinin rəsmi əmək haqqı 150 lari, başqa sözlə desək, təxminən 75 ABŞ dolları idi. Nəticədə Gürcüstandakı aşağı gəlirli dövlət məmurları alternativ gəlir mənbələri axtarırdılar.[22]

Hökumət strukturlarının xeyli dərəcədə korrupsiyaya qurşanması, bu amildən istifadə edən kriminal qrupların ölkə ərazisində geniş qol-qanad açması "Qızılgül inqilabı" ərəfəsindəki Gürcüstanın əsas reallıqlarından biri idi. Təsadüfi deyildir ki, "Qızılgül inqilabı"nın lideri olan M.Saakaşvilinin E.Şevardnadze hakimiyyətinə qarşı əsas silahlarından biri bu amilin qabardılması idi. Sonralar M.Saakaşvilinin 10 illik hakimiyyətinin sonuna yaxın BBC-nin Rusiya xidmətinin əməkdaşı Nina Axmeteli "Gürcülər Saakaşvilini necə xatırlayacaq?" məqaləsində yazırdı:

*"Saakaşvilinin Vahid Milli Hərəkatı və keçmiş prezidentə rəğbət bəsləyən ekspertlər qeyd edirlər ki, eks-prezident özündən sonra təkcə yeni yolları və işıqlı küçələri qoyub getmir. Onlara görə, Saakaşvilinin əsas mübarizəsi "oğrubaşçıları"na və korrupsiyaya qarşı olmuşdur. Saakaşvilinin özü bir vaxtlar demişdi ki, Gürcüstan Rusiyaya şərab deyil, "oğrubaşçıları" və kriminal ünsürlər ixrac etmişdir. Cinayətkarlıqla mübarizədə Saakaşvili hö-*

---

[22] Jonathan W., *Georgia from National Awakening to Rose Revolution: Delayed Transition in the Former Soviet Union.* Post-Soviet Politics. Burlington:Vt. Ashgate 2005, p. 85

*kumətinin siyasəti birmənalı olmamışdır. Kriminallara qarşı tam dözumsüzlük siyasəti həbsxanaların dolması ilə nəticələnmişdi".*[23]

"Qızılgül inqilabı"nı doğuran üçüncü ən mühüm səbəb isə hələ XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən mövcud olan Abxaziya və Cənubi Osetiya problemlərini E.Şevardnadze hakimiyyətinin də həll edə bilməməsi idi. Aslan Abaşidzenin rəhbərlik etdiyi Acarıstan isə Gürcüstana mənsub olan muxtar respublikadan daha çox, Gürcüstanla konfederativ əsasda birləşmiş müstəqil dövlət kimi fəaliyyət göstərirdi. Ümumiyyətlə, müasir Gürcüstanın ən ağrılı problemləri olan Abxaziya və Cənubi Osetiya problemlərinin həlli istiqamətində göstərilən cəhdlər E.Şevardnadzedən sonra "Qızılgül inqilabı" nəticəsində hakimiyyətə gələn M.Saakaşvilinin hakimiyyətinin və nüfuzunun zəifləməsində də xeyli dərəcədə rol oynamışdır.

Gürcüstanda "Qızılgül inqilabı"nın baş verməsi daxili səbəblərlə yanaşı, xarici amillərlə də bağlı olmuşdur. Bu baxımdan üç amili xüsusi olaraq fərqləndirmək mümkündür:

- Qərbin və transmilli güclərin Rusiya sərhədlərinə yaxınlaşmaq istəyi;
- rəngli inqilabla ələbaxımlı demokratiya qurmaq məsələsi;
- karbohidrogen ehtiyatlarının əlverişli tranziti üçün Rusiyanın nəzarətində olmayan zolağın qurulması və buna paralel olaraq Azərbaycan və Orta Asiya dövlətlərinin alternativ tranzit yoluna nəzarət etməklə onların diqtə altında saxlanılması.

---

[23] Axmeteli N. *Gürcülər Saakaşvilini necə xatırlayacaq?* 29.10.2013 www.bbc.com/azeri/region/2013/10/ 131029 _saakashvili_heritage_top10. [İstifadə tarixi: 31.05.2018]

İnqilabın baş tutmasında xüsusən ikinci amil əsaslı rol oynadı. Xarici güclər 2000-2003-cü illər arasında Gürcüstandakı E.Şevardnadze rejiminə dəstəklərini xeyli dərəcədə azaltdılar.[24] Bunu dünyanın bir çox ölkəsində demokratikləşmə prosesi adı altında inqilablara və çevrilişlərə sponsorluq edən Corc Sorosun, Amerika Birləşmiş Ştatlarının Gürcüstandakı səfiri Riçard Milzin, Buş adminstrasiyasının və onun müttəfiqlərinin demokratiya çağırışlarından da hiss etmək olardı.

Gürcüstanın maliyyə-iqtisadi vəziyyətinin pisləşməsi fonunda xarici fondlar ölkədəki qeyri-hökumət təşkilatlarına və müxalif siyasi partiyalara maliyyə yardımlarını artırırdılar. Seçkilər ərəfəsində ATƏT-in prosesləri daha yaxından izləməsi üçün ABŞ və Avropanın maliyyə yardımları artdı, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi – USAİD Gürcüstanda seçki sisteminin modernləşdirilməsi üçün 1,5 milyon dollar vəsait ayırmışdı. Corc Sorosun nəzarətində olan Açıq Cəmiyyət İnstitutu "Qızılgül inqilabı"nın gələcək qəhrəmanı M.Saakaşviliyə və müxalif təşkilatlar şəbəkəsinə ciddi yardımlar göstərirdilər. Serbiyada həyata keçirilmiş "Slobodan Miloşeviç çevrilişi"ndə tətbiq edilmiş taktika və vasitələri mənimsəmələri üçün xeyli sayda gürcüstanlı gənc və fəal Açıq Cəmiyyət İnstitutunun vəsaiti hesabına Serbiyaya göndərilmişdi.[25]

2003-cü ildə Gürcüstanda baş verən prosesləri təhlil edən akademik Ramiz Mehdiyev "Demokratiya yolunda: irs haqqında düşünərkən" adlı kitabının "Qlobal transformasiyaların rəngləri qamması" bölümündə bu məsələ barədə yazır:

---

[24] Valerie B., Wolchik S. *Defeating Authoritarian Leaders in Postcommunist Countries.* New-York: Cambridge University Press, 2011, p. 155

[25] Charles F. *Georgia's Rose Revolution* // Journal of Democracy. Volume 15, İssue 02.04.2004, p.113

*"...Tbilisidə hakimiyyətin dəyişməsi Miloşeviçin istefasından sonra, əslində, eyni siyasi texnoloji ehtiyatlardan və maliyyələşdirmə yollarından istifadə edilən ilk aksiya idi".*[26]

"Qızılgül inqilabı"nın ruporu rolunda çıxış edən müxaliflərin əsas kürsüsü Rustavi-2 telekanalına USAİD və Avrasiya Fondunun göstərdiyi dəstək də Qərbdəki düşüncə, güc və maliyyə mərkəzlərinin prosesin reallaşmasında nə dərəcədə maraqlı olduğunu açıq-aşkar ortaya qoyurdu. Demokratiyanı Müdafiə Fondunun rəsmi internet saytı "Qızılgül inqilabı" başa çatdıqdan sonra belə yazmışdı:

*"Soros Şevardnadzenin devrilməsi üçün 42 milyon dollar vəsait sərf etmişdir".*[27]

İnqilabın başlaması üçün bəhanə 2003-cü il noyabr ayının 2-də Gürcüstanda keçirilən parlament seçkilərində saxtakarlığa yol verilməsi ilə bağlı iddialar oldu. Bəs həqiqətən də belə bir saxtakarlıq olmuşdumu? Gürcüstanın postsovet respublikası olmasını, SSRİ-dən qalma "seçki ənənələri"nin hələlik unudulmamasını və baş verən ağrılı proseslər ucbatından Gürcüstanda demokratiyanın tam bərqərar olmadığını nəzərə alsaq seçkilərdə pozuntuların baş verdiyini istisna etmək olmaz.

"Qızılgül inqilabı"nın səbəblərini, xarici amilləri və inqilabın baş verməsi üçün bəhanəni aydınlaşdırdıqdan sonra prosesdə iştirak edən siyasi aktorların – gürcü siyasi partiya və hərəkatlarının baxışları, yeri və rolu aydınlaşdırılmalıdır. İnqilab ərəfəsində və dövründə hakimiyyətdə olan Eduard Şevardnadzenin yaratdığı "Yeni Gürcüstan üçün" adlı siyasi hərəkat, Aca-

---

[26] Mehdiyev R. *Demokratiya yolunda: irs haqqında düşünərkən.* Bakı: Şərq-Qərb, 2008, s. 356

[27] *Сорос капитулировал?* 24.01.2018 www.stoletie.ru/vzglyad/soros-_kapituliroval364.htm [İstifadə tarixi: 22.05.2018]

rıstan muxtariyətinin rəhbəri Aslan Abaşidzenin başçılıq etdiyi "Gürcüstan Demokratik Oyanış Birliyi", Mixeil Saakaşvilinin "Birləşmiş Milli Hərəkatı", parlamentin başçısı Nino Burcanadze və eks-spiker Zurab Jvanianın "Burcanadze-Demokratlar" adlı siyasi qrupu Gürcüstan siyasi səhnəsinin əsas aktorları idilər. İlk iki aktor faktiki olaraq hakimiyyətdə olan güclər idi və mühafizəkar mövqedən çıxış edirdilər. Seçkilər zamanı siyasi səhnədə görünən "Birləşmiş Milli Hərəkat" və "Burcanadze-Demokratlar" adlı aktorların sıralarında yer alan bir çox şəxslər əvvəllər E.Şevardnadze ilə yaxın mövqedə olsalar da, artıq onun opponenti-rəqibi rolunda çıxış edirdilər.

Noyabrın 2-də keçirilən seçkilərin nəticələri ilə razılaşmayan, saxtakarlığa yol verildiyini bəyan edən M.Saakaşvilinin iddiasını bir sıra xarici beynəlxalq təşkilatlar dəstəklədilər. Tbilisidə nümayişlər təşkil edildi. E.Şevardnadzeyə qarşı müxalifətdə olan əksər siyasi güclər və təşkilatlar nümayişlərə qatılmışdılar.[28]

Noyabr ayının ortalarından etibarən nümayişlər daha da gücləndi. Xüsusən "Kmara" ("Yetər") adlı gənclər hərəkatının nümayişlərə qatılması mövcud hakimiyyət üçün ciddi təhlükə doğurmuşdu. Hətta bir çox hallarda Gürcüstan mərkəzi hakimiyyətinin özünə qarşı çıxan Acarıstan muxtariyyətinin başçısı Aslan Abaşidze də E.Şevardnadzeyə açıq-aşkar dəstək göstərmiş və başlayan hərəkatı öz hakimiyyətinə qarşı da təhlükə hesab etmişdi. Gürcüstan parlamentinin qarşısında təşkil edilən mitinqlərin başlamasından 6 gün sonra hərəkatın nə dərəcədə geniş miqyaslı olduğunu və gerçək təhlükə yaratdığını görən E.Şevardnadze hakimiyyəti müxalif liderlərlə danışıqlar apar-

[28] Ömərov V., Kəlbizadə E., Mirzəyeva N. *Gürcüstan: daxili ictimai-siyasi şərait.* Bakı: Mütərcim, 2018, s.88

mağa cəhd göstərmişdi. Prezident Eduard Şevardnadze, dövlət naziri Avtandil Corbenadze və MSK-nın sədri Nana Devdariani axşamdan keçənədək müxalifət liderlərini gözləsələr də, onlar görüşə gəlmədilər.

"Burcanadze-Demokratlar"ın liderlərindən biri Georgi Baramidze müxalifətin iqtidarla heç bir sövdələşməyə getməyəcəyini, əgər tələbləri ödənilməsə, mitinqlərin davam edəcəyini bildirdi. "Birləşmiş Milli Hərəkat"ın lideri Mixeil Saakaşvili isə dedi:

*"Biz iqtidarla o zaman danışığa gedərik ki, Eduard Şevardnadze iqtidaryönlü "Yeni Gürcüstan uğrunda" blokunun parlament seçkilərində məğlub olduğunu elan etsin".*[29]

Yeni seçilmiş parlamentin açılışı noyabrın 22-nə təyin edilmişdi. Seçkilərdən 20 gün keçməsinə baxmayaraq, iqtidar nümayişlərin qarşısını ala bilmirdi, nümayişçilərin sayının çoxluğu iqtidarın manevr imkanlarını məhdudlaşdırmışdı. Eyni zamanda Gürcüstanda maraqlarını təmin etməyə çalışan güclər və onların mətbu-forpostlarının daha fəal təbliğata və təzyiqlərə keçməsi də hökuməti bəzi addımlar atmaqdan çəkindirirdi. Qanunverici orqanın legitimləşdirilməsi məqsədi ilə noyabrın 22-də parlamentin açılışında iştirak edən prezident E.Şevardnadzenin çıxışı zamanı əllərində qızılgül tutmuş nümayişçilər iclas salonuna daxil oldular. Mixeil Saakaşvilinin başçılıq etdiyi qrupun kürsüyə doğru can atdığı vaxtda E.Şevardnadze mühafizəçilərinin əhatəsində parlament binasını tərk etdi. Nümayişçilərin zala

---

[29] *Gürcüstan iqtidarı müxalifəti dialoqa, müxalifət isə əhalini mitinqə çağırır. Azərtacın Tbilisi müxbiri ölkədə yaranmış vəziyyət barədə məlumat verir.* 13.11.2003, www.azertag.az/xeber/gurcustan_iqtidari_muxalifati_dialoqa muxalifat_isa_ahalini_mitinqa_chagirir__azartac_in_tbilisi_muxbiri_olkada_ya ranmis_vaziyyat_barada_malumat_verir-299893. [İstifadə tarixi: 11.03.2018]

daxil olması zamanı əllərində sülhü və sevgini ifadə edən qızılgüllər tutmaları sonralar inqilabın adını müəyyənləşdirdi.

Noyabrın 23-də Rusiya Federasiyasının Xarici İşlər Naziri İqor İvanovun vasitəçiliyi ilə müxalifət liderləri M.Saakaşvili, Zurab Jvania və dövlət başçısı E.Şevardnadzenin görüşü nəticəsində prezident istefa verməli oldu. Bu, artıq dünya tarixinin yeni mərhələsi üçün xarakterik olan "yumşaq güc"ün qələbəsi idi. Seçkilərin keçirilməsinə qədərki dövrdə Konstitusiyaya əsasən parlamentin spikeri Nino Burcanadze prezident vəzifələrini icra etdi, 2004-cü il yanvarın 4-də keçirilən prezident seçkilərində M.Saakaşvilinin qələbəsi, həmin ilin mart ayının 28-də keçirilən parlament seçkilərində isə Milli Hərəkat - Demokratların deputat yerlərinin əksəriyyətini qazanması ilə Gürcüstanda "Qızılgül inqilabı"nın hakimiyyət dəyişikliyi mərhələsinin birinci dövrəsi başa çatmışdır.

Dəyişikliyin ikinci dövrəsi isə 2004-cü ilin mayında Acarıstanda gerçəkləşmişdir. Son proseslər zamanı E.Şevardnadzenin qatı tərəfdarı kimi çıxış edən A.Abaşidzeyə qarşı "Birləşmiş Milli Hərəkat" və "Kmara"nın nümayişləri, A.Abaşidzenin E.Şevardnadzedən fərqli olaraq Batumi və Kobuletidəki nümayişlərin iştirakçılarına qarşı güc tətbiqindən çəkinməməsi M.Saakaşviliyə onun hakimiyyətdən uzaqlaşdırılması üçün imkanlar açdı. Mayın 6-dan etibarən etirazlar daha da gücləndi. Baş Nazir Z.Jvania, Daxili İşlər Naziri Georgi Baramidze ilə Acarıstan Muxtar Respublikasının Daxili İşlər Naziri Camal Gogitidzenin arasında keçirilən görüşdə silahlı dəstələrin geri çəkilməsi məsələsi əsas müzakirə mövzusu oldu. Acarıstan Muxtar Respublikası ilə sərhəddə yerləşən Çoloxi çayı sahilində yerləşmiş A.Abaşidzeyə tabe olan silahlı dəstələrin çay üzərindəki körpünü partlatması nə nümayişçiləri

qorxutmuş, nə də mərkəzi hakimiyyətin geri addım atmasına səbəb olmuşdu. Nəticədə A.Abaşidze Batumini tərk edərək Rusiyaya sığınmışdı. Beləliklə, "Qızılgül inqilabı"nın hakimiyyət dəyişikliyi mərhələsinin ikinci dövrəsi da başa çatmışdı.

Gürcüstan tarixinin bundan sonrakı 5 illik dövrünü gerçək inqilabi dəyişikliklərə cəhd dövrü kimi xarakterizə etmək olar. Xarici güclərin dəstəyi hesabına qələbə qazanan M.Saakaşvili ölkənin iqtisadi və infrastruktur inkişafı üçün ciddi adımlar ata bildi. Gürcüstan üçün "Qızılgül inqilabı"nın ən böyük nəticələrindən biri kriminallaşma və korrupsiyalaşmaya qarşı aparılan mübarizə sahəsində ciddi uğurların əldə edilməsi oldu. Lakin M.Saakaşvili hakimiyyəti obyektiv və subyektiv səbəblərə görə separatizmlə mübarizədə uğur qazana bilməmişdir. Doğrudur, bu dövrdə Acarıstan hökumətinin Gürcüstanın mərkəzi hakimiyyətinə xeyli dərəcədə yaxınlaşması müşahidə edilmişdir. Abxaziya və Cənubi Osetiyaya münasibətdə isə M.Saakaşvilinin atdığı adımlar Rusiya amili səbəbindən Gürcüstanın xeyrinə nəinki həllini tapa bilməmiş, hətta M.Saakaşvili hakimiyyətinin özünü belə silkələmişdir.[30] M.Saakaşvilini Rusiya ilə qarşıdurmaya sövq edən xarici qüvvələr Gürcüstana qarşı Rusiyanın açıq hərbi müdaxiləsi zamanı qətiyyət nümayiş etdirməmişdirlər. Bir sıra pərdəarxası geostrateji məsələlərdə isə hətta Rusiya ilə razılaşmaq məcburiyyətində qalmışdırlar. M.Saakaşvilidən sonrakı dövrdə Gürcüstanda hakimiyyətdə olan qüvvələr xeyli dərəcədə Rusiya ilə münasibətləri düzəltmək üçün cəhdlər etməyə başladılar. Müasir mərhələdə Gürcüstan Avrointeqrasiya proseslərini davam etdirsə də, bu əvvəlki kimi qətiyyətli və sürətli proseslər deyildi.

---

30 Ömərov V., Kəlbizadə E., Mirzəyeva N. *Gürcüstan: daxili ictimai-siyasi şərait.* Bakı: Mütərcim, 2018, s.91

Saakaşvilinin rejiminə 2011-ci ildə siyasətə daxil olmasını elan edən və 2012-ci il parlament seçkilərində "Gürcü Arzusu" Partiyasını yaradan Bidzina İvanişvili son qoymuşdu. 2013-cü ildə G.Marqvelaşvili Gürcüstan Prezidenti seçilmişdir.

Gürcüstanda 1991-ci ildən inzibati bölgü və inzibati idarəçilik sahəsində islahatlara başlanılmışdır. Həmin ilin martından etibarən inzibati idarəçilikdə ilk dəyişikliklər edilmiş, ölkə tarixində ilk dəfə olaraq yerli özünüidarəetmə orqanlarına seçkilər keçirilmiş, yerli özünüidarəetmənin başında dayanan qamqebelilər seçilmişdir.[31] 1994-1996-cı ildən etibarən isə yerli özünüidarəçiliklərin səlahiyyətləri azaldılmışdır. Müasir dövrdə Gürcüstanın inzibati-ərazi quruluşunun əsas elementləri də məhz o zaman keçirilən islahatlar zamanı formalaşdırılmışdır.

Gürcüstan inzibati-ərazi quruluşu baxımından "mxare" adlandırılan diyarlara və iki muxtar respublikaya bölünmüşdür. Mxare (diyar) adlanan inzibati-ərazi vahidləri 1994–1996–cı illərdə həyata keçirilmiş inzibati islahatlar nəticəsində yaradılmışdır və I dərəcəli inzibati-ərazi vahidi statusu hesab edilir. Keçirilən inzibati islahatlardan sonra diyarların idarəçiliyinin başına Gürcüstan prezidentinin nümayəndələri (Sakartvelos Prezidentis saxelemtsipo rtsmunebulebi - საქართველოს პრეზიდენტის სახელმწიფო რწმუნებულები) təyin edilmişdi. Diyarlar yerliözünüidarəçilik vahidi olmadığından onlara rəhbərliyi prezidentin nümayəndələri edirdi.

Diyarların tərkibinə daxil olan bələdiyyələr (munisipalitetlər) isə yerli özünüidarəçilik prinsipləri əsasında fəaliyyət göstə-

[31] Таркхинишвили Л. *Грузия: путь к демократии?* Перевод с английского Ирины Синициной. Варшава: Центр социально-экономических исследований, 1997 г ., с. 42-43

rir və ikinci dərəcəli inzibati vahidlər hesab edilirlər. Munisipalitetlər 1994-1996-cı illərdə keçirilən inzibati islahatlara qədər region, 1996-2006-cı illərdəki dövr ərzində rayon adlandırılmışdır. Hazırda diyarlar və muxtariyyətlərin ərazisi 67 munisipalitetə bölünür. Bunlarla bərabər ölkə ərazisində 14 respublika əhəmiyyətli və çoxsaylı diyar əhəmiyyətli şəhərlər vardır. 2006-cı ilə qədər respublika əhəmiyyətli şəhərlərin sayı 7 olmuşdur.

Munisipalitetlər də öz növbəsində şəhərlərə, şəhər tipli qəsəbələrə, kənd şuralarına və sakrebulo adlanan kənd icmalarına bölünürlər. 2014-cü ilin statistikasına əsasən Gürcüstandakı kənd şuralarının sayı 941 olmuşdur.[32] Elə həmin statistikaya əsasən Gürcüstandakı şəhərlərin sayı 54, şəhərtipli qəsəbələrin sayı isə 39 olmuşdur.




*Gürcüstanın inzibati-ərazi quruluşu*
*(diyarlar və muxtar respublikalar üzrə)*

[32] *2014 General Population Census Main Results General* Information www.census.ge/en/results/census, [İstifadə tarixi: 08.10.2018]

Hal-hazırda Şida Kartli diyarının şimal hissəsində "müstəqilliyini" elan etmiş separatçı, qondarma qurum olan Cənubi Osetiya rəsmi Gürcüstan tərəfindən Sxinvali  regionu hesab edilir. Paytaxt Tbilisinin özü isə gürcülər tərəfindən "raioni" adlandırılan 10 rayona bölünür. Acarıstan və Abxaziya rəsmi olaraq Gürcüstanın muxtar vahidləri hesab edilir. Acarıstanla Gürcüstanın mərkəzi idarəçiliyi arasındakı münasibətlər mərkəz-subyekt prinsiplərinə əsaslansa da, Abxaziyadakı separatçı qruplar Cənubi Qafqazda daim qonşularına qarşı ərazi iddiaları irəli sürən ermənilərin gizli dəstəyi ilə "müstəqilliyi"ni elan etmişdir. Təbii ki, əsrlər boyu qonşuluqda sülh şəraitində yaşamış, Gürcüstanın taleyi üçün birlikdə mübarizə aparmış abxazların və osetinlərin bu gün Gürcüstana qarşı çıxmasının subyektiv səbəbləri mövcuddur. Ermənistan tərəfi isə rəsmi olaraq tez tez gürcülərlə saxta "qardaşlıq" bəyanatları versə də, faktiki olaraq Gürcüstanda separatizm əhval-ruhiyyəsini gücləndirməklə, bir tərəfdən Samtsxe-Cavaxetidə daha rahat hərəkət imkanı qazanır, digər tərəfdən isə xəyali "Böyük Ermənistan"ın qurulması üçün Cənubi Qafqazı daha kiçik hissələrə parçalamağa çalışır. Abxaziya və Sxinvali regionunda separatçı-oyuncaq hökumətlərin qurulmasından sonra bu ərazilərdə ermənilərin sayının sürətlə artması bu mənfur niyyətləri bir daha təsdiq edən faktdır. [33]

[33] *Кальбизаде Э. Криптомиацум* www.kaspiy.az/ news. php?id =96094#. XNASRz AzbIU [İstifadə tarixi: 22.05.2018]

## 1.2. Diyarlar və onların rayonlaşdırılması

Müasir Gürcüstanın inzibati-ərazi quruluşunda I dərəcəli əsas inzibati vahidlər “mxare” adlanan diyarlar hesab edilir. Mxare adlanan diyarlara aşağıdakılar daxildir: Quriya, İmereti, Samtsxe-Cavaxeti, Kaxeti, Aşağı Kartli, Msxeta-Mtianeti, Raça-Leçxumi və Aşağı Svaneti, Sameqrelo-Yuxarı Svaneti və Şida Kartli.

***Quriya* –** Gürcüstanın Qara dəniz sahili regionlarından biri olan Quriya regionu cənubdan Acarıstan Muxtar Respublikası, cənub-şərqdən Samtsxe-Cavaxeti, şərqdən və şimal-şərqdən İmereti, şimaldan isə Sameqrelo-Svaneti diyarları ilə həmsərhəddir. Diyarın qərb hissəsi bütövlükdə Qara dənizlə əhatələnmişdir. Ərazisi 2,003 $km^2$-dir. “Quriya” sözü etimoloji baxımdan “yatmayan ölkə” mənasını verir. Meqrelcədə isə Quriya sözü “quri” – ürək, qəlb mənasındadır. Quriyalılar etnik olaraq gürcülərdir və gürcü dilinin quriya ləhcəsində danışırlar.

Quriya diyarının özü də inzibati baxımından Ozurgeti, Lançuti, Cohaturi rayonlarına (munisipalitetə) bölünür.

Quriya diyarının mərkəzi Ozurgeti şəhəridir. 1846-cı ildən etibarən şəhər statusu almış[34] bu yaşayış məntəqəsi sovet dövründə - 1934-1989-cu illərdə gürcü bolşevik inqilabçısı[35], Gürcüstan İnqilab Komitəsinin sədri olmuş (1921-1922), sonralar isə Gürcüstan Mərkəzi İcraiyyə Komitəsinə rəhbərlik etmiş Filip Maxaradzenin şərəfinə Maxaradze adlandırılırdı. Bu həmin F.Maxaradze idi ki, 1921-ci ildə Qarabağın aidiyyəti və statusu ilə bağlı müzakirələrdə iştirak etmişdi. Rusiya Kommunist Partiyasının Qafqaz bürosunun 1921-ci il iyulun 4-də keçirilən ple-

---

[34] Zardiaşvili B. *Gürcüstan SSR-in iqtisadi rayonlaşdırması,* Tbilisi, 1970, s. 46

[35] Газ. “Голос Трудовой Абхазия” , 2 март 1922, с. 1

numunda Nəriman Nərimanov və Nazaretyanla birlikdə Qarabağın Azərbaycanın tərkibində qalmasının lehinə F.Maxaradze də səs vermiş, regionda müsəlman və erməni əhalisinin iştirakı ilə səsvermə keçirilməsini dəstəkləmişdi.[36]

Ozurgetinin adı ilk dəfə 1578-ci ilə aid "Yeni Gürcü Xronikası"nda ("Axali Kartlis Sxovroba") çəkilmişdir.

Quriyanın digər bir rayonu olan Lançutinin ərazisi 533 $km^2$-dir. 1961-ci ilə qədər qəsəbə statusu daşıyan Lançuti həmin ildən etibarən şəhər statusu almışdır.[37] Gürcüstan Demokratik Respublikasının sədri Noy Jordaniya və Gürcüstanın 1995-2003-cü illərdə ikinci prezidenti olmuş Eduard Şevardnadze məhz bu şəhərdə doğulmuşlar. Rayon çay emalı, ət, süd, saxsı və kirəmit istehsalı üzrə ixtisaslaşmışdır.

Ümumilikdə, Kolxida ovalığının aşağı hissəsini əhatə edən Quriya diyarı iqtisadi baxımdan çay və fındıq emalının mərkəzi hesab edilir. Azərbaycanın Lənkəran-Astara və Zaqatala-Balakən regionları ilə diyar arasında regional əlaqələrin genişləndirilməsi çayçılıq və fındıqçılıq sahəsində təcrübə mübadiləsinə, sağlam sortların idxalına imkan yarada bilər.

Quriyadan qərbdə yerləşən diyar ***İmereti*** adlanır. Diyar şimaldan Raça-Leçxumi, şimal şərqdən Sxinvali regionu (tanınmamış "Cənubi Osetiya Respublikası") ilə həmsərhəddir. İmeretinin qərbində Şida-Kartli (Daxili-Kartli), cənubunda Samtsxe-Cavaxeti, cənub-qərbdən Quriya, şimal-qərbdən isə Sameqrelo-Yuxarı Svaneti ilə həmsərhəddir. Bu diyarın azərbaycanlı və

---

[36] Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalnadək erməni iddiaları: tarix olduğu kimi (1920-1994-cü illər). Bakı: Mütərcim, 2016, s.123

[37] *Большая Советская Энциклопедия*. Гл. ред. А. М. Прохоров, 3-е изд. Т. 14. Куна -Ломами. 1973. 624 с.

türk əhalisi arasında yayılmış tarixi adı Başaçıqdır. "Gülüstani-İrəm" əsərində Azərbaycan tarixçisi, anası gürcü qızı olan Abbasqulu ağa Bakıxanov da İmeretinin əsas adını "Başaçıq" kimi göstərmişdir.[38] Sözügedən əsərdə Kolxida ərazisindən bəhs edərkən Abbasqulu ağa Bakıxanov yazırdı:

*"Başaçıq (İmereti) düzlərini, Minqreliya və Quriyanı Kolxida hesab etmək olar. Şirvan və Dağıstan isə, birgə olaraq Albaniya olmuşdur".*[39]

Mirzə Adıgözəl bəyin "Qarabağnamə" əsərində də bölgənin adı "Başaçıq" olaraq verilmişdir.[40]

İnzibati mərkəzi Kutaisi olan İmeretinin tərkibində bundan əlavə 11 munisipalitet (bələdiyyə) ayrılmışdır: Bağdati, Çiatura, Xaraqauli, Xoni, Saçxere, Samtredia, Tercola, Tkibuli, Sxaltubo, Vani, Zestafoni.

Müasir dövrdə bölgənin əhalisi əsasən gürcülərin subetnik qrupu olan imeretililərdən ibarətdir, bundan başqa bəzi yerlərdə ruslar, osetinlər, ermənilər, ukraynalılar, yezidilər, abxazlar, yunanlar və Ahıska türkləri məskunlaşmışdır. Dini konfessional olaraq əhalisi xristian pravoslavlardır.

***Samtsxe-Cavaxeti*** Gürcüstanın cənubunda yerləşir. Bölgə cənubdan Türkiyə və Ermənistanla, qərbdən Acarıstan Muxtar Respublikası, şimal-qərbdən Quriya, şimaldan İmereti, şimal-şərqdən Şida-Kartli, şərqdən isə Kvemo-Kartli bölgəsi ilə həmsərhəddir. Regionun ərazisi 6412,9 kvadrat kilometrdir. Tarixən iki hissədən ibarət olan Samtsxe-Cavaxeti regionunun qərb hissəsini gürcülər Mesxetiya, türklər isə Ahıska adlandırmışlar.

---

[38] Bakıxanov A. *Gülüstani-irəm* (Tərcumə edəni M. Əskərli), Bakı: Minarə, 2000, s. 16

[39] Yenə orada

[40] Mirzə Adıgözəlbəy. *Qarabağnamə*. Bakı: Yazıçı, 1989, s. 51

Bölgənin şərq hissəsini isə gürcülər Cavaxeti, ermənilər isə Cavaxk adlandırırlar. Gürcüstanın müasir inzibati-ərazi bölgüsünə görə, Samtsxe-Cavaxeti bölgəsinin tərkibində altı inzibati rayon yerləşir: Adigen, Aspindza, Borjomi, Axalsıx, Axalkalaki (Axalkələk) və Ninotsminda (keçmiş Boqdanovka rayonu). Samtsxe-Cavaxetinin Borjomi rayonu istisna olmaqla qalan beş rayonunun hamısı Türkiyə ilə həmsərhəddir. Bölgənin sadəcə olaraq Ninotsminda rayonu Ermənistanla sərhəddə malikdir. Bölgə xristianlığa qədərki dövrdə birmənalı olaraq İberiyanın tərkib hissəsi olmuşdur. IX-X əsrlərdə bölgə Tao-Klarceti çarlığının, 1008-ci ildən etibarən isə Baqrationilərin başçılığı ilə birləşdirilən vahid Gürcüstanın tərkib hissəsi olmuşdur. XV əsrin sonlarında vahid Gürcüstanın parçalanması və tənəzzülü ilə bölgədə Samtsxe-Saatabaqo adlı feodal hakimliyi yaranmışdı. XVI əsrin sonu-XVII əsrin əvvəllərində Osmanlı imperiyasının şərq ekspansiyasının güclənməsi ilə bölgə Osmanlı dövlətinin hakimiyyəti altına keçmişdir. Erməni "tədqiqatçısı" İqor Muradyan iddia edir ki, guya osmanlılar şimaldan gələ biləcək təhlükənin qarşısını almaq və sərhədlərdə etibarlı mühafizəni təmin etmək üçün buraya daxili vilayətlərindən əhali köçürümüşlər. O, "Samtsxe-Cavaxetidə siyasi şərait" adlı məqaləsində yazır ki, buraya osmanlılar tərəfindən təkcə türklər deyil, həmçinin kürdlər və digər müsəlman xalqlarının da nümayəndələri köçürülmüşdür.[41] Lakin nəzərə almaq lazımdır ki, bölgənin hələ XI əsrdə Səlcuqların, XIII əsrdə isə monqolların və qıpçaqların axınlarına məruz qalmasını ən radikal erməni müəlliflərinin özləri belə eti-

---

[41] Мурадян И. *Политическая ситуация в Самцхе-Джавахетии* www.geopolitica.ru/Articles/769. [İstifadə tarixi: 08.10.2018]

raf edirlər.[42] Belə olan halda buraya türklərin XVI əsrdə köçürülməsi kökündən yanlış fikirdir və hər zaman olduğu kimi ermənilərin “avtoxton”, türklərin isə “gəlmə” olmasını sübut etmək xülyasının təzahürüdür. Belə cəhdlər isə gerçək tarixin kobudcasına saxtalaşdırılmasına gətirib çıxarır.

1828-1829-cu illərdə baş vermiş Rusiya-Osmanlı müharibəsinin nəticələrinə görə, Samtsxe-Cavaxeti regionu Rusiya imperiyasının nəzarətinə keçmişdir. 1828-ci il Ədirnə sülh müqaviləsinə əsasən burada yaşayan müsəlman gürcülər – lazlar Türkiyənin daxili rayonlarına köçürülmüş, əvəzində isə Ərzurum vilayətində yaşayan ermənilərin bir hissəsi Azərbaycan torpaqları olan İrəvan və Qarabağla yanaşı həmçinin Axalkalakidə (Axalkələk) də məskunlaşdırılmışdır. Yəni, ermənilər Azərbaycan ərazilərinə olduğu kimi Cavaxetiya da İrandan və Osmanlı Türkiyəsindən (1828-1829-cu illərin Rusiya-Qacarlar və Rusiya-Osmanlı müharibəsindən sonra) köçürülmüşlər. Təkcə müharibə zamanı buraya köçürülən ermənilərin sayı 35 min nəfər olmuşdur.[43] Hazırda Cavaxetidə yaşayan ermənilərin 90 faizi o vaxt köçürülənlərin nəsilləridir. Hətta regionda mövcud olan erməni kilsələrinin özləri belə əsasən 1830-cu ildən sonrakı dövrdə inşa edilmişdir.[44]

1918-1919-cu illərdə Qafqazda Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan (Ararat) Respublikası Zəngəzur, Qarabağ və Naxçıvanla yanaşı, Cavaxeti regionuna da iddialar

---

[42] Karapetian S. *Javakhk*. Yerevan: Research on Armenian Architecture (RAA) Foundation, 2011, p. 13

[43] Ломсадзе Ш. *Самцхе-Джавахети*. Тбилиси: Favorite Print, 2013, с. 325

[44] Метревели Е. *Ключевые тенденции в системе управления в Джавахети // Джавахети вызовы и перспективы*. Тбилиси: GFSIS, 2013, с. 11

irəli sürmüşdür. Ermənistanın bu cür ərazi iddiaları səbəbindən Gürcüstanla müharibə baş vermişdir.

Məlum olduğu kimi, 1920-1921-ci illərdə Cənubi Qafqaz bolşevik Rusiyası tərəfindən işğal edilmişdir. Bölgənin mühüm və strateji nöqtədə yerləşdiyini nəzərə alan SSRİ rəhbəri İosif Stalin öz hakimiyyəti illərində bu ərazinin qadağan olunmuş sərhəd zonası elan edilməsi barədə göstəriş vermişdir. Gürcüstanın müstəqilliyini əldə etməsindən sonrakı dövrdə Ermənistan birbaşa və dolayı vasitələrlə bölgəyə iddialarını ortaya qoymuşdur.

2016-cı ilin statistikasına əsasən, region əhalisinin sayı 160 min 600 nəfər olmuşdur.[45] 2002-ci ilin statistikasına görə, Samtsxe-Cavaxetidə əhalinin 113 min 347 nəfərini yəni, 54,6 faizini ermənilər təşkil etmişdir. Bölgədə yaşayan gürcülərin sayı 2002-ci ildə 89 min 995 nəfər olmuşdu ki, bu da əhalinin 43,4 faizi demək idi. Bölgə əhalisinin qalan hissəsini türklər, ruslar, osetinlər və yunanlar təşkil etmişdir.[46] 1944-cü ilə qədər bölgədə türklər əhalinin böyük bir hissəsini təşkil etmişlər.[47] Lakin Mesxetidə (Ahıska) yaşayan türklər XX əsrin 40-cı illərində Gürcüstandan Orta Asiya ölkələrinə deportasiya olunmuşlar.

Şəksiz ki, SSRİ Dövlət Müdafiə Komitəsinin 31 iyul 1944-cü il tarixli 6279 nömrəli qərarı ilə tarixən türklər tərəfindən Ahıska adlandırılan müasir Gürcüstanın Samtsxe-Cavaxeti regionunun Adigen, Axalsıx və Aspindza rayonlarından türklərin deportasiya edilməsinin müharibədən əlavə, digər səbəbləri də

---

[45] *დემოგრაფიული ვითარება საქართველოში სტატისტიკური კრებული. თბილისი: საქართველოს სტატისტიკის ეროვნული სამსახური, 2017, გვ. 19*

[46] *Georgia Census 2002. Ethnic group by major administrative-territorial units* www.geostat.ge/cms/site_images/_files/english/census/2002/03%20Ethnic%20Composition.pdf, p. 3 [İstifadə tarixi: 5.11.2018]

[47] Минасян С. *Ситуация в Джавахке в контексте проблемы вывода Российских военных баз из Грузии* // «21-й ВЕК», № 1, 2005 г., с. 29

olmuşdur. Baş verən prosesləri və sonrakı dövrdə bölgədəki etno-demoqrafik dəyişiklikləri təhlil edərkən belə bir qənaətə gəlirik ki, bu deportasiya prosesində daha çox Stalinin çevrəsindəki ermənilər əhəmiyyətli rol oynamışdırlar. Çünki, türklərin regiondan deportasiyasından sonra, Gürcüstanda ölkənin titul xalqı olan gürcülərin deyil, ermənilərin sayı sürətlə artmağa başlamış və nəticədə də Samtsxe-Cavaxeti bölgəsi Gürcüstandakı erməni separatizminin mərkəzinə çevrilmişdir.

1944-cü ildə Mərkəzi Asiya respublikalarına və Sibirə sürgün edilən Ahıska türklərinin SSRİ-nin digər bölgələrinə köçmələrinə və məskunlaşmalarına 1956-cı ildə icazə verilmiş, nəticədə də 1958-1960-cı illərdə onların bir hissəsi Azərbaycana gəlmişdir. 1989-cu ilin iyununda Mərkəzi Asiyada baş verən Fərqanə hadisələrindən sonra Ahıska türklərinin ikinci dalğası yenə Azərbaycana pənah gətirmiş və burada məskunlaşmışdır. Maraqlı cəhət burasındadır ki, Samtsxe-Cavaxetidən köçən türklərin əzəli yurdlarını ələ keçirən ermənilər təkcə Azərbaycan türklərinə qarşı deyil, Qarabağdakı Ahıska türklərinə qarşı da amansız qırğınlar törətmiş və sanki bununla da onların nə zamansa tarixi vətənlərinə qayıdışlarının qarşısını almaq istəmişlər”.[48]

Onların nəsilləri keçmiş SSRİ-nin digər respublikalarında, həmçinin Azərbaycanla yanaşı, Türkiyədə və Amerika Birləşmiş Ştatlarında yaşayırlar.

Samtsxe-Cavaxeti iqtisadiyyatının əsasında kənd təsərrüfatı və turizm dayanır. Axalkələkdə (Axalkalaki) yaşayan etnik ermənilərin əksəriyyəti XXI əsrin ilk onilliyini sonlarına qədər ya

[48] Kəlbizadə E. *Ahıska türkləri: deportasiyadan Xocalı soyqırımına.* Qafqazda deportasiyalar, Respublika elmi konfransı 29 noyabr 2018-ci il, tezislər. Bakı: Mütərcim, 2019, s.86-87

regiondakı rus hərbi bazalarında çalışır, ya da kartof bitkisi becərməklə məşğul olurdular.[49] Qeyd etmək lazımdır ki, regiondakı rus hərbi bazaları Gürcüstanın müstəqillik əldə etməsindən yalnız 16 il sonra 2007-ci ildə bu ölkənin ərazisini tərk etmişdir.[50]

Bölgədə potensial münaqişə tərəfləri etnik ermənilər və gürcülərdir. Konkret olaraq regionda sabitliyi pozmaq istəyən qüvvə Ermənistanın dəstəklədiyi ermənilərdir.

Yuxarıda da qeyd edildiyi kimi, ermənilərin bu bölgəyə olan iddiaları hələ 1918-ci ildən başlamışdır. Ermənistan Cavaxetini özününkü hesab edir. 1918-ci ildə rəsmi Tbilisi ilə Yerevan arasında gərgin diplomatik danışıqlar aparılmışdır ki, sərhəd mübahisəsinə son qoyulsun. Bununla yanaşı, hələ o zaman həmin ərazilərdə erməni separatçıları və quldurları xüsusi qətllər törədir, bölgəni daim gərgin vəziyyətdə saxlayırdılar. SSRİ yaradıldıqdan sonra İttifaqın digər münaqişəli ərazilərində olduğu kimi burada da "Cavaxeti ədavəti" dondurulmuşdur. SSRİ-nin dağılmasından sonra ermənilər yenidən Cavaxetidə təxribatçı əməllərə və separatçı çıxışlara başlamışlar. Beləliklə, Gürcüstanın Samtsxe-Cavaxeti diyarında yaşayan ermənilər artıq 27 ildən çoxdur ki, Tbilisinin tabeliyindən çıxmağa çalışır, Ermənistanın himayəsinə keçmək üçün muxtariyyət tələbləri ilə çıxış edirlər. Gürcüstan müstəqillik qazandıqdan sonrakı illərdə Cavaxetiyə muxtariyyət verilməsi tələblərinin önündə ermənilərin "Cavaxk" (sonralar "Vahid Cavaxk" adlandırılmışdır) ictimai təşkilatı dayanmışdır.[51]

---

[49] Нерсесян М. *Джавахетия: конфликт неизбежен?!* 27.12.2003 www.abxaziya.org [İstifadə tarixi: 07.06.2018]

[50] Метревели Е. *Ключевые тенденции в системе управления в Джавахети* // Джавахети вызовы и перспективы. Тбилиси: GFSIS, 2013, с. 5

[51] Nərimanoğlu H. *Türk ya erməni soyqırımı?* Bakı: QHT nəşriyyatı, 2005, s. 64

Ermənilərin muxtariyyət və ya Ermənistana birləşmə iddiaları Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadzenin hakimiyyət illərində nisbətən passiv xarakter daşıyırdı. Çünki, Eduard Şevardnadze tarazlaşdırılmış siyasət yürütməyə çalışır və Rusiya ilə açıq qarşıdurmalardan çəkinirdi. 2003-ci ildə hakimiyyətə gələn Qərbmeyilli M.Saakaşvili rejimi Rusiya amillini nəzərə almayınca, ruslar Sxinvali regionu və Abxaziya ilə yanaşı Cavaxetidə də separatçılara dəstək verməyə başladılar. Samtsxe-Cavaxeti adlı "potensial bomba" o zaman Rusiya üçün vacib silaha çevrildi ki, Gürcüstanda "Qızılgül inqilabı" baş verdi və Amerikameyilli M.Saakaşvili rejimi hakimiyyətə gəldi. Amerikanın məhşur analitiklərindən biri olan A.Koen fikirlərindən birində Gürcüstanın əhəmiyyətini aşağıdakı kimi şərh edir:

*"Qara dənizin Türkiyə ilə sərhədlərində strateji hövzəyə nəzarət edərək, Ermənistanın dənizə çıxışını Qərbdən kəsərək, Gürcüstan elə bil Qafqaza giriş qapılarının açarlarını öz əlində saxlayır".*[52]

Rusiya-Gürcüstan münasibətlərinin pisləşməsindən isə Cavaxetidəki etnik ermənilər Yeravanda "cızılan plan" əsasında fəal şəkildə istifadə etməyə başladılar. Məhz "Cavaxeti məsələsi"nin ideoloqlarından biri olan İqor Muradyanın "Samtsxe-Cavaxetidə siyasi şərait" adlı məqaləsində də bu, açıq-aşkar hiss olunur. O, Saakaşvilinin Gürcüstanda hakimiyyətə gəlməsini Osmanlı dövlətində baş vermiş "Gənc türklər" inqilabına bənzədərək yazır:

*"M.Saakaşvili və onun komandası praktiki cəhətdən Sultanın devrilməsində məzlum azlıqlardan istifadə edən və daha sonra xristian azlıqların soyqırımını təşkil edən gənc türklərin üsullarını tətbiq etdi".*[53]

---

[52] Чигорин А. *Российского-Грузинские отношения. Что дальше*. Москва, Красная звезда, 5. 2003, с. 44

[53] Мурадян И. *Политическая ситуация в Самцхе-Джавахетии* www.geopolitica.ru/Articles/769. [İstifadə tarixi: 08.10.2018]

Burada iki hədəf vardır: birincisi, ilk növbədə gənc türklər dövrünü xatırlatmaqla guya baş vermiş "soyqırımı" dünyanın təhtəlşüuruna yeritmək, ikincisi isə Saakaşvili rejiminin guya qanlı mahiyyətini göstərmək. Halbuki, bu fikrin tam əksinə olaraq M.Saakaşvilinin hakimiyyətə gəlməsindən sonra Gürcüstanın Avropaya inteqrasiya yolunu tutması ilə milli azlıqlara münasibətdə daha demokratik yanaşma bərqərar olmağa başlanmışdı. Gürcüstan 2006-cı ildə "Milli azlıqların müdafiəsi haqqında çərçivə konvensiyası"nı ratifikasiya etmiş, və çərçivə konvensiyanın tətbiqi ilə bağlı 2007 və 2012-ci illərdə hesabat təqdim etmişdi. 2009-cu ildə Gürcüstan hökumətinin qəbul etdiyi "Tolerantlıq və vətəndaş inteqrasiyası üzrə milli konsepsiya" da bu istiqamətdə atılan addımlardan biri olmuşdu.[54]

Bölgədəki erməni təşkilatlarının Gürcüstana qarşı düşmən mövqeyi, 2008-ci ildə Rusiya Federasiyası ilə Gürcüstan arasında baş verən münaqişə zamanı açıq-aşkar ortaya çıxmışdı. O dövrdə baş verən hadisələrdə digər bir erməni təşkilatı olan "Vahid Cavaxk"la yanaşı "Cavaxeti gənclik-idman ittifaqı" da radikal mövqe nümayiş etdirmiş və hətta bu təşkilatın üzvləri qeyri-qanuni silahlanmaya cəhdlər göstərmişdilər. Təşkilatın üzvlərindən biri olan Vaahn Çaxalyan bu hadisələrlə əlaqədar həbs edilmişdi.[55]

M.Saakaşvilinin hakimiyyətdən getməsindən sonra Rusiya-Gürcüstan münasibətlərindən asılı olaraq bölgədəki ermənilərin "fəallığı" artıb-azalmağa başlamışdır. Hətta 2017-ci ilin oktyabrında bölgədəki erməni separatçıları bir az da irəli gedə-

---

[54] Метревели Е. *Ключевые тенденции в системе управления в Джавахети* // Джавахети вызовы и перспективы. Тбилиси: GFSIS, 2013, с. 5
[55] Yenə orada, s. 13

rək təxribat xarakterli toqquşmalar yaratmağa cəhd etmişdirlər. Belə ki, Ermənistan hökumətinn Gürcüstana Rusiyameyilli Sergey Minosyanı səfir təyin etməsi rəsmi Tbilisi tərəfindən narazılıqla qarşılanmışdı. Bundan sonra diqqəti başqa istiqamətə yönəltməyə çalışan ermənilər Cavaxetinın Kumurdo kəndində X əsrdən qalma gürcü kilsəsinin həyətində erməni xaçı qoymağa çalışmışdılar. Gürcüstan polisi isə buna müdaxilə edərək bu cəhdin qarşısını almış, nəticədə toqquşma yaranmışdı.[56] 2018-ci ilin əvvəllərindən etibarən ermənilər daha fəal işə keçmiş, Samtsxe-Cavaxeti bölgəsində ASALA terror təşkilatının müasir versiyası olan "Virk-Yerkir" terrorçu təşkilatını yaratmışdılar.[57]

Gürcüstandakı demokratikləşmə proseslərindən və bu ölkənin milli azlıqlara münasibətdə aktiv multikultural yanaşmasından yenə də mənfur məqsədləri üçün istifadə etməyə çalışan ermənilər, çoxmillətli vahid Gürcüstan ailəsinə deyil, Ermənistana "inteqrasiya" etməkdə israrlıdırlar.

Samtsxe-Cavaxetidə separatçı ermənilər tərəfindən irəli sürülən tələblərlə XX əsrin 80-ci illərində Azərbaycanın Dağlıq Qarabağ regionu ilə bağlı Ermənistanın əsassız iddiaları demək olar ki, eynidir. İ.Muradyan yazır ki, indiki dövrdə Cavaxetidə mövcud olan əsas sosial-siyasi problemlər bunlardan ibarətdir:

- özünüidarəetmə məsələsi;
- təhsil və dil problemi;
- iqtisadi gerilik məsələsi.

---

[56] Məmmədov M. *Ermənistan-Gürcüstan sərhədində ilk toqquşma* 03.10.2017, www.istipress.com/siyaset/03-10-2017/ermenistan-gurcustan-serhedinde-ilk-toqqusma [İstifadə tarixi: 15.10.2018]

[57] *Ermənilər Gürcüstanda yeni ASALA yaratdı: Terror təhlükəsi* 10.02.2018 www.axar.az/news/gundem/241271.html [İstifadə tarixi: 23.10.2018]

Təbii ki, Cavaxetidəki məsələlər təkcə yerli erməni əhalisinin öz gücünə əsaslanmır. Yuxarıda da qeyd edildiyi kimi, bu, xeyli dərəcədə Gürcüstana düşmən olan xarici erməni qüvvələrinin istəklərinin nəticəsidir. Ermənistan isə Qarabağ məsələsində olduğu kimi, Cavaxeti məsələsində də ilk dövrlərdə hiyləgər bir mövqe tutmuş və beləliklə, əsassız iddialarını dünyaya yerli ermənilərin "öz müqəddəratını təyinetmə" məsələsi kimi təqdim etməyə çalışmış və çalışmaqdadır. Digər tərəfdən Ermənistan Cavaxetidən gələn erməniləri öz ərazisində təşkilatlandırmışdır. Məsələn, Ermənistanda fəaliyyət göstərən "Zor Ayrenik" ("Güclü ana vətən") təşkilatı müasir dövrdə bu funksiyanı həyata keçirir. Digər tərəfdən Ermənistan dövləti müxtəlif təşkilatların, əslində isə Ermənistan dövlətinin maliyyələşdirdiyi "qeyri-hökumət təşkilatları"nın xətti ilə Samtsxe-Cavaxetinin tarixinin ermənisayağı "tədqiqi"ni də dəstəkləmişdi. Xüsusən, bu istiqamətdə Samvel Karapetyan kimi "tədqiqatçı"ların "araşdırmaları" xüsusi yer tutur. Onun 2006-ci ildə nəşr etdirdiyi "Javakh" adlı kitabı (kitab 2011-ci ildə ingilis dilində təkrar nəşr edilmişdir) erməni "tədqiqatçı"larının ənənəvi xarakterini əks etdirir və Samtsxe-Cavaxeti regionunun tarixini başdan-başa saxtalaşdırır.[58]

Maraqlıdır ki, rus qoşunlarının Gürcüstan ərazisini tərk etməsi prosesi başladığı 2007-ci ildə qəbul edilən "Ermənistan Respublikasının milli təhlükəsizlik strategiyası" adlı sənədin 2.1. bölümünün Gürcüstanla münasibətlərə həsr olunmuş hissəsində Cavaxeti məsələsinin "həlli" açıq-aşkar irəli sürülmüşdür. Belə ki, sənəddə yazılmışdı:

---

[58] Karapetian S. *Javakhk*. Yerevan: Research on Armenian Architecture (RAA) Foundation, 2011, 76 p.

*"Gürcüstan Respublikası ərazisində çoxsaylı ermənilərin yaşaması Ermənistan üçün xüsusi əhəmiyyət daşıyır. Ermənistan bu ölkədə, o cümlədən Cavaxkda (Cavaxetidə) yaşayan ermənilərin sosial-iqtisadi problemlərinin həlli üçün Gürcüstan hakimiyyəti ilə əməkdaşlıq edir".*[59]

Ermənistan Respublikasının Prezidenti yanında Milli Təhlükəsizlik Şurasının 26 yanvar 2007-ci il tarixli qərarı ilə təsdiqlənmiş bu rəsmi sənəddə xarici ölkəyə aid olan ərazilər sırasında sadəcə olaraq Dağlıq Qarabağ və Cavaxetinin adı çəkilmişdir. Gürcüstanla əməkdaşlıq etmək niyyətlərini göstərən erməni "strateqləri" strategiyada regionun rəsmi adını da yazmağa ehtiyac görməmiş "Cavaxk"ı əsas, Samtsxe-Cavaxetinin "Cavaxeti" hissəsini isə mötərizə əlavəsi olaraq göstərməyi yetərli saymışlar. "Əməkdaşlıq etmək" ifadəsinin arxasında əslində Gürcüstanın daxili işlərinə qarışmaq dayanır. Ermənistanda hakimiyyətin dəyişməsindən sonrakı dövrdə də bu siyasət davam etmişdir. N.Paşinyan hökumətinin fəaliyyət xəttində "Cavaxk"la bağlı niyyətlərin reallaşdırılmasına cəhdlər açıq-aşkar seçilir.

Beləliklə, Qafqazda potensial münaqişə ocağı olan Samtsxe-Cavaxeti problemi təkcə Gürcüstan üçün deyil, ümumilikdə Qafqazda sülhün və sabitliyin davamlılığı, eləcə də Avropanın enerji təhlükəsizliyi üçün ciddi təhdidlər doğurur ki, bu təhdidlərdən əsas üçünü aşağıdakı kimi fərqləndirmək mümkündür:

1) Şimaldan xarici dəstək hesabına demək olar ki, Gürcüstandan ayrılmış Cənubi Osetiya ilə cənubdan potensial separatizm ocağı olan Samtsxe-Cavaxetinin Gürcüstandan qop-

---

[59] *Стратегия национальной безопасности Республики Армени* 29.04.2018 www.mfa.am/u_files/file/doctrine/Doctrinerus.pdf, с. 18. [İstifadə tarixi: 11.10.2018]

masından sonra Gürcüstan ərazisi faktiki olaraq iki hissəyə bölünmüş olur.

2) Münaqişənin silahlı həddə keçəcəyi təqdirdə Avropanın enerji təhlükəsizliyində fövqəladə dərəcədə əhəmiyyətli rol oynayan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri münaqişə zonasında qalmış olur ki, bu yenidən Qərb ölkələrini əvvəlki asılılıq vəziyyətinə qaytara bilər. Doğrudur, faktiki olaraq bu enerji xətləri Samtsxe-Cavaxeti regionunun Cavaxeti hissəsindən deyil, Mesxeti hissəsindən keçir lakin, Ermənistanın Qarabağdakı işğal siyasətinə baxdıqda aydın olur ki, o zaman da ilk dövrlərdə sadəcə olaraq regionun dağlıq hissəsinə iddialar irəli sürmüş, faktiki olaraq isə Azərbaycanın Dağlıq Qarabağ regionundan əlavə ətraf 7 rayon da işğal olunmuşdur.
3) Samtsxe-Cavaxeti regionunda münaqişə Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin də fəaliyyətini təhlükə altında qoya bilər. Bu isə Orta Asiyadan və İrandan gələn tranzit daşımalarının xərclərini daha da artırmış olar.

Deməli, ermənilərin iddiaları təkcə Azərbaycana və Türkiyəyə qarşı deyil, həmçinin Gürcüstana, bir çox hallarda hətta Ermənistana bu və ya digər formada dəstək verən ölkələrin özlərinə qarşı yönəlmişdir. Bu isə o deməkdir ki, Ermənistanın məqsədləri ümumilikdə Qafqaz, Mərkəzi Asiya və Ön Asiya regionlarında sülhə, eləcə də Avro-Atlantik məkanın enerji təhlükəsizliyinə ciddi təhdiddir.

***Kaxeti*** diyarı – İnzibati mərkəzi Telavi şəhəri olan Kaxeti diyarı cənubdan və cənub-şərqdən Azərbaycanla, şimal və şimal-şərqdən isə Rusiya ilə həmsərhəddir. Qərb istiqamətində bu diyar Msxeta-Mtianeti və Aşağı Kartli diyarları ilə həmsər-

həddir. Diyar özü inzibati baxımdan səkkiz bələdiyyəyə bölünür: Telavi, Axmeta, Qurcaani, Kvareli, Dedoplistskaro, Laqodexi, Saqareco, Siqnaqi.

Tarixi-coğrafi baxımdan diqqət yetirdikdə Kaxeti ərazisi baş verən regional hərbi-siyasi proseslər nəticəsində müxtəlif istiqamətlərdə dəyişikliklərə məruz qalsa da, bölgə əksər hallarda müstəqilliyini və ya daxili idarəçilik sərbəstliyini qoruyub saxlamağa çalışmışdır. VIII əsrdə Kaxeti müstəqil feodal knyazlığı kimi fəaliyyət göstərmişdir. Bu dövrdə Cənubi Qafqazın xeyli hissəsinin ərəblər tərəfindən işğal edilməsinə baxmayaraq, Kaxeti özünü bu işğallardan qoruya bilmişdi. XI-XII əsrlərdə ümum-Gürcüstan miqyasında gedən mərkəzləşdirmə prosesi nəticəsində çar Qurucu David tərəfindən Kaxeti vahid Gürcüstan çarlığının tərkibinə daxil edilmişdi. XV əsrin 60-cı illərində Gürcüstanın yenidən ayrı-ayrı feodal hakimliklərinə parçalanması Kaxetinin da müstəqil çarlıq kimi fəaliyyətə başlaması ilə nəticələnmişdi. Lakin bu müstəqillik çox davam etmədi. Səfəvilər dövləti XVI əsrdə digər Cənubi Qafqaz ərazilərini olduğu kimi Gürcüstanın da xeyli hissəsini öz hakimiyyəti altına aldı. 1555-ci ildə Osmanlı və Azərbaycan Səfəvi dövlətləri arasında bağlanmış sülh müqaviləsinə əsasən Cənubi Qafqaz nüfuz dairələrinə bölündü. Müq-aviləyə əsasən İmereti Osmanlı dövlətinin, Kartli-Kaxeti isə Azərbaycan Səfəvi dövlətinin nəzarətinə keçdi.[60]

1762-ci ildə Kaxeti çarlığı qonşu Kartli çarlığı ilə birləşmiş, Kaxetinın paytaxtı Telavi yeni birləşmiş Kartli-Kaxeti çarlığının paytaxtı olmuşdur. 1801-ci ildə Kartli-Kaxeti çar Rusiyasının

---

[60] Ömərov V.A., Kəlbizadə E.H., Mirzəyeva N.E. *Gürcüstan: daxili ictimai-siyasi şərait.* Bakı: Mütərcim, 2018, s. 14; Калбизаде Э. Диларам-султан. Грузинка при сефевидском дворе // Газ. «Каспий», № 85 (981), 12 мая 2018, с. 18

tabeliyinə keçmişdir. 1918-ci ildə Kaxeti müstəqil Gürcüstan Demokratik Respublikasının tərkibinə daxil edilmişdir.

Müasir dövrdə diyar özünün polietnik tərkibi ilə seçilir. Gürcüstanda 2002-ci ildə keçirilən siyahıyaalınma nəticəsində müəyyən edilmişdir ki, əhalisinin sayı o zaman 407 min nəfərdən artıq olan Kaxeti diyarında yaşayanların 83,9 faizi gürcülər, 9,8 faizi azərbaycanlılar, 1,7 faizi kistinlər (çeçenlər), 1,5 faizi osetinlər, 0,9 faizi ruslar, 0,1 faizi ermənilər, 0,1 faizi yezidi kürdlərdir. Bunlardan əlavə bölgədə yunanlar, ukraynalılar və abxazlar da yaşayırlar.

***Aşağı Kartli (Kvemo-Kartli - Borçalı)* –** Bölgənin mərkəzi Rustavi şəhəridir. Diyar tarixi Borçalı və Qarayazı mahallarının ərazisində yaradılmışdır. Şərqdən Kaxeti, şimaldan Msxeta-Mtianeti və Şida-Kartli, qərbdən Samtsxe-Cavaxeti, cənubdan isə Azərbaycan Respublikası ilə həmsərhəddir.

Hazırda diyar inzibati cəhətdən respublika tabeli Rustavi şəhərindən və altı bələdiyyədən (Dmanisi (Başkeçid), Bolnisi (Bolus), Marneuli (Sarvan), Qardabani (Qarayazı), Salka, Tetri-Skarodan (Ağ-bulaq)) ibarətdir.

Gürcüstanda Kaxeti ilə yanaşı Aşağı Gürcüstan (Kvemo-Kartlı – Borçalı) azərbaycanlı əhalinin ən çox yaşadığı diyardır. 2002-ci ildə rəsmi siyahıyaalınmaya görə, bölgə əhalisinin sayı 497 min 530 nəfər olmuşdur ki, bunların da 62,5 faizini azərbaycanlılar təşkil etmişdir. 2013-cü ildə isə Gürcüstanda siyahıyaalınma keçirilməsə də rəsmi qurumlar bölgədə əhalinin sayının 511 min nəfərdən artıq olduğu, bu əhalinin isə 45 faizinin azərbaycanlılardan ibarət olduğu ilə bağlı açıqlama vermişdilər.[61]

---

[61] Number of Population as of January 1, 2013 National Statistics Office of Georgia. www.geostat.ge [İstifadə tarixi: 10.24.2017]

***Msxeta-Mtianeti*** **–** Bu diyarın mərkəzi Gürcüstanın qədim paytaxtı olan Msxeta şəhəridir. Tarixi coğrafi baxımdan bu diyarın ərazisində əvvəllər Ertso-Tianeti, Mtiuleti, Xevi, Xevsureti, Pşaviya və Daxili Kartli bölgələri ayrılırdı. Hal-hazırda isə inzibati baxımdan diyar 5 hissəyə ayrılır: Duşeti, Kazbegi, Msxeta, Tianeti, Axalqori. Gürcüstanın müstəqilliyini əldə etməsindən sonrakı illərdə Sxinvali regionunda osetinlərin separatçı fəaliyyətləri və qondarma Cənubi Osetiya Respublikasının elan edilməsindən sonra bu diyarın hissələrindən biri olan Axalqori də separatçıların əlinə keçmişdir və hal-hazırda da osetinlərin nəzarətindədir. Şərqdən Kaxeti və Tuşeti, cənubdan Kvemo-Kartli (Borçalı) və Tbilisi, qərbdən Şida-Kartli diyarı və Sxinvali regionu ("Cənubi Osetiya Respublikası"), şimaldan isə Rusiya Federasiyası ilə həmsərhəddir. Msxeta-Mtianetinin əhalisi əsasən gürcülərdən ibarətdir.

Gürcüstanın mərkəzi hökuməti ilə Cənubi Osetiyanın separatçı rejimi arasında baş verən hərbi toqquşmalar regionda əhalinin müxtəlif istiqamətlərdə yerdəyişmələri və azalması ilə nəticələnmişdir. Məhz bunun nəticəsidir ki, 2002-ci ildə Msxeta-Mtianetidə 125 min 443 nəfər olduğu halda 2008-ci ilin əvvəlində 118,100 nəfər, 2009-cu ildə isə (Axalqori bələdiyyəsi istisna olmaqla) 97,600 nəfər yaşamışdır. Region əhalisinin 92 faizdən artığı gürcülərdən və gürcülərin subetnik qrupları sayılan pşavlar, moxevlər və xevsurlardan ibarətdir. Burada yaşayan qeyri-gürcü etnik qrupları içərisində osetinlər və azərbaycanlıların adları qeyd oluna bilər.

***Raça-Leçxumi və Aşağı Svaneti*** – Mərkəzi Ambrolauri olan bu diyar 1994–1996–cı illərdə həyata keçirilmiş inzibati islahatlar nəticəsində təşkil edilmişdir. Ərazisi 4990 $km^2$-dır. Şimaldan Rusiya Federasiyası, şərqdən Sxinvali regionu ("Cənubi

Osetiya"), cənubdan İmereti, qərbdən isə Sameqrelo-Yuxarı Svaneti diyarı ilə həmsərhəddir.

Tarixi-coğrafi baxımdan isə bu diyarın ərazisi 3 tarixi vilayəti birləşdirir: Raça, Leçxumi və Aşağı Svaneti. Müasir dövrdə diyar inzibati baxımdan Abrolauri, Lentexi, Oni və Tsageri bələdiyyələrinə bölünmüşdür. 2016-cı il statistikasında diyarın əhalisi 31 min 500 nəfər olaraq göstərilmişdir. Əhalisinin 99 faizi gürcülər və gürcülərin subetnik qruplarından ibarətdir. Əhali gürcü dilində danışır. Yalnız Aşağı Svanetinin bəzi hissələrində yaşlı nəslin nümayəndələri svan dilində danışırlar.

***Sameqrelo-Yuxarı Svaneti*** – Ərazisi 7441 $km^2$, inzibati mərkəzi Zuqdidi şəhəri olan bu diyar da 1994-1996-cı illərdə keçirilən inzibati islahatlar nəticəsində təşkil edilmişdir. Tarixi, coğrafi baxımdan üç tarixi vilayəti Sameqrelo (Meqreliya), Zemo Svaneti (Yuxarı Svaneti) və Zuqdidini birləşdirir. Müasir dövrdə isə inzibati baxımdan 9 hissəyə ayrılır. Poti şəhəri, Abaşa, Zuqdidi, Martvili, Mestia, Senaki, Tsxorosku, Tsalenjika, Xobi bələdiyyələri. Şimaldan Rusiya Federasiyası, şərqdən Raça-Leçxumi və Aşağı Svaneti diyarı və İmereti diyarı, cənubdan Quriya, qərbdən Abxaziya Muxtar Respublikası ilə həmsərhəddir. Poti limanı vasitəsi ilə cənub-qərb istiqamətində Qara dənizə çıxışı vardır. 2016-cı ilin statistikasına əsasən əhalisinin sayı 329 min nəfərdən artıq olmuşdur. Gürcüstanın rəsmi siyahıyaalınmasının nəticələrinə görə, 2002-ci ildə əhalinin 98,9 faizi gürcülərdən, 0,9 faizi ruslardan ibarət olmuşdur. Bundan əlavə regionda abxazlar, yunanlar, ukraynalılar da yaşamaqdadırlar. Gürcülərin subetnik qrupları olan meqrellər və svanlar öz dillərində danışırlar. Dini baxımdan əhalisinin 99 faizi xristian-pravoslavlardır. Konfessional tərkibinə görə ikinci yerdə say etibarı ilə müsəlmanlar dayanırlar.

***Şida-Kartli və yaxud Daxili Kartli diyarı*** – Ərazisi 5696 $km^2$ olan bu diyarın ərazisinin 20 faizi Cənubi Osetiyadakı separatçı qurumun nəzarəti altındadır. Əslində "Cənubi Osetiya Respublikası"nın "paytaxtı" hesab edilən Sxinvalinin özü Şida Kartli diyarının tərkib hissəsidir. Şida-Kartli regionunun mərkəzi hazırda Qori şəhəridir. Diyar beş hissəyə ayrılır.

1) Cava bələdiyyəsi – Şida-Kartli regionuna daxil edilən bu bələdiyyənin ərazisi hal-hazırda tamamilə Cənubi Osetiya separatçılarının nəzarəti altındadır.
2) Xaşuri bələdiyyəsi.
3) Kareli bələdiyyəsi - Keçmiş Cənubi Osetiya Muxtar Vilayətinin Znauri rayonunu da əhatə edir və ərazisinin bir hissəsi hazırda osetin separatçılarının nəzarətindədir.
4) Kaspi bələdiyyəsi.
5) Qori bələdiyyəsi – Bu bələdiyyənin ərazisi keçmiş Cənubi Osetiya Muxtar Vilayətinin Sxinvali rayonunu əhatə edir və hazırda qismən işğal altındadır

2014-cü ilin rəsmi məlumatlarına görə, diyarın əhalisinin sayı 313 min 800 nəfər, 2016-cı ilin məlumatlarına görə isə 263 min 800 nəfər olmuşdur. Separatçı Cənubi Osetiyanın ərazisi də nəzərə alınarsa regionun əhalisi əsasən osetinlərdən və gürcülərdən ibarətdir. Kaspi rayonunun 6 kəndində, Qorinin isə 2 kəndində azərbaycanlılar yaşayırlar.

Əsas şəhərləri Qori, Xaşuri, Surami, Kaspi və Karelidir.

Gürcüstanın hüquqi cəhətdən beynəlxalq səviyyədə tanınmış ərazisində qurulmuş separatçı "Cənubi Osetiya Respublikası"nın "paytaxtı" Sxinvali şəhəridir.

İrandilli xalq olan osetinlərin əsas məskunlaşma arealı Şimali Qafqazdır. Tarixçilər bu xalqı alan tayfalarının nəsilləri hesab edirlər. Orta əsrlərdə Bizansın təsiri ilə xristianlaşsalar da, Şi-

mali Qafqazda yaşayan osetinlərin bir qismi kabardinlərin təsiri ilə islam dinini qəbul etmişlər. İndi Rusiyanın federasiya subyektlərindən biri sayılan Şimali Osetiya əraziləri hələ XVIII əsrin 60-cı illərində çar Rusiyası tərəfindən işğal edilmişdir. 1801-ci ildə Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə hazırda "Cənubi Osetiya" adlandırılan Sxinvali regionu da çar Rusiyasının nəzarətinə keçmişdir. Çar Rusiyasının dağılmasından sonra Cənubi Qafqazda müstəqil dövlətlər yaranarkən Sxinvali regionu məhz Gürcüstanın tərkibində olmuşdur. Şimali Osetiya ərazisi isə o zaman Terek Respublikasının tərkibində idi. Osetinlərin bolşeviklərə meyil etməsi Gürcüstan Demokratik Respublikasının menşevik hökumətini narahat edirdi. Bunun da nəticəsində 1918-1920-ci illərdə osetinlər tərəfindən bir neçə dəfə mərkəzi hökumətə qarşı çıxışlar baş vermişdi. Sonuncu və ən güclü üsyan 1920-ci ildə baş verdi, həmin vaxt mərkəzi Gürcüstan hökuməti osetinlərə qarşı Sxinvaliyə böyük bir nizami ordu göndərdi. Üsyan yatırıldı.

1921-ildə Qırmızı Ordu Gürcüstanı işğal etdikdən sonra Gürcüstan SSR yaradıldı. 1922-ci ildə Gürcüstan SSR-in tərkibində Cənubi Osetiya Muxtar Vilayətinin yaradıldığı elan olundu. XX əsrin 80-ci illərin sonundan etibarən SSRİ-də baş verən ictimai-siyasi proseslərin nəticəsində gürcülərlə osetinlər arasında toqquşmalar başladı. 1988-ci ildə osetin millətçiləri Cənubi Osetiya Xalq Cəbhəsinin yaradıldığını elan etdilər. 1989-cu ildə Gürcüstan Ali Soveti tərəfindən gürcü dilinin ölkənin yeganə rəsmi dili elan edilməsi, regional idarəçiliklərin ləğvi cəhdləri iki tərəf arasında münaqişələri daha da qızışdırdı. Nəticədə, 1990-cı il

sentyabr ayının 20-də separatçılar "Cənubi Osetiya Demokratik Respublikası"nın SSRİ daxilində "müstəqilliyini" elan etdilər.[62]

Bu dövrdə Gürcüstanda gürcü millətçiliyinin yüksəlməsi, eləcə də o zamankı ölkə prezidenti Zviad Qamsaxurdianın tutduğu mövqe münaqişənin dinc yolla aradan qaldırılmasına imkan vermədi. 1991-ci il yanvarın 5-də gürcü ordusunun Sxinvaliyə daxil olması ilə Gürcüstan tarixində I Cənubi Osetiya müharibəsi başladı. Pərdəarxasında əslində Qafqazı əldə saxlamaq üçün belə separatçılıq fəaliyyətlərinə gizli dəstək verən Rusiyanın qoşunları osetin xalqını müdafiə etmək adı altında gürcülərə qarşı vuruşmağa başladı. Osetinlərin hərbi dəstələrinin və rus qoşunlarının apardığı döyüşlər nəticəsində Sxinvali regionundan gürcü qoşunları sıxışdırılıb çıxarıldı. 1992-ci ildə Gürcüstan atəşkəsə razılıq verdi. Bunun əsas səbəbi Gürcüstanın hərbi olaraq müharibəni uduzması deyil, Rusiya Federasiyasının təzyiqləri olmuşdu. Münaqişə nəticəsində Gürcüstanın müxtəlif ərazilərindən osetinlər Sxinvali regionuna, regiondakı gürcülər isə əksinə Gürcüstanın digər rayonlarına miqrasiya etdilər.

Gürcüstanda Mixeil Saakaşvilinin hakimiyyətə gəlişindən sonra gürcü-osetin münaqişəsi yenidən hərbi qarşıdurmaya çevrildi. 2004-cü ilin iyun ayından etibarən gürcü qoşunları ilə osetin döyüşçüləri və rus əsgərləri arasında bir neçə döyüş baş verdi. Gürcü tərəfi ölkənin ərazi bütövlüyünü bərpa etməyə cəhd göstərsə də bu mümkün olmadı. Hərbi toqquşmalar ərəfəsində Tbilisidə gürcülər mühacir Cənubi Osetiya hökuməti qurdular. Avqust ayına qədər davam edən və çoxlu sayda insanın ölümünə

---

[62] *Chronicle of Events of the Conflict, 1989-1992* www.caucasus.dk/chapter8.htm#Appendix%201:%20Chronicle%20of%20Events%20of%20the%20Conflict,%201989-1992. [İstifadə tarixi:21.09.2018]

səbəb olan döyüşlərdə heç bir tərəf ciddi uğur əldə edə bilmədi. Avqustun 13-də tərəflər arasında yenidən atəşkəs bərpa edildi.

Hazırda separatçılar 3900 $km^2$ əraziyə nəzarət edirlər. Separatçı rejimin nəzarət etdiyi ərazilər inzibati olaraq 4 rayona bölünmüşdür. Bunlar Dzauz, Znaur, Leninqor, Sxinvali rayonlarıdır. Dzauz rayonu bölgənin şimal hissəsini əhatə edir və ərazisi 1448 $km^2$-dir. Şimal hissədən Rusiya Federasiyası ilə həmsərhəddir. Znaur rayonu separatçıların nəzarət etdikləri ərazinin cənub-qərb hissəsini əhatə edir. Rayon yalnız şimal və şimal-şərq istiqamətində separatçıların nəzarətində olan rayonlarla həmsərhəddir. Cənub-qərb, cənub və qərb istiqamətlərində region Gürcüstanın mərkəzi hökumətinin nəzarətində olan ərazilərlə sərhədlənir. Separatçıların nəzarətində olan ərazinin qərb hissəsini əhatə edən Leninqor rayonunun ərazisi təqribən 1011 $km^2$-dir. Separatçı "Cənubi Osetiya Respublikası"nın - əslində isə Gürcüstanın Sxinvali rayonunun separatçıların nəzarətində olan hissəsi 695 $km^2$ ərazini əhatə edir.

Yuxarıda da qeyd edildiyi kimi, Gürcüstanın tərkibində hazırda rəsmi olaraq iki muxtar respublika mövcuddur. Bunlardan birincisi Acarıstan Muxtar Respublikası, ikincisi isə hazırda "müstəqilliyini" elan etmiş, lakin dünya birliyi tərəfindən tanınmamış və Gürcüstanın tərkib hissəsi olan Abxaziyadır.

## 1.3. Gürcüstanın muxtar qurumları

***Acarıstan*** Gürcüstanın cənub-qərbində yerləşən muxtar respublikadır. Muxtar respublikanın ərazisinin böyük hissəsi Qara dənizin sahilində yerləşir. Əhalisinin əksəriyyətini gürcü müsəlmanları olan acarlar təşkil edir. Paytaxtı Batumi şəhəridir.

Batumi limanı regiondakı iri transmilli layihələrin, o cümlədən Avropa-Asiya nəqliyyat dəhlizinin əsas qovşaqlarından biridir.

Qədim dövrlərdən bəri Kolxida və Qafqaz İberiyası dövlətlərinin tərkibində olmuş ərazi təxminən eramızdan əvvəl V əsrdə yunanların koloniyasına çevrilmiş, sonrakı dövrlərdə Roma, Sasani və Bizans imperiyalarının, Ərəb xilafətinin tərkibində olmuşdur. IX əsrdə indiki Acarıstanın ərazisi iki gürcü dövləti Tao-Klarceti knyazlığı və Abxaz krallığı arasında bölüşdürülmüşdür. XI əsrdə Acarıstan Gürcüstanın tərkibinə birləşdirilmişdir. XI əsrdə Səlcuqların, XIII əsrdə isə monqolların yürüşləri Acarıstandan da yan keçməmişdir.

Coğrafi baxımdan strateji əhəmiyyətə malik Acarıstan əsrlər boyu iki böyük imperiyanın – Osmanlı dövlətinin və çar Rusiyasının mübarizə meydanına çevrilmişdir. XVI əsrin ortalarından 1878-ci ilədək indiki Acarıstanın ərazisi Osmanlının nəzarətində olmuşdur.[63]

1921-ci ildə imzalanmış beynəlxalq Moskva və Qars müqavilələrinə əsasən, Gürcüstanın muxtar qurumu olan Acarıstan Muxtar Sovet Sosialist Respublikası 1921-ci il iyulun 16-da yaradılmışdır. Bəzi Gürcüstan tarixçiləri Acarıstanın muxtariyyətini ateizmin dinlərə qarşı qoyulduğu SSRİ-də milli deyil, dini əsaslarla yaradılmış yeganə muxtariyyət hesab edirlər.[64] Bu isə təbii ki, acarları daha çox ayrıca etnik qrup kimi deyil, müsəl-

---

[63] Kəlbizadə E. *Qardaşlaşan muxtariyyətlər: Naxçıvan və Acarıstan*. "Şərq qapısı" qəzeti, 1 mart 2013-cü il, № 40, s. 3

[64] Чедия Б. *Современный грузинский национализм перед вызовами нового тысячелетия*. CA&C Press AB - Института центральноазиатских и кавказских исследований Швеции http://www.ca-c.org/c-g/2011/journal_rus/c-g-1-2/04.shtml [İstifadə tarixi: 08.10.2018]

manlaşmış gürcülər olaraq qələmə verməyə çalışan milliyyətçi əhval-ruhiyyəsini əks etdirir.

Gürcüstanın müstəqilliyini bərpa etməsindən sonra Acarıstan da onun tərkibində muxtar respublikaya çevrilmişdir. Müstəqilliyin ilk illərində Acarıstanın muxtariyyəti daha yüksək səviyyəli olmuşdur. Xüsusən Acarıstanın köklü nəsillərindən birinə mənsub olan Aslan Abaşidzenin muxtariyyətə rəhbərlik etdiyi dövrdə mərkəzdanqaçma meyilləri xüsusən güclü olmuşdur. 2003-cü ildə Gürcüstanda baş verən "Qızılgül inqilabı"ndan sonra isə vəziyyət dəyişmişdir. Heç də təsadüfi deyildir ki, Acarıstanda hakimiyyət dəyişikliyi Gürcüstanın tarixində bəzi ekspertlər tərəfindən "İkinci Qızılgül inqilabı" və yaxud "Qızılgül inqilabı"nın ikinci mərhələsi adlandırılır.

İnzibati baxımdan Acarıstan altı inzibati vahidə bölünür: Batumi şəhəri, Keda, Kobuleti, Xelvaçauri, Şuaxevi, Xulo rayonları.




*Gürcüstanın Acarıstan Muxtar Respublikasının rayonları*

***Batumi şəhəri –*** Acarıstanın paytaxtı olan Batumi Qara dəniz sahilində yerləşir və Gürcüstanın ikinci ən böyük şəhəridir. Ərazisi 64,9 km$^2$, əhalisi isə 2014-ci il statistikasına görə, 163 min 400 nəfərdir.[65]

***Keda rayonu*** – Bu rayonun sahəsi 452 km$^2$, əhalisinin sayı isə 2016-cı il statistikasına əsasən 16,9 min nəfər olmuşdur.[66] Əhalisinin 99,7 faizini acarlar və gürcülər, 0,07 faizini abxazlar, 0,1 faizini ruslar, 0,03 faizini azərbaycanlılar, 0,01 faizini isə ukraynalılar təşkil edir.

***Kobuleti rayonu –*** Bu rayonun ərazisi 720 km$^2$-dir. 2016-cı il yanvarın 1-nə olan vəziyyətə görə Kobuleti rayonunun (bələdiyyəsinin) ərazisində 75,2 min nəfər yaşayır, 2014-cü il yanvarın 1-nə aid məlumatlarda isə bu rəqəm 93,3 min nəfər olaraq göstərilmişdir. Əhalisinin etnik tərkibinə gəlincə bu rayonun əhalisinin də əksər hissəsini acarlar və gürcülər təşkil edirlər. Onlar əhalinin 94,7 faizini təşkil edirlər. Əhalinin tərkibində azərbaycanlılar 0,09 faizdir. Kobuleti əhalisinin tərkibində ruslar (1,9 faiz), yunanlar (1,69 faiz), ermənilər (1,1 faiz) də müəyyən yer tuturlar.

***Xelvaçauri rayonu –*** Ərazisi 413 km$^2$-dir. 2016-cı il yanvarın 1-nə olan vəziyyətə görə əhalisinin sayı 51,7 min nəfər, 2014-cü il yanvarın 1-nə olan məlumata görə isə 62,5 min nəfər olmuşdur. Əhalisinin 97,2 faizini gürcülər və acarlar, 1,1 faizini ruslar, 0,71 faizini abxazlar, 0,4 faizini ermənilər, 0,17 faizini azərbaycanlılar, 0,11 faizini ukraynalılar, 0,10 faizini yunanlar, 0,02 faizini isə osetinlər təşkil edirlər.

---

[65] *2014 General Population Census Main Results General Information.* 28.04.2016 http://census.ge/files/results /Census_release_ENG.pdf, 17 p.

[66] Population Census 2014 www.geostat.ge. National Statistics Office of Georgia. November 2014. [İstifadə tarixi: 2.06.2018]

***Şuaxevi rayonu*** – Ərazisi 588 km$^2$ olan rayonun əhalisi 2016-cı il yanvarın 1-nə olan məlumata görə 15,1 min nəfər, 2014-cü il yanvarın 1-nə olan statistikaya görə isə 22,9 min nəfər olmuşdur. Əhalisinin 99,8 faizi acarlardan ibarətdir.

***Xulo rayonu*** – Bu rayonun ərazisi 710 km$^2$-dir. Ərazisi inzibati baxımdan 1 qəsəbə, 12 icma və 78 kəndə bölünmüşdür.[67] 2016-cı il yanvarın 1-nə olan məlumata görə, bələdiyyənin əhalisinin sayı 23,5 min nəfər olmuşdur. Müqayisə üçün qeyd etmək lazımdır ki, 2014-cü il yanvar 1-nə olan statistik məlumatlarda bu rəqəm 36,1 min nəfər göstərilmişdir. Əhalisinin 99,8 faizi acarlardan ibarətdir.

***Abxaziya Muxtar Respublikası*** – Gürcüstanda sovet hakimiyyətinin qurulmasından sonra 1921-ci il martın 28-də Abxaziya SSR yaradılmışdır. Həmin il dekabrın 16-da Abxaziya SSR Gürcüstan SSR-ə, 1922-ci il dekabrın 13-də Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına (ZSFSR-ə), dekabrın 30-da isə ZSFSR-in tərkibində SSRİ-yə daxil olmuşdur. 1931-ci ilin fevralından Gürcüstan SSR-in tərkibində muxtar respublikaya çevrilmişdir.

XX əsrin 80-ci illərində keçmiş SSRİ-nin digər milli respublikalarında olduğu kimi Gürcüstanda da millətçilik hərəkatı güclənmiş, nəticədə 1992-1994-cü illərdə abxaz-gürcü münaqişəsi baş vermişdir. 1994-cü ildə Rusiya qoşunlarını sülhməramlılar adı altında bölgəyə yeritmişdir. 2008-ci ildə Abxaziya və Sxinvali regionu üzərində Gürcüstanın suverenliyini bərpa etməyə cəhd edən Gürcüstan Rusiyanın dəstəyi ilə regionda ciddi müqavimətlə qarşılaşmış, həmin ildə baş verən Rusiya–Gürcüstan müharibəsindən sonra Rusiya birtərəfli qaydada Abxaziyanın müstəqilliyini tanımışdır.

---

[67] შარაძე ამირან. ხულოს მუნიციპალიტეტი www.khulo.ge. [Istifadə tarixi: 24.05.2017]

Dünya birliyi tərəfindən hüquqi olaraq Gürcüstanın tərkibində muxtar respublika sayılan Abxaziya Muxtar Respublikası şimaldan Rusiya Federasiyasının Krasnodar vilayəti və Qaraçay-Çərkəz muxtar respublikası ilə, cənub-şərqdə və cənubda Gürcüstanın Sameqrelo və Zemo-Svaneti diyarı ilə həmsərhəddir.

Tarixən Abxaziyanın ərazisi 6 hissəyə bölünmüşdür: Kiçik Abxaziya, Bzıpın, Qumu, Abjua, Samurzakan, Dal-Sabal, Psxu Aibqa.

F.Bodenştedt, F.Tornau, V.Potto və digər XIX əsr rus müəllifləri tərəfindən Kiçik Abxaziya adlandırılan ərazinin adı bir qrup digər müəlliflərin əsərlərində Ciqeti kimi qeyd edilmişdir. Məsələn, 1745-ci ildə tərtib edilmiş “Gürcüstan coğrafiyası”nda Vaxuşti adlı müəllif bu ərazini məhz Ciqeti adı ilə xatırlamışdı.[68] Bzıpın çayı ilə Xost çayı arasındakı ərazini əhatə edirdi. Digər bir tarixi vilayət olan Bzıpın isə müasir Abxaziya Muxtar Respublikasının Qaqra və Qudaut rayonlarının ərazisində yerləşmişdi, Qaqra dərəsi ilə Qumist çayının arasındakı ərazini əhatə edirdi. Qumu rayonunun ərazisi 1864-cü ilə qədər müasir Suxumi rayonunun, qismən də Qulripşi rayonunun ərazisini əhatə edirdi. [69]

O.V.Maanın yazdığına görə, tarixi Abjua rayonunun ərazisi müasir Oçamçiri və Tkvarçeli rayonlarını əhatə edirdi, Kodor və Oxurey çaylarının arasında yerləşmişdi. [70] Əsas tarixi vilayətlərdən biri olan Samurzakan Abxaziyanın şərq hissəsində idi. Müa-

---

[68] *Известия грузинских летописей и историков о Северном Кавказе и России* // Сборник материалов для описания местностей и племен Кавказа, 1897, № 22. www.vostlit.info/Texts/rus6/Wachushti/otryv1.phtml?id=6111 [İstifadə tarixi: 08.03.2018]

[69] Маан О., Абжуа В. *Историко-этнологические очерки Очамчирского района Абхазии.* Сухум, 2006

[70] Yenə orada

sir Tkvarçeli rayonunun ərazisini və Oçamçiri rayonunun bir neçə kəndinin ərazisini əhatə etmişdir. Bəzi müəlliflər tərəfindən Apsiliya da adlandırılan tarixi Dal-Sabal rayonu Abxazi-yanın Qara dəniz sahili ilə Psırçxa çayı arasındakı ərazini əhatə edirdi.

Abxaziya Muxtar Respublikasının ərazisi 8432 km$^2$-dır. Abxaziya Muxtar Respublikası hazırda 6 rayona bölünür: Qaqra, Qudauta, Suxumi, Qulripşi, Oçamçiri, Tkvarçveli, Qali.




*Gürcüstanın Abxaziya Muxtar Respublikasının rayonları*

***Qaqra rayonu*** **–** Qaqra Abxaziya Muxtar Respublikasının şimal-qərb hissəsində, Qara dənizin sahilində yerləşir. Rusiyanın Krasnodar vilayəti ilə Qaqra rayonunu Psou çayı ayırır. Ərazisi 772 km$^2$-dir. Rayonun əsas yaşayış məntəqələri Qaqra, Pitsunda, Leselidze, Trandipş, Bzibdir.

XX əsrin 80-ci illərinin sonlarında rayonun əhalisinin sayı 77 min nəfərdən artıq idi.[71] 1992-1993-cü illərdə Abxaziyada

[71] *Население Абхазии* www.ethno-kavkaz.narod.ru/rnabkhazia.html. [İstifadə tarixi: 28.09.2018]

Gürcüstandan ayrılmaq uğrunda ermənilərin gizli dəstəyi ilə separatçı hərəkatın başlanması regionun gürcü əhalisinin buranı tərk etməsi ilə nəticələnmişdir. Bunun əvəzində isə Gürcüstanın müxtəlif yerlərindən olan ermənilər müxtəlif bəhanələrlə rayona yerləşməyə başlamışdırlar. 2003-cü il statistikasında regionun əhalisi 37 min nəfər olaraq göstərilirdi.[72] 2003-cü il statistikasına görə, ermənilər Qaqra rayonunun əhalisinin artıq 44,1 faizini (16 min 322 nəfər) təşkil etdikləri halda, abxazlar əhalinin cəmi 27,7 faizini (10 min 235 nəfər) təşkil etmişlər.[73] Bu isə o deməkdir ki, mənfur və planlı iş nəticəsində ermənilər nəinki gürcüləri, hətta abxazların özlərini belə Abxaziya ərazisində milli azlığa çevirməyə çalışırlar. Ermənilərin Qaqra rayonunun ərazisində məskunlaşması gələcəyə hesablanmış məqsədlərdən irəli gəlirdi. Abxaziyanı tarixdə heç bir zaman mövcud olmamış "Böyük Ermənistan" xülyasının Qara dəniz sahillərindəki vilayəti və bir hissəsi hesab edən erməni millətçi təşkilatları gələcəkdə bu ərazilərin ələ keçirilməsini asanlaşdırmaq üçün regionda yerləşir, Gürcüstan dövlətinə qarşı burada fəal iş aparırdılar. Müxtəlif qonşu ölkələrə qarşı separatizmi müxtəlif formalarda həyata keçirən ermənilər Gürcüstanın bu regionunda abxazların guya "müstəqillik" hərəkatlarına dəstək nümayiş etdirməklə öz gələcək məqsədlərini reallaşdırırdılar. Təəssüf ki, abxazların Gürcüstana qarşı başlatdıqları separatizm hərəkatı və iki xalq arasında yaranmış münaqişə daha böyük erməni təhlükəsini görməyə və onun qarşısını almağa imkan vermir. Hazırda rayon əhalisinin 20 faizini ruslar, 3,3 faizini gürcülər, 0,7 faizini isə yunanlar təşkil edirlər.

---

[72] *Абхазия в цифрах за 2014 год.* Сухуми, 2015, с. 16
[73] Yenə orada

***Qudauta rayonu*** **–** Şimaldan Rusiya Federasiyası, şərqdən Suxumi rayonu, cənubdan Qara dəniz, qərbdən isə Qaqra rayonu ilə həmsərhəddir. Ərazisi 1640 $km^2$-dır. Qudauta, Axali Atoni (Yeni Afon) və Lukni əsas yaşayış məntəqələridir. 1989-cu il statistikasına görə, əhalisinin sayı 57 min 334 nəfər olmuşdur.[74] 2003-cü ildə bu rəqəm 34 min 896, 2011-ci ildə isə 36 min 775 nəfər olmuşdur.[75] 2003-cü il statistikasına görə, əhalisinin 81,9 faizini (27 min 512 nəfər) abxazlar təşkil edir. Rayonda yaşayan ermənilər ümumi əhalinin 10 faizini (4141 nəfər), ruslar 5 faizini (2073 nəfər) təşkil edirlər. Bundan başqa rayonda gürcülər, ukraynalılar, belaruslar, yunanlar, osetinlər, tatarlar və türklər də vardır. 2003-cü ildə rayon ərazisində 67 nəfər tatar, 68 nəfər türk qeydə alınmışdır.[76]

***Suxumi rayonu*** – Ərazisi 1523 $km^2$-dir. Əsas yaşayış məntəqələri paytaxt Suxumi və Pskudur. Rayon şimaldan Rusiya, şərqdən Qulripşi rayonu, cənubdan Qara dəniz, qərbdən isə Qudauta ilə həmsərhəddir. 2011-ci il statistikasına görə, paytaxt Suxumi şəhərinin əhalisi 60 min, Suxumi rayonunun əhalisi isə 11 min 531 nəfər olmuşdur.[77] Suxumi rayonu da Abxaziyada ermənilərin məqsədli məskunlaşdıqları rayonlardan biridir. Abxaziyanın paytaxtı və strateji nöqtəsi sayılan Suxumi ətrafındakı ərazilərdən ermənilərin bu şəkildə məskunlaşması və sürətlə artmaları həm Abxaziyanın, həm də Gürcüstanın təhlükəsizliyinə ciddi təhdidlərdən biri kimi qiymətləndirilə bilər. 2011-ci ilin

---

[74] *Население Абхазии* www.ethno-kavkaz.narod.ru/rnabkhazia.html. [İstifadə tarixi: 28.09.2018]

[75] *Абхазия в цифрах за 2014 год.* Сухуми, 2015, с. 16

[76] Yenə orada

[77] *Сухумский район 2011 г.* (2011-ci il siyahıyaalmalarının nəticələri ) www.ethno-kavkaz.narod.ru/suxum11.html [İstifadə tarixi: 01.10.2018]

statistikasına görə, ermənilər Suxumi rayonunun əhalisinin 56,1 faizini (6467 nəfər) təşkil edirlər. Bunun müqabilində isə abxazlar əhalinin 30 faizini təşkil etməkdədirlər.[78]

Qeyd etmək lazımdır ki, Suxumi və ətrafı tarix boyunca ermənilərin deyil, daha çox abxazların və türklərin məskunlaşma arealına daxil olmuşdur. Hələ ilk orta əsrlərdə bu ərazi sak, kimmer, hun türklərinin, X-XI əsrdən etibarən isə qıpçaq türklərinin yayılma arealına daxil olmuşdur. Maraqlıdır ki, XX əsrin əvvəllərinə qədər də Suxumi rəsmi olaraq türklərin qala şəhərlərindən hesab edilərək "Suxum-qala" adlandırılırdı. Bu faktı 1922-ci ildə nəşr edilən "Zəhmətkeş Abxaziyanın səsi" qəzetinin müxtəlif nömrələrindəki məlumatlar da təsdiqləyir.[79]

***Qulripşi rayonu*** – 1835 $km^2$ əraziyə malik olan bu rayonun da bəzi hissələri 2008-ci ildə Kodor dərəsi uğrunda gedən döyüşlər zamanı Gürcüstanın mərkəzi hökumətinin qüvvələri tərəfindən separatçıların nəzarətindən azad edilmişdir. Qeyd etmək lazımdır ki, bu rayon həm tarixi, həm də strateji infrastruktur baxımından separatçıların nəzarətində olan ən əhəmiyyətli rayonlardan biri sayılır. Belə ki, Qulripşi rayonunu ərazisində orta əsrlərdə Dal-Sabal knyazlığı fəaliyyət göstərmişdir. Abxaziyanın ən böyük aeroportunun da rayonun ərazisində yerləşməsi onun strateji əhəmiyyətini artıran amillərdəndir. 2011-ci ilin statistikasına görə, əhalisinin sayı 18 min 32 nəfər olmuşdur. Rayonun həm tarixi, həm də strateji əhəmiyyətini yaxşı anlayan ermənilər burada da abxazları milli azlığa çevirmək niyyəti ilə hərəkət edirlər. Belə ki, bu rayonda əhalinin 46,8 faizini

---

[78] *Сухумский район 2011 г.* (2011-ci il siyahıyaalmalarının nəticələri ) www.ethno-kavkaz.narod.ru/suxum11.html [İstifadə tarixi: 01.10.2018]

[79] Газ. *Голос Трудовой Абхазии*. № 50-186, 2 март 1922 г.

ermənilər təşkil edirlər. Əhalinin 33,6 faizini abxazlar, 11,4 faizini ruslar, 4,6 faizini gürcülər təşkil edirlər. İnzibati baxımdan Qulripşi, Tsalbelda, Dranda, Babuşera, Çkalta kimi yaşayış məntəqələrinə bölünür.

***Oçamçira və Tkvarçveli rayonları*** Abxaziyada separatçı rejimin qurulmasına qədərki dövrdə faktiki olaraq bir inzibati rayonun ərazisi hesab edilirdilər. 1995-ci ildən etibarən isə Oçamçira və Qali rayonlarının ərazilərinin bir hissəsi cəlb edilməklə Tkvarçveli rayonu separatçı rejim tərəfindən ayrıca inzibati bölgü olaraq təşkil edilmişdir. 2008-ci ildə Gürcüstanın mərkəzi hökuməti ilə separatçılar arasında Kodor dərəsi uğrunda aparılan döyüşlərdən sonra ərazinin bir hissəsi Gürcüstanın mərkəzi hökumətinin nəzarətinə keçmiş və separatçılar azad olunan ərazilərdən sıxışdırılaraq çıxarılmışdır. Hazırda Oçamçira rayonu inzibati baxımdan dörd hissəyə ayrılır: Oçamçira, İlori, Labra, Mokvi.

2003-cü il statistikasında rayonun əhalisinin sayı 24 min 629 nəfər göstərilmişdir. Əhalisinin 77 faizini abxazlar, 9,5 faizini isə gürcülər təşkil edirlər. Ermənilər rayon əhalisinin tərkibində saylarına görə üçüncü yerdə dayanırlar.

Tkvarçeli rayonunun əhalisi isə 2011-ci ilin statistikasına görə, 16 min nəfərdən çox olmuşdur. Abxaziyada gürcülərin say üstünlüyünə malik olduqları əsas rayonlardan biridir. Əhalisinin 62,05 faizini gürcülər, 32 faizini abxazlar, 3,4 faizini ruslar təşkil edirlər. Bu rayon həm də ermənilərin say üstünlüyünə malik olmadıqları rayonlardan biridir.

***Qali rayonu*** **–** Yuxarıda da qeyd edildiyi kimi, bu rayonun ərazisinin bir hissəsi 1995-ci ildən sonra Abxaziyanın separatçı rejimi tərəfindən Tkvarçeli rayonunun tərkibinə daxil edilmiş-

dir. Həmin ərazi Gürcüstanın mərkəzi hökumətinin qüvvələri ilə separatçıların qüvvələri arasında ən qanlı toqquşmaların baş verdiyi rayon olmuşdur. Abxaziyada əhalisinin tam əksəriyyətini gürcülər təşkil edən rayonlardan biridir. Belə ki, rayonun əhalisinin 98,7 faizini gürcü-meqrellər təşkil edirlər.

Beləliklə, aparılan tədqiqatlar sübut edir ki, Gürcüstanda 1991-ci ildə SSRİ-nin dağılmasından sonra digər sahələrdə olduğu kimi inzibati bölgü və inzibati idarəçilik institutlarında da bir sıra dəyişikliklər baş vermişdir. Müstəqilliyin ilk 3 ili ərzində aparılan islahatlar təsirli olmamış, ölkədə mərkəzdənqaçma meyilərini gücləndirmişdir. Bu səbəbdən 1994-1996-cı illərdə mərkəzi hakimiyyətin səlahiyyətləri artırılmışdır. Həmin dövrdə aparılan islahatlar nəticəsində ölkənin inzibati-ərazi quruluşunda bir sıra dəyişikliklər də edilmişdir.

# II FƏSİL

## GÜRCÜSTANIN İDARƏÇİLİK SİSTEMİ

### 2.1. Gürcüstanda prezidentlik institutunun formalaşması

SSRİ-nin dağılması, İttifaq üzvü olan dövlətlərin müstəqillik və suverenliklərini bərpa etməsi müstəqil dövlətlərin idarəçilik sisteminin hüquqi cəhətdən təsbit olunmasını zəruri etdi. Bir çox post-sovet ölkələri respublika idarəetmə formasını seçmiş və prezidentlik institutunun təşəkkülünün təməlini qoymuşdurlar. Gürcüstan da belə dövlətlərdən biri oldu.

Gürcüstanda "yenidənqurma" dövründə uzun müddət sıxışdırılmış milli təfəkkür leqallaşdırıldı. 1991-ci il martın 31-də Gürcüstan SSR-də referendum keçirildi, Gürcüstanın dövlət müstəqilliyinin bərpasının lehinə əhalinin 98,9 faizi səs verdi. 1991-ci il aprelin 9-da Gürcüstanın Ali Soveti "Dövlət müstəqilliyinin bərpası haqqında" Aktı qəbul etdi. 1990-cı il oktyabrın 28-də yeni seçki qanununa edilmiş dəyişikliklərə əsasən Gürcüstan parlamentində ilk dəfə olaraq sərbəst, çoxpartiyalılıq şəraitində seçkilər keçirildi. Bu seçkilərdə Zviad Qamsaxurdianın rəhbərlik etdiyi radikal milli "Dəyirmi Masa - Azad Gürcüstan" siyasi bloku qalib gəldi. Blok parlamentdəki 250 yerdən 155-ni tutdu. Bu prosesin məntiqi davamı olaraq prezidentlik institutunun yaradılması haqqında qanun parlamentdə qəbul edildi. Gürcüstan Respublikasında prezident vəzifəsinin təsis edilməsi və onun

hüquqi statusu 1991-ci il aprelin 14-də “Konstitusiya dəyişiklikləri və ona əlavələr edilməsi” haqqında qanunda təsbit edildi.[80]

1991-ci il mayın 26-da Z.Qamsaxurdia 86 faiz səs qazanaraq prezident seçkilərində qalib gəldi. Qeyd etmək lazımdır ki, bu seçkidə N.Natadze (Gürcüstan Milli Cəbhəsi, Respublika Partiyası və Milli Demokrat Partiyası), İ.Şengelaya (Tavisupleba (Azadlıq) bloku), İ.Mikeladze (Gürcüstan Kommunist Partiyası) və T.Kvatantiradze (Azad Demokratlar İttifaqı) da iştirak edirdi. Səslər aşağıdakı kimi bölüşdürülmüşdü:

1. Zviad Qamsaxurdia - 86, 52 faiz;
2. Valerian Advadze - 7, 59 faiz;
3. Cemal Mikeladze – 1,65 faiz;
4. Nodar Natadze – 1,17 faiz;
5. İrakli Şengelaya - 0,85 faiz;
6. Tamaz Kvatantiradze - 0,28 faiz.

Beləliklə, 1991-ci il mayın 26-da Z.Qamsaxurdia ümumxalq səsverməsi ilə Gürcüstanın ilk prezidenti seçildi.[81] Prezident Z.Qamsaxurdiaya qanunvericiliklə qeyri-məhdud hakimiyyət verildi. O, hakimiyyətə gəldiyi vaxtdan etibarən dövlət nəzarəti və vətəndaş cəmiyyətinin demokratikləşməsi zərurətindən imtina etdi və vətəndaş cəmiyyətinin daim “Dəyirmi Masa” tərəfindən nəzarət edilməsinə cəhd etdi və avtoritar rejim yaratmağa başladı. O, qanunvericilik və icra hakimiyyəti orqanlarını və KİV-i inhisara götürdü, kommunist rejiminin son mərhələsində başlayan liberallaşma prosesini və Gürcüstanın mərkəzsizləşdirmə prosesini dayandırdı. Gürcüstanın bütün bölgələrində prezidentə tabe

---

[80] *Ведомости Верховного Совета Республики Грузия.* 1991 № 4. ст. 294, https://iberiana.wordpress.com/zviad-gamsakhurdia/verxovnisovet/ [İstifadə tarixi: 08.11.2018]

[81] არჩევნების ისტორია. თბილისი, 2009

olan yerli prefektlər təyin edildi. Qeyri-məhdud və nəzarətsiz hakimiyyəti olan və yalnız Gürcüstan prezidentinə tabe olan prefektlər - prezidentin birbaşa nümayəndələri idilər. Eyni zamanda, "Dəyirmi Masa" iqtisadi islahatlar və özəlləşdirməni demək olar ki, dayandırdı. Bu da iqtisadiyyatda fəlakətli tənəzzülə və siyasi vəziyyətin pisləşməsinə gətirib çıxartdı.

Z.Qamsaxurdianın hakimiyyəti illərini ölkə ərazisinin bir hissəsi üzərində nəzarətin itirilməsi, yüz minlərlə insanın qaçqına çevrilməsi, iqtisadi şəraitin pisləşməsi, əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsi, etnik münaqişələr ilə xarakterizə etmək olar. Onun Gürcüstandakı milli azlıqlara, xüsusən də azərbaycanlılara qarşı olduqca mənfi münasibətini xüsusi qeyd etmək lazımdır. Minlərlə azərbaycanlı Z.Qamsaxurdianın siyasətindən əziyyət çəkmiş, çoxları evlərini tərk etmişdirlər. Əsasən azərbaycanlıların yaşadıqları kəndlərin adları dəyişdirilərək gürcüləşdirilməyə başlanılmışdı. Yalnız Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycan Respublikasında və Eduard Şevardnadzenin Gürcüstanda hakimiyyətə gəlmələri ilə bu ölkədə yaşayan azərbaycanlıların vəziyyəti yaxşılaşmış, Azərbaycan Respublikası ilə Gürcüstan arasında mehriban qonşuluğun və strateji tərəfdaşlığın təməli qoyulmuşdu. Azərbaycanlılar yaşadıqları Gürcüstanda heç vaxt dövlətçilik üçün problem yaratmamış, ölkə qanunlarına əməl etmiş və həmişə Gürcüstan xalqı ilə ölkənin rifahı üçün çalışmışlar.

Sentyabrın əvvəllərində başlanmış siyasi hadisələr nəticəsində Z.Qamsaxurdianın "Dəyirmi Masa" rejimi çökməyə başladı. Hökümət Milli Demokratik Partiyanın nümayişçilərini dağıtmağa başladı və bu da güclü bir etiraz dalğasına səbəb oldu. Bütün müxalif qüvvələrin nümayəndələri etiraz aksiyalarında iştirak etdilər. Vəziyyət dekabrın 21-də özünün ən yüksək həddinə

çatdı. T.Kitovaninin komandalığı altında Milli Qvardiya Z.Qamsaxurdia və onun tərəfdarlarının olduqları Ali Sovetin binasının ətrafını mühasirəyə aldı. Münaqişənin dönüş nöqtəsi müxalifətin hərbi qüvvələri birləşdirmək üçün Hərbi Şuraya rəhbər T.Siquanı təyin edə bilməsi oldu. 1992-ci il yanvarın 6-da gecə Z.Qamsaxurdia Gürcüstanı tərk etdi və hakimiyyət Hərbi Şuranın əlinə keçdi. Sonra hakimiyyət Gürcüstana qayıtmış Gürcüstan Kommunist Partiyasının keçmiş birinci katibi və SSRİ-nin Xarici İşlər naziri Eduard Şevardnadzenin rəhbərlik etdiyi Dövlət Şurasına verildi. E.Şevardnadze prezident Z.Qamsaxurdianın devrilməsindən sonra yaradılmış Dövlət Şurasına rəhbərlik etməyə başladı. 1992-ci ilin oktyabrında E. Şevardnadze parlamentin sədri, əslində isə Gürcüstan dövlətinin başçısı seçildi. Gürcüstanda E.Şevardnadzenin hakimiyyəti dövrü başladı. [82]

Gürcüstanda "keçid dövrünün" xarakterik xüsusiyyətləri siyasi elitanın tamamilə bir-birindən ayrılması, ərazi itkiləri, vətəndaş müharibəsi, iqtisadiyyatın dağılması, dərin siyasi böhranın və cinayətlərin artması idi. L.Tarkxinişvili qeyd edir ki, bunun səbəbləri: birincisi, köhnə kommunist elitanın yeni sözdə islahatçı və texnokratik olan elita tərəfindən əvəz olunması; ikincisi, hakimiyyətdə olan köhnə kommunist elitanın əvvəlki kimi qalması idi.[83]

Tədqiqatlar sübut edir ki, yuxarıda qeyd edilən siyasi dəyişikliklər iqtisadi siyasətə ciddi təsir göstərmişdir. Nəticədə, 1994-cü ildə Gürcüstan iqtisadiyyatı faktiki olaraq mövcud olmamışdır. E.Şevardnadze hakimiyyətə gəldikdən sonra cüzi də olsa dəyişikliklər həyata keçirilmişdir. Lakin ictimai həyatın digər sahələrin-

---

[82] Таркхинишвили *Л. Грузия: путь к демократии?* Пер. с англ. Ирины Синициной. Варшава, 1997 г. с. 24.
[83] Yenə orada

də, o cümlədən təhsil sahəsində nəzərə çarpacaq dəyişikliklər olmamış, köhnə sovet sistemi qorunub saxlanılmışdır.

Beynəlxalq Valyuta Fondunun (BVF) yardımı ilə, islahatların həyata keçirilməsi nəticəsində iqtisadi tənəzzül dayandırılmış və iqtisadiyyatın bərpasına başlanılmışdır. Ekspertlər belə hesab edirlər ki, E.Şevardnadze dövrünün əsas nailiyyətlərindən biri Gürcüstanın Azərbaycanın da yaxından köməyi ilə tranzit ölkə funksiyasını yerinə yetirməsi olmuşdur. 1995-ci ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair sazişin imzalanması buna ən bariz nümunələrdən biri olmuşdur.

E.Şevardnadzenin iqtisadi sabitləşdirmə tədbirləri onun siyasi nüfuzunun artmasına səbəb olmuşdur. O, iqtisadi sabitliklə yanaşı, Gürcüstanın beynəlxalq aləmdə nüfuzunu əhəmiyyətli dərəcədə artıran ictimai təhlükəsizliyin güclənməsinə nail olmuşdur. E.Şevardnadze qonşu ölkələrlə dostluq əlaqələrini genişləndirmiş və 1993-cü ildə Gürcüstan MDB-yə daxil olmuşdur.

1995-ci il noyabrın 5-də ölkədə ikinci prezident seçkiləri keçirilmişdir. Burada E.Şevardnadze seçicilərin 75 faizinin dəstəyini aldı. İkinci yeri Şevardnadzenin əsas rəqibi, 1985-1989-cu illərdə Gürcüstan Mərkəzi Komitəsinin birinci katibi olmuş, səslərin 19,3 faizini qazanmış J.Patiaşvili tutdu. Prezidentliyə digər namizədlər R.Liparteliani, A.Bakradze, P.Georgadze, K.Qaribaşvili idi.[84]

Gürcüstanın Əsas Qanunu – Konstitusiyası 1995-ci il avqustun 24-də qəbul edilmiş, Konstitusiyaya əsasən Gürcüstanda güclü prezidentlik institutu yaradılmışdı. Konstitusiya 1995-ci ildə nəzərdə tutulmuş klassik ənənələri müəyyənləşdirmiş, hakimiyyət qolları arasında bölgünü reallaşdırmışdır. Bir sözlə, bununla o, prezidentlik idarəetmə formasını möhkəmləndirirdi.

---

[84] საქართველო - არჩევანის, თბილისი, 2010

1995-ci il Konstitusiyasına əsasən Gürcüstanın prezidenti dövlət başçısı olmaqla yanaşı, eyni zamanda icra hakimiyyətinə də nəzarət edirdi. Prezident hökumətin formalaşmasına daha çox təsir göstərə bilirdi və hökumətin strukturunu, dövlət nazirinin tövsiyələrinə əsasən nazirləri, birinci müavinləri təyin edə bilərdi. Bu, hökumətin fəaliyyətinə tam nəzarət etmək demək idi. Nazirlər yalnız prezidentə hesabat verirdilər və yalnız prezident onları vəzifələrindən azad etmək hüququna malik idi. Bundan başqa, icra hakimiyyəti orqanlarının nəzarət funksiyalarına əlavə olaraq, prezident qanunvericilik prosesəsinə də müdaxilə etmək hüququna malik idi. Prezident həmçinin köhnə hüquqlarını qorudu və o:

- regional nümayəndələri, rayon başçılarını, dövlət qurumlarının rəhbərlərini təyin edir və vəzifədən azad edirdi;
- Gürcüstanın səfirlərini və diplomatik nümayəndələrini təyin edirdi, o, yerli hakimiyyət orqanlarının fəaliyyətini dayandıra və ya onları ləğv edə bilərdi;
- Gürcüstan Milli Bankının prezidentini təyin edirdi;
- Gürcüstan Parlamentinin və Ali Məhkəməsinin sədrlərinin, hakimlərin, Baş prokurorun namizədliklərini tövsiyə edirdi;
- Gürcüstan Silahlı Qüvvələrinin strukturunu təsdiqləyirdi. Bundan əlavə, prezident Gürcüstan Silahlı Qüvvələrinin Ali Baş Komandanı hesab olunurdu və Gürcüstanın xarici siyasətini müəyyənləşdirirdi.[85]

---

[85] *Конституционный закон Грузии О внесении изменений в Конституцию Грузии.* https://matsne.gov.ge/ru/document/view 3811818?publication=1 [İstifadə tarixi: 14.11.2018]

Prezident qanunvericilik təşəbbüsünə və veto hüququna malik idi. Prezident parlamentdə qəbul edilmiş qanunu Konstitusiya məhkəməsinə göndərə bilər, öz təşəbbüsü və ya azı iki yüz min seçicinin tələbi ilə referendum elan edə bilər, eləcə də növbədənkənar parlament iclasını çağıra bilərdi. Prezident yanında məşvərətçi orqan olan hökumət dövlət nazirindən və nazirlərdən ibarət idi.

1995-ci il Konstitusiyasına əsasən Gürcüstanda idarəetmə sistemi dörd səviyyədən: mərkəzi, regional, rayon və yerli səviyyələrdən ibarət idi. Mərkəzi idarəetmə səviyyəsində Gürcüstan Amerika modelini seçdi. Belə ki, mərkəzi idarəetmə sistemi dövlət başçısı və icra hakimiyyətinin başçısı olan, beş il müddətinə seçilən prezident; dörd il müddətinə seçilən və prezidentə tabe olan parlament; Ali və Konstitusiya Məhkəməsinin daxil olduğu məhkəmə sistemindən ibarət idi.

Gürcüstanda 1999-cu ildən başlayaraq demək olar ki, hər il Konstitusiyaya dəyişikliklər və əlavələr edilmiş, addım-addım prezidentlik institutunun möhkəmləndirilməsi baş vermişdir. Məsələn, 1999-cu il Konstitusiyasına olunan əlavə və dəyişikliklərə əsasən parlament seçkilərində iştirak edən partiyalar 5 faizlik deyil, ən azı 7 faizlik səddi keçməli idilər.

2000-ci il aprelin 9-da növbəti prezident seçkilərində E. Şevardnadze 79,8 faiz səs toplayaraq yenidən prezident seçildi. Onun rəqibləri arasında demək olar ki, heç bir dəyişiklik olmadı. Prezidentlik seçkilərində yenə altı namizəd: J.Patiaşvili, K.Qaribaşvili, A.Jaqladze, V.Jqenti, T.Asanidze təmsil olunurdu. Ancaq prezidentlik müddətinin sonuna qədər hakimiyyətdə qalmaq E.Şevardnadzeyə nəsib olmadı. O, prezidentlik müddətinin sona çatmasına az qalmış, "Qızılgül inqilabı" nəticəsində devrildi. Bu,

Gürcüstanın müasir siyasi tarixində yeni bir səhifə oldu. 2003-cü il noyabrın 22-də Tbilisidə müxalifətin parlamentə daxil olması və prezident E.Şevardnadzeni devirmək üçün baş verən hadisələr Gürcüstan tarixinə "Qızılgül inqlabı" kimi düşdü. Bu hadisə ilə Gürcüstanın E. Şevardnadze dövrü başa çatdı.

2003-cü il noyabrın 23-də E.Şevardnadze istefa verdi, nəticədə M.Saakaşvili hakimiyyətə gəldi. Gürcüstanın müasir siyasi tarixində iqtisadi və siyasi sistemlərin islahatlarının həyata keçməsi dövrü başlandı.

Beləliklə, siyasətdə və iqtisadiyyatda müəyyən bir sabitləşmə ilə xarakterizə olunan E.Şevardnadze dövrü bitdi. Lakin E.Şevardnadze də Z.Qamsaxurdia hökuməti kimi əsas vəzifəsini yerinə yetirə bilməmiş, ölkənin ərazi bütövlüyü təmin olunmamış və demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti tamamilə formalaşmamışdı.

## 2.2. "Qızılgül inqilabı"ndan sonra prezidentlik institutunun zaiflamasi

Qeyd etmək lazımdır ki, M.Saakaşvilinin siyasi karyerası 1993-cü ildə E.Şevardnadze tərəfindən yaradılan və 1995-ci ildə parlament seçkilərində qalib gələn Gürcüstan Vətəndaş İttifaqı partiyasından başlamışdır.

2000-ci ildə E.Şevardnadzenin hakimiyyəti dövründə M.Saakaşvili Ədliyyə Naziri vəzifəsinə təyin edilmişdi. Lakin tezliklə o, müxalifətə keçmiş və 2001-ci ildə öz tərəfdarları ilə "Gürcüstanın xilası üçün Milli Hərəkatı" təsis etmişdi. M.Saakaşvili 2002-ci ildə həmin təşkilatın adını dəyişdirərək Vahid Milli Hərəkat adlandırmışdı.

2004-cü il yanvarın 4-də Gürcüstanda növbədənkənar prezident seçkiləri keçirilmiş, M.Saakaşvili 96 faiz səs qazanmışdı. 2004-cü il martın 28-də isə parlament seçkilərində Vahid Milli Hərəkat 68 faiz səs toplamışdı.[86]

Yeni rəhbərlik dərhal Qərb standartlarına uyğun islahatlara və modernləşməyə başladı. Ölkədə baş verən ilk islahat Gürcüstan bayrağının dəyişməsi oldu. 2004-cü il yanvarın 25-də yeni bayrağın təsis olunması haqqında fərman imzalandı. İdarəçiliyin yaxşılaşdırılması məqsədi ilə ölkədəki nazirliklərin sayı 18-dən 13-dək azaldıldı. Gürcüstanın siyasi sosial strukturunun müxtəlif sahələrində bir sıra islahatlar aparıldı. Yeni hakimiyyət ölkənin NATO-ya və Avropa İttifaqına qoşulmaq niyyətlərini açıqladı. Beləliklə, Avropa məkanına inteqrasiya prosesləri başlandı. Aparılan islahatlar öz nəticəsini verdi. Qısa bir müddət ərzində Gürcüstanın bəzi sahələrdəki göstəriciləri yüksəldi. İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının "Korrupsiyaya qarşı mübarizəyə dair İstanbul iş plan"ının Gürcüstanla bağlı hesabatında qeyd olunur: "2010-cu ildə Gürcüstan son 10 il ərzində dünyanın ən islahatçı ölkəsi kimi tanındı".[87] Bütün bu amillər Gürcüstanın beynəlxalq nüfuzunun artmasına gətirib çıxartdı. M.Saakaşvilinin islahatları Gürcüstanın dərin siyasi və sosial-iqtisadi böhrandan tez bir zamanda çıxmasına imkan verdi. Amma bu, Gürcüstanın bütün problemləri həll etdiyini, siyasi və sosial tərəqqinin müəyyən edilmiş hədlərinə çatdığını göstərmirdi.

E.Şevardnadze dövründə olduğu kimi, M.Saakaşvilinin hakimiyyəti illərində də ölkənin əsas qanunu olan – Konstitusiya-

---

[86] საქართველო - არჩევანის, თბილისი, 2010

[87] *Стамбульский план действий по борьбе с коррупцией. Грузия.* Отчет о проделанной работе, 2011 г.

da bir necə dəfə dəyişikliklər edilmişdir. Konstitusiyanın yenidən nəzərdən keçirilməsində məqsəd idarəetməni təkmilləşdirmək, vətəndaş cəmiyyəti və demokratiyanı möhkəmləndirmək, vətəndaşların hüquqlarını qorumaq olmuşdur. 2004-cü ildən 2010-cu llədək Konstitusiyaya 17 dəyişiklik və əlavələr edilmişdi. 2004-cü il fevralın 6-da qəbul edilmiş dəyişikliklərə əsasən icra hakimiyyətinin funksiyaları hökumətə verilmişdi və Gürcüstan prezidenti Gürcüstan dövlətinin başçısı elan edilmişdi. Bundan əlavə, prezident administrasiyası dövlət aparatından ayrılmışdı.

2004-cü ildə Gürcüstan hökumətində Baş Nazir vəzifəsi yaradılmış, bu, Gürcüstanın parlament respublikasına keçidinə doğru atılan ilk addım olmuşdur.

2008-ci ildə M. Saakaşvili 53 faiz səslə növbəti prezident seçkilərində qalib gələrək hakimiyyəti əlində saxlamağı bacara bilmişdi. 2008-ci il martın 11-də qəbul edilmiş Konstitusiyada yeni dəyişikliklərə əsasən seçki həddi 7 faizdən 5 faizə endirilmiş, eləcə də, deputatların seçilməsində majoritar sistem tətbiq olunmuşdu.

Konstitusiyaya 2010-cu ildə növbəti dəfə yenidən əlavələr və düzəlişlər edildi. Dəyişikliklərə əsasən prezident səlahiyyətlərinin azaldılması, hökumətin və parlamentin səlahiyyətlərinin genişləndirilməsi, parlamentin Tbilisidən Kutaisiyə köçürülməsi nəzərdə tutulmuşdu. 2013-cü ildə prezident "Gürcüstan dövlətinin birlik və milli müstəqillik qarantı" adlanırdı. 2013-cü ildən sonra prezidentin səlahiyyətlərinin siyahısı kəskin şəkildə azalıdıldı, Baş Nazirin səlahiyyətləri isə genişləndirildi. Hökumət yalnız hakimiyyətin ən ali orqanı olan parlament qarşısında məsuliyyət daşıyırdı. Belə ki, Gürcüstan prezidenti 2013-cü ildən son-

ra formal olaraq ölkəyə rəhbərlik etmiş, real hakimiyyət isə Baş Nazirin əlinə keçmişdi. Bu, parlament respublikasına keçmək üçün atılan ikinci addım olmuşdu.

2012-ci il parlament seçkilərində M.Saakaşvilinin Vahid Milli Hərəkat Partiyası məğlubiyyətə uğradı və Bidzina İvanişvilinin hakimiyyətə gəlməsi ilə hakimiyyət dəyişikliyi başa çatdı. Bir iş adamı kimi Bidzina İvanişvili 2011-ci ildə siyasətə qoşulmuş, 2012-ci ildə keçirilən parlament seçkilərində müxalifət koalisiyası olan Gürcü Arzusu partiyasını yaratmış və seçkilərdə qalib gəlmişdir. Beləliklə, qalib gələn Gürcü Arzusu partiyası hökuməti formalaşdırdı, onun rəhbəri B. İvanişvili Baş Nazir oldu.

2013-cü il oktyabrın 27-də Gürcüstanda prezident seçkiləri keçirildi. M.Saakaşvilinin hakimiyyəti sona çatdı. Prezidentlik uğrunda 23 namizəd mübarizə aparırdı. Konstitusiyaya əsasən, o vaxtkı prezident M. Saakaşvili seçkilərdə iştirak edə bilməzdi, çünki o, 2008-ci ildə artıq ikinci müddətə seçilmişdi. Onun əsas siyasi rəqibi Baş Nazir Bidzina İvanişvili seçki yarışına qatılmadı. 2013-cü ildə B.İvanişvili Baş Nazirlikdən istefa verdi və partiyanı idarə etməkdən imtina etdi, rəsmi olaraq siyasətdən ayrıldı. O, ancaq 2018-ci ildə yenidən siyasətə qayıtdığını elan etdi.[88]

G.Marqvelaşvili Gürcüstanın dördüncü prezidenti seçildi. O, səslərin 61 faizini qazana bildi. Onun rəqibi M.Saakaşvilinin dəstəklədiyi David Bakradze 21,88 faiz səslə ikinci oldu.

Beləliklə, 2013-cü ildə Gürcüstanın müasir tarixində ilk dəfə olaraq dövlət başçısı inqilab və ya vətəndaş qarşıdurması nəticəsində deyil, dinc yolla seçildi. Gürcüstanın dövlət başçıla-

---

[88] *Бидзина Иванишвили возглавит партию «Грузинская мечта – Демократическая Грузия».* www.1tv.ge/ru/news/bidzina-ivanishvili-vozglavit-partiju-gruzinskaja-mechta-demokraticheskaja-gruzija/ [İstifadə tarixi: 08.10.2018]

rının heç biri prezident vəzifəsindən könüllü getməmişdir: Z.Qamsaxurdia hərbi çevrilişin qurbanı olmuş, E.Şevardnadze isə müxalifətçilərin təzyiqi altında istefa vermişdi.

Gürcü Arzusu iqtidar partiyasının hakimiyyətə gəlməsi ilə Gürcüstanın Avropaya inteqrasiya siyasəti davam etdirildi. Müxalifət və ölkənin hakimiyyət orqanları bəyan etdilər ki, inteqrasiya prosesi davam etdirilməli və ölkənin Avropa İttifaqına üzvlüyü ilə sona çatmalıdır.

Amma Gürcüstanın əvvəlki hakimiyyəti kimi, yeni hökuməti də daim dəyişən Konstitusiyadan istifadə etdi. Gürcüstanın Konstitusiyasına düzəlişlər üzərində işləyən hakim Gürcü Arzusu partiyası 2016-cı ildə keçirilən parlament seçkilərində əksəriyyətin səsini qazandıqdan bir ay sonra dəyişikliyə başladı. Yeni layihə üzvlərinin əksəriyyəti Gürcü Arzusu partiyasının nümayəndələrindən ibarət olan Dövlət Konstitusiya komissiyası tərəfindən hazırlanmışdı.

Gürcüstanın yenilənmiş konstitusiya layihəsinin müzakirəsinə həsr olunmuş konfransın açılışında parlamentin sədri İ.Kobaxidze dedi:

*"Bu iş Gürcüstanın Konstitusiyasına, ölkənin Əsas Qanununa aiddir. Bu sənəd Gürcüstanda demokratik proseslərin inkişafı üçün çox möhkəm bir təməl qoymalıdır. Ölkədəki Konstitusiya necədirsə, siyasi sistem, siyasi proseslər də elə olur. Bunu Gürcüstanın təcrübəsi çox yaxşı göstərmişdir."* [89]

Proses Venesiya Komissiyasının (rəsmi olaraq 1990-cı ildə Avropa Şurasında yaradılan Konstitusiya hüququna dair qurum

---

[89] *В Берлине на конференции обсуждают изменения в конституцию Грузии*. 22.05.2017 www.newsgeorgia.ge/v-berline-na-konferentsii-obsuzhdayut-izmeneniya-v-konstitutsiyu-gruzii/[İstifadə tarixi: 7.10.2018]

olan Konstitusiya hüququ problemlərinə təsir edən qanunları təhlil edən Avropa Komissiyasının (Demokratiya üzrə Avropa Komissiyası) köməkliyi ilə həyata keçirilmişdir.

Konstitusiya Komissiyası 2017-ci ilin may ayında ölkənin Əsas Qanununa düzəlişlər üzərində işlərini tamamladı. Dəyişikliklərə görə, Gürcüstan tamamilə parlament respublikasına çevrildi və prezidentin funksiyaları əhəmiyyətli dərəcədə azaldıldı. Tənzimlənmədən sonra, Gürcüstan Konstitusiyasının 49-cu maddəsinə uyğun olaraq, müvafiq əlavələr və dəyişikliklər edildikdən sonra, prezidentin səlahiyyətlərinə aşağıdakılar daxil edildi:

1. Gürcüstan Prezidenti Gürcüstan dövlətinin rəhbəri, ölkənin birliyi və milli müstəqilliyinin təminatçısıdır.
2. Gürcüstan Prezidenti Gürcüstan Silahlı Qüvvələrinin Baş Komandanıdır.
3. Gürcüstanda ən azı 15 il yaşayan 40 yaşından yuxarı olan Gürcüstan vətəndaşı prezident seçilə bilər.
4. Gürcüstan Prezidenti hər hansı siyasi partiyaya üzv ola bilməz.
5. Prezident hökumətin razılığı ilə xarici dövlətlərlə ölkəni təmsil etmək səlahiyyətlərini həyata keçirir, xarici dövlətlər və beynəlxalq təşkilatlarla danışıqlar aparır, beynəlxalq müqavilələr bağlayır, səfirləri və xarici dövlətlərin və beynəlxalq təşkilatların digər diplomatik nümayəndələrinin akkreditasiyasını qəbul edir, hökumətin təklifi ilə Gürcüstan səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir.
6. Qanunla müəyyən edilmiş qaydada dövlət mükafatları, yüksək hərbi, xüsusi və fəxri adlar, yüksək diplomatik rütbələr verir.

7. Konstitusiya tərəfindən müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.
8. Prezident ölkədəki vəziyyətlə bağlı ən mühüm məsələlərə dair ildə bir dəfə parlamentə hesabat təqdim edir.
9. Gürcüstan Prezidentinin qanuni aktlarının Baş Nazir ilə birgə imzalanması tələb olunur. Birgə imza tələb edən hüquqi aktlar imzalandıqdan sonra dərhal dərc edilir və hüquqi cəhətdən qüvvəyə minir. Birgə imza ilə hüquqi bir aktın siyasi məsuliyyəti hökumətin üzərinə düşür.

Konstitusiyanın 36-ci maddəsinə əsasən parlamentin statusu və səlahiyyətləri aşağıdakılardır:

1. Gürcüstan parlamenti ölkənin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyən edir, Konstitusiya ilə müəyyən edilmiş çərçivədə hökumətin fəaliyyətinə nəzarət edir və digər səlahiyyətləri həyata keçirir. Hazırda Gürcüstan parlamenti ümumi, azad, bərabər və birbaşa seçki yolu ilə 4 il müddətinə vahid dairədən proporsional sistem əsasında gizli səsvermə yolu ilə seçilən 150 üzvdən ibarətdir.
2. Gürcüstanda ən azı 10 il yaşayan 25 yaşından etibarən səsvermə hüququ olan Gürcüstan vətəndaşı parlamentə üzv seçilə bilər. Siyasi partiyalar parlamentə seçkilərdə iştirak etmək hüququna malikdirlər.
3. Parlament üzvlərinin mandatları səslərin ən azı 5 faizini qazanmış siyasi partiyalar arasında bölüşdürülür. Siyasi partiyanın qəbul etdiyi mandatların sayını müəyyən etmək üçün onun əldə etdiyi səslərin sayı seçkilərdə iştirak edən seçicilərin səslərinin ən azı 5 faizini alan bütün siyasi partiyaları arasında bölünür. Alınan səslərin əksər hissəsi siyasi partiyanın qəbul etdiyi mandatların sayıdır. Siyasi

partiyalar tərəfindən qəbul edilən mandatların ümumi sayı 150 nəfərdən azdırsa, onlara ayrılmamış mandatlar siyasi partiyalar tərəfindən ən yaxşı nəticələrlə əldə edilir.

Qanunvericilik təşəbbüsü hüququ hökumətə, parlamentin üzvünə, parlament fraksiyasına, parlamentin komitəsinə, Abxaziya və Acarıstan muxtar respublikalarının ali orqanlarına, ən azı 25 min seçiciyə məxsusdur. Gürcüstan hökuməti ölkənin daxili və xarici siyasətini həyata keçirən ali icra hakimiyyəti orqanıdır. Hökumət parlamentə hesabat verir və parlament qarşısında məsuliyyət daşıyır. Hökumət Baş Nazir və nazirlərdən ibarətdir. Nazirliklər hökumətin müəyyən sahələrində dövlət siyasətinin və idarəetməsinin həyata keçirilməsini təmin etmək üçün yaradılmışdır.  Onlara nazirlər rəhbərlik edirlər.

G.Marqvelaşvilinin hakimiyyət illərini təhlil edərkən qeyd etmək lazımdır ki, Gürcüstan həm daxili, həm də xarici strukturlarda dinamik dəyişiklərdən sonra durğunluğa düşmüşdü. Ölkədə heç bir irəliləyiş yox idi, vətəndaşların narazılığı gündən-günə artmaqda idi. Onlar hüquq-mühafizə və məhkəmə sistemləri problemlərilə üzləşirdi. Müxalifət, hökumətin dəyişiklikləri həyata keçirmək üçün ehtiyatları olmadığından hakimiyyətin dəyişməsini tələb edirdi. G.Marqvelaşvilli vəzifəyə gəldikdən sonra o, iqtisadi artım göstəriciləri və inkişaf edən vətəndaş cəmiyyəti ilə kifayət qədər uğurlu bir imic qazandı. Lakin o, bundan sonra islahatları davam etdirə və müsbət göstəricilər əldə edə bilmədi. Sosial problemlər, məhkəmə sistemindəki çətinliklər Konstitusiya dəyişiklikləri və digər amillər prezidentin reytinqinin aşağı düşməsinə səbəb olmuşdu. 2018-ci ilin mayında Gürcüstan prezidenti G.Marqvelaşvili parlamentə sonuncu hesabatı zamanı seçki qanunvericiliyinin təcili olaraq dəyişdirilməsi

üçün çağırış etmişdi. G.Marqvelaşvili illik hesabatla parlamentdə çıxış edərkən Konstitusiya dəyişikliyinə xüsusi diqqət yetirmiş, demokratiya və dövlət qurumlarının zəiflətdiyini qeyd etmişdi. Siyasi qurumların zəifləməsinin son nəticədə ölkənin institusional idarəetməsini zəiflətdiyini vurğulayan G. Marqvelaşvili demişdi:

*"2012-ci ildən sonra çox şey əldə olunmuşdu. Altı ildən sonra xarici dövlət siyasətində əhəmiyyətli bir addım atılmış və dövlət zorakılıq təzahürlərini də dayandırmışdı. Ancaq bu altı il ərzində dövlət qurumlarını zəiflətdilər, insanlara və cəmiyyətə daha yaxşı xidmət edə biləcək daha demokratik bir dövlət sistemi yaratmadılar. İndi hakimiyyətin çox təmərküzləşdiyi iqtidar partiyası və demokratiya üçün olduqca təhlükəli reallıqla üzləşirik. Dramatik dəyişiklik dövrünü bir daha keçmək üçün zamanımız yoxdur. Demokratiya və hakimiyyət bölgüsü problemlərlə üzləşir".* Prezidentin hesabatı hakim Gürcü Arzusu Partiyası tərəfindən olduqca kəskin tənqidlərə məruz qalmışdı. Partiya rəhbərliyi onu "komandaya satqınlıqda" günahlandırmış və xatırlatmışdılar ki, G.Marqvelaşvilinin prezidentliyə namizədliyi Gürcü Arzusu Partiyası tərəfindən irəli sürülmüşdü. [90]

2018-ci il oktyabrın 28-də Gürcüstanda yeni prezident seçkiləri keçirildi. Bu, Gürcüstanın müasir tarixində yeddinci prezident seçkisi və beşinci prezidentin seçilməsi idi. Bu seçki bir çox xüsusiyyətlərinə görə əvvəlkilərdən fərqlənirdi. Birincisi, bu son, birbaşa seçkilər idi. İkincisi, prezident 5 il müddətinə deyil, 6 il müddətinə seçiləcəkdi; üçüncüsü, iqtidar partiyası

---

[90] *Маргвелашвили: Мы ослабили демократию и государственные институты* www.newsgeorgia-my-oslabili-demokratiyu-i-gosudarstvennye-instiuty/[İstifadə tarixi: 23.07.2018]

(Gürcü Arzusu) ilk dəfə namizəd irəli sürməmişdi. Lakin partiya müstəqil namizəd Salome Zurabişvilini dəstəkləyirdi.

Sentyabrın əvvəlində Mərkəzi Seçki Komissiyası prezidentliyə namizədlərin qeydə alınması prosesini başa çatdırdı. MSK seçkilərdə iştirak etmək arzusunda olan 46 nəfərdən prezidentliyə 25-ni namizəd kimi qeydə aldı. Onlardan 19-u siyasi partiyaların, 6-sı isə təşəbbüs qruplarının təmsilçiləri idi. G.Marqvelaşvili prezidentliyə namizəd olmayacağını bildirdi.

Birinci tur seçkilərinin favoritləri Gürcü Arzusu Partiyası tərəfindən dəstəklənən Salome Zurabişvili, Vahid Milli Hərəkat partiyasından Qriqol Vaşadze və Avropalı Gürcüstan - azadlıq hərəkatını təmsil edən David Bakradze idi. David Bakradze Avropalı Gürcüstan – azadlıq hərəkatı partiyasının lideridir. Bu partiya 2017-ci ilin yanvar ayında Mixeil Saakaşvili ilə fikir ayrılıqları səbəbindən Vahid Milli Hərəkatı tərk edən siyasətçilər tərəfindən yaradılmışdır. Qeyd etmək lazımdır ki, namizədlərin üçü də Mixeil Saakaşvilinin rəhbərliyi zamanı müxtəlif nazirliklərə rəhbərlik etmişdilər.

Mərkəzi Seçki Komissiyası ümumilikdə 3 milyon 503 min 113 seçicini qeydə almışdı. Bunlardan 1,8 milyonunu qadınlar, 1,6 milyonunu isə kişilər təşkil edirdi. Xaricdə 14 min 808 seçici qeydiyyatdan keçmişdi. 44 ölkədə 61 seçki sahəsi müəyyən edilmişdi. Səsvermə Əfqanıstanda Gürcüstanın sülhməramlı-larının yerləşdiyi iki seçki məntəqəsində də baş tutmuşdu.

Ölkədə yerləşən seçki məntəqələri demək olar ki milli azlıqların üzvləri üçün tam uyğunlaşdırılmışdı. 209 səsvermə məntəqələrində bülletenlər gürcü və Azərbaycan dilində, 133 məntəqə də isə - gürcü və erməni dillərində, dörd yerdə isə hər üç dildə idi.

Gürcüstan MSK-nın məlumatlarına əsasən, seçkidə fəallıq göstəricisi 46,74 faiz təşkil etmişdi ki, bu da rəqəmlə göstəricidə 1 milyon 637 min 956 seçici idi. Seçki fəallığı demək olar ki, 2013-cü il prezident seçkilərində seçicilərin fəalığına tam uyğun gəlirdi. “Biz bunu 2013-cü il prezident seçkilərinin rəqəmləri ilə müqayisə etsək, o zaman da fəallığı 46,6 faiz təşkil etmişdir” – deyə MSK-nın mətbuat katibi Anna Mikeladze brifinqdə bildirmişdi.

Mərkəzi Seçki Komissiyasının məlumatında səslər namizədlər arasında aşağıdakı kimi bölüşdürülmüşdü:

1. Salome Zurabişvili – 38,63 faiz və ya 615 403 səs;
2. Qriqol Vaşadze - 37,74 faiz və ya 601 175 səs;
3. Avropalı Gürcüstandan David Bakradze – 10,97 faiz və ya 174 555 səs;
4. Leyboristlər Partiyasından Şalva Natelaşvili – 3,76 faiz və ya 59 785 səs;
5. Girçi Partiyasından Zurab Caparidze – 2,26 faiz və ya 35 894 səs;
6. Quruculuq Hərəkatından David Usupaşvili – 2,26 faiz və ya 35 935 səs;
7. Azad Gürcüstan Partiyasından Kaxa Kukava - 1,33 faiz və ya 21 175 səs.

Qalan namizədlər səslərin 4 faizindən azını toplamışdı. [91]

Qanuna görə, heç bir namizəd lazımi sayda səs toplaya bilməsə, Gürcüstan Mərkəzi Seçki Komissiyası ikinci tur seçkilərini təyin etməli idi. Bu tur seçkilərin birinci turunun nəticələrinin elan edilməsindən ən geci 20 gün sonra keçirilə bilər. İkinci tur-

[91] *ЦИК: явка на выборах президента в Грузии составила 46,74%* www.newsgeorgia.ge/tsik-yavka-na-vyborah-prezidenta-v-gruzii-sostavila-46-74/ [İstifadə tarixi: 08.12.2018]

da yalnız birinci turda ən yaxşı nəticə göstərən iki namizəd iştirak edə bilər. İkinci turun qalibi sadə səs çoxluğu ilə müəyyən edilir. Prezident seçkilərinin ikinci turu səsvermənin yekun nəticələri elan edildikdən iki həftə sonra baş tuta bilərdi. Seçki administrasiyasının rəhbəri Tamar Jvania:

*"Qanunvericilik baxımından, ikinci tura gəldikdə, onun öz şərtləri vardır. Maksimum 20 günlük müddət nəzərdə tutulur və sonra iki həftə ərzində ikinci tur keçirilir".* [92]

İqtidar Gürcü Arzusu partiyası prezident seçkilərinin ikinci turunun qaçılmaz olduğunu bildirdi. D. Bakradze, partiyasının və Vahid Milli Hərəkatın yanaşmalarında fərqlərə baxmayaraq ikinci dövrədə Q. Vaşadzeni dəstəkləyəcəyini bəyan etdi.[93]

Prezident seçkilərinin ikinci turu noyabrın 28-də keçirildi. İqtidar Gürcü Arzusu partiyası tərəfindən dəstəklənən S.Zurabişvili ikinci, son tur seçkilərində 59,52 faiz səs qazandı. Onun rəqibi, əvvəlki hakim Vahid Milli Hərəkat partiyasının nümayəndəsi Qriqol Vaşadze 40,48 faiz səs topladı. Beləliklə, S.Zurabişvili Gürcüstan tarixində ilk qadın prezident oldu. S.Zurabişvili ölkənin demək olar ki, bütün böyük şəhərlərində, o cümlədən Kutaisi, Poti, Batumi, Zuqdidi və Qoridə səs çoxluğunu qazanmağı bacardı. Q. Vaşadzenin səs çoxluğu qazandığı Rustavi və Telavi şəhərləri istisna təşkil edirdi. Eyni zamanda, prezident seçkilərinin ikinci turunda xaricdə yaşayan Gürcüstan vətəndaşlarının əksəriyyəti əvvəlki hakim Vahid Milli Hərəkat partiyasının üzvü, birləşmiş müxalifətin namizədi Q.Vaşadzeyə səs verdi.

---

92 *Yenə orada*

93 *«Грузинская мечта» признала неизбежность второго тура выборов президента* www.newsgeorgia.ge/gruzinskaya-mechta-priznala-neizbezhnost-vtorogo-tura-vyborov-prezidenta/ [İstifadə tarixi: 08.12.2018]

Bunu Gürcüstanın Mərkəzi Seçki Komissiyasının (MSK) saytında dərc olunan məlumatlar təsdiq edirdi.

Birinci turda seçki prosesini və səslərin hesablanmasını müşahidə edən beynəlxalq müşahidə missiyalarının nümayəndələri Gürcüstandakı qanunvericiliyə uyğun olaraq keçirilən seçkilərlə bağlı ciddi qanun pozuntularına yol verilmədiyini qeydə almışdılar. Lakin ikinci turla bağlı Beynəlxalq Seçki Komissiyasının qərarında deyilirdi:

*"İkinci turun əsas aspektlərini qanunvericilik bazası kifayət qədər tənzimləmədi. Seçki kompaniyasının qeyri-müəyyən tənzimlənməsi ziddiyyətli və ittihamlı şərhlərə gətirib çıxartdı və hüquqi aydınlıq yaranmadı. Bundan əlavə, ikinci mərhələdə aydın qaydaların müəyyənləşdirilməsinə dair son dəyişikliklər müəyyən edilmiş problemli məsələləri aradan qaldırmadı və demokratik institutların və İnsan Hüquqları Bürosunun tövsiyələrini nəzərə almadı".*[94]

Beynəlxalq müşahidə missiyasına Avropa Parlamentinin, ATƏT Parlament Assambleyasının, Avropa Şurasının, NATO Parlament Assambleyasının və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun nümayəndələri daxil idi.

Beynəlxalq seçki müşahidəçiləri missiyasının qiymətləndirməsinə əsasən, Gürcüstan hakimiyyətinin 600 min nəfər vətəndaşın borclarının silinməsi ilə bağlı seçkiqabağı vədi rüşvət almağa bərabər idi. Beynəlxalq müşahidəçilər aşağdakıları qeyd edirdilər:

*"İkinci turdan əvvəl, müxalifət və hökumət əleyhinə qarşıdurma və nümayişlər keçirildi və bu iki tərəf arasında gərginliyə*

---

[94] *Международная наблюдательская миссия на выборах в Грузии: «списание долгов» приравнивается к подкупу* https://www.news georgia.ge/mezhdunarodnaya-nablyudatelnaya-missiya-na-vyborah-v-gruzii -spisanie-dolgov-priravnivaetsya-k-podkupu/[İstifadə tarixi:08.12. 2018]

*səbəb oldu. Mənfi, kobud və bəzən şiddətli ifadələrin istifadəsi kampaniyanı əhəmiyyətli dərəcədə pisləşdirdi və hakimiyyət orqanları tərəfindən bütün bunlar cavabsız qaldı. Kampaniya zamanı hakim partiyanın sədri və xüsusi maliyyə qurumu tərəfindən 600 min nəfərin borclarını silməklə bağlı verilən bəyanatlar, bir sıra sosial və maliyyə yardımları ilə əlaqədar açıqlamalar və s. hadisələr baş verdi".*[95]

Beynəlxalq müşahidəçilər missiyasının nümayəndəsi Per Eklund mətbuat konfransında bildirdi: *"Seçkilərin nəticələrini sual altına almaq üçün heç bir səbəb görmürük. Düşünürük ki, nəticə aydındır".*[96]

Yeni seçilmiş prezidentin sözlərinə görə, andiçmədən sonra o, Gürcüstanın yeni Konstitusiyasının tələb etdiyi şəkildə ölkəni birləşdirməyə və partiya maraqlarından üstün tutmağa çalışacaqdır:

*"Mən Gürcüstanın demokratik inkişafının, fərdi azadlığın və qanunun aliliyinin təminatçısı olmağa söz verirəm. Gürcüstanı demokratiya yolunda saxlamaq üçün prezidentliyin bütün gücündən istifadə edəcəyəm. Mən Gürcüstanı və onun liberal dəyərlərini müdafiə edəcəyəm",* - deyə Salome Zurabişvili bildirdi.

Seçki prosesini və səslərin hesablanmasını izləyən əksər beynəlxalq müşahidə missiyalarının nümayəndələrinin fikrincə isə Gürcüstan qanunvericiliyinə uyğun keçirilən prezident seçkiləri zamanı heç bir ciddi qanun pozuntusu olmamışdı.

---

[95] *Yenə orada*

[96] *Международная наблюдательская миссия на выборах в Грузии: «списание долгов» приравнивается к подкупу* https://www.newsgeorgia.ge/mezhdunarodnaya-nablyudatelnaya-missiya-na-vyborah-v-gruzii-spisanie-dolgov-priravnivaetsya-k-podkupu/[İstifadə tarixi:08.12. 2018]

2018-ci il prezident seçkisindən sonra Konstitusiyaya yeni düzəlişlər qüvvəyə mindi. Prezidentin səlahiyyətləri məhdudlaşdırıldı. Yeni seçilmiş prezidentin vəzifəyə keçməsindən sonra qüvvəyə minən yeni düzəlişlərə əsasən parlamentli respublika formasına keçid baş verdi. Prezident dövlət başçısı və silahlı qüvvələrin baş komandanı olaraq qalır, lakin o, bütün qərarları hökumətlə razlaşdırmalıdır. Konstitusiyaya edilən yeni düzəlişlərə görə Gürcüstan Prezidenti əvvəlki kimi dövlət başçısı, Konstitusiyanın və ölkənin silahlı qüvvələrinin baş komandanının təminatçısı, digər dövlətlərlə münasibətlərdə  ölkənin təmsilçisidir. Ancaq prezident artıq daxili və xarici siyasəti müəyyənləşdirmir, hökuməti tənzimləyən qaydaları dayandırmaq və qanunvericilik təşəbbüsü hüququnu itirirdi.

Bundan sonra Gürcüstan prezidentinin seçilməsi qaydaları aşağıdakı kimi olacaqdır: 2024-cü ildən etibarən 300 nəfərdən ibarət seçki kollegiyası (150 millət vəkili və 150 yerli hökumət nümayəndəsi) prezidenti seçəcəkdir. Seçki heyətinə Gürcüstan Parlamentinin bütün üzvləri, Abxaziya və Acarıstan muxtar respublikalarının ali nümayəndələri daxil olacaqdır. Seçki kollegiyasının yerli özünüidarə orqanlarından olan digər üzvləri müvafiq siyasi partiyalar tərəfindən və Gürcüstan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilmiş kvotalara uyğun olaraq irəli sürüləcəkdir. Kvotalar proporsional coğrafi təmsilçilik prinsipinə riayət olunmaqla və yerli özünüidarə seçkilərinin proporsional şəkildə aparılmış nəticələrinə uyğun olaraq müəyyən ediləcəkdir. Seçki kollegiyasının tərkibi Gürcüstan Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq ediləcəkdir.

Gürcüstan Prezidentinin seçkiləri Prezident Sarayında keçiriləcəkdir. Seçki kollegiyasının bir üzvü yalnız bir namizədin

irəli sürülməsini dəstəkləyə bilər. Seçki kollegiyasının bir üzvü yalnız bir namizəd üçün səs verə bilər. Seçki kollegiyasının tam tərkibinin ən azı üçdə ikisinin səsini alan namizəd seçkilərin birinci turunda seçilir. Seçki kollegiyasının tam tərkibinin yarısından çoxunda iştirak etdiyi təqdirdə, seçkilərin birinci və ya ikinci mərhələsi keçirilir. Seçkilər keçirilmədikdə və ya Seçki kollegiyası Gürcüstan prezidentini seçə bilmədikdə, Gürcüstan prezidentinin növbəti seçkiləri 30 gün müddətində keçirilir. Gürcüstan Prezidentinin seçilməsi parlamentin sədri tərəfindən təyin edilən təkrar seçkilər istisna olmaqla, Parlament tərəfindən təyin edilir.

Beləliklə, Gürcüstan müasir siyasi tarixindən göründüyü kimi, onun siyasi elitası, hökuməti, partiyaları, baş naziri, prezidenti, hər zaman sınaqlara məruz qalmışdır. Müasir Gürcüstanda xeyli həll olunmamış məsələlər vardır. Qarşıda hələ də vətəndaş cəmiyyətinin və hüquqi dövlətin formalaşması problemi durur. Əsl müasir və inkişaf etmiş dövlət adlandırılmaq iddiasında olan Gürcüstanın qarşıya qoyulan məqsədlərə çatması üçün mühüm şərtlərdən biri ölkənin ərazi bütövlüyünün bərpası, işğal olunmuş torpaqlarına geri qaytarılmasıdır.

## 2.3. Gürcüstanda parlament institutunun formalaşması və Baş Nazir təsisatı

2018-ci il martın 23-də qəbul edilən yeni Konstitusiyaya görə Gürcüstan tamamilə parlamentli idarəetmə formasına keçmişdir. Gürcüstan parlamenti - Gürcüstanın ali qanunverici orqanıdır. Konstitusiyaya əsasən Gürcüstan parlamenti ölkənin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdi-

rən, qanunvericiliyi həyata keçirən, Gürcüstan hökumətinin fəaliyyətinə nəzarət edən və Gürcüstan Konstitusiyası çərçivəsində müəyyən edilmiş digər səlahiyyətləri gerçəkləşdirən dövlətin ali nümayəndəli orqanıdır.

Parlamentin fəaliyyətinin əsas prinsipləri aşağıdakılardır:

- xalqın maraqlarının üstünlüyü;
- çoxpartiyalı sistem;
- nümayəndələrin proporsionallığının qorunması;
- məsələlərin azad, kollegial müzakirəsi və həlli;
- Gürcüstan qanunvericiliyinin qorunması;
- Beynəlxalq hüquqa əsaslanan ümumi qəbul edilmiş prinsip və normaların müdafiəsi və qorunması;
- Şəffaflıq və əlçatanlıq.[97]

Parlamentin səlahiyyətlərini, quruluşunu və işini müəyyən edən reqlament qanuni aktdır.

Cəmi 4 ilə 150 nəfər deputatdan ibarət parlament 2 sessiyada yaz (fevral-iyun) və payız (sentyabr-dekabr) sessiyalarında toplanır. Parlament proporsional seçki sistemi əsasında seçilmiş 77 nəfər və majoritar seçki sistemi əsasında seçilmiş 73 üzvdən ibarətdir. Gürcüstanın Seçki məcəlləsinə əsasən ölkə parlamentinin müntəzəm seçkiləri onların səlahiyyət müddəti bitdikdən sonra oktyabr ayında keçirilir. Seçki günü ən geci 60 gün əvvəldən təyin edilir.

Gürcüstanda parlamentarizmin formalaşması tarixinin öyrənilməsindən, məlum olur ki, 1990-cı ilin ortalarından etibarən yeni çoxpartiyalı seçki qanunu qəbul edilmişdir. 1990-cı il oktyabrın 28-də Gürcüstanda ilk azad çoxpartiyalı seçkilər keçiril-

---

[97] საქართველოს პარლამენტის რეგლამენტი http://www.parliament.ge/ge/kanonmdebloba/reglamenti [İstifadə tarixi: 12.07.2018]

mişdir. Seçkilərə 14 partiya qatılmışdır. Onların əksəriyyəti 4 faizlik səddi keçə bilmişdirlər. Bu seçkidə Z.Qamsaxurdianın rəhbərlik etdiyi siyasi blok inamlı qələbə qazanmışdı. Radikalların qələbəsini bir neçə səbəblə izah etmək olar:

Birincisi, qələbəni əsasən Z.Qamsaxurdianın şəxsiyyəti təmin etmişdi. O, əhali tərəfindən Gürcüstanın məşhur yazıçısı və ictimai xadiminin oğlu, ölkənin anti-kommunist hərəkatının banisi kimi qəbul edilirdi. Z.Qamsaxurdianı hamı Kommunist Partiyası tərəfindən təhdid edilən, kommunist sisteminin qurbanı və kommunizm əleyhdarı olan bir qəhrəman kimi tanıyırdı.

İkincisi, ölkədə radikal düşərgə hələ də güclü idi. Gürcüstan xalqı tərəfindən ona verilmiş güclü dəstək əsasən radikalların keçmiş qələbələrinə aid idi və güclü nümayişlərdən sonra Gürcüstan Ali Soveti seçki qanununu qəbul etdikdə onun gücü daha da artdı.[98]

Gürcüstanda ikinci parlament seçkiləri 1992-ci il oktyabrın 11-də keçirilmişdi. Seçkilərdə 36 partiya iştirak etmiş, onlardan 24-ü müəyyənləşdirilmiş 2 faizlik həddi keçə bilmişdi. 235 yerdən ən çox yeri "Mşvidoba" ("Dünya" 29 yer), "11 oktyabr" (18 yer), "Ertoba" ("Birlik" 14 yer) blokları qazandılar.[99]

Siyasi, hərbi və iqtisadi sahələrlə yanaşı, Gürcüstanın yeni rəhbərliyinin siyasəti də dövlət və cəmiyyət arasındakı münasibətlərə təsir göstərmişdir. İkinci seçkilərdən sonra vətəndaş cəmiyyətinin dövlət nəzarətinə qaytarılması prosesi başlamış və 1993-cü ilin sonlarında Gürcüstan Vətəndaşlar İttifaqının yaranması ilə başa çatmışdı. Həmin təşkilatın təsisçilərinin fikrin-

---

[98] Таркхинишвили Л. *Грузия: путь к демократии?* Пер. с англ. Ирины Синициной. Варшава, 1997 г.

[99] არჩევნების ისტორია. თბილისი, 2009

cə, bu hərəkat ikili xarakter daşıyırdı. Bir tərəfdən, bu, "prezidentin partiyası" kimi tanınır, digər tərəfdən elmi və yaradıcı qurumlar (Yazıçılar İttifaqı, Kinematoqrafçılar İttifaqı və s.), xüsusi fondlar, eləcə də Gürcüstan pravoslav kilsəsinin nümayəndələri ona kollektiv olaraq daxil edilirdilər.

E.Şevardnadzenin nüfuzu 1995-ci il noyabrın 5-də keçirilmiş parlament seçkilərində Gürcüstan Vətandaş İttifaqının qələbəsini təmin etdi. Burada 53 siyasi təşkilatın namizədləri parlamentdə 221 yer uğrunda mübarizə aparırdı. Onlardan 146 nəfəri partiya siyahıları üzrə, 75 nəfər isə vahid seçki dairələrindən seçilməli idi. Yalnız üç partiya 5 faiz həddi keçə bildi: Gürcüstan Vətəndaşlar İttifaqı səslərin 23,4 faizini, Milli Demokrat Partiyası (MDP) 8 faizini və Ümumi Gürcüstan Tərəqqi Birliyi 7 faizini toplamışdı. Nəticədə GVİ 90, MDP 31 və ÜGTB 25 yer qazandı. Ümumilikdə GVİ 235 yerdən 107, MDP 34, ÜGTB 31 yer aldı.[100]

Yeni parlamentin ilk iclası 1995-ci il noyabrın 25-də keçirildi. GVİ-nin baş katibi Zurab Jvania parlamentin sədri seçildi. Bütün parlament komitələrinin sədrləri (bir yer istisna olmaqla) GVİ-nin üzvü idi.

Parlament Gürcüstan hökumətinin tərkibini və 1996 - 1997-ci illərin büdcə qanunlarını heç bir problem olmadan təsdiqlədi. Bu məsələlərin hər ikisi əvvəlki parlamentdə böyük problemlər yaratmışdı. Seçkilərdən bir il keçdikdən sonra torpaq qanunvericiliyi, Gürcüstanın Milli Bankı haqqında, bank sisteminə dair və Konstitusiya Məhkəməsi haqqında qanunlarla yanaşı, 60-dan çox qanun qəbul edildi. Əvvəlki parlamentdən

---

[100] Таркхинишвили Л. *Грузия: путь к демократии*? Пер. с англ. Ирины Синициной. Варшава, 1997 г.

fərqli olaraq, bir fraksiyaya əsaslanan sabit bir çoxluq var idi. Parlament və prezident arasındakı əlaqələr də konstruktiv sayıla bilərdi.

1999-cu il oktyabrın 31-də müntəzəm olaraq parlament seçkiləri baş tutdu, 7 faizlik həddi aşaraq tərəflər parlamentdə 235 yer uğrunda mübarizə apardılar. Mübarizəyə 45 partiya qatıldı. Gürcüstan Vətəndaş İttifaqı 42 faiz, ÜGTB 25 faiz, "Sənaye Gürcüstanı xilas edəcək" 7 faiz səs qazandı.[101]

Qeyd etmək lazımdır ki, dördüncü parlament seçkiləri ölkənin siyasi və iqtisadi sabitləşmə prosesində mühüm addım oldu. Əvvəlki seçkilərdən fərqli olaraq parlamentin üçüncü tərkibi onun səlahiyyət müddəti bitdikdə, sonrakı tərkibə qanuni olaraq verildi.

2003-cü il parlament seçkiləri Gürcüstanın müasir tarixində dönüş nöqtəsi oldu. Həmin il noyabrın 2-də seçkilər keçirildi. Seçkilərə 18 partiya qatıldı. Seçkilər Konstitusiya referendumu ilə birləşdi (referendumda parlament yerlərinin sayını 235 nəfərdən 150 nəfərə qədər azaltmaq təklifi səsə qoyulmuşdur). Müxalifət seçkinin nəticələrinə qarşı çıxdı və hökuməti nəticələri saxtalaşdırımaqda günahlandırdı. Etiraz aksiyalarına Mixeil Saakaşvili rəhbərlik edirdi. Noyabrın 22-də müxalifət parlamentə daxil oldu, noyabrın 23-də isə E. Şevardnadze istefa verdi.

2004-cü il martın 28-də 17 partiyanın iştirak etdiyi növbədənkənar parlament seçkilərində M.Saakaşvilinin Vahid Milli Hərəkat Partiyası səslərin 68 faizini qazandı. Nino Burcanadze parlamentin sədri oldu.[102]

---

[101] Таркхинишвили Л. Грузия: путь к демократии? Пер. с англ. Ирины Синициной. Варшава, 1997 г.

[102] არჩევნების ისტორია. თბილისი, 2009

Vahid Milli Hərəkat 2008-ci il mayın 21-də parlament seçkilərində inamlı qələbə qazandı. Seçkilərə 12 partiya qatılmışdı. 2008-ci il martın 11-də qəbul edilmiş Konstitusiyaya yeni dəyişikliklərdə seçki maneəsi 7 faizdən 5 faizə endirilmişdi. Eləcə də deputatların seçilməsində majoritar sistem tətbiq edilmişdi. VMH səslərin 55 faizini, Birləşmiş müxalifət isə yalnız 17 faizini qazandı. David Bakradze parlamentin sədri oldu.[103]

Gürcüstan parlamenti 2012-ci ilin payızında paytaxtdan Kutaisiyə köçürüldü. Həmin dövrdə Vahid Milli Hərəkatın təşəbbüsü ilə Gürcüstan Konstitusiyasına müvafiq dəyişikliklər edilmişdi. Qısa müddətdə Kutaisidə parlament üçün müasir dizaynda yeni bina inşa edilmişdi. 2014-cü ilin sentyabr ayından etibarən Kutaisi şəhərində yeni binada iclaslar keçirilməyə başladı. Lakin 2019-cu ilin yanvar ayından etibarən parlament yenidən Tbilisiyə qayıtdı.

Gürcüstanda növbəti parlament seçkiləri 2012-ci il oktyabrın 1-də keçirildi. Seçkiqabağı kampaniyada iki əsas siyasi qüvvə - hakim Vahid Milli Hərəkat və Bidzina İvanişvili tərəfindən rəhbərlik edilən müxalifət koalisiyası Gürcü Arzusu – Demokratik Gürcüstan partiyası arasında kəskin mübarizə gedirdi. ATƏT-in müşahidəçiləri kampaniyanı "əsas partiyaların qarşıdurması və kobud hərəkətləri" kimi qiymətləndirdilər. Onlar seçki qabağı kampaniyanın əhatə dairəsinin qeyri-dövlət mediası sahiblərinə rəğbətindən asılı olaraq dövlət mediasiyasına nisbətən daha qərəzli hesab etdilər. Seçkilər yeni məcəlləyə əsasən keçirildi. Nəticədə yalnız iki siyasi partiya - Gürcü Arzusu – Demokratik Gürcüstan 85 yer, Vahid Milli Hərəkat isə 65 yer tu-

[103] არჩევნების ისტორია. თბილისი, 2009

taraq parlamentə daxil oldular.[104] Partiya siyahılarına keçirilən seçkilərdə beş faizlik həddin olması səbəbindən digər partiyalara parlamentdə yer verilmədi. Nəticədə parlament iki partiyalı oldu. Gürcüstan Prezidenti Mixeil Saakaşvili 2012-ci il oktyabrın 2-də partiyasının - Vahid Milli Hərəkatın parlament seçkilərində məğlubiyətini qəbul etdi və müxalifətə keçdiyini bildirdi.

David Usupaşvili parlamentin sədri seçildi. 2013-cü ilin yazında keçmiş nazirlərin həbs olunması dalğası başlamışdır. Bundan əlavə, M.Saakaşvilinin bir çox müsbət və mənfi islahatları ləğv edildi. 2013-cü il oktyabrın 27-də keçirilmiş seçkilərdən sonra prezident Georgi Marqvelaşvili ölkənin gələcəyinə çox az təsir göstərmişdir. 2013-cü ilin oktyabrında Gürcüstan Konstitusiyasına edilən düzəlişlərin qüvvəyə minməsi prezidentin səlahiyyətlərini məhdudlaşdırmış, Baş Nazirin və parlamentin səlahiyyətlərini genişləndirmişdir. Bununla da Gürcüstanda prezident idarəetmə formasından parlament respublikasına tədricən keçid başlandı. Gürcüstan kütləvi informasiya vasitələrində tez-tez müxalifətlə Baş Nazir və Prezident də daxil olmaqla, iqtidar arasında, qarşıdurmalara rast gəlmək olardı.

Gürcüstanda 2016-cı il parlament seçkiləri oktyabrın 8-də və 30-da iki turda keçirildi. İlk tur  oktyabrın 8-də qarışıq seçki sistemi ilə keçirildi: 77 nəfər partiya siyahıları (proporsional sistem), digər 73 deputat - seçki dairələri (majoritar sistem) ilə seçildi. Nəticələrə görə, Gürcü Arzusu 44, Mixeil Saakaşvilinin Vahid Milli Hərəkatı 27, Vətənpərvərlər İttifaqı isə 6 mandat əldə etdi. 23 vahid seçki dairəsində Gürcü Arzusundan namizədlər qələbə qazandılar. Birmandatlı seçki dairələrində seçkilərin ikinci turu oktyabrın 30-da keçirildi. 48 dairədə Gürcü Arzusu-

[104]ცესკო www.results.cec.gov.ge/index.html [İstifadə tarixi: 22.12.2018]

nun namizədləri, ikisində isə müstəqil namizədlər qalib gəldilər. Vahid Milli Hərəkatın nümayəndələri səs qazana bilmədilər. Seçkilərin iki mərhələsindən sonra, Gürcü Arzusu Partiyası parlamentdə çoxluğu əldə edə bildi. Partiya 150 yerdən 115-ni qazanmışdı. Parlamentin sədri İrakli Kobaxidze seçildi.[105]

Gürcü Arzusu Partiyası parlamentdə yerlərin əksəriyyətini qazanmaqla Baş Nazirin namizədliyini təklif etmək və Konstitusiyaya dəyişiklik etmək hüququnu da əldə etdi. Gürcü Arzusu ölkənin Avropa İttifaqına və NATO-ya inteqrasiyasına tərəfdar olduğunu bildirdi, sosial sahədə islahatlar həyata keçirdi. Bunlar partiyanın məşhurlaşmasına səbəb oldu. Ancaq Gürcüstanın əsas siyasi və iqtisadi problemləri, eləcə də ərazi bütövlüyü məsələsi həllini tapmadı.

Parlamentin ümumi fəaliyyət prinsiplərinə gəldikdə qeyd etmək lazımdır ki; Gürcüstanda 18 yaşına çatmış vətəndaşlar fəal seçki hüququna malikdirlər. Məhkəmə tərəfindən və ya məhkəmənin hökmü ilə azadlıqdan məhrum olmuş Gürcüstan vətəndaşının seçkilərdə iştirak etmək hüququ yoxdur. 25 yaşına çatmış vətəndaşlar Gürcüstan parlamentinin üzvü seçilə bilərlər. Müvafiq seçki komissiyasında qeydiyyatdan keçmiş partiya, seçki bloku və majoritar namizəd Gürcüstan parlamentinin seçkilərində iştirak etmək hüququ qazanır.

Gürcüstan parlamentinin üzvlərinin mandatları yalnız seçicilərin səslərinin ən azı 5 faizini alan partiya siyahıları üzrə verilir.

---

[105] Parlamentary Elections of 2016 http://www.ivote.ge/elections /parliamentary-elections/parliamentary-elections-of-2012.html?lang=en-GB [İstifadə tarixi: 08.10.2018]

Konstitusiyaya əsasən, 2020-ci ilədən parlament seçkiləri proporsional sistem üzrə keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, siyasi partiyalar seçkilərdən əvvəl siyasi bloklar yaratmaq hüququnu saxlayırlar. Parlamentli hökumətin dörd əsas prinsipi vardır:

- Parlament ölkənin vətəndaşları tərəfindən seçilir və dövlətin yeganə seçkili orqanıdır;
- Parlament hökuməti formalaşdırır. O, dövlət işlərini aparmaq üçün nazirləri seçir. Eyni zamanda, bütün kabinet üzvlərinin əksəriyyəti parlamentin üzvüdür və icraedici məsuliyyəti qanunverici işlərlə birləşdirir;
- Hökumət məclisin etimadına malik olduğu müddətdə, yəni parlamentdə səslərin əksəriyyətinə əsaslanırsa, icra hakimiyyətini saxlayır. Parlamentdə etimadın olmadığı hallarda kabinet özü istefa verir;
- Ölkə hökumət tərəfindən idarə olunur. Hökumət başçısı faktiki olaraq ölkə rəhbəri olur.[106]

Bütün üstünlüklərinə baxmayaraq, parlament hökuməti mükəmməl və ideal deyildir. Birincisi, siyasi azlıq parlament sistemində üstün vəziyyətdə deyildir. İcra orqanları qeyri-sabitliyi ilə xarakterizə olunur. Hökumət böhranları, hökumətin istefası, hazırlıqsız cəmiyyətdə belə hökumət formasının tətbiq edilməsi anarxiya təhlükəsi yaradır. Bu cür təcrübə nəticəsində müxalifət demək olar ki, öz rolunu itirmiş olur. Fəaliyyətdə olan qanunvericiliyə əsasən parlament hökumətə qanunların icra olunma səlahiyyətlərini verir və onunla hakimiyyət ayrılığı olmur. Bu mənfi cəhətlər seçki qanununun dəyişdirilməsi ilə aradan qaldı-

---

[106] საქართველოს კონსტიტუცია http://www.parliament.ge/ge/kanonmdebloba/constitution-of-georgia-68 [İstifadə tarixi: 08.10.2018]

rıla bilər. Parlament respublikaları adətən prezident idarəçiliyinə əsaslanan dövlətlərə nisbətən daha az sabitdirlər. Belə ölkələrdə tez-tez hökumət dəyişiklikləri baş verir, vaxtından əvvəl seçkilər keçirilir. Sosial böhran şəraitində hökumətin qeyri-sabitliyi dövlət hakimiyyəti sisteminin məhv olması təhlükəsini yaradır.

Parlament respublikası parlamentin hakimiyyət prinsipinin elan edilməsi ilə xarakterizə olunur və hökumətin öz fəaliyyəti üçün siyasi məsuliyyət daşıyır. Belə respublikaların formal fərqləndirici xüsusiyyəti parlamentin təyin etdiyi Baş Nazir vəzifəsinin olmasıdır. Müasir mənada Baş Nazir vəzifəsi 1991-ci ilin avqustunda Gürcüstanda bərpa olunmuş, 1995-ci ilin dekabrında isə ləğv edilmişdi. Bundan sonra Baş Nazir vəzifəsinin əvəzinə Dövlət Naziri vəzifəsi yaradılmışdı.

2004-cü il fevralın 6-da Konstitusiya islahatları aparılmış, nəticədə Nazirlər Kabineti və Baş Nazirlik institutu yenidən təsis olunmuşdur. Gürcüstanın Nazirlər Kabineti Gürcüstanın icra hakimiyyəti orqanı, Kabinetin başçısı isə Baş Nazir oldu. Zurab Jvania Gürcüstanın Baş Naziri təyin edildi. 2004-cü il fevralın 17-dən - 2005-ci il fevralın 3-dək fəaliyyətdə olan Z.Jvania hökumətinin Nazirlər Kabinetinin tərkibinə Baş Nazir, 15 nazir və 4 dövlət naziri daxil oldu. 2008-ci il yanvar ayının 24-nə qədər Nazirlər Kabinetinə dörd dövlət Naziri və 13 nazirlik daxil edildi. M.Saakaşvilinin yenidən prezident seçilməsindən sonra hökumət nazirlərinin sayı üçə endirildi.

"Qızılıgül inqilabı"ndan sonra müvəqqəti hökumət tərəfindən təyin edilən nazirlərin bir neçəsi yeni hökumətdə mövqelərini qoruyub saxlamışdı. Prezident M.Saakaşvili Gürcüstanın yeni hökumətini "Şərqi Avropada ən gənc, peşəkar və mütərəq-

qi hökumət" adlandırmışdı. 2005-ci il fevralın 3-də Zurab Jvania qəflətən sona qədər dəqiqləşdirilməmiş səbəbdən vəfat etdi. Baş Nazir vəzifəsini 2005-2007-ci illərdə Zurab Noqadeli yerinə yetirdi. M.Saakaşvilinin ikinci hakimiyəti dövründə 2008-ci ildən 2012-ci ilədək qısa müddətdə ölkənin Baş Naziri Lado Qurqenidze, Qriqol Mqaloblişvili, Nikoloz Qilauri, Vano Merabişvili oldular.

2012-ci ilin seçkilərində Vahid Milli Hərəkatın məğlubiyyətindən sonra hakimiyyət dəyişikliyi baş verdi. Gürcü Arzusu partiyasının qurucusu Bidzina İvanişvili Baş Nazir seçildi, lakin tezliklə siyasətdən ayrıldığını bildirərək o, vəzifəsindən uzaqlaşdı. Bidzina İvanişvili vəzifəsindən ayrıldıqdan sonra İrakli Qaribaşvili 2015-ci ilədək onun yerini tutdu. 2015-ci ildə Qriqoriy Kvirikaşvili Baş Nazir oldu və 2018-ci ildə kütləvi etiraz aksiyaları və hərəkətləri nəticəsində istefa verdi. Bundan sonra Bidzina İvanişvili siyasətə qayıtdığını bəyan etdi. 2018-ci ilin iyun ayında Mamuka Baxtadze Baş Nazir vəzifəsinə təyin edildi. Yeni Nazirlər Kabineti yaradıldı.

Yeni Konstitusiyanın 54-cü maddəsinə görə:

1. Gürcüstan hökuməti ölkənin daxili və xarici siyasətini həyata keçirən ali icra orqanıdır.
2. Hökumət parlamentin qarşısında məsuliyyət daşıyır.
3. Hökumət Baş Nazir və nazirlərdən ibarətdir.
4. Nazirlik dövlət hakimiyyəti sahəsində dövlət siyasətinin və idarəetməsinin həyata keçirilməsini təmin etmək məqsədi ilə nazirin rəhbərliyi altında yaradılır.[107]

---

[107] საქართველოს კონსტიტუცია
http://www.parliament.ge/ge/kanonmdebloba/constitution-of-georgia-68

Gürcüstan Konstitusiyasının 55-ci maddəsinə görə, Baş Nazirin statusu müəyyən edilmişdir. Bu statusa əsasən:

1. Gürcüstanın hökumət başçısı Baş Naziridir.
2. Baş Nazir hökumətin əsas fəaliyyətini müəyyənləşdirir və onu təşkil edir, eyni zamanda nazirlərin fəaliyyətini əlaqələndirir və onlara nəzarət edir, hökumətin qanuni aktlarını imzalayır.
3. Gürcüstanın Baş Naziri beynəlxalq əlaqələri həyata keçirir, Gürcüstan adından beynəlxalq müqavilələr bağlayır.
4. Baş Nazir nazirləri təyin edir və onları vəzifədən azad edir.
5. Baş Nazir hökumətin, parlamentin fəaliyyətinə görə məsuliyyət daşıyır. İldə bir dəfə o, hökumətin həyata keçirdiyi proqram ilə bağlı hesabatını təqdim etməli və parlamentin tələbi ilə hökumət proqramının ayrı-ayrı maddələrinin həyata keçirilməsi barədə hesabat təqdim etməlidir.[108]

Beləliklə, Gürcüstan 2018-ci ildən parlamentli respublika idarəetmə formasına keçmişdir.

[108] საქართველოს კონსტიტუცია
http://www.parliament.ge/ge/kanonmdebloba/constitution-of-georgia-68
[108] Yenə orada

# III FƏSİL

## GÜRCÜSTANIN DEMOQRAFİYASI

### 3.1. Demoqrafik şəraitə tarixi baxış: köçürmə siyasəti və demoqrafik dəyişikliklər

Gürcüstanın əhalisi haqqında məlumat bu bölgədə aparılan siyahıyaalmalar və statistik göstəricilər nəticəsində əldə edilmişdir. Ümumiyyətlə, hər hansı dövlət öz ərazisində müəyyən məqsədlərlə, xüsusilə vergiləri dəqiqləşdirmək üçün müxtəlif xarakterli qiymətləndirmələri - torpağın, əhalinin, kənd təsərrufatının və sairənin siyahıyaalmalarını təşkil edir. Bu cür siyahıyaalmalara Cənubi Qafqazda hələ II əsrdə təsadüf olunur. Gürcüstanda orta əsrlərdə (XIII əsrdə) ilk ətraflı siyahıyaalmalar kecirilmişdir.

Gürcüstan ərazisində XVI – XVIII əsrlərdə artıq mükəmməl siyahıyaalmalar keçirilirdi. Tədqiqatlar sübüt edir ki, bu cür siyahıyaalmalar tez-tez (6-7 ildən bir) keçirilmişdir. Bundan başqa, Qafqazı işğal edən böyük imperiyalar (Osmanlı, İran, Rusiya) istila etdikləri ərazilərdə vergini müəyyənləşdirmək üçün torpaq, əmlak və əhali siyahıyaalmasını aparmışlar. Bu cür siyahıyaalmalardan XVI – XVII əsrlərdə keçirilən Osmanlı və Rusiya imperiyalarının (XIX əsr) siyahıyaalmalarını xüsusilə qeyd etmək olar.

Osmanlı imperiyasında hələ 1593-cü ildə "Gəncə-Qarabağ əyalətlərinin icmal dəftərləri", 1728-ci ildə isə "Dəftəri-müfəssə-

li - əyaləti Tiflis" ("Tiflis əyalətinin müfəssəl dəftəri") tərtib edilmişdi. Bu dəftərlər Türkiyədə İstanbuldakı Baş Bakanlıq Arxivindədir. Rusiya imperiyasında isə Qafqazı işğal etdikdən sonra 1836-cı ildə Sankt-Peterburq şəhərində "Qafqaz uğrunda Rusiya hökmranlığının icmalları" nəşr edilmişdir. Nəhayət, Rusiya imperiyasında 1800-ci ildən başlayaraq 1832, 1865-ci illərdə qiymətləndirmələr, kameral siyahıyaalmaları və 1897-ci ildə ilk dəfə ümumi siyahıyaalma, 1913, 1917-ci illərdə, yenə də qiymətləndirmə keçirilmişdi.[109]

Cənubi Qafqazın respublikalarında da 1920-ci ildə siya-hıalmalar təşkil olunmuşdur. Qafqaz sovetləşdikdən sonra 1925-ci ildə qiymətləndirmə, 1926, 1937, 1939, 1959, 1970, 1989-cu illərdə ümümittifaq siyahıyaalmaları həyata keçirilmişdir.

Bütün bu demoqrafik iqtisadi və sosioloji statistik məlumatlar toplusundan Gürcüstanın əhalisinin sayı, tərkibi, yerləş-

---

[109] Rusiya imperiyası öz ərazi hududlarına daxil etdiyi regionları hərbi-statistik, statistik-iqtisadi, maliyyə-iqtisadi çəhətdən öyrənmək üçün kameral siyahıyaalma üsulundan istifadə edirdi. Cənubi Qafqazda kameral siyahıyaalma üsulu Rusiyadakı "təftişçiliyin" rolunu oynayirdı. Cənubi Qafqazda üçüncü kameral siyahıyaalmanın (1830-1832) təşəbbüskarı məşhur rus iqtisadçısı, Maliyyə Naziri Kankrin Cənubi Qafqazı Rusiya imperiyasının müstəmləkəsi kimi səciyyələndirmiş və bu diyarın metropoliya ilə (Rusiya ilə) iqtisadi-siyasi münasibətlərini müəyyənləşdirmişdir. Rusiyanın Qafqazdakı canişinliyi XIX əsrin 60-cı illərinədək statistikaya siyasi məsələlərə yardımçı olan material kimi, hər cür faydalı məlumatlar toplusu kimi baxırdı. Buna görə də 1860-cı ildə Qafqazda quberniya statistika komitələri yaradılmışdı. 1868-ci ildə isə Qafqaz Statistika Komissiyası yaradıldı. Diyarın quberniya və qəzalarındakı idarələrdə əldə olunan konkret məlumatları və materialları işləyib hazırlamaq yolu ilə Komissiya qarşısında Cənubi Qafqazı statistik-iqtisadi cəhətdən öyrənmək məsələsi qoyulmuşdu. 1870-1890-cı illərdə hətta bir günlük siyahıyaalınmalardan da istifadə olunurdu.

məsi haqqında məlumatları, eləcə də demoqrafik (cinsi, yaşı, nikahda olma vəziyyəti), iqtisadi (yaşayış vasitələri, məşğulluğu), etnik-sosial (millətlər, dil, təbəqələr), mədəni səviyyə və ailə tərkibini səciyyələndirən məlumatlar əldə edilmişdir.

Qafqaz Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra müsəlman xalqlarının: azərbaycanlıların, ləzgilərin, kürdlərin, talışların, avarların və s. sayı hər vəchlə azaldılmağa, xristian xalqlarının – gürcülərin, ermənilərin, rusların, yunanların, almanların, aysorların və s. sayının isə "artırılmasına" başlanıldı. Buna görə də Rusiya-İran, Rusiya-Osmanlı muharibələri qurtardıqdan sonra İrandan və Türkiyədən minlərlə erməni, yunan ailələrini, ondan çox-çox qabaq isə aysoruları, yezidi kürdləri Qafqaza köçürdülər. Cənubi Qafqaz Almaniyanın Vürtemberq vilayətindən gəlmiş alman və Rusiyadan gətirilmiş çoxlu rus koloniyaları təşkil edilmişdir.

Azərbaycan alimi M.H.Vəliyev (Baharlı) Qafqazdaxili müsəlman xalqlarının əhalisinin sayının imperiya siyahıyaalmaları zamanı azadılmasının iqtisadi-siyasi səbəblərini göstərərək yazmışdır:

*"Müsəlman xalqları siyahıyaalma vaxtı hərbi və torpaq mükəlləfiyyətlərini çəkib qurtarmaq və vergilərin artması qorxusundan çox vaxt qeydiyyatdan qaçırdılar. Köçərilərin də siyahıya alınması dəqiq olmamışdı, çünki onların bir çoxu siyahıyaalma günlərində qışlaqlarda – yaşayış yerlərindən uzaqlarda olurdu və ona görə də qeydiyyatdan keçmirdi. İllik artımın əlavə olunması da elə bu cür vəziyyətdə idi. Bu, qəsdən siyasi fikirlərə görə, müsəlman xalqlarının sayını azaldan, ya da ki dolayı yollarla, qoşun yığmaq, vergiləri və zemstvo (idarə) rüsumlarını artırmaq məqsədilə qeydiyyat aparılması şayiələrinin yayılması ilə buna şərait*

*yaradan çar məmurları və polislər tərəfindən edilirdi. Bu da bir çox müsəlmanları qeydiyyata düşməkdən qaçmağa məcbur edirdi. Ona görə də müsəlman xalqlarının sayını həqiqətdə olduğundan 10 dəfə artıq qəbul etmək olar".*[110]

1832-ci ildə Borçalıda kecirilən siyahıyaalmada 145 kənd, 4092 ev (tüstü), 8479 tatar (azərbaycanlı), 3634 erməni, 767 yunan, 669 gürcü, 213 alman, bütövlükdə isə 13762 nəfər kişi cinsi qeydə alınmışdır. [111] 1870-ci ildə çapdan çıxmış və 1865-ci ildəki Tiflis quberniyasındakı qiymətləndirməni əks etdirən "Tiflis quberniyasının təsvirinə dair materiallar külliyyatı"ndakı statistik göstəricilərdə verilmişdir. Külliyyatda bu quberniyaya daxil olan bir çox qəzalar, o cümlədən Borçalı və Tiflis qəzaları-nın azərbaycanlı, gürcü, erməni, yunan, alman, aysor və s. kənd-lərinin coğrafi mövqeyi, yerləşmə vəziyyəti, Tiflisdən məsafəsi, əhalisinin sayı, cinsi tərkibi, dini etiqadı, milli mənsubiyyəti, bu-rada hansı ictimai binaların (məscid, kilsə, tədris və xeyriyyə müəssisələri, yarmarkalar və s.) yerləşdiyi göstərilmişdir.

1832-ci ildə Borçalı məntəqəsində 145 kənd, 4,092 ev, 25,000 əhali var idi, 1886-cı ildə Borçalı qəzasında bu rəqəmlər uyğun olaraq 225-ə, 12,116-ya və 106,534-ə çatmışdı. 1897-ci ildə qəza əhalisinin sayı 128,877 nəfər idi. Etnik tərkibcə 1838-ci ildə Borçalıda bütün əhali sayında azərbaycalılar 64 faizi, ermənilər 24,5 faizi, yunanlar 5,5 faizi, gürcülər 4,8 faizi; 1880-ci illərdə qəzada azərbaycanlılar 27,4 faizi, ermənilər 38,4 faizi, yunanlar 19,7 faizi, gürcülər 6,5 faizi, ruslar 6,4 faizi, almanlar 1,6 faizi tuturdular. Azərbaycanlıların sayı mahalda və qəzada 1832-ci ildə 16,000, 1886-cı ildə 33,382 nəfər (18,367 kişi,

---

[110] Vəliyev M.H. (Baharlı) *Azərbaycan*, Bakı: Azərbaycan, 1993, s. 14-15
[111] *Обозрение Российских владений за Кавказом.* Т.1-2. СПб, 1836

15,015 qadın) idi. 1875–1880-ci illərdə azərbaycanlıların artımı 2,586 nəfər (1479 oğlan, 1107 qız) olmuşdur. Həmin vaxtda Borçalı qəzasının 51 camaatından 18-də tam, daha dördündə qismən azərbaycanlılar yaşayırdılar. Azərbaycanlılar qəzanın Yekaterinenfeld nahiyəsində 71,8 faizi (13,973 nəfər əhalinin 10,028-i), Borçalı nahiyəsində 64,8 faizi (19,109 nəfərin 12,377-si), Trialet, Loru nahiyələrində də 20–30 faizi təşkil edirdilər.

Ermənilər burada 1838-ci ildə 3,634, 1880-ci ildə 23,251, 1886-cı ildə 34,123 nəfəri idilər. Onlar XIX əsrin otuzuncu illərində Ərzurum bölgələrindən Gürcüstana köçürülmüşdürlər, əsrin sonlarına doğru Heydərbəy, Ağbat, Aşqala, Şüləver, Xaçınlı, Barmaqsız, Güllükərək, Cəlaloğlu, Dmanis, Güvəc, Gurtan, Mqart, Nərdivən, Opret, Uzunlar, Cöçkən, Şahnazar, Şınıx icmalarında məskunlaşmışdırlar. Gürcülər də Borçalıda 1838-cı ildə 669, 1886-cı ildə 3,864 nəfərdən ibarət idilər, Güməret, Disix, Dmanis, Güvəç, Şüləver camaatlarında yaşayırdılar. İlya Çavçavadze "Borçalı qəzası" məqaləsində yazırdı ki, bəzi kəndlərdə gürcülər ana dillərini yadırğamışlar, ya da çoxu gürcü dilində Azərbaycan sözləri işlədir, Azərbaycanca hər kəs bilir. Yunanlar Borçalıda 1838-ci ildə 764, 1886-cı ildə 17,815 nəfəri təşkil etmişdilər. Borçalıda yaşayan azərbaycanlıların və gürcülərin berzenlər dedikləri, türkcə danışan bu yunanlar öncə XVIII əsrdə Osmanlıdan gəlib Ağtalada mis, gümüş yataqlarında işləyirdilər, hərbi toqquşmalar səbəbindən, Barmaqsızkörpü (Zalqa) tərəflərə köçmüşdülər, 1810, 1820, 1830-cu illərdə Ərzurumdan, Anadoludan, Urmiyadan ermənilərlə bərabər 505 yunan ailəsi gətirilərək, Ağbulaqda və Zalqada yerləşdirildi. 12 qəsəbə və kənddəki rusların sayı 1886-ci ildə 5,948 nəfərə çatırdı. Onların çoxu zabit uşaqları idi. Burada almanların da yüz iyirmi illik tarixi ol-

muşdur, onlar XVIII əsrdə Yekaterinanın manifesti ilə Virtemberq krallığından, Lüksemburqdan Rusiyaya, oradan XIX əsrin əvvəlində Yelizavetpol (Gəncə) qəzasının Şəmkir dövlət torpaqlarına, oradan da Borçalıya gətirilərək üzümçülüyü, maldarlığı, pendirçiliyi inkişaf etdirmişlər. Yekaterinenfeld, Aleksandersilf qəsəbələrində, başqa yerlərdə məskunlaşdırılmışdılar. 1886-ci ildə 1,471 nəfər idilər. Borçalıda 33 nəfər yəhudi də qeydə alınmışdı. 1871-də Tiflis quberniyasının təsviri materialları məcmuəsində Mığırlıdan başlayıb gündoğana doğru Kür çayınadək uzanan Borçalı çökəyi haqqında yazılır ki, burada 63 çox saylı əhalisi olan kəndlər var ki, onlardan ikisi erməni, qalanları müsəlman (azərbaycanlı) kəndləridir.[112]

## 3.2. Əhalinin milli-etnik tərkibi

Gürcüstanın coğrafi şəraiti onun beynəlxalq münasibətlərdəki rolunu müəyyənlənləşdirən başlıca amildir. Bu ərazi tarix boyu böyük dövlətlər arasında strateji əhəmiyyətli bölgə hesab edilmiş, bəzən siyasi, bəzən hərbi mübarizənin mərkəzi olmuşdur. Yaxın və Orta Şərq ilə Qara dəniz hövzəsini birləşdirən bütün yolların buradan keçməsi regionun əhəmiyyətinin miqyasını daha da artırır.

Gürcüstan həm də qədim sivilizasiya mərkəzidir. Bu regionda tarixən müxtəlif xalqlar və etnik qruplar yaşamışlar. Bu baxımdan buradakı əhalinin milli-etnik tərkibi rəngarəngdir.

***Gürcülər*.** Gürcüstanın əsas əhalisi olan gürcülər (kartvelilər) İber-Qafqaz xalqları qrupuna aiddirlər. Maddi və mənəvi

[112] Məmmədli Ş. *Alın Yazımız.* Tbilisi: Dayaq, 1997, s. 73

mədəniyyətin inkişafı, tayfaların siyasi birliyi gürcü dövlətinin - “Sakartvelo”nun - Gürcüstanın və karvelilərin-gürcülərin formalaşmasına səbəb olmuşdur.

Akademik B.Budaqov və Q.Qeybullayev yazırlar ki, Gürcüstan (gürcücə Sakartvelo - “kartvellərin ölkəsi”) Cənubi Qafqazın bir ölkəsi, gürcülər (etnik özünüadlandırması tək halda “kartveli”, cəm halda “kartvelebi”) bu ölkənin köklü sakinləridir. Qeyd etmək lazımdır ki, azərbaycanlılarda “Gürcüstan” ölkə adı ilk dəfə “Kitabi Dədə Qorqud” dastanında (XI boy) çəkilmişdir.[113] Qədim gürcü mənbələrində Sakartvelo ölkə adı ilk dəfə XII əsrdən məlumdur. [114] Onun əvəzində eramızdan əvvəl IV-III əsrlərdən başlayaraq gürcülərin ulu əcdadları yunan və latın mənbələrində İber, Gürcüstan yunanca İberia, latınca Hiberia adlanırdı. Gürcülərin etnik adı kimi “İber” etnonimini özündən qabaqkı antik mənbələr əsasında ilk dəfə I əsr yunan müəllifi Strabon çəkmişdir (Strabon, XI.3.3).

Gürcü dili Qafqaz dilləri ailəsinin kartvel qrupuna daxildir. Lakin gürcü dilçiləri İber etnoniminə uyğun olaraq bu dil ailəsini “İber Qafqaz dil ailəsi” adlandırırlar. Gürcü tədqiqatçı-ları yunan və latın müəlliflərinin gürcülərin ulu əcdadlarına verdikləri “İber” etnonimini gürcü dili mənşəli ad hesab etmirlər. Gürcü tarixçilərinin və dilçilərinin son illərdə araşdırmaları nəticəsində aydın olmuşdur ki, antik müəlliflərin qədim gürcülərə verdikləri “İber” etnik adı türkmənşəli sözdür. Gürcülərin etnik özünüadlandırmaları olan ”kartvel” etnoniminin kökünü təşkil edən kart (“hasarlanmış yer”) sözü ilə qədim türk dillərində

[113] Budaqov B.Ə, Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti.Bakı: Nurlan, 2008, s.9
[114] Yenə orada

“iber” sözü eyni semantik mənaya malikdir. Başqa sözlə, antik müəlliflərin qədim gürcülərə verdikləri “İber“ adı qədim türk mənşəli sözdür. Bu məsələ gürcü dilçisi B.İ.Gilanava tərəfindən ətraflı araşdırılmışdır.[115]

Qədim gürcülərin “İber” adının türkcə olması faktının Cənubi Qafqazda, o sıradan Gürcüstanda azərbaycanlıların etnik tarixi və mənşəyi baxımından mühüm elmi əhəmiyyəti vardır. Belə nəticə alınır ki, birinci, Gürcüstan ərazisində və ona bitişik bölgələrdə eramızdan əvvəl I minilliyin I yarısında türk tayfaları yaşayırdılar; ikinci, bu etnoslar “Kart” etnoniminin mənasına uyğun olaraq qədim gürcülərin əcdadlarına “İber” deyirdilər və onlardan bu ad qədim yunanlara və latınlara da keçmişdi; üçüncü, antik mənbələrdə “İber” etnoniminin eramızdan əvvəl IV-III əsrlərə aid hadisələrdə çəkilməsi göstərir ki, türk tayfaları göstərilən əsrlərdən əvvəl buralarda yaşayırdılar. Ehtimal ki, qədim gürcülərə “İber” adını verənlər göstərilən əsrlərdə Cənubi Qafqaza gəlmiş türk mənşəli tayfalardan olan kəmərlər (antik mənbələrdə-kimmerlər) və saklar olmuşlar. Həmin əsrlərdən qabaq Cənubi Qafqazda türk tayfalarının yaşaması barədə qədim yazılı mənbə yoxdur. Lakin Azərbaycan xalqının mənşəyi haqqında son illərdə Q.Ə.Qeybullayev tərəfindən irəli sürülmüş yeni baxış bunu əsas götürür ki, Cənubi Azərbaycan ərazisində və ona bitişik bölgələrdə eramızdan əvvəl III-II minilliklərdə türk tayfaları yaşayırdılar və eramızdan əvvəl I minillikdə Cənubi Azərbaycanın ərazisində mövcud olmuş Manna, Midiya və Atropatena dövlətləri və Şimali Azərbaycan ərazisində eramızdan əvvəl IV

[115] Budaqov B.Ə, Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Nurlan, 2008, s.9

eramızın VIII əsrinə qədər yaşamış Alban dövləti məhz türk mənşəli etnosların siyasi qurumları idi.[116]

IV əsrdə Gürcüstanda xristianlıq dini yayılmış, orta əsrlərdə Gürcüstanın əhalisi gah artmış, gah azalmış, "XVIII əsrdə təxminən ölkə əhalisi 675 min nəfər olmuşdur".[117] Gürcü mənbələri belə hesab edir ki, guya gürcülər vaxtilə bütün Aşağı Gürcüstanda, Borçalıda yaşamış lakin qonşuların, müxtəlif güclü hərbçi-mütəşəkkil türkdilli tayfaların, sonralar Dağıstan, Türkiyə və İranın aramsız hücumları sayəsində uzun müddət XIX əsrin əvvəllərinədək bu yerləri onlar tərk etmişlər. Ona görə də gürcü çarları daim xristian Rusiya imperiyasına dəfələrlə müraciət edib onun himayəsi altına keçmək istəmişlər. Gürcüstan tayfaları qədimdən Cənubi Qafqazın qərb və orta rayonlarında məskunlaşmışdılar. Vahid gürcü xalqı "kartli" adını daşıyan, öz aralarında qohum olan tayfaların qarşılıqlı anlaşma və uzunmüddətli ünsiyyəti prosesində formalaşmışdır; buradan da "kartveli" sözü, eləcə də "Sakartvelo" yəni gürcülərin yerləşdiyi ölkə anlamı yaranmışdır. Tarixin müxtəlif dövrlərində əhalinin sayı müxtəlif dəyişikliyə uğramışdır. Belə ki, XII-XIII yüzilliklərdə feodal Gürcüstanının yüksək inkişafı dövründə əhalinin sayı milyon nəfərlərlə hesablanırdı. Xarəzmlərin, monqolların və Teymurun qoşunlarının hücumları nəticəsində XIII əsrin ikinci yarımilliyindən etibarən əhalinin sayı azalmağa başlamışdır. Bu hücümlar vahid hakimiyyətin dağılmasına və ölkənin zəifləməsinə gətirib çıxartdı. Gürcüstan və gürcülər İran və Osmanlı qoşunlarının daimi basqınları nəticəsində daha da ağır zamanlar

---

116 Budaqov B.Ə, Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti.Bakı: Nurlan, 2008, s.10

117 Джошвили В.Ш. *Население Грузии. Экономика-географическое исследование.* Тбилиси: Мецниереба, 1968, с.7

yaşamalı olmuşlar. Fasiləsiz müharibələr nəticəsində əhalinin talan edilməsi nəticəsində orta əsrlərin sonrakı dövrlərində onlar kəskin şəkildə azalmışlar. Gürcülər öz milli xarakterlərini və doğma dillərini qoruyub saxlamışlar. Onların digər millətlərdən fərqi bir çox özünəməxsus adət və ənənələrinin mövcud olmasıdır. Bir zamanlar Gürcüstanın feodal parçalanması bir sıra tarixi coğrafi əyalətlərin yaranmasına gətirib çıxarmışdır. Eyni kökdən olan gürcülərin sıx ünsiyyəti yerli siyasi, hətta coğrafi əngəllərlə qarşılaşmışdır. Əsasən böyük Qafqaz dağları arasında yerləşən əlçatmaz mağaralarda hər şeydən kənar olan dağlılar yaşamışlar. Təbiidir ki, bu cür yaşayış tərzi yeni etnoqrafik qrupların yaranmasına gətirib çıxarmışdır. Bu qruplar öz aralarında dil xüsusiyyətlərinə və adət-ənənələrinə görə fərqlənirdilər. Bu proses gürcü tayfaları olan meqrellər və svanlar arasında daha da dərinləşmiş, gürcü ədəbi dilindən başqa yerli şifahi danışıq dilləri də yaranmışdır. Belə ki, bu danışıq dili gürcü dili ilə sıx bağlı olaraq onun dialekti kimi meydana çıxmışdır. Başqa əyalətlərdə də gürcü dilinin müxtəlif formaları var. Bununla birbirlərindən fərqlənən kartvellər, imeretlər, kaxetinlər, Ahıska türkləri, raçxinlər, leçxumlar, pşavlar, hevsurlar, mitiullar, qurilər, acarlar və başqaları da mövcud olmuşlar. Buna baxmayaraq aşkar fərqli cəhətləri nəzərə almadan hələ yetkin feodalizm dövründə (X – XIII əsrlərdə) Gürcüstan ərazisində yaşayan tayfalar arasında siyasi birləşmə baş vermişdir. X əsrin ikinci yarısında bütün əyalətləri birləşdirən vahid feodal Gürcüstan dövləti yarandı. Beləliklə, xalq üçün ümumi olan adət-ənənə və mədəniyyət formalaşmağa başladı. Hətta orta əsrlərin sonunda belə siyasi parçalanmalar ölkənin siyasi birliyini və ümummilli xüsusiyyətlərini məhv etmədi. Onlardan ən əsası vətənə məhəbbət

və xalqa sədaqətdir. Gürcülərin vətənpərvərliyi yadelli işğalçılarla çoxəsrlik mübarizəsində onlara kömək etmişdir. Belə ki, daimi mübarizə gürcüləri qəddarlaşdırmadı, onların nəcibliklərini, alicənablıqlarını və nikbin ruhlarını qırmadı. Gürcülər özlərinin geniş qonaqpərvərlikləri ilə məşhurdurlar. Hər bir ev sahibi öz qonağına daha çox xidmət göstərməyə çalışır. Bu gürcü xalqının əsas xüsusiyyətlərindən biridir.

XIX əsrin əvvəlində Gürcüstan Rusiyaya birləşdi. 1801-ci ildə Kartli - Kaxetiya çarlığının Rusiya imperiyasına daxil edilməsini gürcü tədqiqatçıları ölkə əhalisinin fiziki cəhətdən məhv olmasının qarşısını alan mühüm tarixi hadisə və dönüş kimi qiymələndirirlər. Müəlliflərdən biri yazır:

*“Gürcüstanın Rusiyaya birləşdirilməsi nəticəsində ölkəyə yadelli işğalçıların tez-tez baş verən müdaxiləsi və Dağıstandan dağlı tayfaların basqınları əhəmiyyətli dərəcədə azaldı, gürcü gənclərinin və qızlarının Yaxın Şərqin qul bazarlarında satılmasına son qoyuldu. Dövlət müstəqilliyinin itirilməsinə baxmayaraq, obyektivlik naminə Gürcüstanın Rusiyaya birləşdirilməsi mütərəqqi əhəmiyyət kəsb etdi: bu birləşmə əhalini fiziki cəhətdən məhv olmaqdan xilas etdi və məhsuldar qüvvələrin inkişafına səbəb oldu... Əhalinin sayı bundan sonra əsaslı şəkildə artmağa başladı”.*[118]

XIX əsrdə Gürcüstanın bir çox tarixi-coğrafi əyalətləri Tiflis və Kutaisi quberniyalarının hüdudlarında yerləşmişdi. Buna görə də əhalinin artım sürətinin sayındakı dəyişiklikləri Gürcüstanın müasir sərhədləri hüdudlarında mümkündür.

---

[118] Джошвили В.Ш. *Население Грузии. Экономика-географическое исследование.* Тбилиси: Мецниереба, 1968, с. 10

1800-1865-ci illərdə Cənubi Qafqazın əhalisi 1 milyon 430 min nəfərdən 2 milyon 700 min nəfərə yüksəldi.[119] Buraya köçürülmüş ermənilər Gürcüstanın boşaldılmış kəndlərində, şəhərlərində, o cümlədən Tiflis şəhərində yerləşdirilmişdir.

1828-ci ildə türklərin hesablamalarına görə, Axalsix paşalığında yaşayan 34283 ailənin sayı 140000 nəfərə kimi idi, paşalığın əhalisinin ümumi sayı 280000 nəfər idi.

Kartli – Kaxeti və İmeretidəki dözülməz vəziyyət kəndliləri Mesxetiyə köçməyə, daha doğrusu qaçmağa məcbur edirdi. *"Çox ehtimal ki, köçmənin səbəbi yalnız ləzgilərin hücumu və siyasi gərginlik deyil, burada həm də sosial-iqtisadi və sinfi səbəblər də iştirak edirdi"*[120] Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra Samtsxe-Cavaxetiyə köçmüş gürcülər, geriyə-Kartliyə qayıtdılar.

Samtsxe-Cavaxetiyə Türkiyədən kürdlər, yunanlar və rus təriqətçiləri də köçürüldü. 1841-1845-ci illərdə Cavaxetidə 4097 nəfər (435 ailə), Borçalıda (Kvemo-Kartlidə), Ağbulaqda (Tetrisikaro), Ortaşendə, Qarakilsədə və Loruda məskunlaşdı.[121] 1876-cı ildə Tiflisdə rusların (maloruslar), bolqarların, çexlərin və slovakların sayı 19617 nəfər, 1886-cı ildə 36113 nəfər, müvafiq olaraq gücülərin sayı 21542 nəfər və 38357 nəfər azərbaycanlıların sayı (mənbədə "Aderbaycan tatarları" adlanır) 2186 və 2505 nəfər, köçürülmüş ermənilərin sayı 37308 nəfər olmuşdur.[122] Tbilisidə XIII əsrdə 100 mindən artıq əhali yaşayırdı. Şəhərdə XVIII əsrin əvvəllərində 20 min, XIX əsrdə 25 min, 1865-

---

[119] Гугушвили А. *Население Грузии за 160 лет (1800-1959),* с.17

[120] Ломадзе Ш. *Самцхе-Джавахаети.Тбилиси.*"Favorite Print"*,* 2013, с. 304

[121] *Сборник материалов для описания племен и местностей Кавказа,* 1895 г., вып.25, с.25

[122] *Своdь статических данных о население Закавказского края.* Тифлиская губерния. Тифлись,1893 г., с.7

ci ildə 71 min, 1886-cı ildə 78 min, 1897-ci ildə 161 min nəfər əhali yaşayırdı, XX əsrin 30-cu illərində sovet dövründə Tiflisin əhalisinin sayı 519 175 min nəfərə çatdı.

Tiflisdə pravoslavlar, erməni qriqoryanlar, erməni-katoliklər, Roma katolikləri, lüteranlar, müsəlmanlar, nestorianlar və iudaistlər yaşayırdılar.

Gürcüstanın əsas sosial – iqtisadi həyatındakı dəyişikliklər XIX əsrin 60-cı illərində keçirilən burjua islahatlarından sonra başladı: Gürcüstanın şəhər və kəndləri kapitalizm mərhələsinə daxil oldu. Şəhər əhalisinin artımı fəhlə sinfinin yaranması və kəndlərin təbəqələşməsi bu dövrdə baş verdi.

XIX əsrin sonlarında Gürcüstan əhalisi artıq 2 milyon nəfər olmuşdu.

Kartvellərin tərkibində meqrellər, lazlar, svanlar, quriyalılar, moxavelər, imeretlər, xevsurlar və digər subetnik qruplar mövcuddur.

Bir sıra gürcü tədqiqatçıların gürcülərin subetnik qrupu hesab etdiyi acarlar əsasən Acarıstan Muxtar Respublikasında yaşayırlar. Acarların eramızdan əvvəl VIII-VII əsrlərdə Qafqazın cənub-qərbində yaşamış kolxi xalqının törəmələri olduqları ehtimal edilir.[123] Bu xalqın yaşadığı ərazi əsrlər boyu Pont çarlığı, Bizans imperiyası, kartvellər, ərəblər, türklər tərəfindən işğal edilmiş, XI-XV əsrlərdə Gürcüstanın tərkibində olmuşdur. Ərazi XV əsrdə Osmanlı İmperiyası tərəfindən ilhaq edilmişdir. Dörd əsr boyunca Osmanlı əhalisinin tərkib hissəsi olan acarlar islam dinini qəbul etmiş, öz dilləri ilə yanaşı türk dilində də danışmış,

---

[123] Murtazaoğlu F. Acaralıların Siyasi Özerklik Hakkının Süjesi Haline Gelmeleri ve Türkiye'nin Bu Sürece Etkisi. Ahmet Yesevi Üniversitesi Mütevelli Heyet Başkanlığı Bahar, 2004 sayı 29, s. 41-82

türklərə qaynayıb-qarışmışlar. Bu mənada onlar bəzi tədqiqatçılar tərəfindən gürcülərin subetnik qrupu deyil, müstəqil xalq hesab edilir.[124]

SSRİ dövründə acarlar ağır təzyiqlərə məruz qalmış, məscid və mədrəsələri, türkdilli məktəbləri bağlanılmış, türk mənşəli toponimləri dəyişdirilmiş, türk dili qadağan edilmiş, türk əsilli əhali Qazaxıstana və Sibirə sürgün edilmişdir. Bütün bunların nəticəsi olaraq acarlar rəsmi siyahıyaalınmalarda gürcü kimi qeydiyyata alınmağa başlanmışlar. 1926-cı il Gürcüstan əhalisinin siyahıyaalınmasının nəticələrinə əsasən acarların sayı 71390 nəfər olmuşdursa,[125] 1959-cu ildə 546 nəfərə düşmüşdür. 1970-ci ilin statistik nəticələrində isə acarlar ayrıca etnik qrup kimi ümumiyyətlə, qeyd edilməmişlər.

Kartvellərə aid digər subetnik qruplar svan və zanlardır. Zanlar meqrellər və lazlar olaraq iki qrupa bölünürlər. T.Qamkrelidze, G.Maçavariani kimi gürcü tarixçiləri svan və zanların kartvellərə qohum etnik qrup olduğunu deyil, ondan törəmiş qruplar və ya onun qolları olduqlarını irəli sürürlər. Milli azlıqlarla iş üzrə Avropa Mərkəzi (ECMİ) tərəfindən 2009-cu ildə hazırlanmış milli azlıqların və yerli xalqların dillərinə aid hesabatda isə zan və svanların kartvellərlə eyni kökə mənsub olsalar da, ayrı etnik mənsubiyyətə və dilə aid olduqlarını qəbul edilir. Sözügedən hesabatda yazılır ki, bu dillər bir-biri ilə qohum olsalar da, bir-birlərindən kifayət qədər fərqlənirlər. Bir çox hallarda bu dillərin daşıyıcıları olan etnik qruplar bir-birlərini anlamırlar.[126]

---

124 Yenə orada

125 Всесоюзная перепись населения 1926 года. Национальный состав населения по регионам республик СССР http://www.demoscope.ru/weekly/ssp/sng_nac_26.php?reg=2330

126 Джонатан Уитли. *Грузия и Европейская хартия региональных языков или языков меньшинств.* Рабочий доклад ECMI, № 42, Июнь 2009 г.

Meqrellər əsasən Gürcüstanın şimal-qərbində Sameqrelo bölgəsində və Abxaziyanın cənubunda yaşayırlar.[127] XV-XIX əsrlərdə Dadiani xanədanı tərəfindən idarə olunan Meqreliya 1866-cı ildə çar Rusiyası tərəfindən işğal edilmiş, 1921-ci ildə isə sovet Gürcüstanının tərkibinə daxil edilmişdir. 1926-cı ildə əhalinin siyahıyaalınmasının nəticələrinə əsasən Gürcüstanda yaşayan meqrellərin sayı 242289 nəfər olmuşdur.[128] 1930-cu ildən sonrakı əhalinin siyahıyaalınmalarında meqrellərin sayı ayrıca qeyd edilməmişdir.

Sovet hakimiyyətinin ilk illərində meqrellərə qarşı mülayim münasibət göstərilmişdir. Belə ki, 1930-1936-cı illərdə meqrel dilində "Qazaqişi Qazeti" adlı qəzet nəşr olunurdu. Meqrel kommunistləri İsaki Jvania və Mamauti Kvirtia muxtariyyət tələbləri irəli sürürdülər. Daha sonra bu qəzet gürcü dilində nəşr olunmağa başlanılmışdı. Stalinin dövründə meqrellər də represiyaya məruz qaldılar. Bir qismi yaşadıqları ərazidən tədricən Abxaziya Muxtar Respublikasının ərazisinə köçürüldülər. Meqrellər də ümumi gürcü adı altında qeyd edilməyə başlanıldı. Əgər 1886-cı ildə Abxaziyadakı əhalinin 6 faizini meqrellər təşkil edirdisə, 1959-cu ildə 39 faiz, 1989-cu ildə 45,7 faizini təşkil edirdilər. 1991-1992-ci illərdəki gürcü-abxaz müharibəsi zamanı Abxaziyada olan gürcülər, yəni meqrellər yaşadıqları ərazidən qovularaq Qali və Sameqreloda məskunlaşmaq məcburiyyətində qaldılar. Hələ də onlar qaçqın düşərgələrinin sakinləridir.

---

[127] Большая российская энциклопедия. Мегрелы https: //bigenc.ru/ethnology/text/2196916

[128] Всесоюзная перепись населения 1926 года. Национальный состав населения по регионам республик СССР http://www.demoscope.ru /weekly/ssp/sng_nac_26.php?reg=2330

Zanların bir qolu olan lazlar da qədim kolxi xalqının törəmələri hesab edilir. Lazlar, hazırda əsasən Gürcüstan və Türkiyənin Qaradəniz sahili boyu sahillərində yaşayırlar. Gürcüstanda yaşayan lazlar əsasən xristian dininə sitayiş edirlər. Türkiyədəki lazlar isə müsəlmandırlar. Gürcüstanın çar Rusiyası tərəfindən işğalından sonra 1829-cu il Ədirnə müqaviləsinə əsasən müsəlman lazlar Osmanlı ərazisinə köçürülmüş, Ərzurumda yaşayan ermənilər isə Axalkalakidə (Axalkələkdə) yerləşdirilmişdirlər. Sayca az olan xristian lazlar isə yaşadıqları yerləri tərk etməmişdilər. 1936-cı ilə qədər lazlar Gürcüstanda ayrıca etnik qrup kimi qeyd edilirdisə, daha sonrakı dövrlərdə onlar haqqında heç bir məlumat qeyd edilmir.

Gürcü xalqının subetnik qruplarından biri də svanlardır. Strabonun və Plininin əsərlərində svanlar haqqında məlumat verilir. Svanlar Sameqrelo, Svaneti bölgələrində, Abxaziyanın cənubunda məskunlaşmışdırlar. 1926-cı il siyahıyaalınmasının nəticələrinə əsasən Gürcüstanda 13158 nəfər svan yaşamışdır.[129] 1930-cu ildən sonrakı statistik məlumatlarda svanlar ayrıca etnik qrup kimi qeyd edilməmişdir. Milli azlıqlarla iş üzrə Avropa Mərkəzi (ECMİ) tərəfindən 2009-cu ildə hazırlanmış milli azlıqların və yerli xalqların dillərinə aid hesabatda svanların sayının təqribən 30000 nəfər olduğu göstərilmişdir.[130] Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, sovet dövründə Svanetidə baş vermiş təbii fəlakəti bəhanə gətirərək Gürcüstanın o zamankı rəhbərliyi demoqrafik şəraiti gürcülərin xeyrinə dəyiş-

---

[129] Всесоюзная перепись населения 1926 года. Национальный состав населения по регионам республик СССР http://www. demoscope.ru/ weekly/ssp/sng_nac_26.php?reg=2330

[130] Джонатан Уитли. *Грузия и Европейская хартия региональных языков или языков меньшинств*. Рабочий доклад ECMI № 42 Июнь, 2009 г.

dirmək məqsədi ilə svanları azərbaycanlıların yığcam yaşadıqları Aşağı Kartliyə - Borçalıya köçürdü.

Gürcü xalqının tərkibindəki subetnik qruplardan biri də quriyalılardır. XIV əsrin əvvəllərində Vdenidze sülaləsi tərəfindən qurulan Quriya knyazlığı həmin əsrin sonunda İmereti çarlığından asılı vəziyyətə düşdü. XVIII əsrdə Çar Rusiyasının Qafqazı işğal etdiyi dövründə Quriya knyazı V Mamiya ilə Rus çarlığı arasında bağlanmış müqaviləyə əsasən 1810-cu ildə bu imperiyanın protektaratlığını qəbul etdi.[131] Əsasən Quriya regionunun tərkibindəki Ozurgeti, Lançhuti və Cohaturi rayonlarında yaşayan bu subetnik qrupun sayının 300000 nəfərə qədər olduğu ehtimal edilir.

Gürcüstanın digər ölkələrlə həmsərhəd bölgələrində milli azlıqlar yaşayırlar. Həm də sərhəddə yaşayan milli azlıqlar həmsərhəd olduğu ölkələrin milli kimliklərini daşıyırlar. Azərbaycan ilə həmsərhəd olan cənub əraziləri-Kvemo-Kartli (Borçalı) bölgəsində azərbaycanlılar, Emənistanla sərhəd olan Samtsxe-Cavaxeti bölgəsində ermənilər yaşayırlar. Osetinlər Şimali Osetiya ilə sərhəd ərazilərdə məskunlaşmışdırlar. Kistinlərin yaşadıqları Pankisi dərəsi Gürcüstan-Çeçenistan sərhədində yerləşir.

1921–1940-cı illərdə Gürcüstanda təbii artım çox yüksək olmuş, 1940-cı ildə doğum sayı ölüm sayından hər min adamda 18 nəfər təşkil etmişdir. Ağır müharibə illərindəki doğumun sürətlə azalması vəziyyəti bərabərləşmiş, 1945-ci ildən başlayaraq əhalinin təbii artımı yüksəlməyə başlamışdı. 1950–1965-ci illərdə hər min adamda 16 adama çatdı.

---

[131] Гурийская республика http://georoute.ge/Republic_of_Guria [İstifadə tarixi: 23.09.2017]

Gürcüstanın şəhər və kənd əhalisinin münasibətlərinin inkişafı XIX əsr üçün xarakterik idi. Bu rəqəmlər həmin illərdə respublikada gedən sosial–iqtisadi dəyişikliklərin göstəriciləri idi. Beləliklə, 1913–1966-cı illər arasında kənd əhalisi 24 faiz artmışdır. Şəhər əhalisi isə bundan 3 dəfə artıq artmışdır. Bu kəndlərin şəhərə güclü axınının sübutu deyildi. Məsələ onda idi ki, Gürcüstanın bir sıra kəndləri axırıncı dövrlərdə şəhər tipli yaşayış qəsəbələrinə çevrilmişdi. Kəndlərin abadlaşması, nəqliyyat vasitələrinin genişlənməsi, sənayenin inkişafı, kənd təsərrüfatının mexanikləşdirilməsi şəhərlər və kəndlər arasındakı həyat tərzi və istehsal arasındakı fərqi aradan qaldırırdı. Kənd əhalisinin əsas hissəsi yaxınlıqda olan şəhərlərin sənaye və təsərrüfat sahələrində məşğulluğu bu meyili daha da gücləndirirdi. Kənd təsərrüfatı məhsullarının ilkin emalı, dağ-mədən və yüngül sənayeyə aid bir çox müəssisələr kənd yerlərində inkişaf edir və bu da sonradan ya şəhərə ya da şəhər tipli qəsəbələrə çevrilirdi. Tkibuli və Tkvarçelinini buna misal göstərmək olar. 1939-cu ildə gürcülərin ölkədə minimal çəkisi azalmağa başladı. 1926-1939-cu illərdə digər müttəfiq respublikalardan ölkəyə köçüb gəlmiş insanların axını nəticəsində gürcü əhalisinin xüsusi çəkisi ən kəskin şəkildə azalmışdı. Əgər göstərilən dövrdə respublikada gürcülərin sayı 21,6 faiz artmışdısa, rusların və ukraynalıların sayı 3 dəfə artmışdı. Bu dövrdə ermənilərin sayı da sürətlə artaraq 1939-cu ildə 1926-cı ilə nisbətən 35 faizə çatdı. Bu millətlərin belə yüksək sürətlə artması avtomatik olaraq gürcülərin çəkisinin azalmasına gətirib çıxartdı. Lakin 1939-1959-cu illərdə gürcülərin xüsusi çəkisi əhəmiyyətli dərəcədə

artdı."[132] Bunun səbəbini mütəxəsisslər Gürcüstandan başqa respublikalara axının olması ilə izah edirlər.

1959-cu ildəki hesablamalara görə, gürcülərin sayı 2601 min nəfərə çatmışdı. Bu bütün gürcü əhalisinin 64,3 faizini təşkil edirdi. Maraqlıdır ki, respublikadan kənarda 90 min gürcü yaşayırdı. Bir çox xalqların nümayəndələri Gürcüstanı özləri üçün ikinci vətən hesab edirlər. Həmin illərdə Gürcüstan əhalisinin 11 faizini azərbaycanlılar, 10 faizini ruslar, 4 faizini ermənilər, 3,5 faizini osetinlər, 2 faizini yunanlar, 1,5 faizini abxazlar, 1,3 faizini ukraynalılar və bir o qədərini də yəhudilər təşkil edirdi.[133]

Gürcülərin və başqa xalqların nümayəndələrinin Gürcüstan ərazisində yerləşdirilməsini tarixi şərtlər müəyyənləşdirir. Şərqi və Cənubi Gürcüstanın kəndlərində əhalinin əsas hissəsi feodalizmin son dövründə bura köçmüş ermənilərdən və yerli, aborigen azərbaycanlılardan ibarət idi. XIX əsrdə Osmanlı imperiyasından ermənilər Gürcüstanın cənub şəhərlərinə köçürüldülər. Bu dövrdə bir çox rus qəsəbələri, əsasən hərbi qəsəbələr salındı. Gürcüstanın qərb hissəsi isə (Abxaziyanı çıxmaq şərtilə) əksinə eyni milli tərkibə mənsub idi. Bu kəndlərdə ancaq gürcülər yaşayırdı. Əsasən də milli fərqlilik Tbilisi, Batumi, Suzuki və Rustavi kimi şəhərlərdə qeydə alınırdı. Osetinlərin əsas hissəsi Cənubi Osetiya Muxtar vilayətində yerləşirdi. Abxazlar isə Gürcüstanın qərb hissəsində Abxaziya Muxtar Respublikasında məskunlaşmışdılar.

1989-cu il əhalinin siyahıyaalınmasına görə, Gürcüstanda 5,4 milyon nəfər yaşayırdı. Keçən on il ərzində əhalinin sayı 8,7

[132] Джошвили В.Ш. Население Грузии. Экономика-географическое исследование. Тбилиси: Мецниереба, 1968, с.47
[133] Yenə orada, s.49

faiz artdı: şəhər əhalisi 16,7 faiz, kənd əhalısı 0,3 faiz olmuşdur. Təqribən 56 faiz əhali şəhərlərdə (23 faizi Tbilisidə) və 44 faiz kənd yerlərində yaşayırdı.

Gürcüstanda əhalinin milli tərkibi haqqında məlumatlar siyahıyaalmalar nəticəsində dəqiqləşdirilirdi. Gürcüstanda XX əsrdə millətlər üzrə əhalinin bölgüsündə baş verən dəyişikliklər öz əksini tapmışdır. Burada respublikada başqa xalqların nümayəndələrinin yaşadıqları göstərilir: kürdlər (1959-cu ildə 16212 nəfər), tatarlar (5441 nəfər), Dağıstan xalqları (5087 nəfər), aysorlar-assuriyalılar (5005 nəfər), polyaklar (2702 nəfər), moldovanlar (2630 nəfər), estonlar (1882 nəfər) və s.

Sovet dövründə gürcülər respublikanın bütün bölgələrində əhalinin ən çox saylı millətlərindən biri idi. Yalnız Cənubi Osetiya vilayətində və cənub-şərq rayonlarında onlar əhalinin tərkibində kənd yerlərin 72,7 faizini, şəhərin isə 53 faizini təşkil edirdi. 1959-cu ildə Gürcüstan SSR-də yaşayan 2600, 6 min gürcüdən başqa Sovet İttifaqının digər respublikalarında 91 min nəfər gürcü yaşayırdı. 1926-cı ildə SSRİ-də bütövlükdə 1821,2 min nəfər gürcü yaşayırdı ki, Gürcüstan SSR-dən kənarda onların sayı 33 min nəfər idi. Gürcüstana yaxın SSRİ rayonlarında gürcülərin yığcam yaşadıqları yerlərdə onların sayı çox da artmırdı. Hələ o zamanlar Azərbaycan SSR-lə yanaşı, gürcülər Soçi şəhəri yaxınlığında Plastinka kəndində, Şimali Qafqazın və Şimali Osetiyanın bir çox kəndlərində yığcam yaşayırdılar.[134]

Gürcüstan SSR-də 1979 və 1989-cu il əhalinin siyahıyaalmalarında müvafiq olaraq 1979-cu ildə gürcülərin sayı 3,433 min, 1989-cu ildə 3,787 min, ermənilərin sayı 448 min (1979),

---

[134] Джошвили В.Ш. Население Грузии. Экономика-географическое исследование. Тбилиси: Мецниереба, 1968, с.49

437 min (1989), rusların sayı 371 min (1979), 341 min (1989), azərbaycanlıların sayı 225 min (1979), 307 min (1989), osetinlərin sayı 160 min (1979), 164 min (1989), yunanların sayı 95 min (1979), 100 min (1989), abxazların sayı 85 min (1979), 95 min (1989), ukraynalıların sayı 25 min (1979), 33 min (1989), gürcü yəhudilərinin sayı 20 min (1979), 10 min (1989), belarusların sayı 5 min (1979), 6 min (1989), tatarların sayı 5 min (1979), 4 min (1989), digərlərinin sayı 29 min (1979), 37 min (1989) nəfər olmuşdur. 1979-cu ildə Gürcüstan SSR-də əhalinin ümumi sayı 4 milyon 993 min, 1989-cu ildə 5 milyon 400 min nəfər olmuşdur.

Postsovet dövründə əhalinin sayı azaldı. 2002-ci ilin iyul ayında əhalinin siyahıya alınması zamanı Gürcüstan ərazisində təxminən 4,9 milyon nəfər (Abxaziya və Cənubi Osetiyanı nəzərə almadan) 2012-ci ilin yanvarın 1-də Milli Statistika Xidmətinin Gürcüstan əhalisinin ümumi sayının qiymətləndirməsinə görə - 4497600 nəfər idi (Abxaziya və Cənubi Osetiyanı nəzərə almadan); ABŞ-ın Mərkəzi Kəşfiyyat bürosunun məlumatına görə, 2012-ci iyul ayının 1-də əhalinin sayı 4570934 nəfər olmuşdur. 2002-ci idə Gürcüstan əhalisinin siyahıya alınması zamanı müəyyən olunmuşdur ki, oradakı aşağıdakı millətlər və milli qruplar: gürcülər (83,7 faiz), azərbaycanlılar (6,5 faiz), ermənilər (5,7 faiz), ruslar (1,5 faiz), osetinlər (0,9 faiz), yezidilər (0,5 faiz), yunanlar (0,3 faiz), çeçenlər və kistinlər (0,2 faiz), ukraynalılar (0,2 faiz), aysorlar, avarlar, abxazlar və başqaları yaşayırlar.[135]

---

[135] *Население Грузии. 12.08.2016* https://ru. org/wiki//info/ knowledeva. [İstifadə tarixi: 03.08.2018]

Gürcüstanın Diaspora Məsələləri üzrə sədri Miria Davitaiyanın bildirdiyinə görə, Gürcüstandan kənarda 1,6 milyon gürcü yaşayır (25,7 faiz). Buraya Azərbaycanda (9,9 min) və Türkiyədə (1,5 milyon) yaşayan gürcülər daxil edilmir. Bütün Gürcüstanın Katalikosu - Patriarxı İkinci İliya gürcülərin xaricə getməsini çox kədərli fakt kimi qeyd edir:

*"Mən gözləmirdim ki, bu qədər gürcü belə asanlıqla xaricə gedəcəklər, bilirəm onları ehtiyac buna məcbur edir, amma ən yaxşısı vətəndə qalıb ehtiyac içində yaşamaqdır"*[136] - deyə Patriarx mühacirləri ölkəyə qayıtmağa çağırır.

Gürcülər İranda, Türkiyədə, Rusiyada və digər ölkələrdə də yaşayırlar. Gürcü tədqiqatçları Türkiyədə yaşayan lazları kartveli tayfalarından biri hesab edirlər. Onlar yazırlar ki, Qərbi Anadoluda Birinci Dünya müharibəsi və ondan sonrakı dövrlərdə Bursa, Sinopa və başqa bölgələrdə gürcü yaşayış məntəqələri meydana gəlmişdir.

İranda - Freydanda, Gilanda, Cənubi Azərbaycanda və Mazandaranda 10 min nəfərdən artıq gürcü yaşayır. Fransada, Qərbi Avropa, Cənubi və Şimali Amerika ölkələrində mühacirlərdən ibarət gürcü kaloniyaları yaranmışdır.

[136] Yenə orada

*Gürcüstan SSR 1926-cı il*

| Ərazi və millət | Bütöv əhali | | | Şəhərlərdə | | Kəndlərdə | |
|---|---|---|---|---|---|---|---|
| | Hər iki cins | Onlarda: | | Kişi | Qadın | Kişi | Qadın |
| | | Kişi | Qadın | | | | |
| **Axalkələk qəzası** | **78937** | **40447** | **38490** | **1808** | **1667** | **38639** | **36823** |
| Ermənilər | 57791 | 29671 | 28120 | 1635 | 1523 | **28**036 | 26597 |
| Gürcülər | 7565 | 3994 | 3571 | 116 | 81 | 3878 | 3490 |
| Meqrellər | 2 | 1 | 1 | - | - | 1 | 1 |
| Türklər* | 6940 | 3540 | 3400 | 10 | 2 | 3530 | 3398 |
| Ukraynalılar | 2679 | 1103 | 1376 | 1 | 2 | 1302 | 1374 |
| Ruslar | 2492 | 1203 | 1289 | 29 | 32 | 1174 | 1257 |
| Kürdlər | 930 | 471 | 459 | 2 | - | 469 | 459 |
| Digər | 524 | 263 | 261 | 15 | 27 | 248 | 234 |
| Xarici vətandaşlar | 16 | 2 | 14 | - | - | 2 | 14 |
| **Axalsıx qəzası** | **96973** | **50818** | **46155** | **7970** | **5602** | **42848** | **40553** |
| Türklər | 49170 | 25137 | 24033 | 24 | 64 | 25113 | 23969 |
| Gürcülər | 24353 | 12488 | 11865 | 1160 | 1127 | 11328 | 10738 |
| Meqrellər | 1 | 1 | - | 1 | - | - | - |
| Ermənilər | 15565 | 7892 | 7673 | 3475 | 3547 | 4417 | 4126 |
| Kürdlər | 3094 | 1614 | 1480 | 1 | - | 1613 | 1480 |
| Ruslar | 1678 | 1373 | 305 | 1312 | 290 | 61 | 15 |

* Türklər dedikdə buraya bütün türkdilli xalqlar, o cümlədən azərbaycanlılar da daxil idi

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Ukraynalılar | 1045 | 1139 | 6 | 1039 | 6 | - | - |
| Digər | 2040 | 1247 | 793 | 955 | 568 | 292 | 225 |
| Xarici vətəndaşlar | 28 | 28 | - | 4 | - | 24 | - |
| | | | | | | | |
| **Borçalı qəzası** | **86537** | **45516** | **41021** | **5961** | **5284** | **39555** | **35737** |
| Türklər | 50979 | 26469 | 24510 | 244 | 128 | 26225 | 24382 |
| Ermənilər | 14969 | 7870 | 7099 | 3262 | 3038 | 4608 | 4061 |
| Gürcülər | 7949 | 4243 | 3706 | 139 | 79 | 4104 | 3627 |
| Meqrellər | 3 | 3 | - | 3 | - | - | - |
| Yunanlar | 5501 | 3030 | 2471 | 76 | 13 | 2954 | 2458 |
| Almanlar | 4052 | 1998 | 2054 | 1588 | 1634 | 410 | 420 |
| Ruslar | 1156 | 586 | 570 | 118 | 97 | 468 | 473 |
| Digər | 835 | 547 | 288 | 245 | 146 | 302 | 142 |
| Xarici vətəndaşlar | 1096 | 773 | 323 | 285 | 149 | 484 | 174 |
| | | | | | | | |
| **Yuxarı-Svaneti** | **11179** | **5199** | **5980** | - | - | **5199** | **5980** |
| **qəzası** | 11162 | 5190 | 5972 | - | - | 5190 | 5972 |
| Gürcülər | 37 | 35 | 2 | - | - | 35 | 2 |
| Meqrellər | 11032 | 5077 | 5955 | - | - | 5077 | 5955 |
| Svanlar | 17 | 9 | 8 | - | - | 9 | 8 |
| Digər | - | - | - | - | - | - | - |
| Xarici vətəndaşlar | | | | | | | |
| | | | | | | | |
| **Qori qəzası** | **206729** | **104726** | **102003** | 14701 | **15002** | **90025** | **87001** |
| Gürcülər | 147065 | 74136 | 72929 | 9689 | 10275 | 64447 | 62654 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Meqrellər | 9 | 7 | 2 | 3 | - | 4 | 2 |
| Osetinlər | 27575 | 14129 | 13446 | 372 | 328 | 13757 | 13118 |
| Ermənilər | 25341 | 12919 | 12422 | 2597 | 2600 | 10322 | 9822 |
| Gürcü yəhudiləri | 2375 | 1249 | 1126 | 786 | 739 | 463 | 387 |
| Digər | 4368 | 2289 | 2079 | 1253 | 1059 | 1036 | 1020 |
| Xarici vətandaşlar | 5 | 4 | 1 | 4 | 1 | - | - |
| **Duşeti qəzası** | **63239** | **31254** | **31985** | **974** | **1126** | **30280** | **30859** |
| Gürcülər | 51110 | 25137 | 25973 | 748 | 871 | 24389 | 25102 |
| Osetinlər | 8326 | 4168 | 4158 | 19 | 20 | 4149 | 4138 |
| Ermənilər | 2577 | 1313 | 1264 | 178 | 199 | 1135 | 1065 |
| Digər | 1226 | 636 | 590 | 29 | 36 | 607 | 554 |
| Xarici vətandaşlar | - | - | - | - | - | - | - |
| **Zuqdidi qəzası** | **129856** | **64394** | **65462** | **2843** | **2734** | **61551** | **62728** |
| Gürcülər | 129302 | 64083 | 65219 | 2767 | 2666 | 61316 | 62553 |
| Meqrellər | 121900 | 60471 | 61429 | 2059 | 2101 | 58412 | 54328 |
| Svanlar | 76 | 59 | 17 | 17 | 1 | 42 | 16 |
| Digər | 552 | 309 | 243 | 75 | 68 | 234 | 175 |
| Xarici vətandaşlar | 2 | 2 | - | 1 | - | 1 | - |

***Azərbaycanlılar.*** Gürcüstanda yaşayan sayca ən böyük xalqlardan biri azərbaycanlılardır. Azərbaycanlılar əsasən Kvemo-Kartli (Borçalı), Kaxeti, Şida-Kartli bölgələrində, Acarıstan Muxtar Respublikasında, həmçinin Tbilisi, Rustavi və Batumi şəhərlərində yığcam halda yaşayırlar.

Qədim Azərbaycanın şimal-qərb torpaqları olan Borçalı ərazisində də azərbaycanlıların etnogenezisinin formalaş-masında mühüm rol oynayan bir çox türk tayfaları məskunlaşmışlar.

Eramızdan əvvəl 633-cü ildə Qafqaza kimmerlərin və skiflərin (işquz, iskit, sak və s. cür adlanırlar) basqını baş vermişdir. Bu tayfalar İber-Alban hüdudlarında da yerləşmişlər. Tarixşünaslıqda bu tayfaların irandilli olması irəli sürülsə də, son vaxtlar onların türk mənşəli olması təsdiq edilmişdir.

Bu tayfalar güclü, qüdrətli, mütəşəkkil olduqlarına görə Qafqazda uzun müddət öz müstəqilliklərini qoruya bilmişlər. I.M.Dyakonov "Midiya tarixi" əsərində yazır:

*"Konkret köçəri tayfa kimi nəzərdə tutulan, erkən yoxa çıxıb Asiya xalqları içərisində əriyən kimmerlər özlərinin qəfil gəlişlərinin fəlakətli nəticələri ilə xalq yaddaşında qüvvətli təəssüratlar oyatmışdır. Qədim gürcülər kimmerləri keçmişin əfsanəvi pəhləvanları adlandırırdılar".*[137]

Q.Qeybullayev kimmerilərin türk mənşəli olduğunu yazır və Kəmərli toponimlərində izi qaldığını sübut edir. O yazır: *"Araşdırmalarımız göstərir ki, Cənubi Qafqaza gəlmiş kəmərlilərin bir hissəsi Azərbaycanın Qərb bölgəsində (şübhəsiz Borçalıda da - Ö.V) həmişəlik məskunlaşmışdır. Qazax - Borçalı bölgəsində Böyük və Kiçik Kəmərli, Kəmərqaya, Qəmərli kəndlərinin adları da bu tayfa ilə bağlıdır.*[138]

---

[137] Дьяконов И.М. *История Мидии,* Баку: Нагыл Еви, 2012, с.239
[138] Qeybullayev Q. *Azərbaycan türklərinin təşəkkülü tarixindən,* Bakı, 1994, s.132

Q.A.Melikişvili də kimmerlərin Albaniyanın qərbində yaşadıqlarını təsdiq edir. "Gürcüstan tarixi" kitabında eramızdan əvvəl VIII əsrdə Qafqaza, o cümlədən Şərqi Gürcüstana döyüşkən kimmer və skif tayfalarının hücum etdiyi göstərilir. Gürcü tarixşünaslığında skiflərin əsas nüvəsini, səhv olaraq, "Şimali İran tayfaları" və gürcülərlə qohum olan Şimali Qafqaz tayfaları (müasir abxaz-adıgey, dağıstanlıların əcdadları) təşkil etdiyi göstərilmişdir: "Kimmerlər və skiflərin bir hissəsi Aşağı Gürcüstanda (Borçalıda-Ö.V.) və qonşu Azərbaycanda yerləşmiş, VIII-VII əsrlərdə qüdrətli qüvvəyə çevrilmişdir. Zaqafqaziyada ciddi dəyişikliklərə səbəb olmuş, kolxlarla vuruşan kimmerlər oradan Urartu və Kiçik Asiyaya daxil ola bilmişdirlər".[139]

Gürcü mənbələrində "Sakureti" (saklar) adlanan saklar Gürcüstanın indiki azərbaycanlılar yaşayan ərazilərində də məskunlaşmışlar. Orta əsr gürcü mənbələrində bu ərazilərin gürcü çarlarının nəzarətindən kənarda qaldığı açıq-aşkar göstərilir: "Kürün cənub hissəsi, Trialeti, Məngilis dərəsi və Sakureti Baqrata tabe olmurdu". Adı çəkilən bu məntəqələr Borçalının böyük bir hissəsini əhatə edir.

İşquzların, yaxud sakların Şimali Azərbaycanda qarnizonları, müxtəlif dayaq məntəqələri olmalarını, heyvandarlığı inkişaf etdirmələrini tədqiqatçılar təsdiq etmişlər M.N.Poqrebova eramızdan əvvəl VI-IV əsrlərdə işquzlara məxsus abidələrin Şimali-Şərqi Zaqafqaziyada (tarixi Sakasena ərazisində) mövcudluğunu göstərir.[140]

---

[139] История Грузии, Т.1.Тбилиси, 1962, с.32-33

[140] Погребова М.Н. Закавказье и его связи с Передней Азией в скифского время. М. 1984, с.205-206

İşquzlar qədim Urartu çarlığını dağıdaraq öz dövlətini yaratmışlar. Görkəmli Azərbaycan tarixçisi İ.Əliyev İşquz çarlığının hüdudlarının "Qafqaz dağları və Urmiya gölü arasında geniş ərazilərdə"[141] olduğunu yazmışdır.

A.Məmmədov "Oğuz səltənəti" kitabında İ.Əliyevin bu fikrinin İ.Dyakonovun İşquz çarlığının hüdudları barədəki mülahizələrindən tamamilə fərqləndiyini yazır. Onun sözlərini olduğu kimi təqdim edirik:

*"Biz burada İ.M.Dyakonovdan fərqli olaraq, İşquz çarlığının ərazisinin Gəncəbasar-Urmiya gölü arası deyil, Qafqaz sıra dağları - Urmiya ətrafı arası götürüldüyünü görürük. Bununla biz bu günə kimi o qədər də aydın olmayan mətləbə açar tapmış oluruq. Beləliklə, bu əraziyə şimalda tək Gəncəbasar deyil, azərbaycanlıların qədimdən məskun olduqları Borçalı, Qarayazı, Başkeçid və s. ... bir də Göyçə gölü ətrafının, bəlkə, daha dərinliklərinə uzanan böyük sahələr düşür".*[142]

Müəllif görkəmli tarixçilərin mülahizələrinə əsaslanaraq fikrini daha da inkişaf etdirmişdir:

*"Beləliklə, biz sonralar Albaniya adlanacaq Şimali Azərbaycanda - böyük ərazidə Göyçəni, Qarayazını, Borçalını, Başkeçidi də əhatə edən, bəzən asılı, bəzən müstəqil Sakasena knyazlığının olduğunu görürük. Təbii ki, onlar işquz dilində danışırdılar".*[143]

Bununla da A.Məmmədov bildirmişdir ki, tarixi Sakasena ərazisinə indiki Ermənistanda və Gürcüstandakı qədim torpaqlarımız da, o cümlədən Borçalı da daxil olmuşdur.

---

[141] Алиев И. *История Мидии*, Баку: АН АзССР, 1960, с. 226
[142] Məmmədov A. *Oğuz səltənəti*, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, s. 226
[143] Yenə orada, s. 226

Nəinki Borçalının Kürsahili ərazilərində, hətta Gürcüstanın qədim paytaxtı Msxeta ətrafında da güclü qədim türk tayfalarının - buntürklərin yaşadığı gürcü mənbələrində də - "Kartlinin müraciəti", "Gürcüstanın salnaməsi", L.Mrovelinin əsərində də yazılmışdır. Bu tayfalar qədim Albaniya və qədim İberiya ərazilərində eramızdan əvvəl VI əsrdə yaşamışlar. Gürcü mənbələrində türk tayfalarının Şərqi Gürcüstan ərazisində lap qədim dövrlərdən - miladdan öncə məskunlaşdığından, onların həyatlarından, mənəvi keyfiyyətlərindən, məişətindən, etiqadından, hərbi şücaətlərindən, dövlətçilik ənənələrindən bəhs edilmişdir. Salnamədəki məlumatlardan görünür ki, bəzi hallarda türk tayfaları işğalçılarla, xüsusən fars qəsbkarları ilə mübarizədə gürcülərlə əlbir hərəkət edirlərmiş. Leonti Mroveli "Kartli çarlarının həyatı" adlı salnaməsində yazır ki, Kür çayı ətrafında yaşayan güclü tayfalar, bizim buntürk və qıpçaq adlandırdığımız vəhşi bütpərəst tayfalar qədim gürcü mənbələrində Kartlinin – Şərqi Gürcüstanın ən qədim sakinləri hesab olunurlar.[144]

L.Mroveli buntürklərin Mtsxeta ətrafında və Kür sahillərində məskunlaşmasını bu tayfaların farslarla düşmənçiliyi ilə əlaqələndirir:

*"İran şahı Keyxosrovun atasının vaxtilə türklər tərəfindən öldürülməsi hadisəsi onun heç vaxt yadından çıxmırdı. O, türklərlə döyüşüb atasının qisasını almaq üçün fürsət axtarırdı. Həmin vaxt gəlib çatır. Qəfil hücuma məruz qalmış türklərin bir qismi (28 qəbilə) Gurkan (Xəzər) dənizini keçərək Kür çayı sahillərilə Gürcüstanın Msxeta şəhərinə gəlirlər və şəhərin kəndxudasından (mamasaxlıdan) himayə istəyirlər, əvəzində isə farsların hücumlarından bezmiş gürcülərə, farslara qarşı mübarizədə kömək etməyi öhtəsinə götürülər.*

[144] Мровели Л. Жизнь Картлийских царей, 1979, с. 25

*Kəndxuda və şəhərin əhalisi türklərin orada yaşamasına razı olurlar. Həmin türklər Msxeta şəhərinin qərb hissəsində sıldırım qayalar olan ərazidə məskunlaşır, şəhərin ətrafını hasarla möhkəmləndirirlər. Həmin yer o zamandan Sarkine adlanmışdır".*[145]

Q.Voroşil L.Mrovelinin buntürkləri qıpçaqlarla eyniləşdirdiyini, ona görə də onların məskunlaşma tarixində səhv etdiyini göstərir.[146] Məskunlaşma tarixində onların səhv etdiklərininin səbəbini M.Seyidov isə başqa cür şərh edir. Tədqiqatçı gürcü tarixçilərinin buntürklərlə qıpçaqlar arasında fərq görməmələrini hər iki qəbilə birləşməsinin türk dilində danışmaları, onların soy kökləri, mədəniyyətləri, dinləri, inamları, adət-ənənələrinin eyniliyi ilə izah edir.[147] VII-IX əsrlərin gürcü mənbələrindən olan "Kartlinin müraciəti" və L.Mrovelinin əsərində, "Kartlos Sxovreba"da da buntürklər fateh Makedoniyalı İsgəndərin dövrü ilə əlaqələndirilir. *"Bizim buntürklər və qıpçaq adlandırdı-ğımız nəsilliklə bütpərəst olan və Kür çayının sahil boyunda məskunlaşanları görərkən İsgəndər təəccübləndi".*[148] İsgəndər (Makedoniyalı) Lotanın oğlanlarının nəslini qaçmağa məcbur etdikdə və onları yarıgecə ölkəsinə sıxışdırdıqda, orada öncə qəddar, qəzəbli buntürklərə tuş oldu. Onlar Kür çayının sahilində yaşayırdılar, dörd şəhərdə yerləşmişdilər. Onların şahı duruş gətirə bilməyəcəyindən uzaqlaşdı. Bu zaman haldeylər tərəfindən köçürülmüş honlar (hunlar) gəldilər. Buntürklərin hökmdarından bac ödəmək şərtilə yer istədilər və Zanavanda yerləşdilər. Gürcü alimləri-nin bir qismi bu hadisəni anoxronizm, yəni

---

[145] Мровели Л. Жизнь Картлийских царей, 1979, с. 25-26

[146] Voroşil Q, *Qafqaz Albaniyası.* Bakı: Elm, 1993 s. 20

[147] Seyidov M. *Azərbaycan xalqının soy kökünü düşünürkən.* Bakı, 1989, s. 322-323

[148] Летопись Картли. Тбилиси: Мецниереба, 1982

tarixən səhv hesab edir, lakin müəyyən bir həqiqətin olmasını da etiraf edirlər. Bu məlumat buntürklərin şəhər mədəniyyətinə malik olmalarını, yeri gəldikdə gürcüləri düşmən hücumlarından qorumaqda onlara kömək etdiyini, həm də yenilməz, döyüşkən, tədbirli və qəhrəman bir tayfa olduğunu göstərir.

Borçalı ərazisində türkdilli quqar tayfaları da yaşamışdır. Quqarların mənşəyi və onların yaşadıqları ərazinin Qoqarenanın, yaxud Quqarkın hansı ölkəyə daxil olması da mübahisəlidir.

İ.Drasxanakertskinin "Ermənistan tarixi" əsərinin şərhçisi M.O.Darbanyan-Məlikyan kitabda "şimal ölkəsi" kimi göstərilən Quqarkı "Böyük Ermənistan"ın əyalətlərindən biri, Arşakidlər Ermənistanının dörd canişinliyindən biri olduğunu göstərir:

*"387-ci ildə Ermənistan dağıldıqdan sonra Quqark Virkuya (Şərqi Gürcüstana-Ö.V.) birləşdirildi. Quqarka daxil olan Aşosk qavarlığı isə (Ararat qavarlarından biri kimi) Ermənistanın tərkibində qalmışdır".*[149]

Erməni tarixçiləri Quqarkı (Qexarkunik) tarixi erməni torpağı hesab etməklə indiki Kamo, Basarkeçər, Göyçə (Sevan) ərazilərini buraya daxil edirlər.

Gürcü tədqiqatçısı D.L.Musxelişvili 1982-ci ildə yazdığı "Şərqi Gürcüstanının tarixi coğrafiyası" əsərində Quqarkın İberiyanın şərq əyaləti olduğunu, sonralar eramızdan əvvəl II əsrdə ermənilər tərəfindən işğal olunduğunu sübut etməyə çalışır. Strabonun Qaqarena adlandırdığı bu əyalətə aşağıdakı kontonları: Kanqarkı – Cavaxetinin yarısını (Axalsıxı - Ö.V) Koxbu, Sobu, Xnaraket qalasındakı Dzoru, Atos və Taqniri daxil edir. "Dzor" dedikdə, müasir Ağstafaçay vadisini, "Xnarakert" dedikdə, gürcü və ərəb mənbələrinin Cənubi-Qərbi Azərbaycanda Kürün sağ sahi-

[149] Драсханакертски И. *История Армении*. Ереван: Советакан Грокан, 1986, с. 250

lində Tovuzçay vadisində yerləşən Hunan qalasını, "Koxb" dedikdə, Azərbaycandakı İncəçay vadisini, “Tsob” dedikdə, Cənubi-Şərqi Gürcüstandakı Debed çayının aşağı qolu Banuşçay vadisini Taşir - bir hissəsi indiki Ermənistanda qalan Lor-Taşir düzənliyini, Gürcüstandakı Mşaveri, Xrami və Alget (“Artos” dedikdə, Artosçay - Akuryan) çaylarının vadilərini nəzərdə tutur.[150]Müəllif Movses Xorenatskinin "Ermənistan tarixi"indəki Quqarkın təsvirinə əsasən belə iddia edir ki, M.Xorenatskinin təsvir etdiyi ərazi ("Cavaxetinin yarısı" istisna olmaqla) "Kartlis Sxovreba"- da adı çəkilən İberiya çarlığının iki qədim əyalətinə: Qaçiani və Qardabani əyalətlərinə tam uyğun gəlir. Bu əyalətlər Skvireti çayının (Tbilisi ətrafındakı indiki Vera çayı), Abosi (Aşos-Arpaçaya - Ö.V.) və Xunaniyə (Tovuzçay sahillərinədək - Ö.V.) qədər uzanıb gedir.[151]

Beləliklə, gürcü və erməni tədqiqatçıları Borçalı da daxil olmaqla, qədim Azərbaycanın xeyli ərazisini yanlış olaraq tarixi gürcü və erməni torpaqları kimi təqdim edirlər. Bu mülahizələr Azərbaycan tədqiqatçıları mərhum akademik Ziya Bünyadov, tarix elmləri doktoru Fəridə Məmmədova tərəfindən alt-üst edilmişdir. Aşağıda bu barədə geniş bəhs edilmişdir. Fransız tarixçisi San-Martin Qaqarenaya (Quqarka) Ağstafa çayının yuxarı hövzəsini, Lorunu, Axuryan çayı sahillərini, Axalsıx, Dumanis, Göyəzən mahallarını daxil etmişdir.

Maraqlı cəhət ondan ibarətdir ki, A.İ.Qrek Qoqarenanı (Quqarkı) Gürcüstandakı indiki Borçalı və Axalsıx rayonlarının qədim adı hesab edir.[152]

---

[150] Мускевишвили Д.Л. *Из исторической географии Восточной Грузии.* с.6-7

[151] Yenə orada, s.8

[152] Грек А.И. *Краткий очерк истории Кавказского перешеека*, вып. 1, Киев: А. 1895, с. 37

K. Trever quqarları qafqazdilli xalq kimi, D.L.Musxelişvili isə onları iber tayfası və gürcü kimi qələmə verir.[153]

Q.Qeybullayev quqarların türk tayfası olduğunu sübut edir:

*“Əslində, Quqar sonu "ar", "ər" sözlərilə bitən qədim türk mənşəli etnonimlərlə (avşar, qacar, kəngər və s.) bir sırada durur”.* [154]

Türk tarixçisi F.Kırzıoğlu, M.Fəxrəddin qədim Assur yazılarına istinad edərək qeyd edir:

*“Sak tayfalarının Tiflis altındakı Borçalıdan Göleyə qədər, Xram çayından yuxarı Kür boylarında yerləşən qolunun adı soy başçılarının adı ilə "Qaqar", yaxud "Qaqi" olmuşdur. Yaşadıqları ərazini isə Qaqarena, yəni qaqarların yurdu adlandırmışlar”.* Bunu eramızdan əvvəl 63-cü ildə anadan olmuş antik dövrün mütəfəkiri Strabon da söyləmişdir.

Q.A.Melikişvili də özünün “Gürcüstanın qədim tarixinə dair” əsərində qoqarları saklarla əlaqələndirmişdir. Eramızın IV əsrində Qoqarena İberiya (Kartli) hüdudları daxilində göstərilmişdir. Sirakenədə sirakların - şirakların eramızdan əvvəl yaşadığı haqqında Strabon məlumat vermişdir. Şiraklar qədim Albaniya ərazisində Alazan və Qabırrı çaylarının aşağı axarları arasındakı ərazidə yaşamışlar. Musa Kalankatlının "Alban tarixi" əsərində Şirak mahalının adı çəkilir. İndi Şirak səhrası adı ilə bu mahal Gürcüstana daxildir.

Tədqiqatçılar İberiya və indiki Ermənistan hüdudlarında kəngərlərin də yaşadığını və Kəngər əyalətinin eramızdan əvvəl II əsrdə ermənilər tərəfindən işğal olunduğunu, sonra isə iberlər tərəfindən zəbt olunduğunu göstərmişlər. “VII əsr erməni

---

[153] Мускевишвили Д.Л. *Из исторической географии Восточной Грузии*. Тбилиси, 1982, с.6-11

[154] Qeybullayev Q. *Azərbaycan türklərinin təşəkkülü tarixindən,* Bakı, 1994, s.100

coğrafiyası"nda Kəngər əyaləti Gürcüstanın tərkibində göstərilir. Gürcüstanda yığcam halda yaşamış gəngərlərin bir hissəsi sonralar qazaxlar tayfasına qarışmış, digər hissəsi isə XVII əsrdə gürcü çarının hakimiyyətinə boyun əyməyərək cinli, boy əhmədli, səfikürd və b. tayfalarla birlikdə Qarabağa köçmüşlər.[155]

Borçalıda yaşamış qədim tayfalardan biri də sadaklar olmuşdur. Bu tayfa öz başçısı Sadakanın adı ilə adlanmışdır. Albaniyada sode tayfası yaşamışdır. İndi Aşağı Qarayazı ərazisindəki (Ağstafa rayonunda) Sadıqlı kəndlərinin adları və indiki Qardabani rayonunda yaşamış Sadıqlıların adı da sadaklılar tayfası ilə bağlıdır. 1727-ci il bir tarixi mənbədə Azərbaycanın Gürcüstanla sərhəddində Sadak mahalının yerləşdiyi göstərilmişdir.

Gürcüstan və Azərbaycan hüdudları arasında Kür sahillərində yaşayan tayfalardan biri də cinlilərdir. VII əsr mənbəyinə görə, ərəblər xəzərlərlə müharibəyə gedərkən Mərvan ibn Məhəmmədin sərkərdəliyi altında Kür çayının sahillərində cinlilər Gürcüstanda yığcam halda yaşamaqda davam etmiş və XVIII əsrdə Gürcüstan çarının tabeliyindən çıxıb kəngərlərlə birlikdə Qarabağa köçmüşlər.[156]

Tarixşünaslıqda hunlar, xonlar adı ilə məşhur olan türk tayfalarının Borçalı ərazisində də V əsrdə məskunlaşdıqları yazılır.[157]

---

155 Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, 1994, s. 111

156 Yenə orada, s.123

157 Eramızın II əsrində yunan tarixşünaslığında yeni etnik termin olan "hun" termini işlənmişdir. (Dionis Perieyeqitin şeirlərində və Klavdiya Ptolemeyin əsərində) Bundan başqa hunlar haqqında V-VI əsrlərin yunan və latın yazıçıları Yevnapiya, Zosima, Sokrat, İeoronima, Sezonema, Stilit, Ritora, Bar Ebrey, orta əsr gürcü mənbələri, L.Mroveli, ərəb tarixçiləri Balazuri, Təbəri və müasir Azərbaycan tədqiqatçısı Yusif Cəfərov geniş məlumat vermişlər.

Mənbələrdə xəzərlər barsil, bulqar tayfaları ilə qohum tayfa hesab olunur. Ərəb tarixçiləri İbn Dəst və Hərdizinin məlumatına görə, barsililər (borçolalılar) Volqa bulqarlarının türk tayfalarının qərbi hun qoluna mənsub olan türk tayfalarının bir bölüyünü təşkil edir.

Qədim əfsanələrdə bulqarlar, barsililər və xəzərlər Skifiyadan çıxmış üç qardaş kimi təsvir olunurlar.[158] 225-ci ildə hunlar (xəzər və barsililər) yenidən Cənubi Qafqazda göründülər. Bu dəfə onlar Sasani şahı I Ərdəşirə qarşı çıxan Xosrovun tərəfində vuruşmuşlar.

III əsrin II yarısında gürcü tarixşünaslığında İberiyaya (Kartliyə) alanların güclü hücumu haqqında məlumat verilmişdir.

Hunların başqa bir birləşməsi haylandurlar sərhəd qalası Çorada (Dərbəndin) ətrafında yerləşən xonlar (hunlar) ölkəsindən çıxaraq Cənubi Qafqaza 450-ci ildə hücum etmişlər. Qafqazda (İberiya və Albaniyada) Sasani İranına qarşı azadlıq müharibəsi başlamışdır. Həmin dövrdə Albaniyada Aşağı Qarayazı ərazisində yerləşən Xalxal şəhəri yaxınlığında Çora marzbanı (canişini) alban üsyançıları tərəfindən məğlub edilmişdir. Üsyançılar Albaniyadakı farsların tutduqları şəhər və qəsrləri azad etmişdirlər. Alban çarı Vaxan hunlarla müqavilə bağlamışdır.

Göytürk imperatorluğu dövründəki türk ellərindən biri, VII əsrin II yarısı - VIII əsrin I yarısında Tula çayı boyunda yaşayan doqquzoğuzlular, X əsrdə Sır-Dərya (Ceyhun) sahillərində yaşayan Qərbi Göytürk birliyinə daxil olan oğuzlar XI əsrdə (1040-cı il) Səlcuq ailəsinin başçılığı ilə Xorasanda güclü dövlət yaratmışdılar.

---

[158] Джафаров Ю. Гунны в Азербайджане. Баку: Азернешр,1993 с. 16-17

XI əsrin 30-cu illərindən Cənubi Qafqaza Səlcuq oğuzlarının kütləvi axını başlamışdır. Gürcü tədqiqatçıları və mənbələri Səlcuqların hücumu və axını ilə nəinki indi Şərqi Gürcüstan adlanan qədim Azərbaycan ərazilərində, hətta Kartlinin özündə də türk əhalisinin xeyli artdığını təsdiq edirlər. O dövrün gürcü tarixçiləri Kartlini iki adla: Kartveloba (gürcü obaları) və Didi Türkoba (Böyük Türküstan elləri) adlandırırlar. Bütün Şərqi, hətta qismən Qərbi Gürcüstan da "Didi Türkobaya" daxil idi. Bu dövr haqqında N.Şengeliya yazır:

*"Səlcuqlar müntəzəm olaraq Gürcüstana girir, mühüm strateji və inzibati nöqtələri tuturdular. Türk qövmlərinin Gürcüstan ərazisində oturaqlaşması prosesi baş verirdi. Bütün Gürcüstan ərazisinin türkləşməsi qorxusu yaranmışdı".*[159]

"Gürcüstan tarixi" kitabında "Didi Türkoba" – "Böyük türkçülük dövrü" haqqında yazılmışdır.

Bu əsərlərdən məlum olur ki, indi Şərqi Gürcüstan adlanan Azərbaycan ərazilərində (Başkeçid, Borçalı, Qarayazı, Qaraçöpdə) qədim dövrlərdən yaşayan türk əhalisi səlcuq - oğuzların axını ilə daha da artmış ikincisi, türklərin Qərbi Gürcüstanda (hətta Kutaisidə), Ərdənuc və Klarcetidə də oturaqlaşması və bütünlükdə Gürcüstanın tamamilə türkləşməsi "təhlükəsi" yaranmışdı.

Gürcü tarixçisi R.Metreveli türk - səlcuq tayfalarının Gürcüstan ərazisində görünməsini ilk dəfə XI əsrin 60-70-ci illərinə aid etmişdir. Gürcü tarixçisi yazır ki, türk - səlcuqlar Gürcüstana dönə-dönə basqın etmişlər. Sultan Alp Arslanın başçılığı ilə 1065-1068-ci illərdə, Məlik şahın başçılığı ilə 1072-1092-ci illərdə türk - səlcuqlar tərəfindən tez-tez hücumlara məruz qal-

---

[159] Шенгелия Н.Н. Сельджуки и Грузия в XI. Тбилиси: Мецниереба, 1968, с.396-399

mış Gürcüstan öz müstəqilliyini saxlamağa çalışır. Buna görə də gürcü çarı II Georgi hər il sultana bac verirdi".[160]

Şərqi Gürcüstan ərazisində məskunlaşan türk tayfalarından biri də qıpçaqlardır. Qıpçaqlar ən qədim türk yazılarında yad edilən (Yeniseydə tapılmış kitabələrdə, M.Kaşqarinin "Divani - luğat it-türk" lüğətində) türklərdir. Vaxtilə qıpçaqlar öz ərazilərini Qərbi Rusiya və Ruma (Bizansa) qədər genişləndirmişdilər. O vaxtdan İrtış və Qara dəniz arasındakı ərazilər Ərəb - İran mənbələrində "Dəşti qıpçaq" adlanmağa başlanmışdır. Orta əsrlərdə qıpçaq adı altında bütün şimali türk köçəri tayfaları nəzərdə tutulurdu.[161]

XII əsrdə Gürcüstanı qıpçaqlar ərəblər və səlcuqlardan xilas etmişlər. Onlar hələ VIII əsrdə xəzərlərlə birlikdə (765-ci ildə) Gürcüstanda ərəblərə qarşı vuruşmuş və oğuzlarla birlikdə oturaq həyata keçmiş XII yüzilliyin başlanğıcından buraya 225 min Şimali Qafqaz qıpçağı (mənbədə 40000 ev) köçüb gəlmişdir.[162]

Qıpçaqlar Dağ və Aran Borçalısı (Loru, Şəmşöld) Qarayazı (Bostan-şəhər) və Qaraçöp (Sığnax civarlarında) bölgələrində yerləşdilər. Gürcüstandakı xilaskarlıq missiyalarına görə qıpçaq elləri Tiflisin cənub səmtlərində qışlaq yerləri (o cümlədən Qaradüzdə) aldılar, gürcü qoşunlarına sərkərdəlik də onlara həvalə edildi.

XII əsrdə gürcü çarı olmuş IV David Ağmaşenebelinin (Qurucu David) qıpçaqlarla münasibətinə dair tarixşünaslıqda müxtəlif rəylər vardır. IV Davidin tarixçisi yazmışdır ki, XII əsrdə 1118-1120-ci illərdə Gürcüstan ərazisi bir qədər genişləndiyi

---

[160] Метревели Е. Ключевые тенденции в системе управления в Джавахети // Джавахети вызовы и перспективы. Тбилиси: GFSIS, 2013, с.29
[161] Süleymanov O. Az-Ya, Bakı: Azərnəşr, 1993, s.135
[162] Yenə orada, s.135

dövrdə çar öz dövlət planlarını həyata keçirmək məqsədi ilə daimi ordu yaratmaq istəyir, öz ali təbəqəli aznavurlarının əlaltılarından ibarət olan ordu əsgərləri ona çox vaxt maneəçilik törədirdilər. Əksər hallarda onların ağaları (aznavurlar) çarla razılaşmadıqda ona qarşı sui-qəsdlər hazırlayırdılar. IV Davidin yaratmaq istədiyi daimi hərbi ordu isə düşmənə qarşı mübarizədə çara dayaq olmalı və ona kömək etməli idi. Ona görə ki, IV Davidin həyat yoldaşı qıpçaq gözəli Quranduxt qıpçaqların başçısı Ətərək Şəracanın oğlu Artık xanın (gürcü salnamələrində Atraxa adlanır) qızı idi. Rus şairi Maykov salnamə əfsanəsi əsasında Artık xan haqqında "Yemişan" balladası yazmışdır. O. Süleymanovun fikrincə, xan qızı gürcü salnamələrində verildiyi kimi, Qurondoxt deyil, Turandoktdur –"Turanlı qız". Farslar türk şahzadə qızlarını belə adlandırırdılar. XII əsrdə Cənubi Qafqaz məhz bu qızın sayəsində xilas olmuşdur.

Görkəmli gürcü tarixçisi İ.Cavaxişvilinin yazdığına görə, əsasən qıpçaqlardan ibarət olan bu ordunun Gürcüstana və gürcü xalqına çox böyük köməyi olmuşdur.

1125-ci ildə Tiflis yaxınlığındakı Didqori çöllərində (Böyük çöllük) - indiki Məngilis istiqamətində 300 minlik səlcuq birliyi ilə 60 minlik IV Davidin ordusu (45 mini qıpçaq atlıları, qalanları gürcü və osetinlər idi) vuruşaraq qalib gəldi. Gürcüstanın taleyini türklər həll etdi. Lakin sabiq prezident Z.Qamsaxurdianın atası gürcü ədəbiyyatının klassiki K.Qamsaxurdia "IV Qurucu David" tarixi romanında qıpçaqların tarixi rolunu heçə endirməyə çalışır. Əvvəla, K.Qamsaxurdia iddia edir ki, guya Artık xan Davidin qızılına tamah salıb, bir növ, onun əlaltısına çevrilmişdir. Onun bu iddiasını kəskin tənqid edən O.Süleymanov yazır:

*"Artık xanı 45 minlik qıpçaq ordusunu ərəb-səlcuq birliyinin 300 minlik qoşununun qarşısına çıxardan borc hissiydi".*[163]

İkincisi, K.Qamsaxurdia Gürcüstanı azad etmələrini qıpçaqlara heç cür "bağışlamaq" istəmir. Didqori yaxınlığındakı döyüşdə Kartli cəngavərlərinin "igidliyini" şişirtmək üçün yazıçı qıpçaqları və digər müttəfiqləri qeyri-insan cildində təsvir etməyə çalışmışdır. Qıpçaqların ünvanına isə təhqirlər dolu kimi yağır, demə, onlar əsgər deyil, vəhşi və quldurdurlar, insan qanı içirlər və s.[164]

Orta əsr mənbələrində, xüsusən David Ağmaşenebelinin dövründə də Tiflis də daxil olmaqla Şərqi Gürcüstanın - Borçalı, Başkeçid, Qarayazı, Qaraçöpün türklərin əlində olması göstərilmişdir: "Tiflis, Rustavi, Somxeti, Samşvilde və Ağara türklərin əlində idi". Kaxetiyadakı türklərə "ağaralı tatarlar" deyilirdi. Bu mənbələrdə "Kürün sahillərində qışlaqları olan türkmənlərdən" bəhs edilmişdir.

Qıpçaqlar Gürcüstanda uzun müddət məskunlaşmış qədim türk tayfaları beçənəkləri (peçeneqləri) və civləri Şimali Qafqaza sıxışdırdılar. Bunu qədim mənbələrə əsaslanan Q.B.Tsulaya da təsdiq edir.

Mənbələr təsdiq edir ki, uzun müddət gürcülər və türklər mehriban dost kimi yaşamışlar. Gürcü mənbəyi "Kartlos Sxovreba"da bu dostluğa aid çoxlu faktlar gətirilir. "Gürcülər və türklər beləcə dostcasına yaşayırdılar, farsların hücumundan xəbər tutduqda qalaları və şəhərləri möhkəmləndirdilər". "Tatarlar (azərbaycanlılar) və gürcülər Bağdadı zəbt etmək niyyəti ilə döyüşürlər". "Gürcülər və tatarlar (azərbaycanlılar) Misirə qarşı vuruşurlar" və s. "Kartlos Sxovreba"dakı "tatri" termini ilə müxtəlif tayfa-

---

[163] Süleymanov O. Az-Ya, Bakı: Azərnəşr, 1993, s.118
[164] Yenə orada, s.139

lar - səlcuqlar, monqollar və s. tayfalar nəzərdə tutulmuşdur. T.S.Abuladze M.S.Mixaylovun fikrinə istinad edərək yazmışdır ki, XX əsrə qədər Cənubi Qafqazda indi də Gürcüstanda yaşayan azərbaycanlılara hələ də "tatrebi" (tatarlar) deyənlər olmuşdur.

XIII-XIV əsrlərdə türk dünyasının məşhur sərkərdələrindən biri Əmir Teymurun qoşunlarının Borçalıda olması, Tiflisə, Gürcüstana hücum edib oranı fəth etməsi, gürcü çarı Baqratı əsir götürməsi mənbələrdə təsdiq olunur. Bu mənbələrdən biri akademik Z.Bünyadovun nəşrə hazırladığı N.Şaminin "Zəfərnamə" əsəridir. Əmir Teymur Qarsı fəth etdikdən sonra Tiflisə yollanmışdır. Tiflis şəhərindən bəhs edən N.Şami yazır ki, bu şəhər zamanın qarışıq olmasından və o diyarın sultanlarının laqeydliyindən bu qövmün (gürcülərin) əlinə düşmüşdü.[165]

XVI əsrdə Cənubi Qafqaz uğrunda Osmanlı - Səfəvi mübarizəsi güclənir. M.Selanikinin verdiyi məlumata görə, 1587-ci ildə Fərhad paşanın komandanlığı ilə türk qoşunları Gürcüstana və Azərbaycana hücum etmişdi. Kartli çarı Simon dağlara qaçmağa məcbur olmuşdu. Türklər Borçalıda, Loruda, Başkeçiddə (Dmanisdə), Ahıskada, Qarsda, Rəvanda, Tiflisdə möhkəmlənmişdilər, Tiflis qalasını yenidən qurmuş, Qorini də tutmuşdular. [166]

XVII əsrdə I Şah Abbas Səfəvi Azərbaycan dövlətini möhkəmləndirmişdi. 1606-cı ildə Şah Abbas Osmanlı türklərindən Qarabağı Gəncəni, Borçalını - Lorunu, Başkeçidi (Dmanis), Ağcaqalanı, Tiflisi almışdı. 1736-cı ildə 4 yaşlı III Şah Abbas öldükdən sonra Nadir Qulu xan Muğanda qurultay çağırıb şahlığa öz namizədliyini irəli sürdü. Qacar qəbiləsindən olan Gəncə feodalları və Gəncə xanı özü Səfəvilərlə sıx bağlı olduqlarından Nadirin

---

[165] Şami N. Zəfərnamə. Bakı, 1992, s.7

[166] Selaniki M. Tarixi Selaniki. Bakı, 1994, s. 26

əleyhinə çıxdılar. Nadir şah seçildi. Gəncə xanına və feodallarına divan tutdu. O, Gəncə bəylərbəyliyinə tabe olan Borçalı (o cümlədən Qarayazını) və Qazax mahallarının idarəsini onun namizədliyini müdafiə edən Kartli hakimi I Teymuraza tapşırdı. A.Bakıxanov "Gülüstani-İrəm" əsərində yazır ki, Gürcüstanla sərhəddə yerləşən və I Şah Abbas tərəfindən möhkəmləndirilən Borçalı və Xulaqu xan tərəfindən möhkəmləndirilən Qazax mahallarını Nadir gürcü valisinə tapşırmış və Gəncə xanının hakimiyyəti altında yalnız Gəncə şəhərinin ətrafı qalmışdı. Tarix üzrə fəlsəfə doktoru Elmira Məmmədova "1736-cı ildə Muğanda Nadirin şah seçilməsi mərasiminin şahidləri" yazısında Nadirin həmin fərmanının bir neçə mənbələrdə xatırlanmasını qeyd edir. Bunlardan biri Nadir şahın katolikos təyin etdiyi Abram Kretasinin "Təhkiyələr" əsəridir. Erməni katolikosu bu əsərində tacqoyma mərasimi və ondan sonrakı baş verən hadisələri təsvir etmişdir. O, Nadirin əzəli və qədim Azərbaycan torpaqlarının: Borçalının, Başkeçidin, Ağbulağın, Bolusun, Qaraçöpün, o cümlədən Qarayazının vali titulu daşıyan, şahın vassalı Gürcüstan çarı tərəfindən idarə olunması haqqındakı fərmanından da bəhs etmişdir.[167]

Digər mənbə Nadirin yanında Rusiyanın rezidenti olmuş İ.P.Kaluşkinin Sankt-Peterburqda 1736-cı ildə çapdan çıxmış "Tahmas xanın şah seçilməsi haqqında protokol" əsəridir. Burada da Nadirin adı çəkilən fərmanı xatırlanmışdır.[168]

---

[167] Очевидцы избрания Надира шахом на Мугани в 1736 году: 1. Абрам Кретаци. Повествование. Ереван, 1973 год. Назначен Надир шахом католикосом. Описывает все события, связанные с коронацией Надира и последующие после этого события. Дает сведения о фирмане Надир шаха по поводу передачи Азербайджанских земель Гараязы, Башкечида, Борчалы, Агбулага, Болуса, грузинскому царю, вассалу шаха носящего титул валия.

[168] Калушкин И.П. Протокол избрания в шахи Тахмас хана. АВПР, ф.СРП, 1736. д.зл.д. 552

Nadirin yanında Mərvin vəziri Məhəmməd Kazıminin "Tarixi-alam arayi Nadiri" əsərində o dövrün inzibati sistemi ilə yanaşı Nadir şahın həmin fərmanı haqqında da məlumat verilmişdir. [169]

Eyni zamanda bu hadisələrin şahidi olmayan Mirzə Adıgözəlbəy "Qarabağnamə" əsərində həmin fərmandan bəhs etmişdir. [170]

Borçalının bu tarixdən (1736-cı ildən) Gürcüstana qatılmasını qəti demək olmaz, çünki Gürcüstan, əslində, Nadir şahın idarəçilik dairəsinə daxil olmuş və Kartli çarları Borçalını formal olaraq idarə etmişlər. Borçalının Kartliyə ilhaq edilməsi prosesi XVIII əsrin sonlarına yaxın İrakli tərəfindən həyata keçirilmişdi.

Gürcüstanda türk mənşəli toponimlər müxtəlif tarixi dövrlərdə yaranmışdır. Orada ilk türk tayfaları kimi kimmerlərin və sakların eramızdan əvvəl VIII-VII əsrlərdə məskunlaşdığını nəzərə aldıqda demək olar ki, aradan keçən 2700-2800 il ərzində çoxlu sayda türk mənşəli toponimlər mövcud olmuş, lakin onların müəyyən hissəsi müxtəlif tarixi hadisələrlə əlaqədar olaraq toponimik arxivə keçmişdir.[171]

Gürcüstanda türk mənşəli yaşayış məntəqə adları və tayfaları barədə yazılı məlumatlara 1590 və 1728-ci illərə təsadüf etmək olar. Həmin illərdə Osmanlı imperiyasının Şərqi Gürcüstanı tutması ilə əlaqədar olaraq Loru və Tiflis əyalətlərində yaşayan türk elləri və onların kəndləri barədə ətraflı məlumat verilmişdir.[172] Bu məlumat əsas etibarilə indiki Borçalı bölgəsinə (gürcücə müasir xəritələrdə Kvemo-Kartli, yəni Aşağı Kartli) aiddir.

[169] Мухамед Казим. Тарих-иалем арай-и Надири. Ленинград Инст. Рукописей. Московский Институт Востоковедения. I Том, Ленинград, 1966

[170] Mirzə Adıgözəlbəy. Qarabağnamə. Bakı, Yazıçı, 1989, I hissə, s. 30

[171] Budaqov B.Ə, Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti.Bakı: Nurlan, 2008, s.11

[172] Budaqov B.Ə, Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti.Bakı: Nurlan, 2008, s.11

Gürcüstanın inzibati ərazi bölgüsü haqqında tam məlumatlar isə 1801-ci ildə Gürcüstan Rusiyaya birləşdirildikdən sonra tərtib olunmuşdur. B.Ə.Budaqov və Q.Ə.Qeybullayevin tərtib etdikləri "Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğətə" daxil edilmiş toponimlər qədim dövrlərdən başlayaraq XX əsrin sonuna olan reallığı əks etdirir. XIX əsrin sonunda və XX əsrdə yaranmış oykonimlər isə Gürcüstanın müasir inzibati-ərazi bölgüsündə öz əksini tapmışdır. XVI-XIX əsrlərdə Gürcüstanda mövcud olmuş və elmi mənbələrdə əksini tapmış türkdilli coğrafi adların əksəriyyəti ya bu gün yoxdur və ya onların bir qismi gürcü dillindəki coğrafi adlarla əvəz olunmuşdur. Sonrakı illərdə də türk mənşəli adların dəyişdirilməsi prosesi getmişdir. Çəkilən misallar yalnız yaşayış məntəqə adlarına aiddir. Dağ və çay adlarının dəyişdirilməsi vəziyyəti bütövlüyü ilə məlum deyildir. Maraqlıdır ki, eramızdan əvvəl VIII-VII əsrlərdə şimaldan gəlmiş türk mənşəli kəmər və sak tayfalarının adları məhz Borçalı bölgəsində olan toponimlərdə qalmışdır. Ona görə də bu bölgədə türk tayfalarının məskunlaşması tarixi eramızdan əvvəl VIII əsrə gedib çıxır. Azərbaycanlılar etnik özünəməxsusluqlarını əsas etibarilə Borçalı bölgəsində saxlamışlar.

Gürcü mənbələrində Aşağı Gürcüstan (Kvemo-Kartli - Borçalı) adlandırılan müasir Şərqi Gürcüstan (əslində isə, uzun müddət Azərbaycan, yaxud Mərkəzi Qafqazda) torpaqlarında türk əhalisinin məskunlaşması prosesi çox qədim dövrlərdən başlamışdır. Borçalıda da eyni dövrdə azərbaycanlıların etnogenezinin təşəkkülü prosesi baş vermişdir. Beləliklə, XIX əsrin əvvəllərinədək Azərbaycan əhalisi ilə eyni tarixi taleyi yaşamış, Borçalı da Rusiya imperiyası tərkibinə daxil olduqda əhalinin artımını, məskunlaşmasını bir sıra iqtisadi-siyasi amillər sürətləndirmişdir.

Türk xalqlarından olan azərbaycanlılar Gürcüstanın aborogen əhalisidir. Ağa Məhəmməd xan 1759-cu ildə Tiflis şəhərini darmadağın etdikdən sonra Borçalıda (Kvemo-Kartlidə) yerli eli-türk tayfalarını tabe etmək istəsə də, mübariz tayfalar qəzəbli xana tabe olmamışdılar. Onların başçılarından biri Əli bəy öz tayfasının böyük bir hissəsini Qars-Axalsıx paşalığının ərazisində yerləşdirmişdi. Onların bir hissəsi XIX əsrin əvvəllərində Borçalıdan və Qazax-Şəmşəddildən Axalsıx paşalığına köçmüşdülər. Paşa onları vergidən azad etmiş, amma əvəzində onlar hərbi mükəlləfiyyət yerinə yetirmişdilər. Azərbaycanlılar Qafqazda ən yaxşı süvarilər hesab olunurdu. XIX əsrin əvvəllərində onların bir hissəsi əsrlərlə yaşadıqları doğma Borçalıdan köçmüşdülər. Onlar "Dəmirçi Həsənli" adlanırdılar, yığcam halda Çıldır istiqamətində Qars və Axalsıx paşalıqları arasında məskunlaşmışdılar və özlərinin ağaları da var idi".[173] Hər bir kənd müdrik ağsaqqalları ilə məşhur idi. Paşanı azərbaycanlılar müşayiət edirdilər. Onlar atlı polis funksiyasını yerinə yetirirdilər.

Əhali XX əsrdə daha da artmışdır. Borçalıda əhalinin məskunlaşma və artım mərhələlərini aşağıdakı dövrlərə bölmək olar:

1) Qədim dövlərdən XVIII əsrə qədər müxtəlif inzibati ərazilərə daxil olan Borçalıda türk əhalisinin formalaşması, məskunlaşması və artımı dövrü (Azərbaycan tərkibində);
2) Rusiya imperiyası tərkibinə daxil edildiyi dövr;

a) İslahatlara qədərki dövr (1800-1865-ci illər);
b) İslahatlardan sonrakı dövr (1865-1917-ci illər);
c) Borçalı əhalisi XX əsrdə.

---

[173] Цагарели А. *Грамоты и другие исторические документы*. Т. II Москва, 1891, с.518

Borçalıda əhali XIX əsrdə Rusiyada təhkimçilik hüququ ləğv edildikdən (1861-ci il islahatından sonrakı dövr) sonra sürətlə artmışdır. Sərbəst yaşayış yeri seçmək hüququ əldə edən azərbaycanlı əhali sürətlə heyvandarlıq üçün əlverişli olan Borçalı otlaqlarına yaxın Kürün sol sahili ərazilərində məskunlaşmışdır. XIX əsrin ortalarında və II yarısında (1848, 1864 – 1867) Qabbırrı (İori) çayından Qarayazı çöllərinə çəkilən kanal və Kürdən cəkilmiş Marina kanalı (indiki Qardabani kanalı) eləcə də sovet dövründə (50-ci illərdə) çəkilmiş Baş Samqori suvarma kanalının Yuxarı Qarayazıda, Baş Ceyrançöl suvarma kanalının çəkilməsini isə Aşağı Qarayazıda məskunlaşmanı sürətləndirən başlıca amil hesab etmək olar.

Borçalı əhalisinin məskunlaşma tarixinə dair müxtəlif rəylər vardır. Qədim mənbələr və orta əsr mənbələri, əksər müasir tədqiqatçılar bu bölgələrin də daxil olduğu indiki Şərqi Gürcüstanda qədim dövrlərdən türk tayfalarının məskunlaşdığını və əsrlər boyu türk tayfalarının yaşadıqlarını göstərirlər. J.Lordkipanidze başda olmaqla, müasir gürcü tarixçilərindən bəziləri isə Şahzadə Vaxuştiyə əsaslanaraq, səhv olaraq Borçalıda azərbaycanlı əhalinin XVII əsrdə məskunlaşdığını iddia edirlər. J.Lordkipanidze 1930-cu ildə Tiflisdə çapdan çıxmış "Aşağı Gürcüstan XVIII əsrin birinci rübündə" əsərində göstərir ki, Vaxuştinin çoğrafiyası və siyahısındakı statistik göstəricilərdə bəhs edilən ellər məhz Şah Abbas və Şah Səfi tərəfindən köçürülən ellərin nəsilləridir. J.Lordkipanidze öz müddəalarını bir az da "dərinləşdirərək" yazır:

*"Aydındır ki, XVII əsrin I rübündə məskunlaşdıqları vaxtdan XVIII əsrin əvvəllərinədək, yəni, təxminən 70-100 il ərzində bu xalqlar əvvəlcədən onlara ayrılmış hüdudları kecmiş və yeni-yeni*

*torpaqlar əldə etmişlər. Qərbdə onlar Sometiyə (Borçalıya), Şulaverədək gəlib cıxmış, hətta əhalinin bir qismi Dmanisis-Xeoba (Başkecid - V.Ö.) ərazilərində məskunlaşmışdır. Xüsüsilə, onlar şimalda Ktsis-Xeobaya, Algetə və şərqə üz qoymuşlar. Burada onlar Kürdən kecərək Mtkvaris Qaqmaya Karaiaya (gürcülər Qarayazını bu cür adlandırırlar – Ö.V.) torpaqlarını, Lilodan çənub – şərqdəki torpaqları tutmuşlar. Bununla da onlar suvarma kanallarının keçdiyi ən yaxşı otlaqlara sahib olmuşlar.*[174]

J.Lordkipanidzenin müddəalarındakı bəzi məsələlərə diqqət yetirək: belə çıxır ki, 70-100 il ərzində onun dediyi kimi, "gəlmə" azərbaycanlılar elə sürətlə artmışlar ki, Kvemo Kartlinin geniş ərazilərini "tuta bilmişlər". Onda belə qənaətə gəlmək olar ki, bu "artım" belə sürətlə davam etsəydi, yəqin ki, XX əsrdə azərbaycalıların məskunlaşdığı ərazilər daha geniş ola bilərdi. İkinci məsələ ondan ibarətdir ki, J.Lordkipanidze azərbaycanlıların məskunlaşma tarixi haqqında "heç bir məlumatın olmadığını" iddia edir. Halbuki, belə məlumatları müəllifin öz həmvətənləri də verir, yaxud gürcülər üçün əziz hesab olunan görkəmli şəxsiyyətlər də. Bunlardan hələlik ikisini göstərmək olar. 1. Gürcü salnaməçisi David Baqrationi "Gürcüstan tarixi" kitabında (Tiflisdə 1917-ci ildə çapdan cıxmışdır) XIV əsrdə Əmir Teymurun qoşunlarına gürcü çarı Baqrat və onun oğlu Georginin qoşunlarının Borçalıda basqın edildiyini bildirmişdir.[175] Gürcü tarixçisi İ.Cavaxişvilinin yüksək dəyərləndirdiyi və 1905-ci ildə Kutaisi quberniyasının qubernatoru olmuş, həm də taleyin qəribə hökmü ilə İmeretidə Gürcüstan milli-azadlıq hərəkatına baş-

---

[174] Лордкипанидзе Ж. *Нижняя Картли в первой четверти XVIII века.* 1930, с. 389-390

[175] Давид Багратиони. *История Грузии.* Тбилиси, 1917, с.129

cılıq etmiş V.A.Staroselski Gürcüstanda və onun sərhədlərində azərbaycanlıların yerləşməsini səhvən XV əsrdə türk hökmdarlarının bu ərazidə "müsəlman avanqardı" yaratması ilə əlaqələndirirdi.[176]

Hələ "Kartlis Sxovreba"da, L.Mroveli, Z.Ancabadze, N.Şenqeliya və b. tədqiqatçıların əsərlərində bu tarix daha qədimlərə gedib çıxır. Azərbaycanlılar Borçalıda eramızdan əvvəl yaşayırlar və bu yerlərin qədim, aborigen sakinləridir. J.Lordkipanidze üçün isə görünür belə məlumatlar sadəcə olaraq məqsədəuyğun deyildi.

"Dəstur-ül-əməl"in məlumatlarına əsasən tərtib olunmuş Kvemo Kartli əhalisinin statistikasında Pəmbək dairəsi (müasir Ermənistanda qalmış Dağ Borçalısının əraziləri nəzərdə tutulur – Ö.V.) daxil edilmədən Elin (azərbaycanlıların) əhalisi 76 kənd toplusunda yaşamışdır. Buraya Pəmbək dairəsi daxil edilməmişdir. Gürcü tədqiqatcıları bunlardan xəritələrdə və Vaxuştinin tərtib etdiyi kəndlərin siyahısında 15 kənd müəyyənləşdirmişlər.

Məlumdur ki, 1897-ci ildə Rusiya imperiyası əhalisinin birinci ümumi siyahıyaalması keçirilmişdir. Siyahıyaalmanın nəticələri 1902-ci ildə tərtib edilmişdi. Rusiya imperiyasının Daxili İşlər naziri senator P.N.Durnovun sədrliyilə kecirilən Xüsusi Müşavirədə siyahıyaalmanın Mərkəzi Statistika Komissiyasının məlumatları əsasında çap olunması qərara alınmışdı. 1905-ci ildə A.İ.Tilşer və qraf F.Şirovskinin redaktorluğu ilə Sankt-Peterburqda "1897-ci il Rusiya imperiyası əhalisinin birinci Ümumrusiya siyahıyaalınması" çap olunmuşdu. Bu siyahıyaalmada Rusiya imperiyasına daxil olan xalqların dini, cinsi tərkibi, məşğulluğu, mədəni-təhsil səviyyəsi, ictimai-sosial, ruhi-fiziki vəziyyəti və s. haqqında ətraflı məlumat verilmişdir. 1897-ci ildə Tiflis qə-

[176] Staroselski V.A. *Qafqaz dramı,* "Sovet Gürcüstanı" qəzeti, 17 aprel 1990-çı il

zasında 4845 kişi, 3362 qadın, ümumi 8207 nəfər azərbaycanlı, 337 nəfər aysor və digər xalqlar: alman, yəhudi, rus yaşayırdı. Siyahıya alınan azərbaycanlılardan 125-i zadəgan, ağa, bəy, 18-i tacir, qalanları (4576 kişi, 3177 qadın) kəndli idi. 241 kişi, 132 qadın xarici ölkələrin təbəəsi hesab olunurdu.[177]

Tiflis quberniyasının orta zolağından ibarət olan cənub-şərqdə Yelizavetpol quberniyası (Gəncə bəylərbəyliyi) şimal-şərqdə Qori və Sığnax qəzaları ilə, qərbdə isə Kür cayı və Borçalı qəzası ilə (1880-ci ildən Tiflis qəzasından ayrılan Borçalı qəzasında türkdilli əhali əhalinin 80 faizini təşkil edirdi) həmsərhəd idi.

Göründüyü kimi, Borçalıda yerli azərbaycalılarla yanaşı, müxtəlif tarixi şəraitdən aslı olaraq, buraya köçüb gəlmiş bir çox xalqların neçə-neçə nəsilləri birgə yaşamış, qarşılıqlı mədəniyyət, adət-ənənə, dil ünsiyyətində bir çox dəyərləri qarşılıqlı sürətdə mənimsəmiş, eyni zamanda hər bir xalq öz milli varlığını qoruyub–saxlamışdır.

Borçalıda strukturuna görə əhali kənd əhalisidir. Şəhərdə yaşayanların xeyli hissəsi də kənd təsərrüfatı və şəxsi təsərrüfatları ilə məşğul olur. Əhalinin sosial strukturuna gəldikdə, tarixi inkişaf mərhələlərində hər yerdə olduğu kimi, Borçalıda da əhalinin sosial strukturunda müəyyən dəyişikliklər baş vermişdir. XIX əsrə qədər Borçalıda əhalinin sosial tərkibi, əsasən ağalardan, ruhanilərdən və rəncbərlərdən ibarət olmuşdur. XIX əsrdə digər millətlərin miqrasiyası və tarixi proseslərlə əlaqədar olaraq əhalinin sosial tərkibi də dəyişmişdir:

1) zadəgan sinfi (azərbaycanlı ağalar, gürcü, rus, erməni, alman, aysor knyazları, mülkədarları və s.);

---

[177] *Первая всеобщая переписка населения Росссийской империи 1897 года,* Т. XIX. Тифлиская губерния, СПб. 1905, с. 88

2) ruhanilər (müsəlman mollaları, seyidlər, dərvişlər; xristian keşişləri);
3) azad kəndlilər (almanlar, yunanlar və s.);
4) mülkədar və dövlət kəndliləri, rəncbərlər;
5) heyvandarlar–köçəri maldarlar.

XX əsrin 40-50-ci illərində ali təhsilli ziyalıların xüsusi çəkisi artdı. İri sənaye şəhərlərində və dövlət təsərrüfatlarında çalışan kənd təsərrüfatı fəhlələrinin və kolxozçuların sayı xeyli artdı. 70-80-ci illərdə əhalinin sosial tərkibi, ənənəvi sovet bölgüsünə uyğun olaraq, qulluqçu, fəhlə, kolxozçu kəndlilər və ziyalılardan ibarət idi. Gürcüstanda 80-çi illərin axırlarında azırbaycanlı qulluqçular və ziyalılar bəzi gürcü millətçi dairələri tərəfindən sıxışdırılırdı.

XX əsrin 90-cı illərdə yeni gürcü rəhbərliyi Gürcüstanın beynəlxalq aləmdə nüfuzunu artırmaq üçün demokratik, hüquqi dövlət qurmaq arzusuna uyğun olaraq milli azlıqların hüquqlarını da qorumaq xətti götürdüyündən Borçalıda da əhalinin sosial tərkibində yeni bazar iqtisadiyyatına keçid dövrünə uyğun gələn dəyişikliklər baş verməkdədir: sahibkarlar, fermerlər, icarədarlar təbəqəsi formalaşır, ruhanilərin rolu və mövqeyi güclənir, ziyalılar və qulluqçular təbəqəsinin cəmiyyətdə rolu artır.

Bir sözlə, Borçalıda azərbaycanlı əhali yerli və gəlmə olmaqla, iki hissəyə ayrılır. Yerlilər qədim dövrlərdən bu yerlərin aborigen sakinləridir – qədim türklərin, borsulu-qarapapaq qolunun bugünkü davamçılarıdır-müasir nəsilləridir. Bundan başqa uzun müddət eyni ərazi, eyni bir inzibati qurumda birgə tarixi tale ilə birləşdiyindən Qazax, Qaraçöp, Qarabağ, Gəncə ətrafı bölgələrdən Borçalıya əhali köçüb gəlmiş, yaxud da həmin yerlərdən köçüb getmişlər. Bundan başqa, XIX–XX əsrlərdə digər xalqlar: yunanlar, almanlar, aysorlar, ruslar, gürcülər, kürdlər,

ləzgilər, ermənilər, yəhudilər bu bölgəyə köçüb gəlmiş və yaxud müəyyən dövrlərdə buradan köçüb getmişlər.

XX əsrin əvvəllərində Qafqazda müstəqil demokratik respublikalar yaradılarkən bu respublikalar arasında ərazi mübahisələri oldu. Borçalı və Qarayazı da Gürcüstan və Azərbaycan respublikaları arasında mübahisəli zonalardan birinə cevrildi. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin əməkdaşı A.Şepotyev Gürcüstanın Borçalı ilə əlaqədar ərazi iddialarının əsassızlığını bir cox səbəblərlə, o cümlədən buradakı əhali və etnoqrafik amillərlə də sübut etmişdir. A.Şepotyev göstərdi ki, həmin dövrdə mübahisəli ərazi hesab olunan Borçalıda da 39580 nəfər əhalidən 36615 nəfər (93 faiz) Azərbaycan türkü, 1862 nəfər gürcü (4,5 faiz), 1103 nəfər isə (2,5 faiz) digər xalqların yaşadığı aydınlaşdırılmışdır.[178]

Sonrakı sovet siyahıyaalmalarında (Gürcüstan SSR üzrə "1939, 1959, 1970, 1979 və 1989-cu illərin ümumittifaq siyahıyaalmaları"nda) Borçalının əhalisi haqqında məlumat verilmişdir. 1959-cu il Ümumittifaq əhalinin siyahıyaalmasının (Gürcüstan SSR üzrə) nəticələri" kitabında isə iri şəhərlərin və ya şəhər tipli qəsəbələrin əhalisinin sayı verilmişdir. Burada Bolnisidə azərbaycanlıların 1939-cu ildə 7137, 1959-cu ildə 12420 nəfər, Marneulidə isə 1959-cu ildə 12400 nəfər olduğu göstərilmişdir.

Müasir Gürcüstanda azərbaycanlı əhalinin indiki artım səviyyəsi əsasən aşağdakı amillər hesabına formalaşmışdır: 1. Təbii artım. 2. Miqrasiya prosesləri: a) xarici miqrasiya; b) daxili miqrasiya. 3. İmmiqrasiya: a) mövsümi və b) daimi immiqrasiya.

---

[178] Шепотьев А. *О спорных Кавказских территориях на которые имеют правосамоопределившиеся азербайджанские тюрки.* // Известия АН Азербайджана, 1990, №2, с.47

Gürcüstanda əhalinin artmasında təbii artımın böyük rolu vardır. Azərbaycanlılar yaşayan bütün bölgələrdə əhali artımı doğumun ölümə nisbətən yüksək olması və coxuşaqlı ailələrin əksəriyyət təşkil etməsilə mümkün olmuşdur. Gürcüstan əhalisi problemilə məşğul olan gürcü tədqiqatçısı Vaxtanq Çaoşvili Aşağı Gürcüstan (Borçalı) regionunu hələ 1926-1966-cı illərdə Gürcüstanda əhalinin ən yüksək artım sürəti olan birinci qrup rayonları sırasında göstərmişdir.

Borçalıdakı miqrasiya (köçüb gəlmə) prosesinə gəldikdə isə burada xarici və daxili miqrasiya bəzi hallarda şərti xarakter daşımışdır. Azərbaycanlıların və gürcülərin miqrasiyası tarixi şəraitdən asılı olaraq bəzən xarici, bəzi hallarda isə daxili miqrasiya hesab edilmişdir.

Azərbaycanlıların Borçalıya miqrasiyası çox qədim dövrlərdən başlanmışdır. Erkən orta əsrlərdən başlayaraq islahatlara qədərki (XIX əsrin I yarısınadək) dövrdə Türkiyədən, Cənubi Azərbaycanın müxtəlif şəhərlərindən, Şimali Azərbaycanın Qarabağ, Ağbaba, Amasiya, İrəvan, Dərbənd, Şəmşəddil, Aşağı Qarayazı, Qazax, Şıxlı bölgələrindən, Borçalıdan – Kürün sağ sahili kəndlərindən Yuxarı Qarayazıya müəyyən əhali axınları olmuşdur. Əhalinin bu cür hərəkəti təbii idi. Cünki eyni ərazidə, eyni bir millətin nümayəndələrinin aborigen əhalisi azərbaycanlılardan ibarət olan Borçalıda onların məskünlaşmasında heç bir qeyri-təbiilik yox idi. Müəyyən bir tarixi hadisənin, dəhşətli müharibələrin acı nəticələrindən yaxa qurtarmaq istəyən və yaxud təqiblərdən xilas olmaq istəyənlər əmin-amanlığın hökm sürdüyü bölgəyə köçüb gəlirdi. Kəndlərdən xeyli əhali köçüb gəldi. Buradakı yaşayış məskənləri daha da genişləndi. Daxili miqrasiya nəticəsində bir sıra yaşayış məskənləri yerlərini dəyişdi, yeni-yeni yaşayış məskənləri yarandı.

Borçalıya İrandan və Dağıstandan müxtəlif peşə sahibi olan əhalinin (əkinçilər, bostancılar, qalaycılar) mövsümi miqrasiyası da baş vermişdir. Köçüb getmə immiqrasiya prosesi də iki cür olmuşdur:

1. Müvəqqəti;
2. Daimi.

Müvəqqəti imiqrasiyanın bir növu - əhalinin mövsümi hərəkəti daha cox miqrasiya prosesinə yaxındır. Müvəqqəti immiqrasiya orta əsrlərdən borçalıların da sıx bağlı olduğu tərəkəmə həyat tərzi ilə bağlıdır. Qışlaq-yaylaq sistemi şəraitində yaşayan borçalılar əsas məşğuliyyətləri olan heyvandarlıqla əlaqədar olaraq elliklə yaz aylarında mal-qoyun sürülərini Dağ Borçalısının yaylaqlarına: Qaraxaça, Güneyə (indi bu yerlər "Ermənistan" adlanan ərazilərdə qalmışdır) aparar və yaylaqlarda müvəqqəti yaşayış məskənlərində alaçıqlarda, dəyələrdə yaşayardılar. Bu zaman Aran yerlərindəki yaşayış məntəqələrində az adam qalardı. Payız aylarında isə əhali qışlaqlarına geri dönərdi. İlin yarısını yaylaqlarda keçirən əhalinin bir qismi bəzən elə yaylaqlarda, yaxud yaylaqlara yaxın ərazilərdə məskunlaşardı. Bu cür həyat tərzi azərbaycanlılar arasında XX əsrin ortalarına qədər davam etmişdir.

M.Skobnitski və İ.Baxtadze belə hesab edirlər ki, azərbaycanlıların oturaq həyata meyli obyektiv səbəblərdən asılı olaraq getdikcə güclənmişdir. Sürülərlə mövsümi yerlərə köçən əhalinin sayı ilbəil azalmış, onların qışlaq yerləri və qış dayanacaqları getdikcə daimi yaşayış məntəqələrinə çevrilmişdir.[179]

---

[179] Бахтадзе И. *Кочевники Закавказского края*, Тифлис 1883, с. 89; Скобницкий М. *Пастбища Закавказского края.* // "Кавказское хозяйство" 1918, № 9, с. 11-12

Borçalıda suvarma sisteminin yaxşılaşması, əkinçiliyin inkişafı borçalıların oturaq həyat tərzini gücləndirmişdir. Müvəqqəti immiqrasiyasının bir növü də əhalinin xeyli qisminin, xüsusilə gənclərin qazanc naminə Borçalıdan uzaqlara: Azərbaycana, Rusiya Federasiyasına, digər MDB ölkələrinə, Türkiyə və İran İslam Respublikasına və s. yerlərə getmələridir. Əhalinin bu qismi bir neçə il xaricdə işləyib yaşayanlar Borçalıya qayıdır və bir müddətdən sonra yenidən səfərə çıxırlar.

Daimi immiqrasiya sayəsində Borçalını əbədi tərk edənlərin sayı xeyli azdır. Bu proses bir neçə amillə bağlıdır:

a) Təhsil və işlə təminatla əlaqədar;
b) İqtisadi və obyektiv tarixi şəraitlə əlaqədar baş verən məcburi köçüb getmələr.

Təhsillə əlaqədar Borçalını tərketmə prosesi əsasən sovet dövründə olmuşdur. Ali təhsil alan Borçalı gəncləri perspektivli gələcəklərini təmin etmək üçün məcburi olaraq təhsil aldıqları yerlərdə qalmalı olurdular. Çünki doğma Borçalıda işləmək-yaşamaq həvəsində olanlar millətçi rəhbər dairələrin apardıqları məqsədyönlü ayrı-seçkilik siyasəti nəticəsində ancaq müəllim, aqronom, mühəndis-texniki işçi, iş icracısı və s. aşağı vəzifəli yerlərdə işləyirdilər.

Təxminən eyni vəziyyətlə Gürcüstan 250 il sonra üzləşməli oldu. XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ dağıldıqdan və müstəqil dövlətlər yarandıqdan sonra iqtisadi-siyasi hərc-mərclik şəraitində borçalılara bəzi mürtəce gürcü və erməni qaragüruhunun təzyiqləri nəticəsində Dmanisi-Bolnisi bölgələrindən Azərbaycana ilk köçkünlər dəstəsinin immiqrasiyası başlandı. Doğrudur, iqtisadi vəziyyətin ağırlığı ucbatından millətçi dairələrin siyasi təzyiqi və qanunsuzluq, hərc-mərcliyin hökmranlıq

etdiyi bir şəraitdə nəinki azərbaycanlılar, gürcülər özləri də bu yerləri tərk etmək məcburiyyətində qalmışlar.

Araşdırmalar göstərmişdir ki, Gürcüstanda azərbaycanlıların yığcam halda yaşadıqları bölgələrdə dağ və çay adlarının çoxu türk mənşəlidir. XX əsrin sonlarına qədər bu adlar saxlanmışdı. Lakin XX əsrin 30-40-cı illərindən başlayaraq onların müəyyən hissəsi gürcü toponimləri ilə əvəz olunmuşdur.[180]

Müstəqilliyin ilk illərində Gürcüstanda hakimiyyətdə olan Z.Qamsaxurdianın başçılıq etdiyi qatı-millətçi qrupun yeritdiyi ayri-seçkilik siyasəti azərbaycanlıların sayının azalmasına səbəb olan əsas amillərdəndir. O dövdə ifrat millətçi cinayətkar qruplarla azərbaycanlılar arasında qarşıdurmaların baş verməsi, qanunsuz şəkildə tarixən azərbaycanlıların məskunlaşdıqları ərazilərdə 32 kəndin, bir sıra çay və yer adlarının dəyişdirilməsi azərbaycanlıları ölkəni tərk etməyə məcbur etmişdir.[181] Sonrakı dövrlərdə Gürcüstanda həyata keçirilən torpaq islahatından azərbaycanlıların yararlana bilməməsi onların ürəkaçan olmayan iqtisadi vəziyyətinin daha da pisləşməsinə səbəb olmuş və nəticədə onların bir qismi öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdurlar. Amma bütün bunlar heç də azərbaycanlıların Gürcüstana qarşı vətəndaşlıq borclarının yerinə yetirməyə mane olmadı. Gürcüstanın ərazi bütövlüyü uğrunda yüzlərlə azərbaycanlı gənc gürcülərlə çiyin-çiyinə vuruşdu. Ənvər Hümbətov, Qəhrəman Musayev, Zaur Abdullayev kimi azərbaycanlı əsgərlər Gürcüstan uğrunda canlarından keçmişdi və bu ölkənin

---

[180] Budaqov B.Ə, Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti.Bakı: Nurlan, 2008, s.11

[181] Said Ethem. The turks of Borçalı in Georgia: ethnic identity in borderland. A Thesıs Submıtted To The Graduate School Of Socıal Scıences Of Mıddle East Technıcal Unıversıty In The Deptment Of Eurasıan Studıes. February 2010, p. 42

orden və medalları ilə mükafatlandırılmışdırlar. Misal üçün, Marneulidən Ənvər Hümbətov 1994-cü il dekabrın 30-da ölümündən sonra Gürcüstanın ən ali dövlət mükafatına – "Vaxtanq Qorqasali" ordeninə layiq görülmüşdür. [182]Bütün bunlar azərbaycanlıların Gürcüstanın ərazi bütövlüyünə nə qədər sadiq olduqlarının və bu yolda verdikləri qanın bariz göstəricisidir.

*"Hazırda Gürcüstanda azərbaycanlılar və türklər əsasən Borçalı, Bolnisi, Axalsix, Qardabani, Laqodexi, Kaspi, Kareli və Siqnaxi rayonlarında yaşayırlar. Lakin bu rayonların bəzilərində azərbaycanlılar kompakt halda (xüsusilə Borçalı bölgəsində) digərlərində isə gürcülərlə qarışıq yaşayırlar. Elə kəndlər də vardır ki, əhalisi azərbaycanlılardan ibarət olduğu halda, onların yaşayış məntəqələrinin adları gürcücədir. Məsələn, Msxeti rayonunda Sixisdziri, Sxalti, Daça,Teodoreti, Aqarani, Qori rayonunda Tedosminda, Zezmi, Kareli, Kvenatkosa kəndlərində əhali türkdillidir. Ehtimal ki, ya bu kəndlərin əhalisi yaşayış məntəqələrini gürcücə adlandırmış, ya da əvvəlki türk mənşəli coğrafi adlar gürcü adları ilə əvəz olunmuşdur".*[183]

Gürcüstanda yaşayan azərbaycanlılar tarixən bu torpaqların sakinləri, aborigen əhalisidir. Tarixi Borçalı ərazisi qədim türk qəbilələrinin yaşadıqları əzəli torpaqlardır.

Gürcüstan məktəblərində tədris edilən tarix kitablarında azərbaycanlıların bu əraziyə XVII əsrdə Şah Abbas tərəfindən köçürüldüyü yazılsa da, Dionisi, Klavdi Ptolomey və digər bir sıra çox etibarlı qaynaqlarda türk tayfalarının qədim zamanlar-

---

[182] Həbibbəyli Ə.İ. Gürcüstanın ərazi bütövlüyü uğrunda mübarizədə erməni Baqramyan batalyonu ilə Borçalı azərbaycanlıları üz-üzə http://newtimes.az/az/politics/5432

[183] Budaqov B.Ə, Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti.Bakı: Nurlan, 2008, s.11

dan bəri burada yaşadıqları təsdiq olunmuşdur. VI əsrdə böyük hun axınları zamanı bu torpaqlara gələn bulqarlar burçalılar olaraq adlandırılmışdır. IX əsrdə Ərəb xilafətinin dağılmasından sonra yaranan dövlətlər arasında Tiflis əmirliyi də var idi ki, bu əmirlik indiki Gürcüstanın paytaxtı da daxil olmaqla cənub ərazilərini əhatə edirdi. XI-XIII əsrlərdə monqol fəthləri, 1386-cı ildə Əmir Teymurun yürüşü, XIV-XV əsrlərdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hakimiyyəti, XVI əsrdən etibarən Səfəvi-Osmanlı müharibələri bu bölgəyə təsirsiz ötüşməmiş, bölgə gah bir, gah digər dövlətin tərkibinə daxil edilmişdir. Borçalının Kartli-Kaxeti çarlığın tərkibinə verilməsi, xanlıqlararası çəkişmələr, Cənubi Qafqazın Rusiya tərəfindən işğalı bölgənin demoqrafik vəziyyətinə təsirsiz ötüşmədi. Sosialist inqilabından sonra müstəqilliklərini elan edən Cənubi Qafqaz respublikaları üçün Borçalı strateji əhəmiyyətə malik idi. 1918-ci ilin dekabrında baş verən Gürcüstan-Ermənistan müharibəsi əsasən Borçalı torpaqları uğrunda aparılırdı. Nəticədə əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Borçalı yerli əhalinin fikri nəzərə alınmadan iki dövlət arasında parçalandı. Bu da əhalinin bir qisminin köç etməsinə səbəb oldu. 1927-ci ildə Gürcüstan ərazisində qalan Borçalı torpaqları növbəti dəfə Borçalı, Lüksemburq, Dmanisi olaraq 3 hissəyə parçalandı. Sonrakı illərdə adları gürcü adları ilə (Borçalı-Marneuli, Lüksemburq-Bolnisi, Başkeçid–Dmanisi, Qarayazı-Qardabani) əvəz edildi. [184]

Marneuli hazırda Kvemo-Kartli bölgəsinin ən böyük rayonlarından biridir. Ərazisi 6528 km$^2$, əhalisi 423986 nəfər olan Kvemo-Kartli bölgəsi 6 rayondan ibarətdir. Bu bölgə Gürcüstanın müstəqilliyinin bərpasından sonra əhalisinin sayında ən çox

---

[184] Məmmədli Ş. *Paralanmış Borçalı*, s.61

azalma müşahidə edilən bölgələrindən biridir. Ən yaxın tarixə nəzər yetirdikdə görünür ki, 2002-ci il statistik məlumatlarına görə, bölgə əhalisinin sayı 497530 nəfər olmuşdur. Yəni 12 il ərzində əhalinin sayı 70 000 nəfərdən çox azalmışdır.

Kvemo-Karetli (Borçalı) bölgəsinin əhalisinin 45 faizini azərbaycanlılar təşkil edir. Azərbaycanlıların ən sıx yaşadıqları rayon Marneulidir. Burada yaşayan ümumi əhalinin 83,1 faizi azərbaycanlılardır. Dmanisi rayonunda ümumi əhalinin 66,8 faizini, Bolnisi rayonunda 66 faizini, Qardabani rayonunda isə 43,7 faizini azərbaycanlılar təşkil edir.

Gürcüstanda azərbaycanlılar yığcam halda ölkənin cənub-şərq hissəsində yaşayırlar. "Burada yerləşən Marneuli (1947-ci ilədək Borçalı), Bolnisi (1943-ci ilədək Lüksemburq), Dmanisi (1947-ci ilədək Başkeçid) və Qardabani (1947-ci ilədək Qarayazı) rayonlarının əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarətdir. 1989-cu ilin rəsmi statistik məlumatına görə, Gürcüstanda əhalisinin çoxluğu baxımından 20 ən iri kənddən Sadaxlı (Marneuli rayonu), Kəpənəkçi (Bolnisi rayonu), Qaracala (Telavi rayonu), Faxralı (Bolnisi rayonu), Soğanlıq (Qardabani rayonu), Qızılhacılı (Marneuli rayonu), Ləmbəli (Qaraçöp mahalı) kəndləri idi. 2002-ci ilin yanvanrına olan son rəsmi statistik məlumatlara görə isə Sadaxlı Gürcüstanın ən böyük kəndidir, Telav-Qaracala isə böyüklüyünə görə 3-cü sıradadır. Bu iki kəndlə bərabər Qızılhacılı, Faxralı, Bolus-Kəpənəkçi, Ləmbəli, Nəzərli, Soğanlıq, Kosalı (Qarayazı bölgəsi), Alget (Marneuli), Arıxlı (Bolus), Ağtəhlə (Qarayazı), Qaracalar (Qarayazı), Qaçağan (Marneuli) və Darvaz (Bolus) Gürcüstanda azərbaycanlıların yaşadıqları böyük kəndlər arasında ilk 15 yeri bölüşdürürlər.

2005-ci il satatistikasına görə Gürcüstanda azərbaycanlıların təqribi sayı 500 min nəfər olmuşdur.[185]

Kvemo-Kartli bölgəsindən sonra Kaxetidə azərbaycanlılar sıx məskunlaşmışdırlar. Burada yaşayan azərbaycanlıların sayı 32354 nəfərdir. Onlar ümumi əhalinin 10,16 faizini təşkil edirlər. Hazırda Tbilisidə 15000 nəfərdən çox azərbaycanlı yaşayır.

***Osetinlər.*** Gürcüstanda yaşayan etnik qruplardan biri də osetinlərdir. Osetinlər Hind-Avropa dil ailəsinin İran qoluna aid olan, osetincə danışan, ümumi sayları 700000 nəfərə qədər olan etnik qrupdur. Gürcüstan ərazisində mövcudluğu orta əsrlərə qədər gedib çıxan osetinlərin 1237-ci ildə monqolların İran ərazisinə hücumu zamanı yaşadıqları ərazilərə köç etdikləri ehtimal edilir. Nikah diplomatiyası sayəsində gürcülərlə osetinlər bir-birlərinə qaynayıb-qarışmış, Gürcüstandakı osetinlərin sayı artmışdır. Gürcü çarları I Georgi və IV Baqrat Osetin hökümdarlarının qızları ilə evlənmişlər. Osetinlərin Gürcüstan ərazisinə ikinci köçünün XVIII-XIX əsrlərdə olduğu ehtimal edilir. XVIII əsrdə Msxeta-Mtianeti ərazisinə Ahalqori rayonunda və Şimali Osetiyada yaşayan osetinlər köç etmişlərdir. XIX əsrdə Şida-Kartli, Borçalı ərazilərinə osetin axını olmuşdur. 1989-cu ilin statistik məlumatlarına əsasən osetinlər Koreli rayonunun əhalisinin 15 faizini, Axmeta əhalisinin 11 faizini, Gori və Kaspi əhalisinin 10 faizini, Laqodexi və Borjomi əhalisinin 8 faizini təşkil edirdi. Tiflisdəki osetinlərin sayı 33,000 nəfərə qədər idi. 1989-cu ilin rəsmi statistik məlumatlarında osetinlərin sayının 164,055 nəfər olduğu göstərilir.[186]

---

[185] Valehoğlu F. *Qarapapaqlar və onlarin XIX əsr hərb tarixi.* Bakı: Səda, 2005, s.6

[186] Giorgi Sordia. *Ossetians in Georgia,* ECMI Working Paper # 45. September 2009, p.22

SSRİ-nin süqutuna yaxın Gürcüstan ərazisində separatizm meyilləri baş qaldırdı. Gürcüstan müstəqillik əldə etdikdən sonra Zviad Qamsaxurdianın başçılığı ilə hakimiyyətdə olan qatı-millətçi qrupun "Gürcüstan gürcülərindir" şüarı altında həyata keçirdikləri ayrı-seçkilik, fiziki və mənəvi təzyiqlər osetinlərdən də yan keçməmişdir. Belə ki, osetin kəndlərinə basqınlar edilmiş, əhali sıxışdırılaraq ölkəni tərk etməyə məcbur edilmişdir. Osetinlərin əsas hissəsi Rusiyaya və Şimali Osetiyaya üz tutmuşdurlar. Gürcüstan dövlətinin həyata keçirdiyi şovinist siyasət osetinlərin açıq mübarizəyə başlamasında qızışdırıcılıq rolunu oynamışdır. Cənubi Osetiyadakı osetinlər Rusiyanın da dəstəyi ilə Gürcüstan dövlətinə qarşı baş qaldırmış, separatçı çıxışlar etmişdirlər. 1990-cı ildə separatçı Cənubi Osetiya dövlətinin yaradıldığını elan etmişdirlər. 1992-ci ilə qədər tərəflər arasında intensiv qarşıdurmalar baş vermişdir. 1992-ci ildə Rusiyanın iştirakı ilə baş tutan atəşkəs regionda vəziyyətin sabitləşdirilməsi üçün kifayət etməmişdir. 2003-cü ildə Gürcüstanda hakimiyyətə gələn Qərb yönümlü siyasətçi M.Saakaşvili Gürcüstanın ərazi bütövlüyünun bərpası üçün hərəkətə keçmiş, ölkədəki separatçı region qarşı fəal mübarizəyə başlamışdır. Bu, gürcü-osetin münasibətlərini müharibə vəziyyətinə qədər gətirib çıxarmışdır. 2008-ci ildə Sxinvalini mərkəzi hakimiyyətə tabe etmək üçün oraya daxil olan gürcü qoşunları kəskin müqavimət ilə üzləşmiş, Rusiya ordusunun müharibəyə qoşulması ilə məğlub olub geri çəkilmişdir.[187] Cənubi Osetiyada Rusiyanın dəstəyi ilə separatçı qurum yaradılmışdır. Müharibə nəticəsində 35000 nəfərdən çox osetin, 85000 nəfərdən çox gürcü öz yaşadıqları tor-

---

[187] Jim Nichol. *Russia-Georgia conflict in August 2008. Context and İmplications for U.S. interests. Congressional research service. March 3, 2009, p.14*

paqları tərk etmək məcburiyyətində qalmışlardır. Xarici müdaxilələrin də təsiri nəticəsində Gürcüstan dövlətinin ərazi bütövlüyü pozulmuş, əsrlərlə eyni torpaqlarda yanaşı yaşamış iki etnik qrup qarşı-qarşıya gəlmiş, çoxsaylı insan tələfatına, ərazinin iqtisadi infrastrukturunun pozulmasına səbəb olmuşdur.

2002-ci ilin statistik məlumatlarına əsasən Şida-Kartli bölgəsində olan 59 kənddə, Kaxeti bölgəsində olan 37 kənddə osetinlər məskunlaşmışdılar. Tbilisi, Qori, Rustavi, Kaspi şəhərlərində də osetinlər yaşayırlar. 1980-ci illərdə Svanetidə baş vermiş təbii fəlakət nəticəsində köçürülən svanların bir qismi Şida-Kartli və Kaxetidəki osetin kəndlərinə yerləşdirilmiş, əsasən qarışıq nigah nəticəsində yerli əhali ilə qaynayıb-qarışmışdırlar. Bu ərazidəki osetinlərin soyad sonluqları gürcüləşdirmə siyasəti nəticəsində bir çox hallarda dəyişdirilmiş, -şvili, -dze, -uri soyad sonlıqları ilə əvəz edilmişdir. Laqodexi rayonundakı osetin kəndlərində isə osetin dili, mədəniyyəti, adət-ənənələri hələ də qorunub saxlanılmaqdadır. Bu ərazidəki osetinlərin əksəriyyətinin soyad sonluqları –ov, -ova, -tı olaraq qalmaqdadır. Osetinlərin ən çox məskunlaşdıqları kəndlər Pona, Dona, Georgetis, Areşperani kəndləridir.

Gürcüstanda yaşayan osetinlərin sayı 2014-cü ilin rəsmi statistik məlumatlarına əsasən 14385 nəfər olmuşdur. Paytaxt Tbilisidə 4313, Şida-Kartli bölgəsində 4668, Kaxeti bölgəsində 2526, Kaspi rayonunda 1775 osetin yaşayır. Qondarma Cənubi Osetiya Respublikasında yaşayan osetinlərin sayı isə dəqiq məlum deyildir. 1993-cü ilin məlumatına əsasən 70000 nəfər əhalinin təxminən 68 faizini osetinlər təşkil edirdi.

***Abxazlar.*** Abxazlar Gürcüstan ərazisində yaşayan etnik qruplardan biridir. Onlar əsasən Abxaziya Muxtar Respublikası-

nın ərazisində yaşayırlar. Abxazlar qədim tarixə malik xalqdır. Eramızdan əvvəl XI əsrə aid Assur yazılı mənbələrində qədim abxaz qəbilələrinə aid ilk məlumatlara rast gəlinir. Bu mənbələrdə abxaz qəbilələri "abaşla" kimi qeyd olunmuşdur. Zaman içində apsillər, apsua olaraq dəyişikliyə məruz qalmışdır.[188] Eramızdan əvvəl VII əsrdə Qara dəniz sahillərində yunan kaloniyalarının salınması ilə bu ərazilərdə ticarət inkişaf etmiş, indiki Suxumi şəhərinin təməli qoyulmuşdur. Eramızdan əvvəl II əsrdə Pont Kralı VI Mitridat tərəfindən Sokum çarlığı yaradılmışdır. Bizim eranın əvvəllərində Pont Krallığının süqutundan sonra ərazi romalıların nəzarəti altına keçmişdir, VI əsrdən etibarən isə Bizans koloniyası olmuşdur. Bu zaman indiki Abxaziya ərazisində abasgiya, apsiliya, misiminya xalqları yaşayırdılar. Bizans imperiyasının gəlişi ilə ərazidə xristianlıq yayılmağa başlandı. VII əsrdə ərəblər Abxaziya istisna olmaqla indiki Gürcüstan ərazisi  işğal edilmişdirlər. Abxaziya ərazisində olan Anakopiya qalasında gürcülər də abxazlarla birlikdə ərəb işğalına qarşı vuruşmuş, əlverişli coğrafi mövqeyinin də köməyi ilə qala işğaldan xilas ola bilmişdir. Bizans imperiyası abxazların şücaətini qiymətləndirərək 786-cı ildə müstəqil çarlıq qurulmasına icazə vermişdir. Çarlıq VIII əsrdə gürcü kilsəsinin hakimiyyətinə tabe oldu. XV əsrdə qısa bir müddətdə müstəqil olan Abxaziya çarlığı daha sonra Osmanlı imperiyasının tərkibinə daxil edilmişdir. XVIII əsrin əvvəllərində Osmanlı imperiyasına qarşı bölgədə dəfələrlə üsyanlar olmuş, 1771-ci il üsyanı nəticəsində Suxumi abxazların nəzarətinə keçmişdir. Rusiyanın Qafqazı işğala başla-

---

[188] Aydın Ülviyye. Abhazya ve Güney Osetya sorunu: Avrupa Birliği-Gürcistan ilişkilerinin "istenmeyen" gündemi https://www.academia.edu/ 30958750/ abhazya_ve_güney_osetya_sorunu_avrupa_birliği__gürcistan_ilişkilerinin_istenmeyen_gündemi

ması abxaz hakimləri arasında fikir ayrılığına səbəb olmuş, hökmdarın bir oğlu Aslanbəy Osmanlı imperiyasının tərkibində qalmaq istəmiş, digər vəliəhd Səfərbəy isə xristianlığı qəbul edərək adını Georgi Şervaşidze olaraq dəyişdirmiş və Abxaziyanın Rusiya tərəfindən ilhaqı istəyi ilə 1808-ci ildə çar hökumətinə müraciət etmişdir.[189] Georginin istəyinə müsbət cavab verən Rusiya hökuməti 1810-cu ildə Suxum qalasını ələ keçirdi və Abxaziya ərazisini çar Rusiyasına birləşdirdi. Rusiyanın işğalı nəticəsində Osmanlı imperiyasına meyilli siyasət aparan Aslanbəyı dəstəkləyən 5000-ə qədər abxaz Osmanlı ərazilərinə köç etmək məcburiyyətində qalmışdır. Bu abxazların birinci köç dalğası hesab edilir. Yerli əhali Aslanbəyin başçılığı altında XIX əsrin 60-cı illərinə qədər Rusiyanın dəstəklədiyi hakimlərə (Səfərbəyin oğlu Ömərbəyə) qarşı mübarizə aparmış, müstəqilliyini bərpa etmək üçün ciddi müqavimət göstərmişdi. Üsyan nəticəsində Ömərbəydən sonra taxta çıxmış Həmidbəy (Mixeil) Abxaziya ərazisindən qaçmışdı və Rusiyaya sığınmışdı. Yalnız rus ordusunun Abxaziya səfərindən sonra o, hakimiyyətə geri qayıtdı. 1864-cü ildə Abxaziyanın daxili müstəqilliyinə də son qoyuldu və çar Rusiyasının əyalətinə çevrilmişdi. İşğal nəticəsində Qara dəniz sahilində yaşayan abxazların əksəriyyəti Osmanlı ərazisinə köçmək üçün Poti və Batumi limanlarına üz tutmuş, türk gəmilərini uzun müddət gözlədiklərindən onların böyük bir qismi yolxucu xəstəliklərdən və aclıqdan həlak olmuşdur. Abxaz xalqının məruz qaldığı növbəti köç (sürgün) 1866-1867-ci illərdə baş vermişdir. 1866-cı ildə rus hakimiyyətinə qarşı Abxaziya ərazisində üsyan qaldırılmış, üsyan nəticəsində rus səfiri öldürülmüşdür.

[189] Emine Gün. Abhaz-Gürcü sorunu www.academia.edu/12484463/Abhaz-Gürcü_Sorunu

Çar Rusiyası cəza olaraq 20000 nəfər abxazı Osmanlı imperiyasına və Sibirə sürgünə göndərmişdir. Osmanlı ərazisinə köçən abxazlardan Rusiyaya qarşı müharibələrdə istifadə edilirdi.

1877-1878 illərdə baş vermiş Osmanlı-Rusiya müharibəsi zamanı Osmanlılarla birlikdə Suxumiyə hücum edən abxazların məğlub olması ilə birlikdə 50000 nəfərə qədər abxaz öz torpaqlarını tərk etmək məcburiyyətində qalmışdır.

Ümumiyyətlə, Osmanlı-Rusiya müharibələri nəticəsində 1870-ci illər ərzində təxminən 300000 nəfər abxaz yaşadıqları əraziləri tərk etmişlərdir. 1886-cı il əhalinin siyahıyaalınmasının nəticələrinə əsasən Abxaziya əhalisinin 85,2 faizini abxazlar təşkil edirdisə, 1897-ci ilin statistik məlumatlarına əsasən əhalinin 55,3 faizi abxazlardan ibarət idi.[190]

Çar Rusiyasının süqutundan sonra qısa müddətə müstəqillik əldə edən Abxaziya 1918-ci ildə Gürcüstan müstəqillik əldə etdikdən sonra 1921-ci ilə qədər bu dövlətin tərkibində mövcud oldu. 1921-ci il martın 31-də Abxaziya Sovet Sosialist Respublikası yaradıldı.[191]

Təxminən 70 il dinc, yan-yana yaşamış iki xalq arasında SSRİ-nin süqutuna yaxın qarşıdurmalar baş qaldırmışdır. Bu qarşıdurma SSRİ-nin dağılması ilə birlikdə silahlı münaqişəyə çevrilmişdi. Bu, bir tərəfdən Rusiyanın təhriki ilə abxazların mərkəzdənqaçma meyilləri ilə bağlı idi isə, digər tərəfdən Gürcüstanda hakimiyyətdə olan qatı-millətçi qrupun uğursuz şovininst siyasətinin nəticəsi idi. 1992-ci ildə başlayan gürcü-abxaz müharibəsi 220000 nəfərə qədər gürcü əhalinin (əksəriyyə-

---

[190] Emine Gün. Abhaz-Gürcü sorunu. www.academia.edu/12484463 /Abhaz-Gürcü_Sorunu

[191] Aydınlı F. *Abxaziya münaqişəsinin regional inteqrasiyaya təsiri* https://www.academia.edu/37948294/abxaziya_münaqişəsinin_regional_inteqrasiyaya_təsiri

ti etnik meqrellər) Abxaziyadan qovulmasına səbəb oldu. 1994-cü ildə tərəflər arasında atəşkəs imzalandı. Ümumiyyətlə, gürcü-abxaz müharibəsi ilə bağlı 350-dən çox görüş keçirilmiş, 400-ə yaxın sənəd imzalanmışdır. 2003-cü ildə Gürcüstanda baş vermiş "Qızılgül inqilabı"ndan sonra hakimiyyətə gələn M. Saakaşvili Gürcüstanın ərazi bütövlüyünün toxunulmazlığını şərti qorunmaqla Abxaziyaya muxtariyyət verilməsi təklifi ilə çıxış edərək münaqişənin həllinə çalışmış, lakin bu da nəticə verməmişdir. 2008-ci ildə gürcü-osetin müharibəsinə qarışan Rusiya tərəfindən Abxaziyaya da rus qoşunları daxil olmuş və 5 günlük müharibənin nəticəsi olaraq qondarma "Abxaziya Respublikası"nın müstəqilliyi Rusiya tərəfindən tanınmışdır.

Abxaziya ərazisində baş verən siyasi, inzibati dəyişikliklər demoqrafik vəziyyətə də təsirsiz ötüşməmişdi. Sovet rejiminin bərqərar olmasından sonra həyata keçirilmiş əhalinin siyahıyaalınmasının nəticələrindən də görmək olar ki, abxazlar azlıq səviyyəsinə düşmüşlər. Belə ki, 1926-cı ilin siyahıyalmasının nəticələrinə əsasən abxazlar ümumi əhalinin 26,4 faizini təşkil etmişdi. Onların sayı 55918 nəfər idi. 1939-cu ilin siyahıyaalmasının nəticələrinə əsasən isə abxazların ümumi əhalinin sayındakı payı 18 faizə düşmüşdü. 1959-cu ilin statistik məlumatlarına əsasən əhalinin 15,1 faizini, yəni 61193 nəfərini abxazlar təşkil etmişdir. 1970-ci ildə Abxaziyada uzun illərdən sonra abxazların sayında müsbət dinamika müşahidə edilmiş, onlar ümumi əhalinin 15,95 faizini (72276 nəfər) təşkil etmişlər. 1989-cu ildə Abxaziyanın ümumi əhalisi 525061 nəfər olmuşdur. Abxazlar isə ümumi əhalinin 17, 8 faizini təşkil etmişlər. Onların sayı 93267 nəfər idi. [192]

---

[192] *Население Абхазии* http://www.ethno-kavkaz.narod.ru/rnabkhazia.html

Abxaziyada qondarma rejim qurulduqdan sonra əhalinin etnik tərkibində kəskin fərqlər ortaya çıxmışdır. Yuxarıda da qeyd olunduğu kimi, müharibə nəticəsində gürcü əhalisinin əsas hissəsi Abxaziya ərazisindən zorla çıxarılmışdır. Boşalan yaşayış məntəqələrinə isə əsasən ermənilər yerləşdirilmişdir. Qondarma Abxaziya Respublikası tərəfindən göstərilən 2003-cü ilə aid statistik məlumatlarda Abxaziya əhalisinin ümumi sayının 214016 nəfər olduğu göstərilir. Əhalinin 44,2 faizini, yəni 94597 nəfərini abxazlar təşkil edir. 2011-ci ilin statistik məlumatlarına əsasən Abxaziya əhalinin sayı 240705 nəfər olmuşdur ki, onlardan da 122175 nəfəri abxazdır. Abxazlar ümumi əhalinin 50,8 faizini təşkil edirlər. Gürcüstan dövləti tərəfindən müstəqillik dövründə aparılan siyahıyaalınmalarda Abxaziyada yaşayan abxazların sayı ümumi saya əlavə edilmir. Belə ki, 2014-cü ildə keçirilmiş son siyahıyaalınmanın nəticələrinə əsasən Gürcüstanda yaşayan abxazların sayı 4551 nəfər göstərilir. Onlar əsasən Tbilisi də və ətrafında yaşayırlar.

***Ahıska türkləri.*** Ahıska türkləri tarixən indiki Gürcüstan ərazisində yaşamış etnik qruplardan biridir. Adını yaşadıqları Ahıskadan götürmüş bu xalq qədim oğuz tayfalarının törəmələri hesab olunur. 481-ci ilə aid məlumatlarda "Akesga", Kitabi-Dədə Qorqudda isə Ak-Sıka (ağ qala) kimi işlədilir.[193] Gürcülər isə bu adın mənşəyinin Axal-Tsikle (yeni qala) olduğunu irəli sürürlər. Bu iddia onların birbaşa etnik qrupları gürcüləşdirmək siyasəti ilə bağlıdır. Cənub-qərbdə Türkiyə ilə qonşu olan bu ərazi Axalkalaki (Axalkələk), Ahıska, Adıgen, Aspindza və Boq-

---

[193] Səfərov R., Akış A. *Sovyet Döneminden Günümüze Ahıska Türklerinin Yaşadıkları Coğrafyaya Göçlerle Birlikte Genel Bir Bakış* http://dergipark.gov.tr/download/article-file/257903

danovka (Ninostminda) rayonlarını əhatə etmişdir. 1267-ci ildə Samsxi bəylərbəyliyi tabeliyində Ahıska ərazisində müstəqil bəylərbəylik yaradılmış, bu feodal hakimliyi XVI əsrə qədər - 310 il öz müstəqilliyini saxlamışdır. XVI ərsdə Ahıska ərazisi Səfəvi və Osmanlılar arasında mübarizə meydanına çevrilmiş, 1578-ci ildə baş vermiş Çıldır döyüşündən sonra bölgə Osmanlı imperiyasına birləşdirilmiş, əvvəlcə atabəylik, daha sonra paşalıq olaraq 1578-1829-cu illər arasında bu dövlətin tərkibində mövcud olmuşdur.

1828-1829-cu illərdə baş verən Osmanlı-Rusiya müharibəsi Ədirnə müqaviləsini imzalanması ilə başa çatdı. Müqaviləyə əsasən ərazi Rusiyaya tabe edildi. Yerli əhali olan Ahıska türklərinin tələbi ilə 1918-ci ildə Ahıska yenidən Osmanlı dövlətinə birləşdirilmişdi.[194] 1921-ci ildə bağlanılmış Moskva və Qars müqavilələrinin tələblərinə əsasən Ahıska bölgəsi Gürcüstanın sərhədləri daxilində qaldı. SSRİ-nin ilk illərindən başlayaraq Ahıska türkləri dini və milli ayrı-seçkiliyə məruz qaldılar. Belə ki, Ahıska türklərinin yaşadıqları ərazilər Türkiyə ilə həmsərhəd olduğundan onlara potensial düşmən gözü ilə baxılırdı. SSRİ-də kolxoz quruculuğu dövründə kollektivləşməyə qarşı çıxan Ahıska türkləri təqiblərə məruz qalmış, yeni hökumətin düşməni elan edilmiş, ziyalılar müxtəlif bəhanələrlə həbs edilmişdirlər. Sovet hakimiyyətinin qurulmasından sonra acarlara, osetinlərə və abxazlara muxtariyyət verilsə də, Ahıska türklərinin bir xalq kimi nəinki hüquqları tanınmışdır, hətta soyad sonluqları dəyişdirilərək "müsəlmanlaşdırılmış gürcülər" elan edilmişdirlər.

---

[194] Aydıngün A, Asker A. *Gürcistan de jure üniter, de fakto parçalı.* Ankara: Atatürk Kültür Merkezi, 2001, s. 19

Stalin SSRİ-də hakimiyyətə gəldikdən sonra Gürcüstan ərazisindəki etnik qrupların vəziyyəti daha da pisləşdi. 1940-cı ilə qədər hərbi xidmətə çağırılmayan Ahıska türkləri II Dünya müharibəsi dövründə kütləvi şəkildə cəbhəyə göndərilmiş, onların ailə üzvləri isə Barjomi-Vale dəmiryolunun tikintisində dözülməz şəraitdə işləməyə məcbur edilmişdirlər. Müharibəyə cəlb edilmiş 40000 nəfərdən çox Ahıska türkünün minlərlə yaxını dəmiryolu tikintisi zaman həlak olmuşdur. [195]

Gürcüstanda yaşayan etnik qruplar içində ən dəhşətli məhrumiyyətlərə məruz qalan məhz Ahıska türkləri olmuşdur. Belə ki, Türkiyə ilə əməkdaşlıq etdikləri və qaçaqmalçılıqla məşğul olduqları bəhanəsi ilə günahlandırılan Ahıska türkləri 1944-cü ilin noyabrında bir gecənin içində qatarlara doldurularaq Orta Asiyaya deportasiya edildilər. SSRİ-nin o zamanki Xalq Daxili İşlər komissarı L. Beriyanın İ. Stalinə 1944-cü ilin noyabrın 28-də yazdığı raportda 91095 nəfər Ahıska türkünün Gürcüstan ərazisindən çıxarıldığı bildirilirdi. Dekabrda yazılmış raportda isə köçürülənlərin sayı 92307 nəfər kimi qeyd edilmişdir. [196] Bəzi mənbələrdə deportasiya edilən Ahıska türklərinin sayının 100000-120000 nəfər olduğu göstərilir. [197] Köçürüldükləri ərazilərdə əlverişsiz iqlim şəraitindən və aclıqdan on minlərlə Ahıska türkü həlak olmuşdur. 1956-ci ilə qədər xüsusi yaşayış məntəqələrində yaşamış Ahıska türkləri bütün hüquqlarından məhrum edilmişlər. SSRİ-nin süqutuna qədər ana vətənlərinə geri qayıtmaq üçün cid-

[195] Aydıngün A, Asker A. Gürcistan de jure üniter, de fakto parçalı. Ankara: Atatürk Kültür Merkezi, 2001, s. 19

[196] Aydıngün A, Asker A, Aslan Yavuz Şir. *Gürcistan'daki müslüman topluluklar: azınlık hakları, kimlik, siyaset, Avrasya İncemeler Mərkəzi-2016*

[197] Səfərov R, Akış A. *Sovyet Döneminden Günümüze Ahıska Türklerinin Yaşadıkları Coğrafyaya Göçlerle Birlikte Genel Bir Bakış* http://dergipark.gov.tr/download/article-file/257903

di cəhdlər etsələr də, onlara Gürcüstana qayıtmaq qadağan edilmişdir. 1956-1991-ci illər arasında vətənə geri dönmək üçün mübarizə aparmış Ahıska türkləri bu məqsədlə Orta Asiyanın müxtəlif bölgələrinə səpələnmiş deportasiya qurbanlarının iştirakı ilə 10 konqres keçirmiş, SSRİ və Gürcüstan SSR-ə dəfələrlə heyətlər göndərərək öz insani hüquqlarının bərpası tələbləri ilə çıxış etmişlər. SSRİ dünya ölkələrinin də diqqətinin cəlb etmiş Ahıska türklərinin mübarizəsinə daha artıq səssiz qala bilməmiş, onların rəsmi şəkildə təşkilatlanmalarına icazə vermişdir. Bu qərardan sonra Ahiska türklərinin mübarizəsini mütəşəkkilləşdirmək üçün Vətən Cəmiyyəti yaradılmışdır.

Hələ 1969-cu ildən Gürcüstana gəlməyə cəhd edən Ahıska türklərinin bütün cəhdləri uğursuzluqla nəticələnmişdir. Belə ki, həmin ilin iyun ayında ölkəyə gəlməyə nail olmuş 500 ailə zorla xaric edilmişdir. 1982-1988-ci illərdə 1972 nəfər Gürcüstana gələ bilmiş, onlardan 1132-si yenidən ölkəni tərk etməyə məcbur edilmişdir. Bu faktdan belə nəticəyə gəlmək olar ki, 1988-ci ildə Gürcüstan ərazisində sadəcə 840 nəfər Ahıska türkü yaşamışdır.

Müstəqillik bərpa əldə etdikdən sonra Gürcüstan Qərbə inteqrasiya olmaq üçün Ahıska türklərinin vətənə dönüş tələblərinə daha həssaslıqla yanaşmağa başlamış, bu məqsədlə 1993-1999-cu illər arasında xeyli sayda layihələr həyata keçirilmiş, qərarlar qəbul edilmişdir. 1999-cu ildə Gürcüstan Avropa Şurasına daxil olduqdan sonra bu sahədə fəaliyyət daha da genişlənmişdir. Bütün bunlara baxmayaraq, 2001-ci ildə Gürcüstan ərazisində sadəcə 644 nəfər Ahıska türkünün yaşadığı qeyd edilmişdir.[198]

---

[198] Oskari Pentikäinen, Tom Trier. Between integration and resettlement: the meskhetian turks, ECMI Working Paper # 21 September 2004, p. 42

2003-cü ildə Gürcüstanda Avropa yönümlü siyasət yeridən M.Saakaşvilinin hakimiyyətə gəlməsindən sonra Ahıska türklərinin geri dönüş prosesində müsbət irəliləyişlər müşahidə edildi. Belə ki, bu məqsədlə dövlət komissiyası yaradıldı. Gürcüstan dövləti Avropa Şurası qarşısında götürdüyü öhdəliyə uyğun olaraq 2007-ci il iyul 11-də "XX əsrin 40-cı illərində Gürcüstandan sürgün olunmuş şəxslərin vətənlərinə dönmələri" haqqında qanun qəbul etmişdi.[199] Bu qanundan sonra repatriant statusu almaq üçün müraciət etmiş 5841 nəfərdən 1254 nəfərə bu status verildi. 1540 nəfər 2015-ci ildə repatriant (vətənə qaytarılma) statusu almışdır. Avropa Şurasının Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitənin Gürcüstan üzrə hesabatında da 1500 nəfərə qədər Ahıska türkünün Samtsxe-Cavaxetidə yerləşdirildiyi bildirilir.[200] Ümumilikdə Ahıska türklərinin vətənlərinə kütləvi dönüşü baş tutmamışdır. Gürcüstanın Ahıska türklərinin geri dönüşünə isti münasibət göstərməməsinin bir neçə səbəbi vardır. Birincisi, Ahıska türklərinin etnik və dini mənsubiyyəti Gürcüstan dövlətinin narahat etməyə bilmir. İkincisi, Gürcüstan bu prosesdə ortaya çıxacaq ağır iqtisadi yükün altına girmək istəmir. Üçüncüsü, Ahıska türkləri ilə Samtsxe-Cavaxetidə yaşayan ermənilər arasında baş verməsi ehtimal olunan münaqişədən ehtiyat edir. Gürcüstanda yaşayan ermənilər Ahıska türklərinin doğma vətənlərinə geri dönüşünə ən çox qarşı çıxan qüvvədir. Ermənistan hökuməti və Cavaxeti erməniləri Ahıska türklərinin bölgəyə yerləşdirilməsi ilə bölgənin təhlükəsizliyi məsələsində ciddi problemlərin yaşanacağını iddia edərək

---

[199] Axısxalı Türklər: Sürgündə keçən 72 il. http://ahiska.az/?p=338

[200] Advisory committee on the framework convention for the protection of national minorities. Second Opinion on Georgia adopted on 17 June 2015, Strastburg 11 January 2016

Gürcüstan hökumətini təhdid edirlər. Daha əvvəl də qeyd edildiyi kimi, ermənilərin hazırda yaşadıqları Adıgen, Axalkalaki (Axalkələk), Ninotsminda, Aspindza, Axalsıx, Borjomi Ahıska türklərinin yaşadıqları tarixi torpaqlardır. Geri dönənlərin Samtsxe-Cavaxetidə yaşamağına icazə verilmir. Gürcüstana geri dönmüş Ahıska türkləri Quriya, İmereti, Kvemo-Kartli bölgəsində və Tiflisdə məskunlaşmışlar.

***Aysorlar*** qədim assuriyalıların-indiki İraq ərazisində qədim dövlət olmuş Assuriyada (Aşisur) yaşayan əhalinin nəsilləri hesab olunur. Aysorlar dünyanın bir çox ölkələrində yaşayırlar. XIX əsrdə Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra İrandan və Türkiyədən Qafqaza, o cümlədən Borçalıya da aysorların yeni-yeni nəsilləri köçüb gəlmişlər. "Qafqaz xalqları", "Ön Asiya xalqları" kitablarında, SMOMPK[201] külliyatında, Dumbasın, P.Eyvazovun əsərlərində aysorların Qafqaza XIX əsrdə Türkiyə, İran, İraqın qovuşduğu dağlıq sərhəd zonalarından köçürülməsi qeyd olunmuşdur. Osmanlı imperiyasında heç bir milli ayrı-seçkiliyə məruz qalmayan xristian xalqlar Rusiya-Türkiyə müharibəsi zamanı ruslara kömək etmiş, onlara bələdçilik və yol göstərmiş, türklərə arxadan zərbə endirmişlər. Məsələn, XIX əsrdə İrəvan yaxınlığına, Koylasar (Dvin-Asoru) kəndinə köçmüş aysorların başçısı Alaverdi Tumayev 1827-ci ildə ruslara bələdçilik etmiş, onları ərzaqla təmin etmiş, buna görə də ruslar geri çəkilərkən onları da özlərilə gətirmiş və öz ərazilərində yerləşdirmişlər. Aysorların ikinci axını I Dünya müharibəsi (1914 - 1918) illərində olmuşdur. Aysorlar yeni Suriya dilinin (sami-hami dilləri ailəsinin sami qrupu) şərqi arami dialektində danışırlar. Xristian olan aysorular nestorian, katolik, protestant

[201] Qafqazın Yerli Tayfalarını Təsvir üçün Materiallar

olsalar da Borçalıda əsasən, pravoslav aysorlar yaşayırlar. Hazırda müxtəlif ölkələrə köçüb gedən aysorların Gürcüstanda sayı xeyli azalmışdır. Sovet dövründə Borçalıda yaşayan aysorlar əsasən Ermənistana köçüb gedir, orada təhsil alır və orada yaşayıb işləyirdilər.

***Ermənilər.*** I Pyoturdan başlayaraq bütün Rusiya imperatorları erməniləri Şimali və Cənubi Qafqaza məqsədyönlü şəkildə köçürmüşdürlər.

1826-1828-ci illərdə Rusiya–İran müharibəsi zamanı 35000 nəfər erməni Gürcüstana köçürülmüşdür, onlardan çoxu Borçalıda (Kvemo-Kartlidə) məskunlaşdırılmışdır.[202]

1830-cu ildə Cavaxetiyəyə çoxsaylı ermənilərin köçürülməsilə əlaqədar olaraq oradan digər etiqadlı millətləri sürgün etdilər ki, xüsusi erməni bufer muxtariyyəti yaradılsın. 1831-ci ildə bu plan həyata keçirildi. Cavaxetidə digər millətlərlə yanaşı qarapapaqların bir hissəsi oradan sürgün edildi.[203]

Osmanlı imperiyasından Samtsxe-Cavaxetiyə və digər bölgələrə köçürülən ermənilərdən bəhs edərkən qeyd etmək lazımdır ki, Ərzurumdan 7298 ailədən artığı Axalsıx paşalığında, Ərdahandan gəlmiş 67 ailə Borçalı, Pəmbək-Şoragöl disstansiyalarında, həmçinin Zalqa hüdudlarında, Qarsdan gəlmiş 2264 ailə Pəmbək və Şoragöl distansiyalarında, 200 ailə Azərbaycanın İrəvan və Naxçıvan ərazilərində, Bəyazitdən köçürülmüş 4215 ailə İrəvan və Naxçıvan ərazilərində, Göyçə və Baş Abaranda yerləşdirilmişdir. Ümumiyyətlə, Osmanlı imperiyasından Gürcüstana 14044 ailə, 90 min nəfərdən artıq erməni köçürülmüş-

---

[202] Дубровин Н. *История войны и владычество русских на Кавказе,* СПб, 1886, Т.II, с.34

[203] Ломсадзе Ш. Самцхе-Джавахети. Тбилиси: Favorite Print, 2013, с. 314

dür.[204] Erməni yepiskopu Georkin məlumatına görə, 1830-cu ildə Türkiyənin Ərzurum, Qars və Bəyazit bölgələrindən 95 min nəfər erməni köçürülmüşdür.[205] Ş.Lomadzenin arxiv materiallarına əsaslanaraq verdiyi məlumata görə, Türkiyədən Gürcüstana köçürülən erməni koloniyaçıları 1839-ci ildə Ərzurumdan Axalsıxa köçürülən 2000 tacir-sənətkar ermənilər tezliklə öz xislətlərini göstərmiş və onlardan çoxu kasıb qocaların və yetimlərin mənzillərini, əmlaklarını zorla əllərindən almışlar.

Vaxt keçdikcə erməni koloniyaçıları tədricən Gürcüstanda yeni həyata alışır, möhkəm yerləşir, necə deyərlər "qanadlarını düzəldirdilər". Türkiyədən gələn erməni kəndlərinin arasında Axalsix qəzasında gürcü kəndləri kiçik oazisləri xatırladırdı. L.Zaqurski yazır ki, tezliklə ermənilər arasında milli şüur inkişaf etdi, belə təsəvvür yarandı ki, Gürcüstanda ermənilər "qədimdən məskunlaşmışlar".[206]

Yeni sakinlər Cavaxetinin sağ sahilindəki meşələri məhv edərək tikintidə istifadə etdirdilər. N.Berdzeneşvili yazır: *"Ən əsası isə onlar bir çox qədim gürcü memarlıq abidələrini dağıtdılar. Məsələn, Dimika, Kulqumui, Sulda, Rodinovka (Tamaraşeni) və digər kəndlərdə köçkünlər (erməni köçkünləri - V.Ö.) qədim gürcü kilsələrini dağıdıb onların materiallarından özlərinin yeni evlərinin tikintisində istifadə etdilər".*[207]

Ermənilərin belə həyasızlığı hələ XIX əsrdə vətənpərvər gürcü ziyalılarını bərk qəzəbləndirirdi. Belə ziyalılardan biri

---

[204] *Акты Кавказской Археографической Комисии* T.VII, Тифлис, 1878, с. 847

[205] Центральный Государственный Исторический Архив Грузии, ф. 1262, оп. 1, д 25, л. 18

[206] ЗагурскийЛ. *Поездка в Ахалцикский уезд в 1872 г.* Тифлис, 1890, с.65

[207] Бердзенешвили Н. *Дневник Джавахетский экспедиции 1933 г.* //Вопросы истории Грузии Т1, Тбилиси 1940, с.106

olan İvane Qvaramadze ermənilər nəzərdə tutaraq ürək ağrısı ilə yazırdı:

*"Yad tayfalar bizim əcdadlarımızın qanı bahasına əldə etdikləri torpaqları, dağları, meşələri dörd tərəfdən zorakılıqla zəbt edir, öz aralarında bölüşdürür, bizim vəhdətimizi, birliyimizi amansızlıqla dağıdırdılar. Ən təəcüblüsü odur ki, bu "yeni məskunlar" özbaşına, tamamilə cəzasız olaraq "əbədi abidələrimizi-qalaları, bürcləri, kilsələri, monastrları dağıdır, ikonaları, qiymətli əşyaları və digər milli sərvətlərimizi oğurlayır və məhv edirdilər".*

İ. Qvamaradze ucadan bəyan edirdi ki, digər xalqların nümayəndələrinin buraya köçürülməsinə baxmayaraq bu ölkənin yeganə sahibi gücülər idi. Sonra isə o xəbərdarlıq edirdi ki:

*"Əcdadlarımızın müqəddəs qanları bahasına qorunan, bir çox məbədlər, monastrlar, qəsrlər və qalalarla zəngin olan, ədəbiyyatı ilə şöhrətlənən bu ölkəni biz heç kəsə verə bilmərik".*[208]

Gürcüstanın bütün görkəmli ziyalıları və bütün gürcü xalqı ermənilərin necə bir bəla olduqlarını hələ o vaxtlar tam dərk edə bilmir, gürcülər onların müvəqqəti sığınacaq tapdıqlarını və şərait yarandıqda gəldikləri ərazilərə - Türkiyəyə geri qayıdacaqlarına ümid edirdilər.

İ.Cavaxaşvili gürcülərin öz tarixi ərazilərini heç kəsə güzəşt etməyəcəyini aşağdakı kimi ifadə edirdi:

*"Əlverişli siyasi şərait yaranan kimi... Türkiyədən köçürülmüş ermənilər öz yerlərinə qayıtmalıdırlar. Əvəzində buraya Türkiyədən bu torpaqların sahibi olan sürgün olunmuş müsəlman gürcülər qayıtmalıdırlar".*[209]

---

[208]Ломсадзе Ш. Самцхе-Джавахети. Тбилиси: Favorite Print, 2013, с. 340
[209] Джавахшвили Ив. *Границы Грузии.* Тбилиси, 1919, с.45

Gürcülər bu yolu həm gürcülər, həm də ermənilər üçün ən ədalətli yol hesab edirlər.

*Gürcüstanda əhalinin milli tərkibində dəyişikliklər*

| Milli kimlik | 1897 | | 1926 | | 1939 | | 1959 | |
|---|---|---|---|---|---|---|---|---|
| | mütləq cəm | %% | mütləq cəm | %% | mütləq cəm | %% | mütləq cəm | %% |
| Gürcülər | 1310307 | 68,3 | 1788186 | 66,8 | 2173574 | 61,4 | 2600588 | 64,3 |
| Abxazlar | 59481 | 3,1 | 56847 | 2,1 | 56640 | 1,6 | 62878 | 1,5 |
| Osetinlər | 71501 | 3,7 | 113298 | 4,2 | 148680 | 4,2 | 141178 | 3,5 |
| Ermənilər | 177012 | 9,2 | 307018 | 11,5 | 414182 | 11,7 | 442916 | 11,0 |
| Ruslar | | | 96085 | 3,6 | 307988 | 8,7 | 407886 | 10,1 |
| Ukraynalılar | 101044 | 5,3 | 14356 | 0,5 | 46020 | 1,3 | 52236 | 1,3 |
| Belaruslar | | | 540 | – | Məlumat yoxdur | – | 5152 | 0,1 |
| Azərbaycanlılar | 109529 | 5,7 | 143951 | 5,4 | 187621 | 5,3 | 153600 | 3,8 |
| Yunanlar | 38540 | 2,0 | 54054 | 2,0 | 84960 | 2,4 | 72938 | 1,8 |
| Yəhudilər | 12182 | 0,6 | 30159 | 1,1 | 42480 | 1,2 | 51582 | 1,3 |
| Digərləri | 39827 | 2,1 | 72739 | 2,8 | 77878 | 2,2 | 53091 | 1,3 |
| Cəmi | 1919423 | 100,0 | 2677233 | 100,0 | 3540023 | 100,0 | 4044045 | 100,0 |

İ.Şopenin verdiyi məlumata görə, 1800–1815-ci illərdə Türkiyədən erməni köçkünləri Tiflisdə, Tiflis ətrafında və Gürcüstan

quberniyasının cənub–şərq rayonlarında məskunlaşdılar.[210] XIX əsrin ilk 10-15 ilində ermənilərin axını az olmuşdur. XIX əsrdə çarizm Gürcüstana yadelli xalqları, o cümlədən erməniləri köçürməklə demoqrafik şəraiti gürcülərin ziyanınına dəyişdirdi. Rusiya ermənilərə özünün dayağı kimi baxırdı. Sənədlərdə yazılır: *"Hələ 1803-cü ildə Gürcüstanın ali baş komandanı Kvemo Kartliyə və Tiflisə 11 min nəfər erməni köçürdü. 1811-ci ildə rus qoşunları Axalkalakini (Axalkələyi) işğal etdikdən sonra orada yaşayan iki min erməni Tiflisə köçürüldü. 1818-ci ildə Gürcüstana 500 alman koloniyaçıları köçürüldü. Onları təmannasız olaraq ən yaxşı torpaqlarda məskunlaşdırdılar, onlara hərtərəfli maddi yardım göstərdilər".*[211]

1829-cu ildə bağlanmış Ədirnə sülh müqaviləsinə görə, Axalsıx (Axalsixi) paşalığının bir hissəsi Rusiyanın tərkibinə daxil edildi, hərbi əməliyyatların gedişində rus qoşunları tərəfindən tutulan Ərzurum, Qars və Bəyazid paşalıqları Türkiyədə qaldı. Müqaviləyə görə, bu ərazilərin əhalisinə gələcəkdə Rusiyada, yaxud Türkiyədə yaşamağı seçmək hüququ verildi. Bununla əlaqədar olaraq Rusiyaya qatılmış Axalsıx paşalığının müsəlman əhalisinin bir hissəsi Türkiyəyə köçüb getdi, yuxarıda adı çəkilən paşalıqların xristian əhalisi: ermənilər, aysorlar, yunanlar, yezidi kürdlər isə İrəvan regionuna, Tiflis quberniyasına və Azərbaycan ərazilərinə köçürüldülər. İrandan da minlərlə erməni ailəsi Tiflis quberniyasında yerləşdirildi.

---

[210] Шопен И. *Исторический памятник состояния Армянской области в эпоху ее присодинения к Российской империи,* СПб., 1852, с. 526

[211] *Демографическая и социальная экспаниция* www.e.reading.club / capler. php // 468221 / Bahtadre _ Vachnadre _ Gurili _ Istoriya. (Gruziya s drevnih vremen _ do _ nashih _ dney ) [ İstifadə tarixi: 21.09.2018]

Gürcü tədqiqatçısı V.Çaoşvili hələ XIX əsrə qədər də orta əsrlərdə ermənilərin qonşu ölkələrdən Gürcüstana miqrasiyasını və əsasən, gürcüləşməsini (gürcü dilini ana dili kimi qəbul etməsini) göstərmişdir. Hazırda bu cür ermənilər Kartlinin və Kaxetin (Saqarecoda) kənd və şəhərlərində, Tbilisidə çoxdur. Onlar olduqca təhlükəlidirlər: bir neçə nəsil dəyişilməsinə baxmayaraq, xəyanətkar, məkrli, hiyləgər erməni xislətini yenə də saxlayırlar.

1828-1829-cu illərdə Türkiyə ilə müharibədə qalib gəldikdən sonra Samtsxe-Cavaxetini Rusiya imperiyası öz tərkibinə daxil etdi. Orada yaşayan müsəlmanlar Türkiyəyə mühacirət etdi. Çünki onlar rus məmurlarının zorakılığına məruz qalırdılar. Rusiya hakimiyyət orqanları Qərbi Gürcüstandan Samtsxe-Cavaxetiyə gürcülərin köçrülməsinə icazə vermədilər. Əksinə Türkiyədən oraya 30 min nəfər erməni köçürdülər. Ermənilərin Gürcüstana köçürülməsi XX əsrin əvvəllərindək davam etmişdir. 1829-1831-ci illərdə Zemo Kartlidə 14 min nəfər yunan və erməni ailəsi yerləşdirildi. Onlarla yanaşı Gürcüstanda rus hərbiçilərinin yaşayış məskənləri yarandı. Rusiyadan sürgün olunmuş rus sektantları-malakan və duxoborların bir hissəsi də Gürcüstanda yerləşdirildi. Bununla da Rusiya gürcülərin milli hərəkatlarına qarşı mübarizədə ermənilərdən və digər etnik qruplardan istifadə edirdi. Lakin gürcülərin təbii tolerantlığı sayəsində regionda münaqişələr və toqquşmalar baş vermədi. 1886-cı ilin fevralın 24-də Rusiya Nazirlər Şurasının qərarı ilə Cənubi Qafqazda keçirilən siyahıyaalma zamanı Tiflisdə əhalinin milli şəraiti, əqidəsi, ictimai mövqeyi haqqında məlumat verilmişdir. Bu siyahıyaalmanın keçrilməsinə Qafqazın mülki hissəsinin baş rəisi, general-adyudant, knyaz A.M.Dondukov-Korsakov rəhbərlik etmiş, prosesdə vilayət qubernatorları və rəisləri də fəal iştirak etmişdirlər.

Cənubi Qafqazın gəlmə ünsürlərindən olan ermənilər Gürcüstana XIX əsrdə köçmələrinə baxmayaraq, gürcülərin tarixlərinə, kilsələrinə, mədəniyyətlərinə, ərazilərinə şərik çıxırlar. Görkəmli gürcü ziyalısı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində yaşayıb-yaratmış, "millət atası" hesab olunan knyaz İlya Çavçavadze 1902-ci ildə Tiflisdə nəşr etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" əsərində hələ XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa, Qafqazda "ayaq tutub yeridiyin"dən, onların əsassız "Böyük Ermənistan" iddialarından bəhs edir:

*"İş ondadır ki, onlar (ermənilər) sözlə, qələmlə bütün dünyaya bəyan edib, and içirlər ki, guya əsrlər boyu Qafqaz sıra dağlarından Fərat və Dəclə çaylarının mənsəbinədək Ermənistan adlanan ölkə olmuşdur. Onlar həmin yerləri Samxetiya, daha doğrusu somex-haykanların (ermənilərin) ölkəsi adlandırlar".*[212]

İ.Çavçavadze yazırdı ki, ermənilər gürcülərə yuxardan baxır, onları rusvay edir, bu xalqı milli ləyaqətdən məhrum etməyə, bir millət kimi Yer üzündən silməyə çalışırdılar. Ermənilər *"bizim bütün tariximizi, salnamələrimizi, tarixi abidələrimizi, qanla qazandığımız hər şeyi, xristianlıq qarşısında xidmətlərimizi, bizə məxsus olan hər nə varsa hamısını, bizim tarixi sərvətlərimizi məhv edir, müxtəlif yalan yollarla öz adlarına çıxırlar".*[213]

Ermənilər saxta tarix "yaradaraq" guya qədim dövrlərdən Cənubi Qafqazda yalnız erməni millətinin mövcud olduğunu, burada gələcəyin yalnız onlara məxsus olduğunu bütün dünyaya "sübut etməyə" cəhd edirlər. Onlar özlərinin fiziki və mənəvi güclərini guya saxta tarixlə "təsdiq etmişlər". İ.Çavçavadze gür-

---

[212] Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, с.3

[213] Yenə orada, с.3

cülərin mənəvi və fiziki mövcudluğunu inkar edən, özündən razı ermənilərə qarşı çıxaraq yazırdı:

*"Bu erməni qrupunun maskalarını yırtmaq vaxtıdır. O ermənilərin ki, istisnasız olaraq biz gürcülər haqqında saysız-hesabsız dedi-qodular, yalanlar yayırlar".* [214]

Ermənipərəst rus yazıçısı "Baron Brambeys" təxəllüslü Senkovski hələ 1838-cu ildə yazırdı:

*"VI Vaxtanqa qədər gürcülərin salnamələri yox idi, hətta gürcülərin özləri XII əsrədək mövcud olmamışlar. İverlər adı altında müxtəlif dağlıq tayfaları məlum idi Kür çayının arxasında indi Tiflisin yerləşdiyi ərazilər və Gürcüstanın böyük hissəsi əsrlər boyu ermənilərə məxsus idi. Burada ermənilər, midiyalılar, massagetlər və ya türklər, albanlar məskunlaşmşdılar"* .[215]

İ.Çavçavadze Senkovskinin Tiflis də daxil olmaqla Gürcüstanın böyük bir hissəsinin ermənilərə məxsus olduğu fikrini altüst edir. Senkovskinin bu mülahizələrinin "erməni alimlərindən" gəldiyini, onların Gürcüstanın ancaq pis tərəflərini gördüklərini, gürcülərdən daha çox şey qoparıb mənimsədiklərini sübut edir. Gürcü müəllifi erməni yazıçıları Eminov, Xuabaşov və Yeritsovun yuxarı Kartalinyaya daxil olan Çorox, Samsxe-Slatabaqonu heç vaxt mövcud olmayan xəyali "Böyük Ermənistan"a daxil etdiklərini bildirir. Lakin İ.Çavçavadze həmin bölgələrdə gürcü toponimlərinin mövcudluğunu, *"bu yerlərdə gürcülərin yaşadıqlarını VII-VIII əsrlərdən XIV əsrlərədək məbədlər, monostrlar tiktiklərini, indi də onların mövcud olduğunu"* göstərir. Ermənilər o vaxtdan indiyədək gürcülərin məbədlərini, monastrlarını, kil-

[214] Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, с.7
[215] Yenə orada, s.151-178

sələrini mənimsəyirlər. XIX əsrdə İran və Türkiyədən Cənubi Qafqazın aborigen əhalisinin-azərbaycanlıların və gürcülərin əsrlər boyu məskunlaşdıqları Azərbaycana və Gürcüstana köçürülən ermənilər çox keçmədən yerləşdikləri ərazilərə əsassız iddialar irəli sürdülər. İ.K.Kanadsev yazır:

*"Məlum olduğu kimi, ermənilər Türkiyə və İran ərazilərindən müxtəlif vaxtlarda (Gürcüstana) köçürülmüşlər... Gürcülər xristianlara xas olan xeyirxahlıq və ürəklə onları qəbul edib öz torpaqlarımızda məskunlaşdırmışlardır".*[216]

Ermənilər sələmçiliklə, aldatma və fırıldaqçılıqla onlara yurd-yuva vermiş gürcülərə vicdansızlıqla kələk gəlməklə çoxlu var-dövlət sahibi oldular. Buna görə təsadüfi deyildir ki, Vaxtanqın qanunlarında belə ifadələrə rast gəlmək olur:

*"Lakin yunanlar və alçaq ermənilər arasında tənələr də əsaslıdır".*[217]

Var-dövlət, kapital əldə edən ermənilər Tiflisdə binaları ələ keçirməyə başladılar. Sənədlərin birində yazılır:

*"Beləliklə, ermənilərin əllərinə çoxlu binalar keçdi. Hələ Zadəgan küçəsi və Qolovinski prospektindəki binaların, ümumiyyətlə, Tiflisdəki ən yaxşı küçələrdəki evlərin hamısı gürcülərə məxsus olduğu halda, indi onlar ermənilərin mülklərinə çevrilirdi."*[218]

Ermənilərin məqsədlərinə çatmaq üçün istifadə etdikləri əsas vasitələr saxtakarlıq, yalan və aldatmadır. Onlar Gürcüstandakı abidələrdən, məbədlərdən kilsələrdən gürcü izlərini, gürcü

---

[216] Канадцев И.К. Очерки Закавказской жизни. Отдельные главы. Баку: Главная редакция Азербайджанской Советской Энциклопедии. 1990, с.72
[217] Сборник законов грузинского царя Вахтанга. Тифлись: Изд. Франкелья, 1876, с.308
[218] Канадцев И.К. Очерки Закавказской жизни. Отдельные главы. Баку: Главная редакция Азербайджанской Советской Энциклопедии. 1990, с.67

yazılarını silərək "erməniləşdirmişlər".Digər bir üsul gürcülərdən bəhs edən qədim salnamələrin məhv edilməsidir. Onlar "Kartlis-Sxobreba" kimi gürcü tarixi mənbəyini məhv etmək istəmişlər, onu "erməni xronikası" kimi təqdim etmişlər.

Erməni "alimləri" və ermənipərəst Qərb və rus "professorları" Strabonun hələ qədimdən gürcülərin Cənubi Qafqazda məskunlaşmalarından bəhs edən əsərləri, Pəhləvi sanskrit dilində yazılmış "Vus-Raxiani" kimi qədim salnamələri, XI-XII əsrlərdə Qurucu David və Tamaranın hakimiyyəti illərində Gürcüstanın çiçəkləndiyini "görmürlər". İ.Çavçavadze qeyd edir ki, təəssüf ki, professor Patkanov kimi ermənipərəst "tədqiqatçılar" "Vepsis-Tkaosani" ilə tanış olmadıqlarını bəyan etməklə birtərəfli qaydada gürcü tarixinin qədimliyini şübhə altına almağa cəhd edirlər. İ.Çavçavadze bununla bağlı olaraq yazır:

*"Halbuki Jan Sen-Marten, Vibien-de-Sen Marten, Dübua de Monpere kimi məşhur, görkəmli alimlər aydın bir şəkildə bildirirlər ki, gürcü tarixi salnamələri yalnız Qafqazın deyil, Asiyanın tarixi üçün də mənbə kimi diqqəti cəlb edir".*[219]

Gürcülərin bu yerlərin qədim sakinləri olduqları barədə tanınmış alimlərin fikirlərini saxta erməni "tədqiqatçı"ları inkar edirlər. İ.Çavçavadze ermənilərin Avropa qəzetlərinə Gürcüstanda nə varsa hər şeyin, hətta Gürcüstanın qədim şəhəri Tiflisin də erməni şəhəri olduğu haqqında yalan məlumatıarı ötürdüklərini göstərir. Gürcü yazıçısı yazır ki, hələ 1877-ci ildə fransız "Temps" qəzetinin Gürcüstana ezam olunmuş Kutuli adlı müxbiri ilə Vladiqafqazda görüşən Şuşalı artilleriya zabiti olan bir erməni onu Tiflisə gətirir. Çox ehtimal ki, yolda onun müx-

[219] Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, с.21

birə nələri, hansı yalanları danışdıqları heç kəsə məlum deyildir. Zabit onu “Mşak” qəzetinin mərhum redaktoru Artsurinin yanına gətirir. Kutuli onu “liberal partiyalardan birinin başçılarından biri, erməni müqəddəs yazılarını patriarxın özündən yaxşı bilən bir şəxs kimi” səciyyələndirirdi. Artsurini Kutulini Tiflis şəhər dumasına aparır, ona “kiçik parlament üzvlərini” “nazir” kimi təqdim edir, bütün erməni kilsələrini gəzdirir, sonra isə bu xarici qonağı erməni məktəblərilə tanış edir. Artsuruni onu erməni ziyalı dairəsinə də, məbəd mərasiminə də aparır. Fransız qonaq heyran qalır: burada hər şey ermənilərindir: “parlament” ermənінindir, kilsələr, bayramlar, filosoflar, yeməklər ermənininindir, bir sözlə, Tiflisdə hər şey ermənininindir. Aydındır ki, bura Ermənistandır, Tiflis də Ermənistan şəhəridir. Beləliklə, ermənilər Avropa müxbirini inandırırdılar ki, Tiflis də daxil olmaqla Gürcüstan- Ermənistandır. Bu xəbər bütün dünyada “Temps” kimi nüfuzlu bir qəzet vasitəsilə yayıldı.[220]

Kutuli “Cənubi Qafqazda dörd millətin-ermənilərin, gürcülərin, tatarların (azərbaycanlıların-V.Ö.) və rusların yaşadıqlarını göstərirdi. Onu inanmağa məcbur edirdilər ki, Tiflis-Ermənistandır, lakin təkcə Tiflis deyil, guya bütün Zaqafqaziya (Cənubi Qafqaz-V.Ö.) ermənilərə məxsusdur; onlar bu arzularını həyata keçirməyə çalışırdılar. Kutulinin erməni dostları onu Zaqafqaziyada - bütün Cənubi Qafqazda erməni millətinin üstünlüyündən yazmağı və bunu bütün Avropaya yaymağa məcbur edirdilər. Guya ticarət də, bütün sənətlər də, ictimai həyatın bütün sahələri də ermənilərin əllərindədir. Onlar həkim, vəkil, azad peşə sahibidirlər. Onların Tiflisdə öz məktəbləri, jurnalları, kiçik par-

[220] Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, с.43-44

lamentləri vardır. Hazırda (XIX əsr-XX əsrin əvvəlində-V.Ö.) onlardan çoxu hərbi xidməti yerinə yetirirlər.

*"Mədətov, Bebutov, Arqutinski, Loris-Məlikov, Lazerev, Alxazov, Ter-Qukasov - bu generallar guya rus ordusunu erməni millətinin nümayəndələri kimi təmsil və təmin edirdilər."* [221]

Elm və incəsənət sahəsində "ad qazanmış" "məşhur ermənilər" əslində heç kəs tərəfindən tanınmırdılar. Şişirdilmiş, saxta məlumatlardan ruhlanan Kutuli belə bir peyğəmbərlik iddiasına düşür:

*"Qafqazın gələcəyi ermənilərə məxsusdur, qonşu gürcülər və tatarlara (azərbaycanlılara) isə erməniləşməkdən başqa bir şey qalmır".*[222]

İ.Çavçavadze yazır ki, biz əminik ki, ağlı başında olan heç bir erməni belə düşünə bilməz. O, daha sonra qeyd edir:

*"Tutaq ki, Kutulinin peyğəmbərliyi özünü doğrultdu: gürcülər və tatarlar erməniləşdi, ermənilərin qullarına çevrildilər. Axı bu, 30 milyonluq erməni dövləti təşkil etmək üçün bir damla olacaq! Artsurini bu qədər təbəəni haradan yığmağı vəd etmişdi? Bu sualın cavabını mərhum "filosof" yəqin ki, özü ilə qəbirə apardı".*[223]

Beləliklə, ermənilərin saxta məlumatları əsasında hələ XIX əsrdə Avropada belə təsəvvür yaranmışdı ki, Gürcüstanda, Tiflisdə xalqın fəxr edə, qürurlana biləcəyi heç nə yoxdur. Onlara erməni generalı Kişmişov da qoşulmuşdu. Hətta ölümün-dən sonra onun nəşr olunmuş əsəri "Gürcüstan çarlığının son günləri" adlanırdı. Halbuki İ.Çavçavadzenin tarixi mənbələrə əsasla-

---

[221] Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, с.46

[222] Temps, 1877, Paris, 30 jule

[223] Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, с.48

naraq qeyd etdiyi kimi Gürcüstanda İraklinin çarlığı zamanı parçalanmış Kartalaniya, Kaxeti, İmereti də birləşmək ərəfəsində idi. Hətta ermənilərin nisbətən daha çox cəmləşdiyi İrəvan bölgəsi (Azərbaycan ərazisi-Ö.V.) də ona vergi ödəyirdi. Doğrudur Ağa Məhəmməd şah Qacar Gürcüstan üzərində qələbə çaldıqdan sonra İraklinin hakimiyyəti bir qədər zəifləmişdi.

Digər erməni müəllifi Q.A.Yezovun "Böyük Pyotrun erməni xalqı ilə əlaqələri" adlı əsərində də Gürcüstan və gürcü xalqı təhqir edilirdi. O, Gürcüstanı İranın xanlıqlarından birinin tərkib hissəsi hesab edirdi. Onun zəhərli, acı, saxta fikirlərlə dolu əsərində guya ermənilərin gürcüləri məhv olmaqdan qoruyan "xilaskar" olduqları göstərilirdi. Bu əsərdə gürcülərə qarşı kobud, hiyləgər, qeyri-elmi yanaşmalar baş alıb gedirdi.

Halbuki, məşhur Avropa səyyahları Şarden, eləcə də Bodenştedt öz əsərlərində Azərbaycan türklərini və gürcüləri ermənilərə nisbətən daha ləyaqətli, hörmətli, qonaqpərvər, igid və qorxmaz, öz azadlıqları və müstəqillikləri uğrunda fədakar mübarizlər kimi səciyyələndirmişlər. Bodenşdetd yazır ki:

*"Gürcülərin hamısı bu ölkədə mənəviyyatlı, saf, Qafqazın digər xalqları kimi qonaqpərvər, qılıncları kimi etibarlı, insanları müharibələrdə əsil cəngavərlər idilər...."*[224]

Tiflis quberniyasında aparılan siyahıyaalmada Tiflis şəhərində 78445 nəfərin yaşadığı məlum olmuşdur. [225]Həmin mənbədə quberniya şəhəri Tiflisdə 43822 nəfər kişi, 34623 nəfər qadın yaşayırdı. Sənəddə 1876-cı il və 1886-cı il siyahıyaalmalarının məlumatları verilmişdir.

---

[224] Боденщтедт А. Кавказские народы. Мунхен,1847, с.203

[225] *Своdь статических данных о население Закавказского края.* Тифлиская губерния. Тифлись, 1893, Т.VII, с.8

Sovet ədəbiyyatında Türkiyənin bütün xristian əhalisi kimi ermənilərin də guya, türklər tərəfindən daim təqibə məruz qaldığı göstərilmişdir. Belə məlum olur ki, erməniləri xristian Rusiyası himayə edərək türklərdən xilas etmişdir. Lakin bu köçürmələrin obyektiv səbəbləri açılmamışdır.

Rusiya ermənilərə onların yaşadıqları əraziləri Osmanlıdan xilas edəcəyini və Rusiyanın himayəsi altında müstəqillik əldə edəcəklərini vəd etdi. Ermənilər Rusiyanın himayəsinə razılaşdılar və Rusiyanın onlara verdiyi məsləhəti yerinə yetirdilər.

Ermənilər Qafqaza, Şərqi Ərəbistana, Yunanıstana və başqa ölkələrə getmiş, təqribən 350 min nəfər erməni Rusiya imperiyasına köçmüş və buradan da nəzərə çarpacaq hissəsi Gürcüstanda qalmışdılar.[226]

Rusların köməkliyi ilə ermənilər Gürcüstanın bir çox bölgələrində – Axalkalaki (Axalkələk), Axalsıx, Tiflis, Qori və Kutaisidə, azərbaycanlılar yaşayan Borçalıda (Alaverdi, Şulaver, Sadaxlıda) yerləşdirildilər.

Ermənilər Gürcüstanda Azərbaycanda olduğu kimi Ermənistanı "bərpa etmək" istəyirdilər. Bu məqsədlə erməni tacirləri Tiflisdə yaşayış üçün böyük ərazilər alırdılar, Tiflis ətrafında isə hiyləgərliklərlə boş yerləri özəlləşdirib orada erməni qaçqınlarını yerləşdirirdilər. 1880-ci ildə Verada 20-yə yaxın gürcü ailəsinin yerləşdirildiyi erməni qəbirstanlığının yanında erməni Aramyans bir saxta sahibkardan gizlincə bu torpağı alandan sonra bütün gürcüləri oradan qovdu.[227]

Verada 300-ə qədər gürcü ailəsinin yaşadığı Barataşvilinin torpaqlarını gizlincə bir erməni aldı, sonra ikinci erməniyə sat-

---

[225] Чичинадзе З. Армяне в Грузии (Армянское духовенство и мечта дашнаков). Родина, 1916, 15 апреля
[227] Yenə orada

dı, ikinci üçüncüyə satdı və nəhayət, bu yeri Aramyans aldı və 300 gürcü ailəsini oradan qovdu. Kuki ilə Didube arasında yerləşən yer erməni Nadirov və Doluxanova məxsus idi. Bu yerlərdə 500 nəfər gürcü sənətkarı yaşayırdı. Nadirov və Doluxanov həmişə onlarla mübahisə edərdi və gürcülər öz yerlərindən getmək məcburiyyətində qaldılar.

Tarixi mənbələrə görə, İrandan Gürcüstana II İraklinin çar sarayına gəlmiş, İraklinin yanında çox şöhrət qazanmış Amatun adlı erməni çardan torpaq mülkü almağı bacarır, onları öz şəxsi mülkiyyətinə çevirir və hətta knyaz titulu da alır. Bu ermənininin sülaləsi (Nadirovlar, Doluxanovlar) tezliklə duz-çörəyi, xeyirxahlığı və II İraklinin köməyini unutdular. Gürcülərin qanı axan torpaqlarında onlar elə gürcülərlə gürcü olduqlarına görə düşmənçilik edirdilər.[228]

1915-ci ildə Osmanlıdan Gürcüstana köçən ermənilərin sayı 60-100 min nəfərə çatdı. Tiflisdə İrandan qaçan 3000 aysor da var idi.[229]

Təbiidir ki, gürcü mətbuatı qaçqınların vəziyyətini ədalətli və obyektiv işıqlandırmış və onların çox sayda köçürülməsinin gürcü maraqları üçün zərərli olduğunu hesab etmişdi. Erməni burjuaziya qəzeti "Qafqazın sözü" ("Kavkazskoe slovo"), "Qaçqınların məsələsi genişlənir və çoxlarını narahat edir" adlı öz redaksiya məktubunda "xeyirxah" ermənilərin Gürcüstandakı əsil siyasi məqsədlərini etiraf etdi. Qəzetdə yazılmışdı:

*"Deyirlər ki, İrandan və Osmanlıdan qaçanlar xaricilərdir. Bu belədir, yoxsa belə deyil? Formal olaraq, bəli, amma əslində, yox. Rusiya öz təsirini Orta Asiyaya yaymaq üçün hələ ki, gürcülə-*

---

[228] Yenə orada
[229] Скала, 1915, № 4, с.15

*rə güvənir, sonra isə ermənilərə. Ona görə də onlara xaricilərə baxan kimi baxmaq olmaz. Onların hamısı bizim müttəfiqlərimizdir İrandan və Osmanlıdan qaçan ermənilərə rus dövləti vəzifələr tapşırmışdır. Bu vəzifələr mütləq yerinə yetirilməlidir".*[230]

Gürcü jurnalı "Qaya" ("Skala" redaktoru S.Qabaşvili) "Qafqazın sözü" jurnalı ilə mübahisə edərək və yazırdı ki, İrandan qaçan ermənilərin hamısı dilənçidirlər, imkanlılar isə heç inkişaf etməmişlər. "Qaçqınların məsələsi" süni şəkildə yaranmışdır. "Qaya" qəzeti etibarlı mənbələrə istinad edərək yazırdı ki, İrandan və Osmanlıdan imkanlı ermənilər gəlməyiblər, oradan ancaq kasıb və dilənçilər "qaçmışdırlar..." İnsan nə qədər çox varlıdırsa, o qədər də tez qaçır, ona görə ki daha çox qorxur. Osmanlıda və İranda bu qayda əksinə işləyirdi, ona görə ki, qaçanları qorxu hissi deyil, ikiqat siyasət hissi bürümüşdü. Birincisi, İranda və Osmanlıda varlı ermənilər özləri kasıbları ələ salır, hökumətlə birgə güclə və təbliğatla onları sərhədin o tayına qovurlar və onlara torpaq vəd verirlər. Bununla da onları məhv etməklə hədələyən, narahat edən elementlərdən özlərini xilas edirdilər. İkincisi, Gürcüstanda yaşayan ermənilər doğrudan da qaçqınları xilas edirdi və onlara kömək etmək üçün Rusiya və İngiltərə cəmiyyətlərini narahat edirdilər. Bu qaçqın kasıblar İranda və Osmanlıda heyvanlarla bir yerdə yaşayırdılar, onların hətta çörəkləri belə yox idi. Onlar çay və şəkərin nə olduğunu heç təsəvvür etmirdilər. Balıqdan belə imtina edirdilər. Bu kasıblara paltar, ağ çörək, ərzaq, şəxsiyyət sənədi paylayırdılar, onlar üçün yeməkxana təşkil edilirdi. Onları işlə təmin edərək heyvanlar, kənd təsərrüfatı əmlakları və hətta torpaqla təmin edildilər.[231]

---

[230] Народы Кавказа, Т. II. М., 1982, с.456
[231] Скала, 1915, № 5, с.3-5

Qaçqınlar Gürcüstana ağır xəstəliklər və epidemiya gətirmişdirlər. Jurnalın sonunda yazılırdı ki, Qafqazda ermənilərin yeni dalğasını yerləşdirmək üçün azad yer yoxdur.[232] Jurnalda qeyd olunurdu ki, "məhsuldarlığın aşağı olması və eşidilməmiş müharibəyə görə bugün bizim həyatımız çətin vəziyyətdədir, qida əldə etmək və başqa şəhərlərdən ərzaq gətirmək də çox çətindir – belə bir şəraitdə bizim ərazilərdə yerli əhali də çətin yaşayır, hələ indi qaçqınlar da əlavə olunub, bizim vəziyyətimiz dözülməz olacaq. Bizim şəxsi ehtiyaclarımız və tələblərimiz bu gün daha çoxdur, hələ üstəlik başqalarının da ehtiyaclarını öz üzərimizə götürürük. Hələ daha ciddi və əhəmiyyətli ikinci bir vəziyyət də var. Bu gün ətraf mahallar millətlə dölulur. XIX əsrdə biz Axalkalaki mahalını tamamilə itirdik, çox sayda qaçqın Borçalı və Axalsıx mahallarında da məskunlaşdı. Əgər indi qaçqınlar Gürcüstan ərazisinə köçürülsələr, bu, vəziyyəti daha da mürəkkəbləşdirib çətinləşdirəcəkdir. Bu, bizim millətimiz üçün böyük təhlükə olacaq və biz bütün gücümüzlə onsuz da torpaqlarımızın zəbt edilməsinə qarşı müqavimət göstərə bilmərik. Öz vətənlərindən qaçan evsiz qalan erməni, aysor və başqaları tamamilə əmin ola bilər ki, biz onların fəlakətli vəziyyətini başa düşür, ürəyimiz və canımızla onların bu faciələrini anlayırıq və vəziyyət nə qədər imkan versə o qədər kömək edərik. Amma onlar qoy özləri də indiki ümumi şəraiti və gürcü xalqının vəziyyətini nəzərə alsınlar və qoy heç kim bizim millətin bu gününə və gələcəyinə mane olan olan bir şeyi istəməsin".[233]

"Qaya" jurnalı növbəti nömrəsində dərc etdiyi maraqlı məqaləsində bildirirdi ki, *"...Başqa yerlərdə məskunlaşmaq, özgələr arasında şəxsi ev əldə etmək, başqa milli birliyi dağıtmaq erməni*

---

[232] Yenə orada

[233] Скала, 1915, № 4, с.15

*xalqının tarixi xarakteri və qaçılmaz meyili olmuşdur"*[234]*. "Sonralar isə ermənilərin milli özünütəsdiq instinkti onların ağıl və ürəklərini ələ aldı, artıq şüurlu olaraq yeni vətən yaratmağa başladılar... Gürcüstanda, ümumi ərazidə, bir tərəfdən dağılmış, parçalanmış, dövlətsiz milləti olan Ermənistan; digər tərəfdən isə güclü dövləti olan Ruisya görüşdülər.*[235]

"Qaya" amansızcasına *Gürcüstan*da yaşayan erməni-şovinistlərin, varlı tacirlərin məqsədyönlü fəaliyyətini ortaya çıxarırdı. Jurnal da dərc olunan "Ermənilər" məqaləsində qeyd edilirdi ki:

*"Necə fikirləşirsiniz? Ermənilər Gürcüstanda hansı missiyanı yerinə yetirirlər? Onlar bizim ərazilərin bir hissəsini alıb və orada "ermənilliyin" əsasını yaratmışlar, onlar bizim şəhərləri iqtisadi baxımdan zəbt edərək orada "ermənilik!" bayrağı qaldırmışlar və bunu onlar elə şəxsi intibah düşüncələri ilə məşğul olan insanların yanında yaradırdılar! Bundan sonra hansı "xeyirxah" qonşuluqdan danışmaq olar?"*[236]

Erməni burjuaziyası Rusiya hökumətinin əlində həmişə kor silah rolunu oynayırdı. Əvəzində onlara həmişə hər yerdə öz şovinizmlərini inkişaf etdirməyə icazə verirdilər, çünki erməni şovinizmi Rusiya hakimiyyəti üçün elə də qorxulu deyildi. Hakimiyyət yaxşı bilirdi ki, ermənilər Qafqazda təhlükəli ola biləcək vəziyyətə gəlib çıxa bilməzlər. Ermənilər bu rolu yaxşı anlayırdılar və hər yerdə onların hərəkətləri elə təcavüzkar xarakter alırdı ki, bundan gürcülər qorxuya və həyəcana düşürdülər.

XX əsrin əvvələrində Gürcüstanda yaşayan ermənilərin gürcülərə qarşı ideologiyası və təcrübəsi daha da gücləndi. Er-

---

[234] Yenə orada, 1915, № 6, c.3
[235] Yenə orada, c.4
[236] Скала, 1915, № 4, c.15

məni şovinistləri gürcü mədəniyyyətinin, təhsilinin əleyhinə mübarizə aparırdılar, gürcü tarixini saxtalaşdırırdılar, öz rus həmkarları ilə birlikdə gürcü dilini təhqir və təhrif etməyə çalışırdılar. “Qaya” jurnalı 1912-ci ildəki altıncı sayında Acarıstanda xalqın təhsil-təlim vəziyyəti haqqında yazı dərc etdi. Ter-Qasparyans adlı bir erməni gürcü məktəblərində gürcü müəllimlərini azad edir və onların əvəzinə Qarabağ və İrəvan ermənilərini dəvət edirdi. Gürcülərlə danışanda o, həmişə söhbətə bu sual ilə başlayırdı: “Hansı millətdənsən?” Ter-Qasparyansın özbaşnalığı o qədər həddini aşdı idi ki, Qafqaz təhsil dairəsi qəyyumunun əmri ilə onu işdən azad etdilər. “Qaya” jurnalı sonda yazırdı:

*“Gürcü xalqının təhsilində erməniləşmə - ancaq bu hiyləgər “vətənpərvərlər”in günahı idi və biz dərindən əminik ki, “erməniləşmə” rus hakimiyyətinin vasitəsi kimi Qafqaz təhsil dairəsinin idarəsində mövcud deyildir”.*[237]

Qoridə ermənilər Akakiya Seretelinin Şota Rustavelinin “Pələng dərisi geymiş pəhləvan” mövzusuna aid mühazirəsini pis vəziyyətə salmağa çalışırdılar. Onlar açıq və ya gizli şəkildə gürcü dilinə qarşı mübarizə aparırdılar. Tiflisdə çıxan erməni mətbuatı açıq-aydın gürcülər əleyhinə təbliğat aparırdı. Gürcüstanda erməni şovinistləri Qafqaz qubernatoru Voronsov-Daşkovun dəstəyi ilə “öz milli işini təşkil edirdilər.” 1913-cü il oktyabrın 13-də Tiflisdə onlar erməni əlifbasının yaradıcısı Mesrop Maştotsun 1500 illik yubileyini təntənəli şəkildə qeyd etdilər. Vank kilsəsində kilsə xidmətinə erməni yepiskopu başçılıq edirdi. Kilsənin hasarları içində bütün Tiflis erməni-qriqoryan ruhaniləri katalikosa səylə dua edirdilər. Eyni gündə Nerses adına seminariya da açıldı. Yepiskop toplantını açdı və rus imperatoru

---

[237] Скала, 1912, № 6, с.7

II Nikolaya xeyir-dua dilədi. İştirakçılar ayağa qalxdılar və üç dəfə "erməni seminariyasının şagirdlərinin xorla ifa etdiyi "Allah, çarı qoru" duasını dinlədilər. Sonra yepiskop bütün Ermənistanın katalikosu V Qeorka, çarın Qafqaz qubernatoru Voronsov-Daşkova həyat yoldaşı ilə, qubernatorun köməkçisi Şatilova və başqalarına xeyir-dualar etdi.[238]

Qafqazda ermənipərəst siyasətin həyata keçirilməsində və tətbiqində çarın Qafqaz qubernatoru Voronsov-Daşkov öz həyat yoldaşı qrafinya Voronsova-Daşkova ilə birlikdə böyük rol oynamışdır.

Ermənilərlə gürcülər arasında Politexnik İnstitutunun tikintisi üçün yer seçimi məsələsi böyük mübahisəyə səbəb olmuşdu. Bu mübahisə iki il davam etmiş, gürcü cəmiyyəti onun Saburtaloda, şəhər idarəsi və ermənilər isə Navtluqidə tikilməsini istəyirdilər. Öz təkliflərini həyata keçirmək üçün ermənilər heç nəyə baxmırdılar. Qeorqi Tumanov yazırdı:

*"Navtluqi, şəhərin köhnə hissəsidir və şəhər rəhbərliyinin və yerli əhalinin bu seçim xoşuna gəlir. Saburtalo – şəhərin yeni hissəsidir (o hətta şəhərə daxil edilməyibdir) və bu seçim yeni məskunlaşanların xoşuna gəlir. Navtluqinin əhalisinin çoxu ermənilərdir, Saburtaloda isə gürcülər çöxluq təşkil edirlər".*[239]

Belə çıxır ki, şəhərin yerli əhalisi ermənilərdir. Bu, Gürcüstanın haqlı narazılığına səbəb oldu:

*"Belə isə, bəs gürcülər kimdir, cənab Tumanov? Qonaqdırlar?!"* – deyə gürcülər öz narazılıqlarını bildirdilər.[240]

---

[238] Народная газета, 15 октября, 1913
[239] Имерети, 1913, 8 октября
[240] Yenə orada

1913-cü il noyabrın 26-da qubernator Voronsov-Daşkov Tiflis Politexnik İnstitutunun tikintisi üçün qərarı təsdiqlədi: institutun tikintisi üçün Navtluqinu məqsədəuyğun yer seçdi.[241] Sonralar məlum oldu ki, imzanı atmaq üçün şəhər rəhbəri A.İ.Xatisov qubernatora qızıl başlıqlı qələm hədiyyə edib, sonra şəxsən ondan alıb muzeyə vermişdir.

Beləliklə, gürcülərin qonaqpərvərliyi və mehribanlılığı, minlərlə ermənini və yunanı aclıqdan xilas etdi. Onların tarixi vətənində sosial-siyasi və iqtisadi vəziyyət yoluna düşdüyü zaman, çoxu könüllü olaraq öz doğma vətənlərinə qayıtdılar.

*Gürcüstan əhalisinin say dinamikası 1800 - 1966 illərə görə (müasir sərhədlərdə)*

| **İllər** | **Əhalinin sayı** | **Orta illik faiz artımı dövr ərzində, əvvəlki ildə müqaisədə göstərilənlər (mənfi əhalinin azaldılmasını bildirir)** |
|---|---|---|
| 1800 | 675000 | – |
| 1832 | 840000 | 0,68 |
| 1865 | 1212700 | 1,11 |
| 1873 | 1301300 | 0,88 |
| 1886 | 1641500 | 1,80 |
| 1897 (28 yanvar siyahıyaalması) | 1919423 | 1,51 |
| 1913 | 2600400 | 1,92 |
| 1921 | 2410500 | -0,95 |
| 1926 (17 dekabr siyahıyaalması) | 2677233 | 1,73 |
| 1939 (17 yanvar | | |

[241] Небиеридзе Л., Дидишвили Г. *Начало развития высшего технического образования в Грузии.* Тбилиси, 1997, с.30
[241] Скала 1915, № 5, с.3-5

| | | |
|---|---|---|
| siyahıyaalması) | 3540023 | 2,37 |
| 1959 (15 yanvar siyahıyaalması) | 4044045 | 0,66 |
| 1962 (1 yanvar qiymətləndirilməsi) | 4270700 | 1,81 |
| 1966 (1 yanvar qiymətləndirilməsi) | 4548300 | 1,59 |

Qafqazın Rusiya tərəfindən işğalından sonra baş verən miqrasiya mərhələsini iki dövrə bölmək olar. 1. 1800-1815-ci illər; 2. 1828-1829-cu illərdən sonrakı dövr.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1950 | 1951 | 1952 | 1953 | 1954 | 1955 | 1956 | 1957 |
| 3 528 000 | ↗3 585 000 | ↗3 646 000 | ↗3 710 000 | ↗3 775 000 | ↗3 839 000 | ↗3 904 000 | ↗3 967 000 |
| 1958 | 1959 | 1960 | 1961 | 1962 | 1963 | 1964 | 1965 |
| ↗4 031 000 | ↗4 044 000 | ↗4 129 200 | ↗4 189 900 | ↗4 258 000 | ↗4 325 000 | ↗4 389 000 | ↗4 450 000 |
| 1966 | 1967 | 1968 | 1969 | 1970 | 1971 | 1972 | 1973 |
| ↗4 504 900 | ↗4 556 000 | ↗4 598 000 | ↗4 640 000 | ↗4 674 400 | ↗4 728 600 | ↗4 778 000 | ↗4 818 000 |
| 1974 | 1975 | 1976 | 1977 | 1978 | 1979 | 1980 | 1981 |
| ↗4 856 000 | ↗4 895 400 | ↗4 920 000 | ↗4 960 000 | ↗4 986 000 | ↗4 993 182 | ↗5 029 100 | ↗5 071 000 |
| 1982 | 1983 | 1984 | 1985 | 1986 | 1987 | 1988 | 1989 |
| ↗5 100 000 | ↗5 134 000 | ↗5 167 000 | ↗5 230 000 | ↗5 234 000 | ↗5 266 000 | ↗5 396 700 | ↗5 400 841 |
| 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 |
| ↗5 424 400 | ↗5 453 300 | ↗5 467 400 | ↘5 345 800 | ↘4 929 900 | ↘4 794 200 | ↘4 674 500 | ↘4 558 400 |
| 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
| ↘4 504 900 | ↘4 469 800 | ↘4 435 200 | ↘4 401 400 | ↘4 371 534 | ↘4 342 600 | ↘4 315 200 | ↗4 321 500 |
| 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| ↗4 401 292 | ↘4 394 702 | ↘4 382 070 | ↗4 385 429 | ↗4 436 400 | ↗4 469 200 | ↗4 497 617 | ↘4 483 800 |
| I.2014 | XI.2014 | 2015 | 2016 | 2017 | 2018 | | |

*Əhalinin sayı*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ↗4 490 500 | ↘3 713 804 | ↗3 721 900 | ↗3 728 600 | ↘3 726 400 | ↗3 729 600 | | |




*2016-cı ilə qədər Gürcüstandakı əhalinin sıxlığı*

Gürcüstan əhalisinin 4,33 faizini yəni, 168102 nəfərini ermənilər təşkil edir. 1989-cu il siyahıyaalınmasının nəticəsinə əsasən Gürcüstandakı ermənilərin sayı 437211 nəfər olmuşdur. 2002-ci ilin məlumatlarına görə isə ermənilərin sayı 248925 nəfər olmuşdur ki, bu azalmanın da əsas səbəbi Abxaziyada yaşayan ermənilərin sayının ermənilərin ümumi sayına əlavə edilməməsidir.

Ermənilər əsasən Samtsxe-Cavaxeti bölgəsində və Abxaziyada yaşayırlar. Gürcüstanda yaşayan ermənilərə Cavaxeti erməniləri də deyirlər. Ermənilər əsasən Axalkalaki (Axalkələk) və Ninotsminda rayonlarında yaşayırlar. 2002-ci ilin statistik məlumatlarına əsasən Axalkalaki (Axalkələk) rayonunda 57516 nəfər erməni yaşayırdı. Bu da əhalinin 94,33 faizini təşkil edirdi. Ninotsminda rayonunun erməni əhalisinin sayı 32857 nəfər idi.

Bu ümumi əhalinin 95,78 faizinə bərabər idi. Yuxarıda da qeyd edildiyi kimi, ermənilər bu ərazilərə əsasən Osmanlı-Rusiya müharibəsindən sonra bağlanılmış Ədirnə sülh müqaviləsinin şərtlərinə əsasən köçürülmüşlər. Hal-hazırda Gürcüstanda yaşayan ermənilərin böyük əksəriyyəti Axalkalaki (Axalkələk) rayonuna köçürülən ermənilərin törəmələridir.

Bölgənin digər rayonları olan Axalsıx, Aspindza, Adıgen rayonları Ahıska türklərinin ana vətənləri hesab olunur. 1944-cü ilə qədər ərazidəki əhalinin əksəriyyətini Ahıska türkləri təşkil edirdilər. 1944-cü ildə Ahıska türklərinin deportasiyasından sonra boşalan ərazilərə ermənilər və gürcülər tədricən yerləşdirilmişdirlər. 2002-ci ilin statistik məlumatlarına əsasən Axalsıx rayonunda 16879 nəfər erməni yaşayırdı ki, bu əhalinin 36,59 faizinə bərabərdir. Aspindza rayonunda 2273 (17,47 faiz), Adıgen rayonunda isə 698 (3,36 faiz) nəfər erməni yaşayırdı. Ümumilikdə 2002-ci ilin məlumatına əsasən Samtsxe-Cavaxetidə yaşayan ermənilərin sayı 113347 nəfər idi. Ümumi əhalinin 54,6 faizini ermənilər təşkil edirdi.

Samtsxe-Cavaxeti hər zaman separatizmə meyilli bölgə olmuş, erməni əhalisi gürcü cəmiyyətindən təcrid edilmiş şəraitdə yaşamışdır. Bu bölgədə əsasən erməni və rus dilləri, pul vahidləri istifadə edilir. Əhali özünü Gürcüstan hökümətinə deyil, Ermənistana daha yaxın sayır. Ərazidə erməni cinayətkar qruplaşmalarının mövqeyi Gürcüstan dövlətininin mövqeyindən daha güclüdür. Ermənilərin Gürcüstana qarşı da əsassız iddiaları vardır. İlkin mərhələdə onlar ərazi-inzibati bölgü baxımından Kvemo-Kartli regionuna daxil olan Zalqa bələdiyyəsinin (əhalisinin təxminən yarısı ermənilərdir) Cavaxetiyə birləşdirilməsini tələb edirlər. Növbəti addımlar kimi, Samtsxe-Cavaxetiyə muxtariyyət

verilməsi, erməni dilinə rəsmi dil, erməni qriqoriyan kilsəsinə isə statusun verilməsi ilə bağlı iddialar səsləndirirlər.[242] Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətrafındakı 7 rayonu işğal etməsi ermənilərin muxtariyyət tələblərinin müəyyən qədər arxa plana keçməsinə səbəb olmuşdur. Bu isə "aysberqin" sadəcə görünən tərəfidir. Onların əsas məqsədləri Cavaxetini Ermənistana birləşdirilməkdir. Erməni ideoloqları guya Cavaxetinin erməni torpaqları olduğunu iddia edirlər. Onlar bu iddialarla hələ XX əsrin əvvəllərindən çıxış etməyə başlamışdılar. Gürcüstanın Azadlıq Partiyasının lideri Rezo Şavişvili məsələ ilə bağlı verdiyi bəyanatda *"Ermənilər Dağlıq Qarabağ məsələsini gündəmə gətirməsəydilər, Gürcüstandakı erməni bölgəsinin Ermənistana birləşdirilməsini tələb edəcəklərdi"* demişdi.[243]

Samtsxe-Cavaxetidəki erməni separatçıları, xüsusən də "Daşnaksütyun" yönlü "VİRK", "Arşaluys", "Parvana", "Cavaxk", "Vahid Cavaxk Ayansı" adlı təşkilatlar Cavaxetini "Böyük Ermənistan"ın tərkib hissəsi kimi qələmə verərək, dünya ictimaiyyətini çaşdırmağa çalışırlar. Bölgədə daşnakların dəstəyi ilə yaradılan separatçı "Cavaxkın Milli Azadlıq Hərəkatı" gürcü dövlətinin və xalqının ünvanına təcavüzkar bəyanatlar səsləndirirlər. Erməni separatçıları bölgədə anti-gürcü fəaliyyətlərini gücləndirərək Ermənistandan, Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ regionundan, Rusiyadan, Suriya və İrandan olan erməniləri müxtəlif adlar altında Ninotsminda rayonuna yerləşdirirlər.

---

[242] Həbibbəyli Ə.İ. Ermənilər Qazfqazda daha bir separatist bölgə yaradır-Gürcüstanın ərazi bütövlüyü təhlükədə-araşdirma, 16.12.2017., http://strateq.az/manshet/220283/ermənilər-qafqazda-daha-bir-separatist-bolgə-yaradir.html

[243] Cabbarlı H. Ermənistan-Gürcüstan münasibətlərində Cavaxetiya və Abxaziya dəmir yolu problemləri, 07.01.2015, http://newtimes.az/az/politics/3281/

Tədqiqatçı N.Mirzəyeva göstərir ki, hazirda Gürcüstanda 20 erməni ictimai təşkilatının (bəzi mənbələrə görə isə 40) fəaliyyət göstərdiyi məlumdur. Sovet İtttifaqının dağıldığı ilk vaxtlarda, xüsusilə, Samtsxe-Cavaxeti erməniləri radikal mövqedən çıxış edərək Ermənistana birləşməyi tələb edirdilər. Gürcüstandakı erməni təşkilatlarının fəaliyyətinin onların başlıca məqsədi separatçılıq yolu ilə Gürcüstan ərazisini parçalamaq, muxtariyyət almaq, sonra isə Ermənistana birləşməkdir. Bəzi faktlara müraciət edək: məsələn, 1994-cü ildə E.Şevardnadze Samtsxe-Cavaxetidə ərazi islahatları apardığı zaman bu təşkilatın üzvləri muxtariyyət tələb etməyə başladılar.

1995-ci ildə Gürcüstan parlamentində "Dil haqqında qanun" müzakirəyə çıxarıldığı zaman təşkilatın üzvləri tərəfindən bu hadisə birmənalı qarşılanmadı. "Virk" təşkilatının proqramında bəndlərdən birində Samtsxe-Cavaxetiyə muxtariyyətin verilməsi barədə yazılmışdır. "Virk" təşkilatı 1994-cü ildə Samtsxe-Cavaxetidə vahid idarəçiliyin yaradılması və Gürcüstan hökumətinin öz nümayəndəsini təyin etməsi ilə razılaşmamışdır. Təşkilatın rəhbərləri belə bir fikir irəli sürürdülər ki, hökumət bu yolla ərazidə demoqrafik tarazlığı pozur. Bu təşkilatın tələbləri arasında erməni dilinin dövlət dili statusunda qərarlaşdırılması, etnik kimliyin dəstəklənməsi məsələləri vardır. Erməni təşkilatları Gürcüstanın Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası ilə münasibətlərini pozmağa cəhd edirlər. Erməni təşkilatları təkcə Gürcüstanı parçalamağa, ərazisinə sahib çıxmağa, tarix və mədəniyyət abidələrinə yiyələnməyə deyil, eyni zamanda Gürcüstanın Türkiyə və Azərbaycanla olan münasibətlərini də pozmağa çalışırlar. 2017-ci il aprelin 17-də Gürcüstanda Erməni birliyi öz səhifəsində "Nəyə görə gürcü hakimiyyəti erməni xalqının soyqırımını tanımalıdır" adlı məqalə yerləşdirmişdi.

Gürcüstanda erməni təşkilatlarının fəaliyyətinin təhlili göstərir ki, onlar "Daşnaksütyun" yönlü təşkilatlardır, qurucuları isə hələ Abxaziya müharibəsində gürcü xalqına qarşı vuruşmuş "Baqramyan" batalyonunun veteranlarıdır. Təşkilatların başlıca fəaliyyəti separatçı xarakterli olduğundan, Gürcüstan hakimiyyəti tərəfindən lazımi tədbirlər görülüb ölçü götürülməzsə, Gürcüstanda ikinci Qarabağ problemi yaradıla bilər.[244]

Beləliklə, Gürcüstandakı erməni təşkilatlarının fəaliyyətinin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Bu təşkilatlar Gürcüstanda separatçı fəaliyyət göstərir, ölkə ərazisini parçalamağa, qan tökməklə muxtariyyət almağa və sonra Ermənistana birləşdirməyə çalışırlar;
2. Erməni təşkilatları Gürcüstandakı gürcü xalqının tarix və mədəniyyət abidələrini saxta yolla ilə özününküləşdirirlər;
3. Erməni təşkilatları Gürcüstanın Türkiyə və Azərbaycan Respublikası ilə münasibətlərini pozmaq üçün müxtəlif üsullardan istifadə edirlər.[245]

Gürcü-abxaz müharibəsi zamanı ermənilər separatçıların tərəfində Gürcüstan dövlətinə qarşı vuruşurdular. Müharibəyə qədər Abxaziyadakı ermənilərin sayı cəmi 30 min nəfərə çatmırdısa, hazırda qondarma qurumda ermənilərin sayı 70 min nəfərdən artıqdır. Onlar sayca ikinci ən böyük etnosdurlar. Abxazların özlərinin Türkiyə və Rusiyaya miqrasiya etdiyi, ermənilərin isə əldə etdikləri üstün siyasi, iqtisadi mövqenin təsiri altında qondarma qurum ərazisinə yeni axınları müşahidə edilir. Bu isə ya-

---

[244] Ömərov V., Kəlbizadə E.,Mirzəyeva. *Gürcüstan:daxili ictimai-siyasi şərait*. Bakı: Mütərcim, 2018, s.112-115
[245] Yenə orada

xın gələcəkdə Qafqazda əhalisinin çox hissəsi erməni olan ikinci bir separatçı bölgənin formalaşmasına səbəb ola bilər.

Münaqişə vaxtı ermənilərin "Baqramyan adına batalyon"u Gürcüstanda vəhşiliklər törətmişdir. Bondo Arveladze və Teymuraz Mibçuani 2009-cu ildə nəşr olunmuş "Baqramyan adına erməni batalyonu və Abxaziyada gürcülərin etnik təmizlənməsi" adlı kitabda erməni vəhşiliklərini şahidlərin dili ilə ətraflı göstərmişlər. Təxminən 2000 nəfərlik bu batalyonun üzvləri Abxaziya ərazisində 7 min nəfərə yaxın gürcünü vəhşiliklə öldürmüşdür. Batalyonun fəal cəlladları Abxaziyadakı gürcülərə qarşı daha əvvəl Dağlıq Qarabağ regionunda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin təcrübələrindən yararlanmışdırlar. 7 erməni döyüşçü qondarma Abxaziyanın "Milli qəhrəmanı", 20 döyüşçü "Leon" ordeni, 100-dən çox döyüşçü isə "İgidliyə görə" medalı ilə əbəs yerə təltif edilməmişdir. Bütün bunlar ermənilərin Gürcüstan dövlətinin ərazi bütövlüyünə qarşı yönəldilmiş ən böyük təhdid ünsürlərindən biri olduğunu göstərir.

***Almanlar*.** Gürcüstana köçürülən millətlərdən biri də Hind–Avropa irqinin german tayfasına aid olan almanlar idilər. Ümumiyyətlə, xaricilərin, (o cümlədən almanların) Rusiya imperiyasında yerləşdirilməsi haqqında hələ XVIII əsrdə II Yekaterina fərman vermişdir. 1762-ci il dekabrın 4-də II Yekaterina tərəfindən imzalanmış "Rusiyaya xaricilərin azad köcməsinə dair Manifest"də yazılır ki:

*Ümumrusiya taxt-taçına cıxan andan biz belə qərara gəldik ki, bütün imperiya məkanında dinçilik, əmin–amanlıq, əmək və əhalinin artımını əsas qayda kimi qəbul edək. Bir cox xariçilər, o cümlədən vaxtilə Rusiyadan ayrılmış bir çox təbəələrimiz imperiyaya köçmək üçün bizə müraciət etmişlər: biz lütfkarlıqla onlara elan*

*edirik ki, bütün millətlərdən olan ("jidlərdən" – yəhudilərdən başqa) xaricilərin Rusiyaya köçməsini qəbul edir və təntənəli sürətdə təsdiq edirik ki, Rusiyaya gələnlər bizim lütfkarlığımızın və himayəmizin altında olacaqlar; öz vətənindən qaçan təbəələrimizin də qayıtmasına içazə veririk; onların bütün cinayətlərini bağışlayırıq, ümid edirik ki, onlar bundan sonra əmin–amanlıqla yaşayacaq, özlərinin və bütün cəmiyyətin rifahı naminə çalışaçaqlar."*[246]

Gürcüstan quberniyasına (sonra isə o, bir necə quberniyaya bölündü) alman koloniyaçıları 1817-1818-çi ildə gətirilmişdir. Rus imperiya hökuməti Gürcüstanda ipəkciliyi, şərabçılığı inkişaf etdirmək və yerli əhalinin mədəni səviyyəsinə təsir etmək üçün alman koloniyaçılarını güzəştli şərtlərlə bu bölgədə yerləşdirmək qərarına gəldi. Hələ XVIII əsrin axırları – XIX əsrin əvvəllərində Almaniyada almanlar arasında dini separatçılıq hərəkatı başlanmışdı. Vürtemberq, Bavariya krallığı və İsveçrədəki almanların mövhumatçı lüteranların bir çoxu müqəddəs İsanın vəhyi əsasında antixristin meydana çıxmasına, dindarların kilsədən ayrılmasına inanırdılar. Antixristin qurbanı olmamaq üçün bu mövhumatçılar özlərinə Almaniyadan kənarda: Amerikada, Rusiyada, Uzaq Şərqdə sığınacaq axtarırdılar. Vaizlərdən Benqel və Ştilinq isə xilas yolunu Qafqazda axtarmağı məsləhət görürdü. Ağılların daha da coşduğu və almanların uzaq səyahətə fəal hazırlaşdıqları bir vaxtda Avropaya səyahətə çıxan Rusiya imperatoru I Aleksandr Ştutqardtdan keçərək Almaniyaya gəldi. Alman bidətçiləri bundan istifadə edərək, Qafqazda məskunlaşmaq üçün Rusiya imperatorundan icazə istədilər.[247]

---

[246] *Дипломатический вестник*, 1993, №6, с.76

[247] Басихин П. *Немецкие колонии на Кавказе.* // *"Кавказский вестник"* 1900, № 1, с. 14-15

Hökmdar separatçıların xahişlərini yerinə yetirməyə razı oldu. Lakin almanların Qafqazda uğurla koloniyalaşdırılması üçün hazırlıq işlərinin görülməsini zəruri hesab etdi. Rusiya hökumətinin mühacirət üçün rəsmi icazəsini gözləməyən bidətçilərdən 7000 nəfəri 1817-ci ildə Rusiyaya getməyə başladılar. Köçkünlərdən bir qrupu Reqensburq, Vyana, Presburqu keçərək Belqrada, oradan da su yolu ilə Odessaya gəlib çıxdılar. Burada onlar düşərgə salıb I Aleksandırın cavabını gözlədilər. Eyni zamanda öz deputatları Koxu və Friki Moskvaya göndərdilər. Bununla yanaşı, alman köçkünləri koloniyalaşmaq üçün Qafqaza xüsusi kəşfiyyatçılar da göndərdilər. Onlar orada əlverişli yer seçməli idilər.

Rusiya çar hökuməti alman bidətçilərinin Gürcüstanda yerləşdirilməsini sürətləndirməyə çalışdı. Bu məqsədlə Qafqaz canişini general Yermolova təcili göstəriş verildi ki, almanlar arzu etdikləri yerlərdə müəyyən qruplarla Gürcüstanda yerləşdirilsin. İmperiya hökumətinin almanları bu bölgələrdə yerləşdirməkdə əsas məqsədi ondan ibarət idi ki, almanlar "yerli əhaliyə əməksevərlik nümunəsi göstərsin, onlara üzüm yetişdirməyin, şərabçılığın və taxılçılığın sirlərini və yeni-yeni üsullarını daha dərindən öyrətsinlər".[248]

Əlahəzrət Rusiya imperatorunun göstərişi ilə almanların Qafqazda koloniyalaşması üçün 100 min rubl pul ayrıldı. Hələ 1817-ci ildə Qafqaza almanların ilk dəstəsi 31 ailə gəlib çıxdı. 1817-ci ildə isə Qafqaza gələn almanların sayı artdı. Tiflis şəhəri yaxınlığında Yeni Tiflis, (sonralar şəhərə birləşdi) Tiflisdən 6

---

[248] Сборник материалов для описания местностей и племён Кавказа, Т.1, Тифлис: Тип. Главного Управления Главноначальствующего гражданской частью на Кавказе, 1881, с. 103

km aralıda Kür çayının sahillərində Aleksandersdorf, Tiflisdən Kaxetə gedən Tiflis-Sığnax şose yolunun kənarında Qarayazıda Marienfeld (indiki Sərtçala-Muğanlı yaxınlığında), Borçalıda Yelizavettal və Yekaterinenfeld (indiki Bolnisi ərazisində, sonralar 1929-cü ildə Lüksemburq adlandırıldı) koloniyaları məskunlaşdı. P.Basixin Gəncə yaxınlığındakı Yelenendorf (indiki Göygöl rayonu) və Şəmşəddildəki Annenfeld kaloniyalarının da həmin dövrdə gəldiyini göstərir. Lakin Azərbaycan iqtisadçısı M.H.Vəliyev (Baharlı) özünün "Azərbaycan" əsərində göstərir ki, almanlar əvvəlcə Gürcüstanda Tiflis yaxınlığında məskunlaşmış, lakin 1819-cu ildə çar jandarmaları tərəfindən, öz iradələrinin əksinə olaraq, Yelenendorfa (Azərbaycan Respublikasının indiki Göygöl rayonu) köçürülmüşlər, sonralar isə başqa bir alman dəstəsi Annenfelddə (Azərbaycan Respublikasının indiki Şəmkir rayonu) yeni koloniya təşkil etmişdi.[249]

1842-ci ildə Axalsıxda Abastuman yaxınlığında 10 ailədən ibarət Freydenstal koloniyası məskunlaşdı. Lakin az sonra onları (1848-ci ildə) Qarayazıdakı Marienfeld koloniyasının yaxınlığında yerləşdirdilər (370 desyatin torpaq verdilər). Onların sayı əvvəlki 287 ailədən (1185 nəfər) 445 ailəyə çatdı. Sonra onlar 531 ailə (2617 nəfər) oldular 486 tüstüyə 19164 desyatin 995,5 sajan torpaq ayrıldı. Hər bir alman ailəsinə 40 desyatin torpaq düşürdü.[250]

Yeni Tiflis koloniyasındakı almanlar əsasən sənətkarlıqla məşğul olduqlarından onların hər bir ailəsinə 1,78 desyatin torpaq ayrıldı. Bəzi ailələrə 35-36, bəzilərinə isə hətta 47 desyatin torpaq düşmüşdü.

---

[249] Vəliyev M.H. (Baharlı). *Azərbaycan*. Bakı: Azərnəir, 1994, s. 61
[250] *Обозрение Российского владения за Кавказом*, с. 303

Alman koloniyaçılarının düşdükləri ərazilərdəki vəziyyəti və ətrafdakılarla qarşılıqlı münasibətləri haqqında müxtəlif rəylər vardır. İ.Frolov "İcmallar"da (1836-cı ildə) yazırdı kı, Vüstemberq koloniyaçılarının vəziyyəti ilbəil yaxşılaşırdı. Kənd məşğulluğu və həyat tərzlərindəki üstünlükləri açıq-aydın hiss edilirdi. Almanlar daha mütəşəkkil olsalar, vəziyyətləri lap yaxşı olardı. Müəllif almanların son 16 ildə sayca (616 nəfər, 78 ailə) azaldığını və bunun səbəblərini göstərir: qeyri-məhsuldarlıq, torpağın vəziyyətilə yaxından tanış olmamaq, xəstəliklər (vəba, taun) və işğalçıların Qafqaza hücumu zamanı almanların da məhv edilməsi və əsir düşməsi məhz bu səbəblərə aid edilir. 1857-ci ildə Cənubi Qafqaza səyahətə çıxmış Qarayazının indiki Muğanlı kəndi yaxınlığındakı Marienfelddə olmuş alman səyyahı Baron Avqust fon Qakstkauzen özünün "Zaqafqaziya diyarı" əsərində almanların Tiflis ətrafında məskunlaşma tarixini və XIX əsrin 50-ci illərində çiçəklənmə dövrü keçirdiyini göstərmişdir. "Alman koloniyaçıları tərəvəzçiliklə, bağçılıqla müxtəlif meyvələr yetişdirməklə məşğuldular". "Onlar Tiflis yaxınlığındakı Hacı ağanın "Vark" suvarma maşınından istifadə edir və bunun üçün ona ildə 500 rubl gümüş ödəyirdilər".

Hər bir alman koloniyasında onlarla bağ, minlərlə üzüm tənəyi, meyvə ağacı, ictimai binalar, kilsə (ibadət yeri), məktəb, keşiş üçün bina, mülki işlər üçün ictimai binalar tikildi və bu koloniyada sənətkarlar: dəmirçilər, dülgərlər, bənnalar, dərzilər, çilingərlər, pivəpişirənlər, traktixçilər (aşxana xidmətçisi) və s. var idi. Qalanları isə əkinçiliklə məşğul olurdular.

Vaxtilə dini bidətçilik uçbatından Almaniyadan bir növ sürgün olunmuş almanlar Gürcüstanda lüteran kilsəsinə xidmət etməyə başladılar. Bağçılıqla, taxılçılıqla məşğul olan koloniyaçı-

lar onlara ayrılmış torpaqları satın aldıqları torpaqlar hesabına daha da genişləndirdilər.

Polis pristavlarının olmasına baxmayaraq, hökumət uzun müddət almanların daxili qayda–qanunlarına müdaxilə etmədi. Bu vəziyyət hətta sovet dövrünə qədər davam etmişdir. 20-ci illərə qədər alman kənd icması özünün hər bir üzvünə görə məsuliyyət daşıyırdı.

1921-ci ildən almanlar sovet qayda-qanunlarına tabe oldular. Qarayazıdakı Marienfelddə, Qruntalda da, sonralar isə Qoflunkstal, Traubentalda icma şirkətləri (kolxoz əvəzinə) yaradıldı.

1921-ci ildən Gürcüstan İnqilab Komitəsinin üzvü Ömər Faiq Nemanzadə Borçalıda inzibati quruculuq və torpaq məsələsində almanlara xüsusi yer ayrıldığını yazırdı.

*"Azlıq təşkil etdiklərinə baxmayaraq, onlar əsas hakimiyyət orqanlarında gürcülər, aysorlar, yunanlar, malakanlarla yanaşı, Borçalının əksəriyyət təşkil edən azərbaycanlı kütləsini idarə edir, vaxtilə əlverişli şərtlərlə Borçalının ən yaxşı torpaqlarında yerləşdirilmiş və bir az sonra həmin torpaqları pulla ələ keçirmiş almanlar müsəlmanları getdikcə buradan ya sıxışdırıb çıxartmış, ya da onların bu torpaqdan istifadəsini minimum dərəcəyə endirmişdirlər. Traubenberq koloniyası məhz Avlabar, Həsənxocalı və s. kəndlərin hesabına beləcə yaranmışdır. Hazırda Sandar koloniyası da Sarvan, Qızılhacılı kəndlərinin torpaqlarını mənimsəmək hesabına yaradılır".*[251]

Marienfeld-Frendenstal koloniyaları Qarayazıdakı Muğanlı kəndinin, Qruntal koloniyası Nəzərli-Kosalı kəndlərinin torpaqları, Qoflunkstal, Traunbental koloniyaları isə Qaratəpə torpaqları hesabına əmələ gəldi.

---

[251] Nemanzadə Ö.F. *Seçilmiş əsərləri*, Bakı, 1992. s. 347-348

Azərbaycanlı əhalinin təbii artımına baxmayaraq, onların pay torpaqları əvvəlki vəziyyətdə qaldığı halda, almanlar isə əhalinin təbii artımına uyğun olaraq yeni əkin səhələrini satın almaqla istifadə etdikləri torpaqları getdikcə artırırdılar. Borçalıya almanların miqrasiyası 1900-cu, 1920-30-cu illərdə və 1950-ci illərdən sonra olmuşdur.

Tiflis ətrafındakı alman koloniyalarından (çox ehtimal ki, Marienfeld-Frendenstaldan) Qarayazı ərazisinin içərilərinə doğru yeni-yeni alman koloniyaları yayılmışdır. Yuxarıda qeyd edildiyi kimi, Qarayazıda ilk alman koloniyaları (XIX əsrin I yarısından) Marienfeld-Frendenstal, Petersdorf, (sonralar Rozenfenstal ayrıldı) koloniyaları ("Nemsə") olmuşdur. İndiki Vaxtanqisi kəndi ərazisində XX əsrin əvvəllərində (1900-cu ildən sonra) Qruntal (açıq yer, yaxud da yaşıl yer deməkdir) alman koloniyası, çox ehtimal ki, Ağstafadakı koloniyadan ayrılmışdır.

Qardabani rayonundakı indiki Təzəkənd – Birlik – Kalinino yaxınlığında 20-ci illərdə Qoflunkstal (sonralar Ertoba, adlandırıldı, indi isə Axalşeni adlanır), Traunbental (sonralar "Roza" adlanırdı, indi isə Ambaratəpə adlanır) alman koloniyaları məskunlaşdı. 30-cu illərin axırlarında Sovet hökumətinin təhlükəsizlik orqanları, artıq, SSRİ-dəki almanların hüquqlarını məhdudlaşdırmaq üçün tədbirlər planı hazırladı. Alman məktəblərində alman dilində dərslərin keçirilməsi qadağan edildi (rus dili ilə əvəz edildi), almanlar üzərində nəzarət gücləndi, bütün pillələrdəki hakimiyyət orqanlarından almanlar çıxarıldı, "üçlüyün" qərarı ilə "xalq düşməni" olan almanların sayı son dərəcə "artdı", onlar kütləvi repressiyaya məruz qaldılar.

1943-cü ildə Qafqazdakı bütün almanları da Qazaxıstan və Orta Asiyaya elliklə sürgün etdilər. Yaşlı adamların və hadisəni

görən şahidlərin dediklərinə görə, almanların bütün varidatlarını taladılar, heç nə götürməyə qoymadılar, hətta xörəkləri od üstündə, mal-qoyunları tövlədə bağlı qaldı. Almanların çoxu yollarda tələf oldular.

XX əsrin 48-50-ci illərində Qazaxıstandan bəzi alman ailələri Gürcüstana gəlməyə başladılar və 50-ci illərdə Traunbental koloniyasının yerində Botanika alman qəsəbəsi formalaşdı. N.Xruşşovun hakimiyyəti illərində almanların Qazaxıstandan Gürcüstana axını xeyli gücləndi. XX əsrin 80-ci illərindən isə almanlar öz tarixi vətənlərinə - Almaniyaya üz tutmağa başladılar.

***Ruslar və rusdilli əhali.*** Gürcüstanda yaşayan etnik qruplardan biri də ruslardır. Ruslar Gürcüstana əsasən 1783-cü ildə bağlanılmış Georgiyevski traktatından sonra axın etmişlər. Çar Rusiyası dövründə rusların Gürcüstandakı sayları çoxalsa da, bu ölkəyə əsas axın SSRİ-nin qurulmasından sonra baş vermişdir. Rusiya Qafqazı işğal etdikdən sonra XIX əsrin 20-ci illərində Qafqaza Rusiyanın quberniyalarından rusları köçürmək üçün planlar hazırlamışdı. Lakin azad torpaqların azlığı buna mane olurdu. XIX əsrin 30-cu illərində İran və Türkiyədən ermənilərin və yunanların Cənubi Qafqaza köçürülməsi bu işə daha da mane oldu. Ona görə Cənubi Qafqazda tərxis olunmuş rus əsgərlərindən ibarət kiçik hərbi yaşayış məskənlərinin yaradılması qərara alındı. 1837-ci ildə imperator I Nikolayın fərmanı ilə Tiflis, Qocor, Mənglis, Ağbulaq, Qomborda yerləşmiş hərbi hissələrin yaxınlığında hərbi yaşayış məskənlərinin yaradılmasına başlandı. Burada ehtiyata buraxılmış əsgərlər məskunlaşdı, onlara becərmək üçün xeyli torpaq sahələri ayrıldı. 1859-cu ildə hərbi məskunlar ləğv edildi, buradakı əhali dövlət kəndliləri vəziyyətinə keçirildi.

Gürcüstana müxtəlif təriqətçi rusların, duxoborların, malakanların, skopsovların axını başladı. İmperatorun fərmanı ilə 1837–1841-ci illərdə Gürcüstana Tavriya quberniyasının Melitopol qəzasından duxoborlar köçürüldülər. 1855-ci ildə, artıq Axalsıxda 2873 nəfər rus duxoboru, Boqdanovka, Rodionovka, Dubovka, Orlovka, Qorlovka, Tambovka və Troisk kəndlərində yerləşdirilmişdi.[252] Onlar dəniz səviyyəsindən 1800-2100 m hündürlükdəki ərazilərdə məskunlaşmışdılar ki, bu iqlim rus köçkünlərinə uyğun gəlirdi. Duxoborlar əsasən heyvandarlıq, əkinçilik və bəzən də çarvadarlıq (arabaçılıq) sənəti ilə məşğul olurdular. Sonralar onların törəmələri kartofçuluq və südçülüyü inkişaf etdirdilər. Duxoborların bir hissəsi Borçalıda – Başkeçiddə və Ormaşen kəndlərində yerləşdirilmişdir.

Cənubi Qafqazda ilk malakanlar 1836-cı ildə görünməyə başlamışlar. Onları da duxoborlar kimi təriqətçiliyə görə təqib edirdilər. Ona görə də Rusiya imperiya hökuməti onları mərkəzi quberniyalardan Cənubi Qafqaza – Tiflisə və Tiflis quberniyasının kənd yerlərinə köcürdü.

Tiflisdən bir az aralıda – Qarayazının Sərtçala-Muğanlı kəndi yaxınlığında – Malxazovka (ondan 1903-cü ildə - Pavlovka kəndi ayrılmışdı, sonralar Krasnoqorsk adlandı) kəndi yaradıldı. Tiflisdə - şəhərin sol sahil hissəsində (müasir dəmiryol vağzalı rayonunda) o vaxtlar Yeni Kuka adlanan məntəqədə (sonralar Malakan küçəsi, daha sonra isə Pirosmani küçəsi adlandı) malakanlar məskunlaşdı. Tiflis quberniyasında 12,3 min nəfər malakan yaşayırdı. Malakanların əksəriyyəti Dağ Borçalısında – Loruda yaşayırdılar. Onlar Qarayazının yaylaqlarında - Loru çöllə-

[252] *Военно-Статистическое описание Тифлиской Губернии и Закатальского округа*, Тифлис, 1902, с. 404-405

rində Vorontsovkada, (Dəlidağ yaxınlığında), Nikolayevkada, Cəlaloğlunda (rus), Gerkerdə, Novo-Pokrovskayada (Ağlağan yaxınlığında) yaşayırdılar. Malakanlar çarvadarlıq sənətinin ən yaxşı ustaları hesab olunurdular. Onların hazırladıqları furqonlar, karetlər və faytonlar bütün Gürcüstanda məşhur idi. Rusların Gürcüstanın Qardabani bölgəsində ilk məskunlaşması XIX əsrin I yarısında 1836-cı ildə vaxtilə Qare-Kaxeti bölğəsinə daxil edilmiş Malxazovka kəndində olmuşdur. İkinci yaşayış məskəni Mixaylovka 1903-cü ildə Qaratəpə kəndi yaxılığında yaranmışdır. Həmin dövrlərdə Vayofkada (indiki Vaxtanqisi kəndində) ruslar məskunlaşmışdılar.

XX əsrin 20-ci illərində Qoflunkstal, Traubental, Təzəkənd – Birlik kəndləri yaxılınlığında Tatyanovka kəndi yarandı (sonralar Kalinino adlandırıldı – azərbaycanlılar yaşayır). 20-ci illərdə daha bir rus koloniyası Dmitrovka Qruntal alman koloniyası və Ruisbolo gürcü koloniyası ilə qonşuluqda salınmışdı (Qardabani rayonunun indiki Vaxtanqisi kəndinin ərazisində).

1917-ci ildə Qafqaz təqvimində malakanlar bir neçə icmaya bölünmüşdür ki, bunlardan biri də Vayofka, Vasilyevka və Mixaylovka kəndlərinin daxil olduğu Mixaylovka icması olmuşdur. 1903-cü ildən Mixaylovkada rus kilsəsi olmuşdur. 1923-1924-cü illərdə rus kilsəsinin xaçı salınıb kluba çevrildi. Bu kilsə çox əzəmətli, yaraşıqlı, tarixi abidə olmuşdur. Mixaylovka kəndi sonralar Vasilyevka aysoru kəndi isə birlikdə Qardabani şəhərinə birləşdirildi. Dmitrovka kəndi isə Ruisbolo ilə birlikdə (Qruntal sürgün edildikdən sonra) Novoulyanovka kəndinə çevrilmişdi.

XX əsrin 20-ci illərin axırlarında rus kəndlərində kolxoz quruculuğu geniş vüsət aldı. Qardabanidən-Mixaylovkadan olan

Sovet İttifaqı Qəhrəmanı Pyotr Mixayloviç Sixno olmuşdur. Qaratəpədəki rus orta məktəbi məhz onun adını daşıyır.

1926-cı ilin statistik nəticələrinə əsasən Gürcüstandakı rusların sayı 96085 nəfər olmuşdur. 1939-cu ildə isə bu rəqəm 308684 nəfər idi ki, bu da Gürcüstan əhalisinin 8,7 faizini təşkil etmişdir. 1959-cu ilə qədər müsbət dinamika müşahidə edimiş rus əhalisi sonrakı siyahıyaalınmaların nəticələrinə görə tədricən azalmışdır. Belə ki, əgər 1959-cu ilə aid statistik məlumatlarda Gürcüstandakı rusların sayı 407886 nəfər idisə, SSRİ-in süqutuna yaxın bu say 341172 nəfərə düşmüşdür. 2014-cü ildəki əhalinin siyahıyaalınmasının nəticələrinə əsasən Gürcüstanda 26586 nəfər rus yaşayır.[253] SSRİ dağıldıqdan sonra ölkədə baş vermiş iqtisadi böhran və sabitsizlik rusları ölkəni tərk etməyə məcbur etmişdir. Çox güman ki, Abxaziya və Cənubi Osetiya ərazisində yaşayan rusların sayının ümumi saya əlavə edilməməsi onların ümumi sayına öz təsirini göstərmişdir. Onlar əsasən Tbilisidə (13350 nəfər), Acarıstan Muxtar Respublikasında (3679 nəfər), Kvemo-Kartlidə (2631 nəfər), Kaxetidə (1921 nəfər) yaşayırlar.[254] Gürcüstana rusların (ukraynalılar və bela-ruslarla birlikdə) kütləvi axını II Dünya müharibəsi vaxtı oldu. SSRİ-nin almanlar tərəfindən işğal edilən zonasından qaçqınların bir qrupu Gürcüstana pənah gətirdi. Nəhayət, müharibədən sonrakı illərdə Rustavi şəhəri və bir çox müəssisələr tikilərkən xeyli ruslar, ukraynalılar və belaruslar gəldilər, bir çoxları Gürcüstanda məskunlaşdılar.

---

[253] Мосаки Н.З. Этническая картина Грузии по результатам переписи 2014 г. https:// www.academia.edu/ 35758919/Этническая_картина_Грузии_по_результатам_переписи_2014_г._Этнографическое_обозрение_._2018._1._с. 104-120

[254] Population Census 2014. National Statistics Office of Georgia. http://geostat.ge/index.php?action=page&p_id=473&lang=eng

Bundan başqa Gürcüstanda yerləşən sovet hərbi hissələri yaxınlığındakı hərbi şəhərciklərdə xeyli ruslar yaşayırdılar.

Gürcüstan müstəqillik əldə etdikdən sonra və ilk vaxtlarda millətçi qüvvələrin hakimiyyətə gəlməsi və anti-rus əhvalı-ruhiyyənin güclənməsi nəticəsində ruslar Gürcüstandan öz tarixi vətənləri Rusiyaya köçüb getdilər.

**Kistinlər** Gürcüstanda yaşayan, çeçen və inquş xalqları ilə dil və mənşə baxımından qohum olan azsaylı etnik qrupdur. Ana vətənləri Çeçenistanın cənubu olan bu xalqın Gürcüstan-Çeçenistan sərhəddində yerləşən Pankissi vadisinə XIX əsrin 70-ci illərində köçdüyü ehtimal edilir. 2014-cü ilin statistik məlumatına əsasən onların sayı 5697 nəfərdir. Rusiya-Çeçenistan müharibələri dövründə bu əraziyə 8000 çeçen qaçqın yerləşmişdir. İslam dini yerli əhalinin etiqad etdiyi başlıca dindir. Əhalinin 35 yaşına qədər olan hissəsi arasında sələfilik təriqəti yayılmışdır. Yaşlı əhali isə daha çox ənənəvi islama itaət edirlər. [255]

***Yunanlar*.** Gürcüstanda yaşayan xalqlardan biri də yunanlardır. Yunanlar Qafqaza eramızdan əvvəl VI əsrdə, əsasən, Qara dəniz sahillərində koloniyalar şəklində gəlmiş, eramızın XV əsrinədək mövcud olmuşlar. XVIII əsrin II yarısında Kartaliniya çarı II İrakli yunanları, xüsusən dağ mədənçilərini və digər sənətkarları Türkiyənin Gümüşxana və Mədən rayonlarından Borçalıya dəvət etmişdir (Axtal gümüş mədəninə). 1762-ci ildə 800 ailə gəlmiş və Ləlvər misəritmə zavodu təşkil etmişlər. Sonra bu zavod Alvar, daha sonra Alaverdi (İndi bu yerlər Ermənistanda qalmışdır) adlanmışdır.

---

[255] Сихарулидзе А., Урушадзе М. Ислам в Грузии и политика интеграции https://www.imemo.ru/files/File/magazines/puty_miru/2016/02/07_Sicharulidze.pdf

Türkiyədən və Cənubi Azərbaycandan yunanlar XIX əsrdə də köçüb-gəlmişlər. XIX əsrin əvvələrində çar hökuməti Osmanlı imperiyasından xristianların (erməni və yunanların) köçürülməsi üçün 1810-cu ildə Tiflisdə xristianların Türkiyədən Qafqaza köçürülməsinə dair Komitə də yaratmışdır.

1830-cu ildə Ərzurum paşalığından Zalqaya 1025 ailə (7.000 nəfər) heyvandar və əkinçi yunanlar köçürüldü. 18 yunan kəndi salındı (Avaranlı, Barmaqsız, Yerqışoğlu, Ambarlı, Dəmirpolad (Başkeçiddə) və s.).

1877–1878-ci illər Rusiya–Osmanlı müharibəsilə əlaqədar yeni yunan axını başlandı. 1914–1918-ci illərdə də Qars paşalığından yunanlar Gürcüstana köçdülər. 1922–1923-cü ilərdə Lozanna sülh konfransı Türkiyədən yunanların Yunanıstana köçürülməsi haqqında qərar çıxartsa da, yunanlar Yunanıstana deyil, Qafqaza gəldilər. [256]

Zalqada yaşayan yunanlar türk dili dialektində danışırlar. Buradakı yunanlara "urum", "berzan" (gürcü sözü "berdzeni" sözündən götürülüb) və ya "qrek" (rus sözü) deyilir.

Gürcüstanda yaranmış mürəkkəb ictimai-siyasi, iqtisadi vəziyyətlə əlaqədar olaraq yunanlar Zalqadan, Borçalıdan, Qarayazıdan və digər yelərdən tarixi vətənləri olan Yunanıstana köçüb getdilər. Hazırda Gürcüstanda az da olsa yunanlar yaşamaqdadır.

***Yəhudilər***. Müasir Gürcüstanda az sayda yəhudi də yaşayır. Bunların çoxu dağ yəhudiləri olub və əsasən yaşadıqları ölkənin dilini tez mənimsəyirlər. Düşdükləri şəraitə uyğunlaşa bilirlər. Əsasən ticarət sahəsində çalışır və yüksək sənətkarlıq qabiliyyətinə malikdirlər. Gürcüstanda gürcü yəhudiləri də yaşayırlar. Bu yəhudilərin Gürcüstana miqrasiyası daha qədimlərə -

---

[256] *Народы Кавказа*, М.1989, с.47

eramızın I əsrinə gedib çıxır. Gürcüstan yəhudiləri əsasən gürcü dilində danışırlar. Yığcam halda yəhudilər iri şəhərlərdə - Tbilisi və Kutaisidə yaşayırlar. Mədəniyyət, ticarət, maddi təchizat sahələrində daha çox çalışırlar. Sovetləşmə dövrlərindən, artıq, gürcü yəhudilərinin İsrailə, Qərb ölkələrinə, ABŞ-a axını başlanmış, bu proses son müasir dövrə qədər davam etmişdir. İsrail dövləti qurulduqdan sonra yəhudilərin əksəriyyəti ölkəni tərk etmişdir. Gürcüstanda onların sayı çox azalmışdır. Əsasən paytaxt Tbilisidə məskunlaşmış yəhudilərin sayı XX əsrin 60-cı illərində 51000 nəfərdən çox olmuşdur. 1903-cü ildə istifadəyə verilmiş Tiflis sinaqoqu təkcə Gürcüstanda yaşayan yəhudilərin deyil, bütün dünya yəhudilərinin diqqət mərkəzindədir.[257] Hazırda Gürcüstanda təxminən 1400 nəfərə qədər yəhudi yaşayır.

**Kürdlər.** Gürcüstanda müsəlman və yezidi kürdləri də yaşayırlar. Onların da Qafqaza miqrasiyası İraq, İran və Türkiyə, Suriya ərazilərindən başlanmışdır.

Kürdlərin Cənubi Qafqazda daha əvvəllər – erkən orta əsrlərdə də miqrasiyasını da ehtimal edənlər vardır. Kürd dili İran dillərinin şimal - qərb qrupuna aiddir; Cənubi Qafqazda olanlar, əsasən Kürmanci dialektində danışırlar. Özlərini kürmanc adlandırırlar. Müsəlman kürdlərdən bir qrupu Borçalıda yerli azərbaycanlılarla qaynayıb-qarışmışlar (Türkiyədən erməni terrorçusu Andranikin təqibindən yaxa qurtararaq gəlmişlər). İndiki nəsillər Azərbaycan dilində danışırlar.

Beləliklə, Gürcüstanın əsas əhalisi aşağıdakılardan ibarətdir: gürcülər, azərbaycanlılar, ermənilər, ruslar, osetinlər, kürd-

[257] Georgia Minorities and indigenous peoples. World Directory of Minorities and Indigenous Peoples. https://minorityrights.org/country/georgia/ World Directory of Minorities and Indigenous Peoples

lər (yezidilər), eləcə də yunanlar, kistlər, çeçenlər, ukraynalılar, yəhudilər (gürcü yəhudiləri, kürd yəhudiləri və aşkenazilar), abxazlar, aysorlar, avarlar və s.

2002-ci il əhalinin siyahıyaalınmasına görə, Gürcüstanın əhalisi Axalqori və Yuxarı Kodor əhalisi daxil olmaqla 4371535, onlarsız isə 4361876 nəfər olmuşdur. Ölkədə gürcülərin sayı 36661173 (83,75 faiz), azərbaycanlıların sayı 28476 nəfər (6,51 faiz), ermənilərin sayı 248929 nəfər (5,69 faiz), rusların sayı 67671 nəfər (1,55 faiz), osetinlərin sayı 38028 nəfər (0,87 faiz), yunanların sayı 18329 nəfər (0,358 faiz) kistinlilərin sayı 7110 nəfər (0,18 faiz) olmuşdur. Əhalinin dil tərkibinə görə dövlət dili gürcü dilidir. Burada eləcə də Azərbaycan, erməni, rus, osetin dilləri mövcuddur. Dini tərkibinə görə Gürcüstanda pravoslavlar, müsəlmanlar, qriqoryanlar, idduistlər və digərləri yaşayırlar.

Silahlı münaqişələr və radikal milliyətçilik hərəkatı nəticəsində osetin əhalisi nəzərə çarpacaq dərəcədə azalmışdır. 1989-cu ildə 99000-dən 2002-ci ildə ancaq 38000 osetin və ya 38 faiz (Abxaziya və Cənubi Osetiya əhalisini qeydə almadan və ya (1989-cu ildə Gürcüstan SSR-də olan 164000 osetindən 80000 osetin) Gürcüstanda və Cənubi Osetiyada qalmışdır yəni 49 faiz). Onların böyük hissəsi Rusiyaya (Şimali Osetiyaya və Cənubi Osetiyaya qaçmışdır. (Belə ki, keçmiş Cənubi Osetiya muxtar vilayətində 1989-2000-ci illərdə 25000-dən 4500 – nəfərə kimi azalmışdır, yəni 69 faiz).

1990-ci ildə 200 min etnik gürcü Abxaziyadan Gürcüstanın daxili rayonlarına qaçmaq məcburiyyətində qalmışdır. 1990-2000 illərdə Gürcüstandan kənarda da iş axtarmaq üçün (əsasən 2002-ci ildə) kütləvi sayda etnik gürcü köç etmiş, siyasi qaçqınlar isə ilk növbədə Rusiyaya 400000-dən bir milyona qə-

dər insan), eləcə də Polşa, Böyük Britaniya və s. yerlərə getmiş və məskunlaşmışlar.[258]

Ermənilərin sayı da azalmışdır. (1989-cu ildə 360,7 min-dən 2002-ci ildə ancaq 249000 erməni yəni (1989-cu il sayından 69 faiz) Abxaziya və Cənubi Osetiyanı hesaba almadan, hesaba aldıqda isə 67 faiz) azərbaycanlıların sayı da azalmışdır (1989-cu ildə 307,6 mindən - 284,8 min azərbaycanlı).[259]

Sovet dövründə Ahıska türkləri və Qara dəniz yunanları deportasiyaya məruz qalmışdırlar. Türklər 80-cı illərdə etnik münaqişələr nəticəsində Özbəkistandan qaçmaq məcburiyyətində qalmışdılar, onları bir daha Gürcüstana buraxmamış və tezliklə Türkiyəyə köçürülmüşdülər.

2014-cü ildə keçirilən əhalinin siyahıyaalınmasına görə, Gürcüstanda əhalinin sayı 3713804 nəfər olmuş, onlardan 3224600 nəfəri (86,8 faiz) gürcülər, 223000 nəfəri azərbaycanlılar (6,3 faiz), 160180 nəfəri (4,5 faiz) ermənilər, 26500 nəfəri (0,7 faiz) ruslar, 14400 nəfəri (0,4 faiz) osetinlər, 12200 nəfəri (0,3 faiz) yezidi kürdlər, 6000 nəfəri (0,2 faiz) kistinlər, 5500 nəfəri (0,1 faiz) yunanlar, 2400 nəfəri (0,1 faiz) aysorlar və 14300 nəfəri (0,4 faiz) digər xalqların nümayəndələridir.[260]

---

[258] *Население Грузии* https://ru.wikipedia. org/wiki/население-грузии [İstifadə tarixi: 21.07.2018]

[259] Yenə orada

[260] *Грузия в цифрах: итоги последной переписи населения*. https: //sputnik-georgia.ru/ informaties/2016.05.04.231491867html. [İstifadə tarixi: 21.07.2018]

*1989, 2002 və 2014-cü illərdə Gürcüstan əhalisinin milli tərkibi*

| **Milli kimlik** | **1989** | **%** | **2002** | **%** | **2014** | **%** |
|---|---|---|---|---|---|---|
| Ümumi | 5400841 | 100,00% | 4371535 | 100,00% | 3713804 | 100,00 % |
| Gürcülər | 3787393 | 70,13% | 3661173 | 83,75% | 3224564 | 86,83% |
| Azərbaycanlılar | 307556 | 5,69% | 284761 | 6,51% | 233024 | 6,27% |
| Ermənilər | 437211 | 8,10% | 248929 | 5,69% | 168102 | 4,53% |
| Ruslar | 341172 | 6,32% | 67671 | 1,55% | 26453 | 0,71% |
| Osetinlər | 164055 | 3,04% | 38028 | 0,87% | 14385 | 0,39% |
| Yezidilər | | | 18329 | 0,42% | 12174 | 0,33% |
| Ukraynalılar | 52443 | 0,97% | 7039 | 0,16% | 6034 | 0,16% |
| Kistinlər | | | 7110 | 0,16% | 5697 | 0,15% |
| Yunanlar | 100324 | 1,86% | 15166 | 0,35% | 5544 | 0,15% |
| Aysorlar | 6206 | 0,11% | 3299 | 0,08% | 2377 | 0,06% |
| Yəhudilər | 24795 | 0,46% | 3772 | 0,09% | | |
| Abxazlar | 95853 | 1,77% | 3527 | 0,08% | | |
| Kürdlər | 33331 | 0,62% | 2514 | 0,06% | | |
| Avarlar | 4230 | 0,08% | 1996 | 0,05% | | |
| Çeçenlər | 609 | 0,01% | 1271 | 0,03% | | |
| Polyaklar | 2014 | 0,04% | 870 | 0,02% | | |
| Moldovanlar | 2842 | 0,05% | 824 | 0,02% | | |

| **Milli kimlik** | **1989** | **%** | **2002** | **%** | **2014** | **%** |
|---|---|---|---|---|---|---|
| Almanlar | 1546 | 0,03% | 651 | 0,01% | | |
| Belaruslar | 8595 | 0,16% | 542 | 0,01% | | |
| Qaraçılar | 1744 | 0,03% | 472 | 0,01% | | |
| Türklər | 1375 | 0,03% | 441 | 0,01% | | |
| Udinlər | 93 | 0,00% | 203 | 0,00% | | |
| Bolqarlar | 671 | 0,01% | 138 | 0,00% | | |
| Litvalılar | 977 | 0,02% | 134 | 0,00% | | |
| Latışlar | 530 | 0,01% | 91 | 0,00% | | |
| Estonlar | 2316 | 0,04% | 59 | 0,00% | | |
| Farslar | 123 | 0,00% | 46 | 0,00% | | |
| Çexlər | 101 | 0,00% | 46 | 0,00% | | |
| Ləzgilər | 720 | 0,01% | 44 | 0,00% | | |
| İnquşlar | 170 | 0,00% | 0 | 0,00% | | |
| Digərləri | 21846 | 0,40% | 2349 | 0,05% | 14346 | 0,39% |
| Milli kimliklərini göstərməyənlər/ qeyd etməyənlər | | | | | 1104 | 0,03% |

Mənbə: http://www.geostat.ge/

## 3.3. Gürcüstanda demoqrafik şərait: proqnozlar və perspektivlər

Gürcüstan ərazisində demoqrafik məsələlərin öyrənilməsi 1990-cı illərdən başlanmışdır. Sovet dövründə gürcülər ən mobil etnoslardan biri idi. Məlum olduğu kimi, 1990-cı illərdə SSRİ-də gürcülərin 96 faizi Gürcüstan SSR ərazisində yaşayırdı. Müstəqillik qazandıqdan sonra gürcülər kütləvi surətdə yaxın və uzaq xaricə mühacirət etdilər. Bu mühacirətin əsas səbəblərindən biri iqtisadi vəziyyətin ağırlığı idi. SSRİ dağıldıqdan sonra Gürcüstanda işsizlik artdı, əhalinin 70 faizi işsiz qaldı. Gürcüstan vətəndaşları iş tapmaq məqsədilə ölkəni tərk etdilər. Bəzi məlumatlara görə, bu gün Gürcüstan hüdudlarından kənarda 1,5 milyondan çox gürcü vardır. Dünya təcrübəsi göstərir ki, işçi mühacirəti zamanı onların yarısı öz tarixi vətənlərinə qayıda bilmir, yerli əhali ilə qaynayıb-qarışır, bəzi hallarda isə assimilyasiya olunurlar.

*"Gürcüstanı tərk etmiş gürcülərin yarım milyonu geri qayıtmamışdır. Bu demoqrafik itki II Dünya müharibəsi zamanı Gürcüstan SSR əhalisinin itkilərinə bərabərdir. Belə ki, 1941-1945-ci illərdə orduya çağırılmış 0,7 milyon insandan 0,3 milyon nəfəri geri dönmədi".*[261]

Müstəqil Gürcüstanda əhalinin ilk siyahıyaalınması 2002-ci il yanvarın 17-də keçirilmişdir. Siyahıyaalınma zamanı Abxaziya və Sxinvali regionu nəzərə alınmamış, Gürcüstanın nəzarəti altında olan ərazilərdə də siyahıyaalma həyata keçirilmişdir:

- Abxaziyanın şimal-şərq hissəsi Kodor dərəsinin yuxarı hissəsində (1956 nəfər);
- Msxeti-Mtianetinin tərkibindəki Axalqori rayonunda (7,7 min o cümlədən 6,6 min gürcü, 1,1 min osetin);

---

[261] *Демографическая ситуация в Грузии* // (материалы семинара 17 июня 2011-года ) Тбилиси, 2011, с.3-4

- Sxinvali yaxınlığındakı Şida Kartlinin Qori və Karel rayonlarına daxil olan kəndlərdə (14,5 min nəfər).

Lakin 2008-ci il müharibəsindən sonra Sxinvali bölgəsindəki yerli gürcü əhalisi gürcü qoşunları ilə Gürcüstana köçmüş, həmin ərazilər isə Abxaziya və Sxinvali regionunda separatçıların nəzarəti altına keçmişdir.[262]

2014-cü ildə əhalinin 83,4 faizi (əsasən gürcülər), pravoslav, 10,7 faizi müsəlmanlar, 0,5 faizi katoliklər, 0,2 faizi yezidi kürdlər, 0,1 faizi protestantlar, 0,003 faizi iudaistlərdir.

Gürcüstanda əhalinin 87,6 faizi gürcü, 6,2 faizi Azərbaycan, 3,9 faizi isə erməni dillərində danışır. Əhalinin 30 faizi Tbilisidə yaşayır, qadınların sayı kişilərin sayından 170 min nəfər artıqdır. 67,1 faizi 15-64 yaşlarında olanlar, 14 faizi təqaüdçü, 19 faizi uşaqlardır, 95 yaşdan artıq olan uzunömürlülər isə azdır.

Milli azlıqlar arasında baş verən demoqrafik proseslər gürcü tədqiqatçılarını, ümumiyyətlə, gürcü ictimaiyyətini ciddi düşündürür.

Qeyri-gürcülərin çox uşaqlı olması, təbii doğum artımı gürcüləri bəzi hallarda təşvişə salır. Bu problem gürcü elmi dairələrində müzakirə predmetinə çevrilir. Gürcüstan Demoqrafiya və Sosioloji Tədqiqatlar İnstitutunun ilk direktoru (1991-2005-ci illərdə) məşhur iqtisadçı-alim, Gürcüstan EA-nın müxbir üzvü L.Çikova və C.Cançqava ölkəyə miqrasiya axınının, Gürcüstanın avtoxton (gürcü) etnosunun xüsusi çəkisinin azalmasına təsir etdiyini göstərirlər.[263]

---

[262] *Перепись населения Грузии 2002 года* https:/ ru/wikipcolia. orq./ wiki/ перепись га 31 августа 2006 года. [İstifadə tarixi: 21.09.2018]

[263] Чикава Л., Джанджгава Дж. *Острая демографическая ситуация в Грузии и система мер по ее нормализации.* (на груз.яз.). Экономисти, 2010, №1 с.10

Gürcü tədqiqatçıları azərbaycanlıların yığcam yaşadıqları Kvemo-Kartli (Borçalıda) əhalinin 11 dəfə, ermənilərin Samtsxe-Cavaxetidə 4 dəfə artmasından narahatdırlar. Halbuki milli azlıqların azalması nəticəsində keçmiş SSRİ-nin polietnik şəhərlərindən biri olan Tbilisi artıq monoetnik şəhərə çevrilmişdir.

Əhalinin siyahıya alınması 2014-cü il 4 noyabr tarixində ölkə üzrə 3713804 nəfər, onlardan 2122623 nəfər şəhər əhalisini (57,15 faiz) və 591181 nəfər isə kənd əhalisini (42,85 faiz) təşkil etmişdir. Nəticədə əhali sayının 3729635 nəfər olduğu qeyd olunur (Yəni 2002-ci ilin nəticələri (4371535 nəfər) ilə müqayisədə 14,7 faiz az).[264] Şəhər əhalisi 2014-cü ildə Gürcüstanın ümumi əhalisinin 57,4 faiz, kənd əhalisi isə 42,6 faizini təşkil edirdi (2002-ci ildə uyğun olaraq 52,3 faiz və 47,7 faiz).

Gürcüstanda 2014-cü il noyabrın 5-9-da keçirilən əhalinin siyahıyaalması 2002-ci ildə keçirilən siyahıyaalmanın nəticələrini demək olar ki alt-üst etdi. Rusiya Elmlər Akademiyasının Şərqşünaslq İnstitutunun əməkdaşı N.Z.Mosaki yazır ki, 2014-cü ilə qədər Gürcüstan hakimiyyətinin yaydığı əhalinin sayı və bu göstəricilərdən yaranan digər məlumatlar düzgün deyildir. Hərçənd ki, Gürcüstanda postsovet zamanı əhalinin siyahıyaalınması keçirilsə də o, demoqrafik şəraiti düzgün əks etdirməmişdir”.[265] Müəllif bunun səbəbini siyahıyaalma zamanı gürcü mühacirlərin bir çoxlarının digər ölkələrdə qəti olaraq məskunlaşmamaları, digər hissəsinin Gürcüstanla tam əlaqələrini kəsməmələri ilə izah edir. Onlar ölkədə olmasalar da, respublikanın

---

[264] *Население Грузии* https://ru.wikipedia. org/wiki/население-грузии [İstifadə tarixi: 21.07.2018]

[265] Мосаки Н.З. *Этническая картина Грузии по результата переписи* 2014 г. //Этнографическая обозрение. 2018. N1 с.104

sakinləri kimi nəzərə alınmış, Gürcüstan hakimiyyəti hətta onların "səslərin"dən də yararlanmışdır.

2014-cü il siyahıyaalınmasını Gürcüstan hakimiyyətinin nəzarəti altında olan 57 min kvadrat kilometrə malik ərazidə ölkə rəhbərliyi Abxaziya və Cənubi Osetiya kimi işğal olunmuş əraziləri (13 min kvadrat kilometr ərazi) nəzərə almadan həyata keçirmişdir. Bu siyahıyaalma zamanı əhalinin sayı, yaş-cins strukturu, regionlar üzrə yerləşmə coğrafiyası, milli dili və dini tərkibi müəyyənləşdirilmişdir.

N.Mosakinin iddiasına görə, 2014-cü il siyahıyaalması ilk dəfə olaraq postsovet Gürcüstanın demoqrafik şəraitindəki reallığı əks etdirir. Görünür ki, XXI əsrin 20-ci illərində keçiriləcək siyahıyaalma ölkəni tamamilə tərk etmiş vətəndaşların olmadığını dəqiq müəyyənləşdirəcəkdir.

Gürcüstanın əhalisinin ümumi sayı (Cənubi Osetiyanı və Abxaziyanı nəzərə almadan) 2018-ci il yanvarın 1-də 3729600 nəfər; 2017-ci il yanvarın 1-də 3726400 nəfər; 2016-ci il yanvarın 1-də 3728600 nəfər; 2014-cü ilin yanvarın 1-də 4490500 nəfər; 2013-cü il yanvarın 1-də isə 4483800 nəfər təşkil etmişdir.

Kişilər əhalinin 47,7 faizini, qadınlar isə 52,3 faizini təşkil edir. Kişilərin orta yaş həddi 70,1 ilə, qadınların orta yaş həddi 78,6 ilə, ümumi orta göstərici isə 74,4 ilə bərabərdir.

Vladimir Xomelikinin fikrincə, gürcü əhalisinin sayı hökumət orqanları tərəfindən çox artırılmışdır. 2010-cu ilin may ayında 3,5–3,7 milyon nəfər təşkil etmişdi. 1,6-dan 2 milyon vətəndaşa qədər xaricdə olduğunu nəzərə alaraq, rəsmi məlumatlara görə, ölkədə seçici vətəndaşların sayı 4,6-4,7 milyon nəfər

və rəsmi məlumatlara əsasən ölkədə əhalinin sayı 2009-2010-cu illərdə 4,39-4,44 milyon vətəndaş təşkil edirdi.[266]

Gürcü əhalisinin dilləri kartvel, zan, svan, abxaz-adıgey, nax-Dağıstan, altay, türk, semit-xamid, hind-Avropa dil qruplarına aiddir.

2014-cü ildə əhalinin siyahıya alınması zamanı insanların aşağıdakı dini mənsubiyyətə mənsub olduğu müəyyən edilmişdir: pravoslavlar 83,41 faiz (3097,6 min nəfər), islam 10,74 faiz (398,7 min nəfər), erməni-qriqoryan 2,94 faiz (109,0 min nəfər), katolikizm (ermənilərin cüzi bir hissəsi) – 0,52 faiz (19,2 min nəfər), yezidilik – 0,23 faiz (8,6 min nəfər), protestantlar - 0,07 faiz (2,5 min nəfər), yəhudilik (yəhudilər) – 0,04 faiz (1,4 min nəfər). 2005-ci ilin iyulunda Gürcüstanda rəsmi 40 dini qurum qeydə alınmışdır.

2014-cü il əhalinin siyahıyaalınması zamanı şəhər əhalisi ölkənin 57,2 faizini və ya 2122623 nəfərini təşkil etmişdir. Onlardan 1062282 nəfəri Tbilisidə, 152839 nəfər Batumidə, 147635 nəfəri Kutaisidə, 125103 nəfəri Rustavidə, 48143 nəfəri Qoridə, 41465 nəfəri Potidə, 26135 nəfəri Xaşuridə, 25318 nəfəri Samtrediyada, 21596 nəfəri Senatidə, 20814 nəfəri Zestafonidə, 20211 nəfəri Marneulidə, 19629 nəfəri Telavidə yaşayır. [267]

2002-ci ildəki siyahıyaalmada şəhər əhalisi ölkə əhalisinin 52,3 faizini və ya 2284,8 min nəfərini təşkil edirdi. Onlardan 1081,7 min nəfəri (demək olar ki şəhərlərin yarısı - 47,4 faiz) Tbilisidə yaşayır. 2010-cu ilin əvvəlindəki qiymətləndirməyə görə, şəhər əhalisi 2350,5 min nəfəri (53 faiz) eləcə də 1152,5 min

---

[266] *Население Грузии* https://ru.wikipedia. org/wiki/население-грузии [İstifadə tarixi: 21.07.2018]

[267] Yenə orada

nəfəri (bütün şəhərlərin 49 faizi) - Tbilisidə, 192,5 min nəfəri Kutaisidə, 125123,5 mini Batumidə, 119,5 mini Rustavidə olmuşdur.

2015-ci ilin əvvəlindəki qiymətləndirməyə görə, şəhər əhalisi 2140,4 min nəfər (57,4 faiz) 52,2 faizdən çoxu Tbilisidə (1118,3 min ); 7,2 faizi Batumidə (154,1 min), 7,0 faizi Kutaisidə ( 149,1 min), 5,8 faizi Rustavidədir (125,0 min).

*Əhalinin ümumi sayı*




Mənbə: Mənbə: http://www.geostat.ge/

Cənubi Qafqazın və Mərkəzi Asiyanın, o cümlədən digər postkommunist ölkələrindən fərqli olaraq Gürcüstanda ailə böhranının səbəbi boşanmanın yüksək səviyyədə olmasıdır. Qeyd etmək lazımdır ki, Azərbaycanda doğumun aşağı səviyyəsi 2005-ci ildə sabitləşdi və əhalinin sayı artdı. Ondan fərqli olaraq Ermənistanda və Gürcüstanda 1995-ci ildən doğumun səviyyəsi aşağı düşdü və əhalinin sayı azaldı. Bu isə əhalinin artımını təmin etmədi”.[268]

---

[268] Сулаберидзе А. *Межтиповой демографической переход в Грузии на фоне посткоммунистических стран* http:e.120-bal. ru/ vebal 13640/index.html [İstifadə tarixi: 21.07.2018]

Cənubi Qafqaz ölkələrində cinslərin qarşılıqlı münasibətlərinin yüksək səviyyədə olması diqqəti cəlb edir. Azərbaycanda 2008-ci ildə 100 qıza 117 oğlan uşağı, Ermənistanda 115, Gürcüstanda isə 111-i düşür. Professor Q.Tsuladzenin fikrincə, 2007-2009-cu illərdə göstəricilərdə fərqlərə səbəb yalnız doğumun deyil, ölüm və mühacirətin də hesablanmasının dəqiq aparılmaması idi. Son 2010-2011-ci illərdə doğumun artımının, statistik hesablanmasının dəqiqləşdirilməsilə əlaqələndirən alim arzu olunmayan uşaq cinsinin süni abortla tənzimləndiyini göstərir".[269]

2007-2011-ci illərdə Gürcüstandakı doğumun yüksəlişində dəyişikliklər baş verdi.

Cənubi Qafqaz dövlətlərində avtoxton əhalinin payı müvafiq olaraq 2000-ci illərdə aşağıdakı kimi olmuşdur:

1. Gürcüstanın avtoxton əhalisi olan gürcülər 84 faiz ;
2. Azərbaycanda azərbaycanlılar 91 faiz ;
3. Ermənistanda isə ermənilər (onlar gəlmə olduqları halda avtoxton azərbaycanlıları əzəli, doğma torpaqlarından qovaraq) 98 faiz təşkil edirlər.

Gürcüstan əhalisinə münasibətdə gürcülər 1989-2015-ci illərdə aşağıdakı sayda olmuşlar (faizlə): 1990-2003-cü illərdə milli azlıqların ölkədən mühacirət etməsilə əlaqədar gürcülərin sayı 70 faizdən 84 faizə yüksəldi. 2015-ci ildə gürcülər təxminən 75-80 faizi təşkil etdi.

Cənubi Qafqaz əhalisi 2011-ci ildə 2003-cü ilə nisbətən aşağıdakı kimi artmışdır:

1. Gürcüstanda 2,5 faiz ;
2. Azərbaycanda 8,3 faiz ;
3. Ermənistanda isə 3,8 faiz.

---

[269] Цуладзе Г. *Демографическая ситуация в Грузии. Мониторинг 2011 г.* (на груз.яз) Тбилиси,2011, с.3

*Regionlar üzrə 2012-ci ildə demoqrafik göstəricilər*

| | Doğum | Ölüm | Təbii artım | Evlilik | Boşanma |
|---|---|---|---|---|---|
| Gürcüstan | 57031 | 49348 | 7683 | 304412 | 7136 |
| Tbilisi | 16573 | 12459 | 4114 | 7669 | 2883 |
| Acarstan | 5733 | 3274 | 2459 | 3476 | 574 |
| Quriya | 1538 | 1926 | -388 | 950 | 146 |
| İmereti | 8619 | 8868 | -249 | 5032 | 1038 |
| Kaxeti | 4931 | 4969 | -38 | 2251 | 477 |
| Msxeta-Mtianeti | 1235 | 1513 | -278 | 581 | 170 |
| Raça-Leçxumi Aşağı Svaneti | 384 | 891 | -507 | 266 | 39 |
| Sameqrelo Yuxarı Svaneti | 5048 | 5412 | -364 | 2973 | 507 |
| Samtsxe-Cavaxeti | 2413 | 2162 | 251 | 1367 | 177 |
| Aşağı Kartli | 6628 | 4438 | 2190 | 3702 | 706 |
| Yuxarı Kartli | 3929 | 3436 | 493 | 2145 | 419 |

Mənbə: http://www.geostat.ge/

Gürcüstanın regionlarında demoqrafik siyasət müsbət dinamikaya malikdir. Gürcüstanın təbii artımı Kvemo Kartli (azərbaycanlıların yaşadıqları Borçalı) və Samtsxe-Cavaxeti regionlarında müşahidə olunur. Bu bölgələrdə təbii artımın göstəriciləri müvafiq olaraq ölkənin orta göstəricilərindən 2 və 1,5 dəfə yüksəkdir.

*Cənubi Qafqazın gürcü, azərbaycanlı və erməni əhalisinin sayı (1926-2002-ci illərdə)*




Mənbə: http://www.geostat.ge/

Aşağı təbii artım, xaricə yüksək mühacirət yalnız Gürcüstanın deyil, bütün Cənubi Qafqazın demoqrafik mənzərəsinə ciddi təsir etmişdir. 1926-cı illə müqayisədə Cənubi Qafqazda gürcülərin sayı 2002-ci ildə 104,5 faiz (1798,0 nəfərdən 3676,1 min nəfərədək), azərbaycanlılar isə 353,2 faiz (1652,8 min nəfərdən 7490,4 min nəfərədək) artmışdır.[270]

Demoqrafik şəraitə təsir edən amillərdən biri kimi, gənclər siyasətinin əsas məqsədi onların potensialını inkişaf etdirməkdən bu potensialdan ölkənin inkişafı naminə istifadə etməkdən ibarətdir. Məlumdur ki, hər bir ölkədə gənclər siyasətinin səmərəliliyi sosial, təşkilati və psixoloji sahələrdə olan komp-

[270] Арчвадзе И. *Современные демографическое положение Грузии-заложник политико-экономического состояния* //Демографическя ситуация в Грузии (материлы семинара 17 июня 2011 года). Тбилиси, 2011, с. 14-15

leks fəaliyyətlərlə müəyyən olunur. Əhalinin bu qrupunun milli maraqların vacib obyekti kimi hökumət tərəfindən adekvat formada hazırlanması tələb olunur. Bu sahədə yaranmış problemləri həll etmək üçün ekspertlər cəmiyyətin və dövlətin siyasi-inzibati strukturlarının imkanlarından maksimum istifadə etməyi tövsiyə edirlər.

İqtisadi böhran, vətəndaş müharibəsi, separatçılıq gürcüstanlı gənclərin sosial parçalanmasını daha da gücləndirmişdir. Məlumdur ki, yoxsulluğun yüksək səviyyədə olması hər zaman sosial gərginliyə gətirib çıxarır. Gənc nəslin qarşısında dayanan problemlərin bir çoxu hələ sovet dövründən mövcuddur. Müstəqilliyin ilk illərində də ölkədə gənclər siyasətini həyata keçirən strukturlar, demək olar ki, gənclərin məruz qaldıqları ağır demoqrafik şəraitə, gənc ailələrin üzləşdiyi çətinliklərə, eyni zamanda narkomanlıq və adekvat təhsil kimi problemlərə diqqət yetirmirdilər. Gənclərin siyasi proseslərə aktiv qoşulmasında Vahid Milli Hərəkat partiyası xüsusi rol oynamışdı.

Vahid Milli Hərəkat partiyası hələ hakimiyyətə gəlməmişdən əvvəl Gürcüstandakı tələbə təşkilatları sıx əlaqə saxlamağa başladı. Əsasən bu partiya ümumi universitet məsələləri ilə məşğul idi. Vahid Milli Hərəkat Partiyasının formalaşması ərəfəsində Zurab Jvaniya, Mixeil Saakaşvili və onların komandası öz siyasi məqsədlərinə çatmaq üçün tələbə özünüidarəetmə qurumlarının və gənclər təşkilatının potensial gücündən istifadə etməyə çalışırdılar. Bu isə E.Şevardnadze hakimiyyətinə böyük təsir göstərdi. Hakimiyyətə gələn ilk gündən etibarən Vahid Milli Hərəkat Partiyası ali təhsil müəssisələrini idarə etmək üçün onlarla sıx əlaqə yaratmağa başladı. Tbilisi də dövlət və özəl ali təhsil müəssisələri nəzarət altına alındı. Gürcüstanın ali təhsil

müəssisələrində siyasi fəallaşma prosesi baş verdi. Dövlət tərəfindən 2010-cu ildə Gənclər və İdman Nazirliyinin (İndiki Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyi) yaradılması gənclərin inkişafı üçün atılan mühüm addımlardan biri olmuşdu [271].

Son illərin təcrübəsi göstərir ki, müasir dünyada strateji üstünlüyü o cəmiyyətlər əldə edir ki, orada yüksək potensialın daşıyıcısı olan gənclərdən düzgün şəkildə istifadə edilir. Gürcüstan Avropa Birliyinin gənclər siyasəti sahəsində tətbiq etdiyi metodlardan və təcrübələrdən istifadə edir. Ancaq yadda saxlamaq lazımdır ki, əgər Gürcüstanın milli və mədəni xüsusiyyətləri öyrənilməsə və layihələrin reallaşdırılması üçün səmərəli mexanizmlər hazırlanmasa, onda ən uğurlu təcrübə belə uğur qazana bilməz.

Gürcü müəllifi Georgi Dvali gənclərin məsələsinə bir qədər fərqli yanaşır. Belə ki onun rəbərlik etdiyi qrup tərəfindən xüsusi layihə hazırlanmışdı. Bu layihədə elmin inkişaf perspektivlərinə və Gürcüstanda ali təhsilin inkişaf problemlərinə xüsusi diqqət verilmişdir. Gənclərin prioritet istiqamətlərinə dair 2013-cü ildə qəbul olunan sənəd də həmçinin əhəmiyyətli hesab olunur. Bu baxımdan Gürcüstan parlamenti, Nazirlər Kabineti, Elmlər Akademiyası, patriarxlıq və gənclər təşkilatları bu məsələyə xüsusi diqqət yetirməlidirlər.[272]

Gürcüstandakı gənclərin problemlərinin təhlili göstərir ki, bu problemlər böyük miqyasdadır və vətəndaşların, o cümlədən cəmiyyət üzvlərinin hüquqları və birbaşa Gürcüstanın inkişaf perspektivləri ilə bağlı olan bir məsələdir. Gənclərin əsas vəzifə-

---

[271] *Министерство спорта и молодежи Грузии* https: //ru.m.wikipedia.org/wiki/ Министерство_спорта_и_молодежи_Грузии

[272] *Молодежная политика и государство Грузия* 03.10.2013 http://www.georgiamonitor.org/news/254/1308/

lərindən biri sosial–siyasi mühitin yaranmasına kömək etməkdir. Bu da öz növbəsində gənclərin əsas funksiyalarını reallaşdırmaqda mühüm rol oynaya bilər. Gənclər fəal və dövlətin qarşısında duran problemlərin həllində maraqlı olmalıdırlar. Gənclərin öz imkanlarını həyata keçirmələri üçün zəruri ehtiyatları və səmərəli mexanizmləri özündə birləşdirən institutlar fəaliyyət göstərirlər. Bu baxımdan son illərdə Gürcüstanda gənclər siyasəti üzrə ixtisaslaşmış xüsusi işçi qrupları yaradılır. Həmin qruplar sosial fəallığı artırmaq üçün məşğulluğa, qeyri-formal təhsilə, gənclərin sosial birliyinə, gənc iş adamlarının layihələrinə dəstək olan xüsusi proqramlar hazırlamalıdırlar. Bu baxımdan aşağıdakı sənədlər də böyük əhəmiyyət kəsb edir:

- Avropa gənclər forumunun göstərişlərinə dair təlimatı;
- Gənclər strategiyasını necə inkişaf etdirməli (2009);
- Birləşmiş Millətlər Təşkilatının gənclər siyasətini fomalaşdırması;
- Avropa komissiyasının “Ağ vərəq” adlı təlimat sənədi;
- Gürcüstan gənclərinin milli tədqiqatlarının hesabatı – Gürcüstanın Gənclər Təşkilatının Milli Şurası (yeni nəsil – yeni təşəbbüs – 2009);
- Təhsildən sonra işin başlanması və gənclərin Gürcüstanın əmək bazasında iştirakı (Ümumdünya bankı – 2006);
- Avropa fondunun təqdimatı ilə Gürcüstanda gənclərin fəallığına dair tədqiqat (2004);
- Gürcüstanda mili gənclər siyasətinin tətbiqi sənədi;
- Gənclər və uşaq birliklərinin dövlət tərəfindən dəstəklənməsi;
- Yeniyetmələrin pis təsirə düşmələrindən müdafiə olunması haqqında 28 sentyabr 2001-ci il tarixli Qanun.

Onu da nəzərə almaq lazımdır ki, gənclərin fəaliyyəti siyasi, iqtisadi və mədəni sahələrdə insan hüquqlarının pozulması ilə qarşılaşmışdır. Gürcüstanda yaşayan azərbaycanlı gənclərin ən çətin dövrü Z.Qamsaxurdianın hakimiyyəti illərində olmuşdur. Z.Qamsaxurdia "Gürcüstan gürcülər üçün" şovinist şüarı ilə ciddi problemlərin əsasını qoymuşdur. Belə ki, Gürcüstanda yaşayan azərbaycanlılara qarşı təzyiqlər edilir, evləri yandırılır və onlar silahlı dəstələr tərəfindən qorxudulurdular. Yalnız Ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Tbilisi ilə münasibətlər normallaşmağa başlamışdı. Z.Qamsaxurdia dövrü ilə müqayisədə Şevardnadzenin hakimiyyəti illəri azərbaycanlılar üçün fərqli olmuşdur. Bu dövrdə azərbaycanlılar Kvemo-Kartli (Borçalı) və Kaxeti bölgələrindəki 170 kənddə yaşayırdılar. Lakin o zaman aparılan torpaq islahatı azərbaycanlılar üçün ədalətsiz olmuşdu və onlar torpaqsız qalmışdılar. M.Saakaşvili hakimiyyətə gəldikdən sonra bu istiqamətdə müəyyən addımlar atılsa da, problem tam həll olunmadı. [273]

Təhlillər göstərir ki, Gürcüstan gənclərinin qarşısında dayanan əsas problemlər: təhsil, məşğulluq, sağlamlığın qorunması, narkomanlıq və toksikomaniya məsələləridir. Sosial və siyasi proseslərin idarə olunmasında isə gənclərin iştirakı aşağı səviyyədədir. Nəzərə almaq lazımdır ki, gənclər cəmiyyətin böyük potensiala malik olan və ölkənin inkişafına yardım edə biləcək bir hissəsidir. Ona görə də bu sosial qrupu öz problemləri ilə təkbətək qoymaq olmaz. Almaniyanın qeyri-hökumət təşkilatı

---

[273] *Gürcüstandakı azərbaycanlıların həyatı prezident üçün prioritetdirsə, hamı üçün də belə olmalıdır* http://avciya.az/gurcustandaki-az%C9%99rbaycanlilarin-h%C9%99yati-prezident-ucun prioritetdirs%C9%99-hami-ucun-d%C9%99-bel%C9%99-olmalidir/

olan Fridrix Ebert Fondu *"Keçid dövründəki nəsil"* adlı tədqiqat aparmış və bununla da gənclərin ölkədə necə yaşadığını öyrənmişdir. 2016-cı ilin may ayından iyun ayına qədər aparılan tədqiqat zamanı 14-19 yaşlı gənclərin arasında sorğu keçirilmişdir. Sorğu nəticəsində məlum olmuşdur ki, gənclərin 85 faizi heç vaxt marixuana çəkməmişdir. Onların 32 faizi siqaret çəkir, 70 faizi isə spirtli içki qəbul edir. Gənclərin 19 faizi bütün günü işlədikləri halda, 7 faizi isə bütün günü işləmirlər. Onların 71 faizi məşğulluq imkanlarına nikbin yanaşır və təhsil aldıqdan sonra iş tapacaqlarına inanırlar. Gənclərin 70 faizi valideynləri ilə birlikdə yaşayır, 62 faizi isə valideynlərindən maddi yardım alır. Sorğu olunanların 48 faizi valideynləri ilə birlikdə qərar qəbul edir, 44 faizi isə qərar qəbul etməkdə müstəqil olduqlarını qeyd edirlər. Gənclərin 69 faizi ailə həyatı qurmamış, 90 faizi isə ailə həyatı qurmağı planlaşdırır. Gənclərin üçdə bir hissəsi ailə həyatı qurmaq üçün ideal yaşın 25 olduğunu düşünürlər. Bununla belə, onların 64 faizi üçün xarakterin olması, 56 faizi üçün isə ümumi maraqların olması vacibdir. Gənclərin 74 faizinin uşağı yoxdur. Sorğu olunanların 41 faizi 2, 34 faizi isə 3 uşağının olmasını istəyir. Gənclərin 75 faizi Gürcüstanın Avropa İttifaqına üzvlüyünü, 68 faizi isə NATO-ya üzvlüyünü dəstəkləyir. Onların 81 faizi kilsə və dini qurumlara inanır. 76 faizini ordu, 62 faizini isə polis təqib edir. Tədqiqat nəticəsində 1200 nəfərdən müsahibə alınmışdır.[274]

Gürcüstanın milli gənclər siyasəti gənclərin, maraqlı olan tərəflərin, tələbə özünüidarəetmə orqanlarının, gənclər təşkilatlarının məsləhətləri və tövsiyələri nəticəsində reallaşdırılır. Hə-

---

[274] *Как живет молодежъ в Грузии - исследование "Фонда Фридриха Эберта"/31.01.2017/* http://sputnik-georgia.ru/society/20170131/ 234701743/Kak-zhivet-molodezh-v-Gruzii-issledovanie-Fonda-Fridriha-Jeberta.html

min siyasətdə Gürcüstanda keçirilən beynəlxalq təşkilatların təlimatları və aparılan tədqiqatlar əsasında verilən qiymətlər öz əksini tapır.

Gənclərin inkişafı öz-özlüyündə çoxtərəfli prosesdir. Bunun üçün onların peşəkar bacarıqlara sahib olmaları, yetkinlik dövrlərində uğur qazanmaları çox vacibdir. Bu prosesə onların təqdim etdikləri proqramlar və xidmətlər də daxildir. Gənclərin fiziki, emosional və psixoloji inkişafı öz-özlüyündə mərhələli və dövrü prosesdir. Onların uğurlu və məhsuldar yetkinliyi isə bu prosesin əsas məqsədi hesab olunur. 2018-ci il avqustun 1-də Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinin gənclər siyasəti üzrə idarəetmə departamentinin əməkdaşları "*Gənclər evi*" adlı layihə təqdim etdilər. Bu layihə gənclərə fiziki, intelektual və mənəvi baxımdan özlərini inkişaf etdirməyə kömək edən bir layihədir. [275]

Gənclərin inkişafı bu sahədə uğurlar əldə etmiş Qərb ölkələrində prioritet hesab olunur. Öz gələcəyini aydın şəkildə görən dövlətlər başa düşürlər ki, gənclərin inkişafına qoyulan investisiya gələcək üçün ən yaxşı investisiya hesab olunur.

Gürcüstanın milli gənclər siyasəti dövlətin bu məsələyə münasibətini və yanaşmasını göstərir. Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinin bir qurum kimi rolunun və vəzifəsinin dövləti və gəncləri birləşdirməkdən ibarət olması həmin siyasətdə aydın şəkildə görünür. Gənclər dövlətin əsas ehtiyat qüvvəsidir, onu inkişaf etdirmədən ölkə güc və uğur əldə edə bilməz. Gənclər siyasəti strategiyasının əsas prinsipi də bundan ibarətdir.

Gənclər cəmiyyətin elə bir hissəsidir ki, öz azadlıqları, hərəkətləri və qəbul etdikləri müstəqil qərarları ilə cəmiyyətdə fərq-

---

[275] ახალი ცხოვრების შანსი /01.08.2018/
http://www.mes.gov.ge/content.php?id=8569&lang=geo

lənirlər. Onlar daha çox mütərəqqi baxışlara malikdirlər, yeniliklərə və innovativ yanaşmalara istiqamətlənmişlər. Bu da dövlətin inkişafı üçün vacib olan bir amildir. Keçmiş Baş Nazir Mamuka Baxtadze gənclər haqqında fikrini bu cür ifadə etmişdir:

*"Parlamentə gəlməzdən əvvəl mənim gənc yenilikçilərlə görüşüm olmuşdur. Gənclərdə iqtisadiyyat prioritet sayılır. Əgər biz transmilli şirkətləri cəlb edə bilsək, bu, bizim iqtisadi və texnoloji potensialımızı, eləcə də gənclərə öz istedadlarını inkişaf etdirməyə imkan verəcəkdir".*[276]

Dövlətin gücü birinci növbədə bu cəmiyyətdə yaşayan vətəndaşların dəyərini, təhsil səviyyəsini və eləcə də cəmiyyətin inkişafını müəyyənləşdirməkdədir. Gənclərin tam dəyərli vətəndaş kimi formalaşmasında onların yaşadıqları siyasi, sosial, iqtisadi və mədəni mühit əsas rol oynayır. Bu baxımdan elə bir mühit yaradılmalıdır ki, burada gənclər hərtərəfli inkişaf edərək məlumatlı, bərabərhüquqlu, ictimai düşüncə tərzi və ölkəyə xeyirli olan şəxslərə çevrilsinlər.

Burada əsas məqsəd:

- *Gənclərin inkişafına şərait yaratmaq;*
- *Dövlətin gənclərə yanaşmasını müəyyənləşdirmək.;*
- *Dövlətin fəaliyyəti haqqında maraqlı tərəfləri məlumatlandırmaq;*
- *Uzunmüddətli yanaşma ilə gənclərin dayanıqlı fəaliyyəti və tərəflər arasındakı müəyyən işlərin səmərəli idarə edilməsi üçün şərait yaratmaqdır.*

---

[276] *Инициативы нового премъер-министра – экономика Грузии будет другой* /19.06.2018/ https://sputnik-georgia.ru /economy/ 20180619/240930365/iniciativy-novogo-premer-ministra-jekonomika-Gruzii-budet-drugoj.html

Gürcüstanda “Qızılgül inqilab”ından sonra gənclər siyasəti sahəsində radikal dəyişikliklər baş verdi. Son illərdə gənclərin inkişafı və onların ölkənin ictimai-siyasi həyatında rolunun artırılması üçün ciddi addımlar atıldı. Xüsusən də gənclərin işə düzəlmələri, keyfiyyətli təhsil almaları və dövlət xidmətlərindən istifadə etmələri üçün imkanları daha da artdı. Müasir gənclərin Gürcüstan cəmiyyətinin müxtəlif sahələrində qərar qəbuletmə prosesinə cəlb edilmələri aydın görünür. Buna misal olaraq dövlət tərəfindən yaradılan məktəb və tələbə özünüidarəetmə sistemlərinin fəaliyyətini göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, bir çox gənclər həm ictimai təşkilatlarda, həm də dövlət qulluğunda işləyirlər. Bu da onu göstərir ki, gənclər artıq qərar qəbul edən şəxslərdir. Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyi 2017-2021-ci illər üçün vahid strategiya hazırladı. Bu strategiya ölkənin davamlı inkişafı üçün mühüm rol oynadı. Keyfiyyətli təhsilin və elmin təbliğ olunması Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinin əsas prioritetləridir.[277]

İdmanın inkişaf proqramı 2016-2020-ci illərdə Gürcüstan hökumətinin gənclər siyasətinin əsas istiqamətlərindən biridir. Bu proqram gənclərin idman tədbirlərində fəal iştirakını və sağlam həyat tərzi prinsiplərinin tətbiqini nəzərdə tutur.[278]

Gürcülər humanist və tolerant bir xalq kimi həmişə Avropa sivilizasiyasına inteqrasiya olunmağa can atmışdır. Təsadüfi

---

[277] განათლებისა და მეცნიერების ერთიანი სტრატეგიის (2017-2021) სტრატეგიული ამოცანებისა და სამოქმედო გეგმის შესრულების მონიტორინგის ანგარიში http://mes.gov.ge/uploads/MESStrategy_2017-2021. [İstifadə tarixi: 07.12.2017]

[278] В каждом районе Грузии будет построен спорткомплекс https://sputnik-georgia.ru/society/20170502/235822173/V-kazhdom-rajone-Gruzii-budet-postroen-sportkompleks.html [İstifadə tarixi: 02.05.2017]

deyildir ki, 2017-ci ilin martında Gürcüstan Avropa İttifaqı ölkələrinə vizasız rejim hüququ əldə etdi. Artıq 2017-ci ilin dekabrında 170 min nəfər Gürcüstan vətəndaşına Avropa ölkələrinə vizasız səfər etmək hüququ verildi.[279] Bu xəttin intensivliyi "Qızılgül inqilabı"ndan sonra daha da sürətlənmişdir. Qeyd etmək lazımdır ki, gənclər seçilmiş bu istiqamətin düzgün və lazımlı olduğunu çox yaxşı dərk edirlər.

Gürcüstan cəmiyyətinin yenidən qurulması prosesinin aparıcı qüvvəsi azad düşüncəli gənclərdir. Gürcüstan demokratik inkişaf yolu ilə gedir, ölkədə köklü dəyişikliklər baş verir, islahatlar həyata keçirilir. Həmin islahatlar cəmiyyətə müsbət təsir göstərərək ölkədə demokratik cəmiyyət və idarəetmə sisteminin yaradılmasına səbəb olur.

İstənilən ölkənin davamlı inkişafı üçün dövlətin demokratik idarəetmə üsulunun olması vacibdir. Dövlətin idarəçiliyinə tabe olan bütün sahələr cəmiyyətin tələbinə cavab verməlidir. Şəffaflıq prinsipi hər bir vətəndaş üçün əlçatan olmalıdır. Gürcüstanın gənclər siyasəti bu prinsipə və istiqamətə əsaslanmalıdır. Bu nöqteyi-nəzərdən beynəlxalq təcrübələri tətbiq etmək lazımdır. Əsasən dövlətin gənclər siyasəti və idarəsi başqa demokratik ölkələrin təcrübələri ilə harmoniya təşkil etməlidir. Bu, bir tərəfdən dövlətin gənclər siyasətinin səmərəliyini gücləndirər, digər tərəfdən də beynəlxalq əməkdaşlığın imkanlarını artırmaq üçün yaxşı şərait yarada bilər.

Ölkənin demokratik inkişafı cəmiyyətin mədəni siyasəti ilə birbaşa bağlıdır. Ona görə ki, demokratik inkişaf bu ölkədə vətəndaş dəyərləri ilə müəyyənləşir. Gənclərin inkişafına qayğı

---

[279] *Европейский год Грузии* https://www.newsgeorgia.ge/evropejskij-god-gruzii/[İstifadə tarixi: 05.01.2018]

onlarda demokratik və vətəndaş dəyərlərinin formalaşması dövlətin əsas prioritetlərindən biri olmalıdır.

Şəxsiyyətin formalaşmasında ətraf mühit mühüm rol oynayır. Ölkədə mövcud olan iqtisadi, sosial və mədəni mühit:

- *Gənclərdə dövlətçilik şüuru, vətəndaş və demokratik dəyərlər formalaşdırmalı, onlara öz hüquq və məsuliyyətlərini dərk etməyi, qanuna hörmət aşılamalıdır;*
- *Gənclərin istedad və bacarıqlarını inkişaf etdirməli onların faydalı vərdişlər əldə etməklərinə şərait yaratmalıdır;*
- *Gənclərdə ölkə və özlərinin gələcəyi qarşısında məsuliyyət yaradır, özlərinin cəmiyyətdə ki rolunu dərk etdirir;*
- *Gənclər arasında cəmiyyətdə sağlam həyat tərzi formalaşdırır;*
- *Gənclərin mədəni yaradıcılıq səylərini artırır və inkişaf etdirir. İncəsənətin müxtəlif sahələrində istedadlı cavanların aşkara çıxarılmasına şərait yaradır; həmçinin onlarda sərbəst düşünmək tərzi, özünütəsdiq və əsas məsələlərə münasibətdə şəxsi nöqteyi-nəzərlərini inkişaf etdirmək imkanı yaradır.*

Cəmiyyətin tənzimlənməsi üçün qanunvericilik bazasının yaradılması vacibdir. Bir sıra ölkələrdə gənclərin fəaliyyəti dövlət tərəfindən bu istiqamətdəki hüquq və öhdəlikləri əks etdirən qanunla tənzimlənir. İnkişaf etmiş ölkələrdə ümumiyyətlə gənclərin fəaliyyətinə aid qanunlar mövcud deyildir. Bu ölkələrdə gənclərin fəaliyyətinin yüksək səviyyədə olması dövlətin normativ hüquqi aktları əsasında əldə edilir. Hər bir ölkənin təcrübəsi, əsasən onun mədəniyyətindən, dövlət quruluşundan və gənclər məsələlərinin dövlət tərəfindən həyata keçirilməsindən asılıdır. Bir sıra normativ aktlar, gənclər sahəsinə əlavə tənzimləmə şərtləri qoyurlar.

Gənclərin fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi və onun müsbət istiqamətdə inkişaf etdirilməsi başqa sahələrdən fərqlənir. Gənclər cəmiyyətin vacib hissəsi kimi dövlətin xidmət və proqramlarından tam istifadə etmək hüququna malikdirlər. Ölkənin idarəedici orqanlarında gənclər bir çox çətinliklərlərlə üzləşirlər. Buna misal olaraq məsul qurumun müəyyənləşməsini, vəzifə bölgüsünü və başqa məsələləri göstərmək olar.

Bir çox Avropa ölkələrində gənclərin fəaliyyətinə nəzarət edən ayrıca bir qurum yoxdur. Həmin ölkələrdə gənclərin problemlərinə dair təhsil, mədəniyyət və digər nazirliklərin səlahiyyətinə daxil olan bir idarəetmə modeli vardır. Bu baxımdan beynəlxalq təcrübəyə əsaslanaraq belə bir qərara gəlmək olar ki, hər hansı bir dövlətdə gənclərin məsələsi ilə məşğul olan ayrıca bir qurum mövcud olsa onda daha çox müvəffəqiyyətə nail olmaq olar.

Hal-hazırda Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyi gənclərlə bağlı bir çox çətinlikləri aradan qaldırmağa çalışır. Nazirlik ölkədə gənclər siyasətinin həyata keçirilən əsas icraedici strukturdur. Onun əsas vəzifəsi ölkədə gənclər siyasətinin əsas istiqamətlərini müəyyənləşdirməkdən, həmçinin gənclərə qayğı göstərməkdən və uyğun dövlət proqramlarını hazırlamaqdan ibarətdir.

İndiyə qədər gənclərə mövcud münasibət bu sahədə vahid səmərəli bir siyasət yeritməyə imkan vermirdi. Digər bir tərəfdən gənclərin idarə olunması sahəsində də müsbət nəticələr əldə olunmurdu. Bu baxımdan Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyi gənclər sahəsində dövlət siyasətini planlı surətdə həyat keçirmək üçün yaradılmışdır. Ona görə də nazirlik ilk növbədə bir sıra hadisələri təhlil etməli, tədqiqat aparmalı, eyni zamanda müxtəlif dövlət təşkilatları və qurumlarla sıx əməkdaşlıq etməlidir.

Son illərdə Gürcüstanın elm və təhsil sahəsində aparılan islahatlarda əhəmiyyətli yeniliklərə imza atıldı. Lakin təhsilin keyfiyyəti və hazırlıq xidmətləri ilə bağlı problemlər hələ də qalmaqdadır. Ən vacib amillərdən biri elmin təbliği üçün texnologiya və innovasiya sisteminin modernləşdirilməsidir. Dövlət gənclər siyasəti Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinin dəstəyi ilə gənclərə ədalətli yanaşmanı təmin edən ictimai prinsiplərə uyğun olaraq aparılmalıdır. Nazirlik ədalət prinsipinə əsaslanaraq hər bir gəncə yeni başlanğıc imkanları verə bilər. Həmin prinsiplər əsasında aparılan siyasət gənclərin problemlərinin həllində ədalətsiz yanaşmaya yol vermir. Bu baxımdan maraqlı olan tərəflər arasında aşağıdakı prinsiplərə riayət olunmalıdır:

- *gənclərə etnik mənsubiyyətindən, cinsindən, irqindən, sosial durumundan, siyasi və dini baxışlarından, məhdud imkanlarından asılı olmayaraq eyni münasibət göstərmək;*
- *şəffaf gənclər siyasətini həyata keçirən dövlət qurumlarının ictimailiyi;*
- *gənclər birliyinin iştirakı və onlarla birlikdə gənclərin problemlərinin həlli istiqamətində birgə qərar qəbul etmək, eləcə də onlar üçün vacib məsələlərin həllinə gənclərin özlərini cəlb etmək;*
- *dövlət tərəfindən gənclər siyasətini həyata keçirərkən müəyyən ictimai qrupa və ya gənclər təşkilatına üstünlüyün verilməsinin yolverilməzliyi;*
- *dövlət tərəfindən, yerli özünüidarəetmə orqanları və gənclər təşkilatları tərəfindən gənclərlə bağlı aktual məsələlərin mütəmadi olaraq təqdim edilməsi və məlumatlandırılması;*

- *beynəlxalq və yerli təşkilatlarda ünsiyyətin qarşılıqlı razılaşma əsasında qurulması;*
- *hər bir gəncin şəxsi inkişafı üçün bərabər hüquqları, fasiləsiz təhsil almaq hüququ, öz peşəsinə uyğun olaraq məşğulluq növü və seçim imkanlarının olması;*
- *yerli, regional və beynəlxalq miqyasda əməkdaşlığın olması;*
- *bütün insanlara hörmət edilməsi, həmçinin gənclər arasında intelektual dialoqun inkişafı üçün yaradıcılıq imkanlarının genişləndirilməsi.*

Ölkədə gənclərin inkişafına mane olan bir sıra problemlər vardır. Bu baxımdan Gürcüstanda yaşayan gənclərin müəyyən tələb və ehtiyaclarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- *Təhsil* (formal, qeyri-formal);
- *Məşğulluq;*
- *Təhlükəsizlik;*
- *Tibbi xidmət;*
- *Özünü inkişaf etdirmək;*
- *Öz hüquq, imkan və məsuliyyəti haqqında məlumatlı olmaq;*
- *Sahibkarlıq, yaradıcılıq, siyasi və sosial fəaliyyət;*
- *İstirahət, əyləncə və səyahət;*
- *Təşkilatçılıq.*

Gürcüstanın 20 faizi hazirda işğal altındadır. Bu ərazilərdə yaşayan gənc insanlar inkişaf perspektivlərindən kənarda qalırlar. Ərazidə yaşayan insanlarla yanaşı buraya köçürülən qaçqınların da xüsusi ehtiyacları vardır. Bu tələblərin təmin edilməsi eyni zamanda onlara uyğun mühitin yaradılması üçün dövlət gəncləri fəaliyyət proqramları ilə təmin edir. Qeyd edildiyi kimi, gənclər cəmiyyətin xüsusi yanaşma tələb edən bir hissəsidir. Bu amilin müxtəlif dövlət proqramlarında nəzərə alınması vacibdir.

Müasir Gürcüstanda yaşayan azərbaycanlı gənclərin əsas problemlərindən biri işsizlikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Marneuli rayonunda yaşayan azərbaycanlılarla görüşündə azərbaycanlı iş adamlarını Gürcüstana sərmayə qoymağa, bununla azərbaycanlıların işsizlik probleminin həlinə yardımçı olmağa çağırmışdır. Bu çağırışdan sonra bir neçə şirkət artıq Gürcüstanda fəaliyyətə başlamışdır. Bugün Gürcüstanın ən böyük vergi ödəyicisi olan "SOCAR-Georgia" şirkəti Gürcüstanda yaşayan azərbaycanlılara çox böyük dəstək verir. Artıq çoxlu sayda insanlar bu şirkətdə işlə təmin olunmuşlar. Bu ölkədə 21 yanacaqdoldurma məntəqəsi işə başlamışdır ki, onların da əksəriyyəti azərbaycanlıların yaşadıqları bölgələrdədir. Bu məntəqələrdə xeyli sayda azərbaycanlı işlə təmin olunmuşdur. Dmanisidə süd-yağ emalı müəssisəsinin yaradılmasına başlanılmışdır. Çünki o bölgədə yaşayan azərbaycanlıların əksəriyyəti heyvandarlıqla məşğul olur.[280]

Bir millət və toplumun inkişafı üçün təhsil ən vacib məsələdir. Ölkədə təhsilin səviyyəsindən tutmuş, müəllim çatışmazlığına qədər xeyli sayda problemlər vardır. Gürcüstandakı Azərbaycan məktəblərində müəllim çatışmır. Müəllimlərin, demək olar ki, əksər hissəsi təqaüd yaşındadır. Bu baxımdan məktəblərin üzləşdiyi əsas problemlərdən biri kadr çatışmazlığıdır. Azərbaycanlı gənclərin dövlət idarəçiliyində təmsilçilik faizi çox aşağıdır. Gürcüstan tərəfi bunu azərbaycanlıların gürcü dilini bilməmələri ilə əsaslandırır. Gürcü dilini bilməyən azərbaycanlılar üçün açılan gürcü dili kurslarının sayı isə artır. Bu məsələyə

[280] *Gürcüstandakı azərbaycanlıların həyatı prezident üçün prioritetdirsə, hamı üçün də belə olmalıdır* http://avciya.az/gurcustandaki-az%C9%99 rbaycanlilarin-h%C9%99yati-prezident-ucun-prioritetdirs%C9%99-hami-ucun-d%C9%99-bel%C9%99-olmalidir/

Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən çox böyük dəstəklər göstərilmişdir və göstərilir .[281]

Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyi öz üzərinə düşən müəyyən funksiyanı yerinə yetirməlidir. Onların işi müxtəlif dövlət təşkilatlarının proqram və strategiyasını gənclərin tələblərinə və ehtiyaclarına doğru yönəltməkdir. Dövlət gəncləri elə bir proqram ilə təmin etməlidir ki, onun köməkliyi ilə gənclər özlərini təsdiq etməli və eyni zamanda qərar qəbuletmə prosesinə qoşulmalıdırlar.

Gürcüstan beynəlxalq səviyyədə gənclərin hüquqlarını və İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsini, həmçinin Uşaq Hüquqları üzrə Beynəlxalq Konvensiyanı tanıyır və təsdiq edir.

Gənclərin əsas hüquqları:

- *Həyat;*
- *İfadə və din azadlığı;*
- *Bərabərlik;*
- *İştirak;*
- *İnkişaf;*
- *İnkişafına kömək edən informasiya və xidmətlərin mövcudluğu;*
- *Fiziki və psixoloji təzyiqdən müdafiə.*

Gənclərin hüquq müdafiəsini təmin etmək üçün ən əsas məsələ məsuliyyətin olmasıdır.

Gənclərin məsuliyyəti aşağıdakıları nəzərdə tutur:

- *Öz hüquq və azadlıqlarının müdafiəsi;*
- *Onların gələcəyinə təsir edə biləcək qərarların məsuliyyətini öz üzərlərinə götürmələri;*

---

[281] *Yenə orada*

- *Ümumi təhsil almaqları;*
- *Öz inkişafları üçün mövcud imkanlardan maksimum istifadə etməkləri;*
- *Özünə, ətrafdakılara və vətənə hörmət etmələri;*
- *Vətəndaş cəmiyyətinin fəxri üzvü olmaları və dövlət qulluğunda öz töhfələrini vermələri;*
- *Cəmiyyətin müdafiə, qayğı və diqqət tələb edən hissəsinə qayğı göstərmələri.*

Gürcüstanın milli gənclər siyasəti və onun çoxşaxəli istiqaməti gənclərin inkişafına səbəb olacaqdır. Bu siyasət gənclərin problemlərinin həlli ilə məşğul olan təşkilatlarla əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasında mühüm rol oynayır. Məhz qarşılıqlı əməkdaşlıq prinsipi əsasında qurulan mexanizmlər gənclərin inkişafını təmin etmək üçün ən əlverişli strateji qərardır.

Gənclərin idarə olunması prosesində dövlət üçün əsas məsələlərdən biri bu sahədə işləyən və maraqlı olan tərəflərin fəaliyyətini istiqamətləndirməkdir. Bütövlükdə isə gənclər sahəsi özündə aşağıdakı qurumları birləşdirir:

- *Gürcüstanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyini;*
- *Gürcüstan parlamentinin İdman və Gənclərlə üzrə iş komitəsini;*
- *Gənclərlə birbaşa əlaqəli olan Gürcüstanın dövlət və yerli özünüidarəetmə orqanlarını;*
- *Gənclər təşkilatlarını, məktəbli və tələbə özünüidarəetmə orqanlarını;*
- *Beynəlxalq donor təşkilatlarını və diplomatik korpuslarını;*
- *Gənclərlə işləyən yerli və qeyri-hökumət təşkilatlarını;*
- *Kütləvi informasiya vasitələrini və s.*

Gürcüstanda vətəndaş cəmiyyətinin və beynəlxalq ictimaiyyətin səyləri nəticəsində gənclərlə bağlı bir çox layihələr həyata keçirilmişdir. Sözügedən layihələri həyata keçirən tərəflər arasında daha sıx əlaqənin olması tələb olunur. Əlaqələrin kifayət qədər olmaması keyfiyyətli ehtiyatların səmərəsini azaldır. Layihələr bəzən formal xarakter daşıyır. Gürcüstanda dövlət strategiyasının yaranması yeni yanaşmaların formalaşması üçün əsas ola bilər. Maraqlı olan tərəflər dövlət siyasətini və strategiyasını əks etdirən istiqamətlərə diqqət yetirməlidirlər. Həmçinin proqramların regional baxımdan uyğunlaşması üçün səmərəli yollar axtarılmalıdır. İctimai siyasətin və strategiyanın hazırlanması gənclər sahəsində görülən fəaliyyət haqqında məlumatların toplanmasına, təhlil edilməsinə və qiymətlən-dirilməsinə imkan verəcəkdir. Bu strategiya uzunmüddətli olmalıdır ki, bu sahənin inkişafını daha da möhkəmləndirsin.

Bu gün gənclər təşkilatlarının səmərəli fəaliyyəti üçün onlar maliyyə ehtiyatları ilə təmin olunmuşdur. Təşkilatların fəaliyyəti üçün əsas amillər bunlardır.

- *Fəaliyyətin həyata keçirilməsi üçün çatışmayan maliyyə ehtiyatları;*
- *Gürcüstanda fəaliyyətdə olan beynəlxalq və donor təşkilatların yetərsiz əlaqələri;*
- *Təşkilati idarəetmə layihələrinin hazırlanmasında beynəlxalq fəaliyyətin, ictimai siyasətin planlaşdırılması və həyata keçirilməsi prosesində iştirakın aşağı səviyyədə olması.*

Bu gün Cənubi Qafqazın hər üç etnosunun sayına mühacirət, doğumun səviyyəsi və təbii artım təsir edir.

*Gürcüstanın regionları üzrə 2013-cü ildə*
*əsas demoqrafik göstəricilər*

| | Doğum | Ölüm | Təbii artım | Evlilik | Boşanma |
|---|---|---|---|---|---|
| Gürcüstan | 57878 | 48553 | 9325 | 34693 | 8089 |
| Tbilisi | 17010 | 12358 | 4652 | 8571 | 3063 |
| Acarıstan | 5909 | 3289 | 2620 | 3564 | 546 |
| Quriya | 1575 | 1912 | -335 | 1096 | 176 |
| İmereti | 8496 | 8691 | -195 | 5155 | 1175 |
| Kaxeti | 5014 | 4921 | 93 | 3904 | 595 |
| Msxeta-Mtianeti | 1279 | 1418 | -139 | 769 | 194 |
| Raça-Leçxumi Aşağı Svaneti | 342 | 763 | -421 | 277 | 51 |
| Yuxarı Sameqrelo Svaneti | 5066 | 5343 | -277 | 3254 | 772 |
| Samtsxe-Cavaxeti | 2394 | 2068 | 326 | 1468 | 169 |
| Aşağı Kartli | 6730 | 4280 | 2450 | 3987 | 879 |
| Yuxarı Kartli | 4063 | 3512 | 551 | 2648 | 469 |

Mənbə: http://www.geostat.ge/

Qiymətləndirici məlumata görə, 1960-1991-ci illərdə Gürcüstanın əhalisi 1099 min nəfər artdığı halda, 1992-2000-ci illərdə 882 min nəfər, 2008-ci ildə isə daha 259 min nəfər azalmışdır. Gürcü tədqiqatçısı Q. Tsuladze yazır ki, "nəzərə almaq lazımdır ki, Gürcüstanın Statistik Departamentinin hesabladığı əhalinin sayı daimi əhali kateqoriyasına aid olduğu halda, qiymətləndirici məlumatlar faktiki əhali kateqoriyasına aiddir. Bu

zaman qeyd etmək lazımdır ki, Gürcüstandan mühacirət edənlərin müəyyən miqdarı Gürcüstan vətəndaşlığını saxlayırlar. Digər tərəfdən, Statistika Departamentinin ölənlərin sayı ilə əlaqədar məlumatları real faktlarla müqayisədə natamamdır”[282]. Müəllif 1960-1991-ci illərdə Gürcüstanda əhalinin kəmiyyətcə formalaşmasının əsas komponentinin təbii artım, 1992-ci ildən başlayaraq xarici mühacirət olduğunu göstərir.

XX əsrin 60-cı illərindən indiyədək Gürcüstan əhalisinin cins-yaş tərkibi ciddi dəyişikliyə məruz qalmışdır. Bu dövrdə əhalinin 15 yaşadək olanların payı azalmış, 65 yaş və ondan artıq olanların sayı artmışdır. Müasir Gürcüstanda demoqrafik qocalıq olduqca yüksək səviyyədədir.

Məşhur Gürcüstan demoqrafı Anzor Totadze belə hesab edir ki, Gürcüstan ciddi demoqrafik problemlərin qarşısındadır: doğum səviyyəsi azalmış, ölkədən miqrasiya olunanların sayı isə artmaqdadır. O, fəlakətli nəticələrdən qaçmaq üçün hər kəsi dərhal hərəkətə keçməyə çağırır. Belə ki, bu məsələ ilə əlaqədar olaraq Gürcüstanın Sputnik mətbuat mərkəzində “Gürcüstanın demoqrafik inkişafı – ssenarilər və təhdidlər” mövzusunda dəyirmi masa keçirilmişdir. Onun sözlərinə görə, Gürcüstandakı əhalinin sayı haqqında olan ilkin məlumat 1254-cü ilə əsaslanır. O vaxt vergiləri müəyyənləşdirmək və ordu yaratmaq üçün əhalinin siyahıya alınması aparılırdı. Növbəti məlumatlar artıq 1800-cü ildəki vəziyyəti göstərir. O zaman ölkədə 675 min nəfər insan yaşayırdı. Amma 1814-cü ildə isə bu rəqəm 400 min nəfərə endi.[283]

---

[282] *Демографическая ситуация в Грузии* (Материалы семинара 17 июня 2011 года), Тбилиси, 2011, с.17

[283] Тотадзе А. *Что будет с Грузией и грузинами - как избежать демографической катастрофы* https://sputnikgeorgia.Ru/reviews

“Gürcüstanda bu dərəcədə əhalinin sayının az olması əsrlər boyu müşahidə olunmamışdır. Bu cür fəlakətli vəziyyətin yaranmasının səbəbi isə vəba xəstəliyi idi. Əhalinin yarısı demək olar ki, öldü. Gürcüstanda vəba xəstəliyi ilk əvvəl Kartli-Kaxetidə meydana gəldi, sonra isə İmereti bölgəsinə yayıldı. Bu zaman imeretlilərin sayı bütövlükdə 140 min nəfərdən ibarət idi. Lakin 1811-ci ildə vəba xəstəliyi nəticəsində onların sayı azalaraq 80 minə çatdı. Beləliklə, vəba xəstəliyi 1811-1814-cü illərdə yayılaraq bütün ölkəni əhatə etmişdir”, - deyə A.Totadze bildirmişdir.

1897-ci ildə Rusiya imperiyasındakı əhalinin siyahıya alınması aparılmışdır. Bu məlumatlara əsasən eyni zamanda Gürcüstanda 2 milyon 109 min insan yaşayırmış. Gürcülər sözün əsl mənasında fiziki cəhətdən məhv olmadan xilas olmuşdurlar.

*“Çoxları sual verə bilər ki 83 il ərzində əhalinin sayı 5 dəfə necə arta bilər? Amma əgər müharibələr və epidemiyalar olmasa hər bir elm adamı təsdiq edə bilər ki, əhalinin sayı 20-25 il ərzində artacaqdır”,*[284] - deyə A.Totadze qeyd etmişdirdir.

1926-cı ildə Gürcüstanda təxminən iki milyondan bir qədər çox insan yaşayırdı. 1989-cu ildə bu rəqəm artaraq 5,5 milyon nəfərə çatdı.

Son illər ərzində Gürcüstanda əhalinin ən çox sayı 1992-ci ildə qeydə alınmışdır. Bu zaman əhalinin sayı 5 milyon 467 min nəfərdən ibarət idi. 2002-ci ildən etibarən isə əhalinin sayı azalmağa başladı və bu gün 3,7 milyon nəfərdən ibarətdir.

---

/20190225/244506197/Chto-budet-s-Gruziey-i-gruzinami-kak-izbezhat-demograficheskoy-katastrofy.html

[284] Тотадзе А. *Что будет с Грузией и грузинами - как избежать демографической катастрофы* https://sputnikgeorgia.Ru/reviews /20190225/244506197/Chto-budet-s-Gruziey-i-gruzinami-kak-izbezhat-demograficheskoy-katastrofy.html

A.Totadze həmçinin qeyd edir ki, Gürcüstanda doğulan uşaqların ən çox sayı 104 min nəfər olmaqla 1961-ci ildə müşahidə olunmuşdur. 1992-ci ildən etibarən isə Gürcüstanda doğum nisbəti əhəmiyyətli dərəcədə azalmağa başladı. 2005-ci ildə isə Gürcüstanda yalnız 46 min uşaq anadan olmuşdu.

Demoqraflar gürcü jurnalistlərini Gürcüstandakı əhalinin azalma problemini və bununla bağlı gözlənilən nəticələri ictimaiyyətə təqdim etməyə çağırırlar. Bu demoqrafik problemlə Avropa da üzləşmişdir. Güclü Avropa dövlətləri bu problemin həlli üçün böyük məbləğdə pul xərcləyirlər. Çünki bu gedişlə titullu ölkələr faktiki olaraq dünya xəritəsindən silinirlər.[285]

Hazırda Gürcüstan və Ermənistan Cənubi Qafqazda demoqrafik fəlakət həddində olan ölkələr hesab olunur. Bütün sahələrdə olduğu kimi, Ermənistan özünün demoqrafik vəziyyətini təhrif olunmuş şəkildə təqdim edir. Gürcüstan isə demoqrafik fəlakət həddində olduğunu etiraf edir və onun qarşısının alınması üçün ciddi tədbirlər görməyə cəhd edir.

| *Gürcüstan əhalisinin say dinamikası* | | |
|---|---|---|
| Il | min nəfər | Cənubi Osetiya və Abxaziya olmadan |
| 1900 | 2000,0 | ... |
| 1959 | 4044,0 | 3542,5 |
| 1970 | 4686,4 | 4099,0 |
| 1979 | 4993,0 | 4409,5 |
| 1989 | 5499,9 | 4875,8 |

285 *Как с веками менялось население Грузии* https://sputnik-georgia.ru/reviews/20190225/244506398/Kak-s-vekami-menyalos-naselenie-Gruzii.html

| | | |
|---|---|---|
| 1990 | 5424,4 | ... |
| 1991 | 5453,3 | ... |
| 1992 | 5467,4 | ... |
| 1993 | 5345,8 | ... |
| 1994 | 4929,9 | ... |
| 1995 | 4794,2 | ... |
| 1996 | 4674,5 | ... |
| 1997 | 4558,4 | ... |
| 1998 | 4504,9 | ... |
| 1999 | 4469,8 | ... |
| 2000 | 4435,2 | ... |
| 2001 | 4401,4 | ... |
| 2002 | 4371,5 | 4361,9 |
| 2003 | 4342,6 | ... |
| 2004 | 4315,2 | ... |
| 2005 | 4321,5 | ... |
| 2006 | 4394,7 | 4384,4 |
| 2007 | 4401,3 | 4377,8 |
| 2008 | 4382,1 | 4365,2 |
| 2009 | 4385,4 | 4368,5 |
| 2010 | 4436,4 | 4436,4 |
| 2011 | 4469,2 | 4469,2 |
| 2012 | 4497,6 | 4497,6 |
| 2013 | 4483,8 | 4483,8 |
| 2014 | 4490,5 | 4490,5 |
| 2015 | 3721,9 | 3721,9 |
| 2016 | 3728,6 | 3728,6 |
| 2017 | 3729,6 | 3729,6 |

Mənbə: http://www.geostat.ge/

“Ümumdünya ailələr konqresin”in direktoru Tinatin Xarbaladze təşvişlə qeyd edir ki, bu gün Gürcüstanda 3 milyondan bir qədər çox əhali yaşayır. Onun fikrincə, BMT Katibliyinin İqtisadi və Sosial məsələlər üzrə Departamenti gürcüləri “tükənməkdə, nəsli kəsilməkdə olan millətlər”, gürcü dilini isə “yox olmaqda olan dillər” siyahısına daxil etmişdir. BMT-nin məlumatına və proqnozlarına görə, 2050-ci ildə Gürcüstan əhalisinin 28 faiz azalacağı ehtimal olunur. T.Xarbaladze demoqrafik böhranın səbəbi kimi ağır iqtisadi şəraitin mövcudluğunu, ölkənin keçmiş prezidenti M.Saakaşvilinin siyasətini, Qərbin liberal ideologiyasını göstərir.[286] Müəllif bildirir ki, Gürcüstanda gürcülərin doğum səviyyəsi olduqca aşağıdır, Gürcüstanın genofondu məhv olmaq həddindədir.

Ümumdünya Bankının məlumatına görə, Gürcüstanda 2005-ci ildə qeydə alınan doğum artımı Cənubi Qafqazda rekord həddə olmuşdur. Ailələrdə ən aşağı doğum göstəricisi 2015-ci ildə (42 faizdən az) qeydə alınmışdır.[287]

2017-ci ilin birinci yarımilliyində Gürcüstanda ölüm səviyyəsi doğum səviyyəsini geridə qoymuşdur. Bu haqda Milli Statistika Xidmətinin direktoru Tengiz Sekvava Tbilisidə keçirilən mətbuat konfransında bildirmişdir. O deyirdi:

*“2017-ci ilin altı ayında başqa illərə nisbətən doğum səviyyəsi ölüm səviyyəsindən geridə qalmışdır. Yəni ölənlərin sayı doğulanların sayını keçmişdir. Bu proses eynilə 1990–cı illərdəki do-*

---

[286] *Демографический спад превратил Грузию в вымираюшую нацию* https:// ru.sputinik.fi.com (world/20160930/ 1020768690/html. [İstifadə tarixi: 08.10.2018]

[287] *Демографическая ситуация в Грузии* https://sputnik-georgia.ru/trend/demigraf/ [İstifadə tarixi: 08.10.2018]

*ğumun azalması ilə bağlıdır. 1990-cı illərdə baş verən uğursuzluq nəticəsində yaxın bir neçə ildə doğumun səviyyəsi azalacaqdır".*[288]

Onun sözlərinə görə, 90-cı illərdəki demoqrafik böhrana görə doğumun səviyyəsi daha da düşəcəkdir. 1991-ci illərlə müqayisədə (1989-cu ildə - 5,5 milyon nəfər) Gürcüstan əhalisinin sayı 1,8 milyon nəfər azalmışdır. 2014-cü ildə - 3,7 milyon nəfər (2002-ci il siyahıya alınmasına görə Gürcüstanda 4,3 milyon nəfər) təşkil edirdi.

T.Sekvava gürcü əhalisinin azalmasına səbəb kimi Sovet İttifaqının dağılmasını, Abxaziya və Cənubi Osetiya ilə silahlı münaqişələri, eləcə də XX əsrin 90-cı illərində baş verən kütləvi miqrasiyanı göstərirdi. "Məhz o dövrün qadınlarının hal-hazırdakı doğum yaşında olduqlarına görə uşaqları da uyğun olaraq azdır," – deyə o, əlavə etmişdir. O, hazırkı vəziyyətdən çıxış yolunu doğumun artırılmasında görür ki, bu da ölkənin iqtisadi vəziyyətinin yaxşılaşması ilə təmin edilə bilər.

Gürcüstanın rəsmi statistikası illik nəticələri (əhalinin vahid hərəkətini) adətən böyük gecikmələrlə qeyd edir. Bundan başqa miqrasiya haqqında adekvat məlumatlar təqdim edilmir. Əhalinin ümumi sayı çox saxtalaşdılmışdır. 2014-cü ildə əhalinin sayı 4,5 milyon nəfər göstərilmişdir, indi isə onu 3,7 milyon nəfər şəklində göstərirlər. 800000 nəfərlik fərqin səbəbini, Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun gürcü ofisində uzun illər işləmiş Georgi Suladzedən başqa heç kəs izah etmir. O belə hesab edir ki, 800000 nəfər ya heç olmamış, ya da onlar çoxdan Gürcüstanı tərk etmişlər. Eyni zamanda bu 800000 nəfə-

---

[288] *В Грузии отмечают ухудшение демографической ситуации.* https://korrespondent.net/world/3677953-v-hruzyy-otmechauit-ukhudshenye-demohrafycheskoi-sytuatsyy/ [İstifadə tarixi: 3.05. 2016]

rin təxminən yarıdan çoxu Gürüstanda yoxdur, ya da təqribi hər beşincisi demək olar ki heç mövcud olmamışdır (bunu 2004–2005 və 2009–2011-ci illərdə Gürcüstanın miqrasiya statistikası uydurmuşdur) və ya hər üçüncüsü hələ də Gürcüstandadır. Yəni bu siyahıyaalma dəqiq deyildir. Gürcüstanda əhali 4,04 milyon olduğu halda 3,73 milyon nəfər göstərilmişdir. Hesablama 8 faiz çərçivəsində səhv ola bilər, amma bu dərəcədə kobud səhvin olması heç bir canlını hesablamağın mümkün olmadığını göstərir. Gürcüstanda çox maraqlı vəziyyət yaranmışdır. Əhalinin rəsmi sayı ölkədə yaşayan əhalinin sayından az göstərilmişdir ki, bu da adətən böyük miqrasiya artımı olan ölkələrdə və ya regionlarda, əhalinin düzgün qeydə alınmadığı ölkələrdə olur. İndi Gürcüstan əhalisi ilk dəfə olaraq 4 milyon nəfəri keçmişdir. Bu da 1957-ci ildən sonra, yəni 60 ildən sonra ilk dəfə olmuşdur. Doğrudur, o zaman Abxaziya və Cənubi Osetiya Gürcüstanın tərkibində idi. Abxaziya və Cənubi Osetiya ilə birlikdə Gürcüstan əhalisi 2018-ci ilin əvvəllində 4,22 milyon nəfər təşkil edirdi. Bu da 1961-ci il göstəricisindən aşağı idi. Rəsmi məlumatlara görə, Gürcüstan əhalisi say baxımından 1940-cı illərə yaxınlaşır.[289]

2018-cı ilin əvvəllində əhalinin sayı hesablamadan başqa daha nə ilə qiymətləndirilir? 2017-ci ilin birinci yarımilliyində doğulanların və ölənlərin sayı haqqında məlumat vardır. Bu məlumata görə, Gürcüstanda ilk altı ayda on iki il ərzində ilk dəfə azalma göstəricisi kimi 411 nəfər qeydə alınmışdır. Bu da Gürcüstanda bir az həyacana səbəb olmuşdur. Hesablamalara görə,

---

[289] *Население и миграция Грузии в 2017-2018 гг. (с прогнозом)* http://www.kavkaz- uzel. eu/ blogs/ 83781/ posts/ 31744. [İstifadə tarixi: 03.02.2018]

2017-ci ildə doğulanların sayı – 53,775 nəfər, ölənlərin sayı isə – 50,890 nəfər olmuşdur. İllik nəticəyə görə, təbii artım 2,835 nəfərdir. Əlbəttə, bu o qədər də çox deyildir, amma bu müsbət xüsusiyyətdir. Başqa proqnozlar da mövcuddur.[290]

Gürcüstan əhalisinin 30 faizindən çoxu öz ölkəsindən xaricdə muzdlu əməklə məşğuldur. Ölkənin demoqrafik potensialı getdikcə azalır. Son 20 ildə 15 yaşadək əhalinin sayı azalmış, 60 yaşdan yuxarı əhali isə artmışdır. Gürcüstan əhalisi qocalmış millətli ölkə hesab olunur. Çünki əhalisi 65 yaşdan çox olanların sayı 14,4 faizdir. Məşhur Rusiya alimi B.S.Xorev əhalinin təkrar artımının üç tipini göstərir:

1. Yüksək doğum-yüksək ölüm;
2. Doğumun aşağı səviyyəsi-ölümün aşağı səviyyəsi;
3. Doğumun nisbi yüksək səviyyəsi və ölümün nisbi yüksək səviyyəsi.[291] Gürcüstanda isə əhali doğumun aşağı səviyyəsinə, ölümün isə yüksək səviyyəsinə aiddir.

BMT-nin Əhali Fondunun məlumatına görə, Cənubi Qafqazda 2003-ciilədək əhalinin artımı və demoqrafik şəraiti aşağıdakı kimi proqnozlaşdırılmışdır:

- Azərbaycan Respublikasınn əhalisi 33 faiz artacaqdır;
- Ermənistanın əhalisi 7 faiz artacaqdır. [292]

---

[290] Хорев Б.С. *Сравнительный анализ социально-экономического и демографического развития стран мира и России для оценки условий и инвестривания.* Научный-аналитический центр, региональные социально-экономический демографический и геополитический исследования и прогнозирования. Москва: СИНС. Слева, 1999, 198с.

[291] *В Грузии отмечают ухудшение демографической ситуации*. https://korrespondent.net/world/3677953-v-hruzyy-otmechauit-ukhudshenye-demohrafycheskoi-sytuatsyy/ [İstifadə tarixi: 3.05.2016]

[292] Бердзенишвили А.М. *К вопросу демографический ситуации в Грузии.* 2014, №4, с. 140

Cənubi Qafqazda demoqrafik proqnoz pozulur. 1926-cı ildə gürcülər Cənubi Qafqazda ən çoxsaylı əhali idi. Lakin 75 il sonra onların sayı azərbaycanlıların sayından 2 dəfə az oldu. 1926-cı ildə Cənubi Qafqazda hər 1000 nəfər gürcüyə 919 azərbaycanlı və 741 erməni düşürdü, 2002-ci ildə isə 2037 azərbaycanlı və 956 erməni düşürdü.

Bu gün isə demoqrafik vəziyyət kəskin surətdə dəyişmişdir.

*1950-2009-cu illərdə demoqrafik göstəricilər*

| İllər | Doğum | Ölüm və emmiqrasiya | Təbii artım |
|---|---|---|---|
| 1950-1959 | 799453 | 248048 | 551405 |
| 1960-1969 | 850908 | 276034 | 574874 |
| 1970-1979 | 792371 | 339014 | 453357 |
| 1980-1989 | 833624 | 400560 | 433064 |
| 1990-1999 | 623013 | 495258 | 127755 |
| 2000-2009 | 502296 | 448712 | 53584 |

Mənbə: http://www.geostat.ge/

2014-cu ildə Gürcüstan hökuməti sosial siyasət çərçivəsində bir sıra tədbirlər gördü. Onlardan biri Gürcüstanın "Demoqrafik Dirçəliş Fondu"nun yaradılmasıdır. Fonddan 2014-cü ildən doğumun pulsuz həyata keçirilməsi üçün 40 milyon lari ayrılmışdır".[293]

2014-cü il iyunun 1-dən Gürcüstanın 6 regionunda ölüm doğumdan yüksək oldu. Doğum zamanı hər üç nəfərdən birinə pul ödənilməyə başlanıldı.

293 Бердзенишвили А.М. К вопросу демографический ситуации в Грузии. 2014, №4, с. 140

Bir çox təşəbbüslər planlaşdırıldı və həyata keçirildi ki, onlar demoqrafik şəraitə müsbət təsir etdi. Bundan başqa universal sağlamlıq proqramları reallaşdırıldı.

Rəsmi məlumata görə, 2012-ci il yanvarın 1-də Gürcüstanın əhalisi 4497,6 min nəfər idi. 2011-ci ildə isə doğum göstəricisi 12,9, qiymətləndirməyə görə 16,0 faiz; ölüm 11,1, və 14,1 faiz; nikahda olanlar 6,9 və 8,2 faiz; boşananlar 1,3 və 1,5 faiz idi.[294] Postsovet və Cənubi Qafqaz ölkələrində statistik məlumatlar dəqiq deyildir. Gürcüstanın İlya Dövlət Unversitetinin Demoqrafiya və Sosiologiya İnstitunun direktoru, iqtisad elmləri doktoru, professor A.Sulaberidzenin fikrincə, "Şərqi Avropa və Baltikyanı ölkələrində demoqrafik keçid təkamülü, 1990-2000-ci illərdə MDB ölkələrində inqilabi, 2000-ci ildə isə təkamül xarakteri daşımışdır.

Bundan başqa polisin verdiyi məlumata görə, sərhəddən keçən sərnişin kütləsinin 37000 nəfərini, mövcud əhalinin miqrasiya fərqliliyi ilə eyniləşdirmək olar. 1999-cu ildən sonra bu, Gürcüstandan çıxanların və qayıdanların ən böyük sayıdır. Ola bilsin ki, buna səbəb iqtisadi çətinliklər, ya da böyük ehtimal ilə Avropa İttifaqının Gürcüstan vətəndaşları üçün tətbiq etdiyi vizasız rejim ola bilər. Nəzərə almaq lazımdır ki, 2017-ci ildə miqrasiya səviyyəsinin çoxluğuna səbəb real iqtisadi vəziyyət deyildir. Gürcüstan vətəndaşları üçün hələ də Rusiya sərhədləri açılmamışdır.

2018-ci ildə Gürcüstanda əhali artımının aşağı səviyyəsi qeydə alınmışdır. İlk dəfə keçmişdə 1993-cü ildə əhalinin bu cür artımı qeydə alınmışdır. Buna isə səbəb müharibə idi. O da sabit

---

294 Sulaberidze A., Tsuladze G., Maglaperidze N.,Vadachkoria A. Demographic Yearbook of Georgian, 2011, p. 72

olmadığına görə 1994-cü ildə Gürcüstan müsbət səviyyəyə qalxdı. 2018-ci ildə əhalinin artım dinamikası – 3000 təbii artım səviyyəsində və ya 40000 miqrasiya artımı, 2019–2020-ci illərdə isə miqrasiya artımının – ildə 15 min nəfər olması gözlənilir. Beləliklə, əhalinin təbii artım səviyyəsi aşağı düşməkdə davam edəcək və 2020-ci ildə isə 10000 nəfərə gəlib çatacaqdır. Bu ehtimalla 2021-ci ilin əvvəllərində Gürcüstanın əhalisi 3 milyon 890 min nəfər təşkil edəcəkdir.

Gürcüstanın Milli Statistika Xidməti ölkədə yeni doğulanların azaldığını etiraf etmişdir. Statistika Xidmətinin qeyd etdiyi kimi, keçən il doğumun səviyyəsi 2009-cu illə müqayisədə 1 faiz aşağı düşmüşdür. Ölkədə 62585 uşaq dünyaya gəlmişdir ki, bu da 2009-cu illə müqayisədə 1,2 faiz az olmuşdur. Bu məlumatın demoqrafik partlayış haqqında olan məlumatla nə kimi əlaqəsinin olduğunu Gürcüstan Milli Statistika Xidmətinin əməkdaşları ayırd etmək istəmədilər. Statistika Xidmətinin məlumatına görə, keçən il Gürcüstanda axırıncı 20 il ərzində evlənənlərin sayı rekord həddə çatmışdır. Ölkədə 34675 evlənmə qeydə alınmışdır ki, bu da 2009-cu ilin göstəricilərini 9,2 faizi keçmişdir. Eləcə də, Gürcüstan Milli Statistika Xidmətinin məlumatına görə, bu Cənubi Qafqaz respublikasında Sovet İttifaqının tərkibindən çıxandan sonra ilk dəfə olaraq müstəqilliyin ilk illərindəki uşaq ölümlərinin səviyyəsi sovet dövrünün göstəriciləri ilə eyni olmuşdur. Bu da hələ dəqiq məlumat deyildir. Milli Statistika Xidməti, keçən il əvvəlki ilə nisbətən az uşağın öldüyünü göstərir:

*"Statistikanın milli inkişaf strategiyası həm bizim, həm dövlət, həm də statistikaçılar üçün çox vacibdir. Ən vacib məsələ hesablamanın dörd il əvvəlcədən hazırlanmasıdır. Biz bilməliyik ki, hazırdakı statistika maliyyə və insan ehtiyatlarını müəyyənləşdir-*

*mişdir. Bundan sonra inkişaf üçün nə etmək lazım olduğunu bilmək lazımdır. Rəsmi statistikanı həyata keçirmək üçün biz maliyyə dəstəyini dövlətdən alırıq və bu prosesə donorların cəlb edilməsi vacibdir"* - deyə Gürcüstan statistika idarəsinin rəhbəri Zaza Çelidze bildirmişdir.

Gürcüstan hökumətinin ölkə əhalisinin mövcud demoqrafik siyasətinin qorunub saxlanması nəzərə alınmaqla 2050-ci ildə əhalinin sayının azalaraq 2,985 milyon təşkil edəcəyi haqqında Azad İnformasiya İnkişaf İnstitutu, BMT-nin demoqrafik vəziyyətlə bağlı tədqiqatına istinadən bildirir:

*"Son illərdə doğumun mənfi meyillərinin qeydə alınmamasına baxmayaraq, demoqrafik məsələlər üzrə ekspertlərin rəylərinə görə yaxın zamanlarda bu göstərici aşağı düşəcəkdir. Bununla da 90-cı illərdə doğulan əhali nəzərdə tutulur ki, o zamanda da Gürcüstanda doğulanların sayı çox az idi. Ona görə də Gürcüstan hökuməti buna uyğun olaraq demoqrafik problemlərin həlli və demoqrafik vəziyyətin yaxşılaşması üçün yeni dövlət siyasəti işləyib hazırlamalıdır".*[295]

Gürcüstanın Milli Statistika Xidmətinin icraçı direktoru Meri Dauşvilinin verdiyi məlumata görə, Tbilisidə 1,108 milyon insan yaşayır. Bu isə 2002-ci ildə əhalinin son siyahıya alınması ilə müqayisədə 2,5 faiz çoxdur. Gürcüstanda şəhər əhalisi 52,3 faiz və ya 2,122 milyon nəfər təşkil edir. Kəndlilərin sayı 23,7 faiz və ya 1,591 milyon nəfər təşkil edir. 2002-ci ildə əhalinin orta yaşı 2 il ərzində artaraq 68,1 olmuşdur. Müvafiq olaraq kişilərin sayı 34,3-dən 35,9-a qədər, qadınların yaşı isə 37,8-dən

---

[295] *Население Грузии к 2050 году сократится до 2,985 млн человек — исследование*//https:/ /eadaily. com/ru/ news/ 2017/03/23/naselenie-gruzii-k-2050-godu-sokratitsya-do-2985-mln-chelovek-issledovanie 2/ [istifadə tarixi: 27.03.2017]

40,1-ə qədər artmışdır. Milli Statistika Xidməti qeyd edir ki, Gürcüstan əhalisinin 47,7 faizi kişilər, 52,3 faizi isə qadınlardır. Şəhər yerlərində əhalinin 46 faizi kişilər, 53,8 faizi isə qadınlardır, Kənd yerlərində əhalinin 49,8 faizini qadınlar, 50,2 faizini isə kişilər təşkil edir.

2002-ci ildən 2012-ci ilə qədər Gürcüstanın əhalisi 15 faiz azalmışdır. Bu barədə Gürcüstanın Demoqrafik İnkişaf Fondunun rəhbəri Tamar Çiburdanidze məlumat vermişdir: *"Əgər əhalinin azalması davam edərsə onda vəziyyət daha da acınacaqlı olacaq və əhalinin sayı 2015-ci ilin sonundakı sayının 28 faizini təşkil edəcəkdir".* O qeyd edirdi ki, fondun apardığı araşdırmalara görə, respublikanın demək olar ki, tam yarısının yaşadığı Tbilisidən başqa Gürcüstanın digər rayonlarında əhalinin sayı azalır. Bir neçə gün əvvəl statistika idarəsinin verdiyi məlumata görə, 2012-ci ilin sonunda Gürcüstan əhalisi 3729635 nəfər təşkil edirdi. 2002-ci ildən 2012-ci ilə qədər isə onların sayı 641900 nəfər azalmışdır. Gürcüstanın sabiq prezidenti Georgi Marqvelaşvili bəyan etmişdir ki, Rusiyanın "sürünən işğalı", Ukraynada baş verən hadisələr, terrorizm təhlükəsi və qaçqınlıq böhranı nəticəsində Qafqaz regionunda təhlükəsizlik pozulur.

Demoqrafik böhrandan çıxmaq üçün Gürcüstan hökuməti və Gürcüstanın Demoqrafik Dirçəliş Fondu 2013-cü ildən başlayaraq:

- doğuma görə maliyyə yardımına;
- hamiləliyin monitorinqinə və onlara bəzi zəruri tibbi dərmanların pulsuz paylanmasına başlamışdır.

Gürcüstanın dövlət büdcəsindən demoqrafik şəraiti yaxşılaşdırmaq üçün 200 milyon lari (81 milyon dollar) ayrılmışdır.

Dövlət 2017-ci ildə Demoqrafik Təhlükəsizlik Konsepsiyasını qəbul etmişdir.

N.Mosaki "Demoskop" jurnalında yazır ki, Gürcüstanın Statistika Bürosu aprelin 30-da, 2014-cü il noyabrın 5-19-da keçirilən əhalinin siyahıyaalınmasını nəşr etmişdir. Bu məlumatlar Gürcüstanın mövcud statistikasının üzərindən xətt çəkdi. Siyahıyaalma Abxaziya və Cənubi Osetiya ərazisi hesablanmadan ölkə hakimiyyətinin nəzarəti altında olan ərazilərdə reallaşmışdı. Bəzi dağlıq rayonlarda hesablanma 2014-cü ilin sentyabrında keçirilmişdi. Operativ məlumatlara görə 2014-cü il noyabrın 5-də Gürcüstan əhalisi 3729635 nəfər olmuşdur. 2002-ci ildə əhalinin sayı 4371535 nəfər, yəni 641900 nəfər çox idi. 1989-cu ildə axırıncı sovet dövrü siyahıyaalınması ilə müqayisədə Gürcüstan əhalisi 1671206 nəfər azalmışdır. Məşhur gürcü demoqrafı Q.E.Suladzenin fikrincə, 1989-cu ildəki siyahıyaalmada bu say bir qədər artırılmışdır. Respublikanın faktiki əhalisi 5 milyon 400 min nəfər deyil, 5 milyon 327 min nəfər idi. 1989-cu il hesablamalarına görə, Abxaziya və Cənubi Osetiyanın əhalisi 624 min nəfər idi. Yəni Suladzenin düzəlişinə görə, Gürcüstan əhalisinin sayı Abxaziya və Cənubi Osetiya əhalisi hesaba alınmadan 1989-cu ildə təxminən 4,7 milyon nəfər idi. Bundan başqa 2014-cü ildə Gürcüstanın siyahıya alınan ərazilərində Abxaziya və Cənubi Osetiyadan olan 100–150 min nəfəri də əlavə etmək lazımdır. Beləliklə, yuxarıda göstərilən dəyişikliklər də daxil olmaqla Gürcüstan əhalisi 2014-cü ildə dörddə bir hissəyə qədər azalmışdır.[296]

2014-cü ilin hesabatına görə, Gürcüstanın şəhər əhalisinin sayı 2140126 nəfər; kənd əhalisinin sayı isə 1589509 nəfər

---

[296] Мосаки Н. *Предварительные итоги переписи населения в Грузии: население Грузии составляет лишь 3,7 млн человек* http://www.demoscope. ru/weekly /2015/0661 /analit05.php 1/4 № 661 - 66208.10.2018

təşkil edirdi. Azalma əsasən kənd əhalisinin sayında olmuşdur. Kənd əhalisi 23,8 faiz, şəhər əhalisi isə 6,3 faiz azalmışdır.

2002-ci ilin hesablamalarına görə, Gürcüstanın şəhər əhalisi 52,3 faiz, 2014-cü ildə 57,4 faiz olmuşdur. Verilən məlumatlara görə, Tbilisi şəhərinin əhalisinin sayı 1118035 nəfər olaraq qeydə alınmışdır (2002-ci ildə isə 1081679 nəfər idi). 3,4 faiz artım Gürcüstan paytaxtının inzibati sərhədlərinin genişlənməsi hesabına olmuşdur. Ölkədə kənd əhalisinin azalması ilə əlaqədar olaraq Tbilisinin əhalisi 5,2 faiz artmış və 30 faiz təşkil etmişdir. Acarıstan Muxtar Respublikasının paytaxtı Batumi şəhərinin də inzibati sərhədləri genişlənərək əhalisi artmış və 26 faiz təşkil etmişdir. Şəhərlər arasında real əhali artımı Rustavi şəhərində qeydə alınmışdır (7,2 faiz). Bu şəhər Gürcüstanın metallurgiya sənayesinin mərkəzidir.

2002–2004-cü illərdə Gürcüstan regionları arasında əhali sayının azalması ən çox dağlıq regionları Raça–Leçxumi və Kvemo (Aşağı) Svanetidə (37,3 faiz), Sameqrelo və Zemo (Yuxarı) Svanetidə (29 faiz), ən az isə Acarıstanda idi (10,6 faiz). Bunun səbəbi son illərdə Acarıstanın ölkə rəhbərliyinin daim diqqət mərkəzində olmasıdır.

Ən çox əhalisi olan region (Tbilisidən başqa) İmeretiyada əhalinin sayı 536,1 min nəfər olmuşdur (2002 - də 699,7 min nəfər idi). Ondan sonra Kvemo (Aşağı) Kartli (Borçalı) gəlir. Orada əsasən etnik azərbaycanlılar (2002-ci ildə - 497.3 min nəfər) yaşayırlar. Əhalinin azalması Acarıstanın Gürcüstan regionları arasındakı 5-ci yerdən 3-cü yerə keçməsinə imkan verir. Belə ki, onun əhalisinin sayı 336,1 min nəfər (2002-ci ildə - 376 min nəfər idi) təşkil edirdi. Acarıstan Sameqrelo və Zemo Svane-

tini 331,1 min (2002 – 497,5 min) və Kaxetiyanı 319,1 min nəfər (2002 – 407,2 min) geridə qoyurdu.[297]

Gürcüstan əhalisinin sayının fərqi ölkə statistikasını çox dəyişir. Lakin Gürcüstan milli statistika idarəsi əvvəlki illərin məlumatlarını dəyişməyə çalışmır ki, bu da həqiqətə uyğun gəlmir.

Gürcüstanın Milli Statistika Xidmətinin saytında Gürcüstan əhalisinin 2006-2015-ci illər yanvarın 1-nə olan siyahısı göstərilmişdir.

*Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən Gürcüstan əhalisinin 2006 – 2015 -ci illər ərzində əsas göstəriciləri*

| | 1 yanvarda əhalinin ümumi sayı | O cümlədən | |
|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi |
| 2006 | 4401,3 | 2310,4 | 2090,9 |
| 2007 | 4394,7 | 2308,9 | 2085,8 |
| 2008 | 4382,1 | 2303,8 | 2078,3 |
| 2009 | 4385,4 | 2309,1 | 2076,3 |
| 2010 | 4436,4 | 2350,5 | 2085,9 |
| 2011 | 4469,2 | 2371,3 | 2097,9 |
| 2012 | 4497,6 | 2391,7 | 2105,9 |
| 2013 | 4483,8 | 2410,8 | 2073,0 |
| 2014 | 4490,5 | 2410,8 | 2078,8 |
| 2015 | 3729,5 | 2140,4 | 1589,1 |

Mənbə: http://www.geostat.ge/

Cədvəldən də göründüyü kimi, 2006-cı il yanvarın 1-dən 2014-cü il yanvarın 1-ə qədər Gürcüstan əhalisinin sayını Gür-

[297] Мосаки Н. *Предварительные итоги переписи населения в Грузии: население Грузии составляет лишь 3,7 млн человек* http://www.demoscope. ru/weekly /2015/0661 /analit05.php 1/4 № 661 – 662 1. [istifadə tarixi: 8.10.2018]

cüstan Milli Statistika Xidməti belə qiymətləndirmişdir: 4401 min nəfərdən (2006-cı ildə ən az əhalinin sayı 2006 – 2014-cü illər ərzində 4490 min nəfərə qədər (maksimum sayı) 2006–2014-cü illər ərzində) 2015-ci il yanvarın 1-də kəskin azalaraq 3729,5 min nəfərədək olmuşdur. Aydındır ki, 2015-ci il yanvarın 1-ə olan məlumatlar 2014-cü il məlumatlarına əsaslanır. Bu da əvvəlki ilin məlumatlarının doğru olmadığını göstərir. Analoji qeyd şəhər və kənd əhalisinə də aid edilir. Gürcüstan Milli Statistika Xidməti real olan 2014-cü il məlumatları ilə müqayisə edir. Göstərilən yalnış məlumatlar 2002-ci ildə aparılan qeyri-dəqiq hesablanma ilə əlaqəlidir.

Suladzenin qiymətləndirməsinə görə, Sovet İttifaqı dağılandan sonra Gürcüstan əhalisinin sayı rəsmi statistikada artırılmışdır. Onun məlumatına görə, 1995–2008-ci illərdə bu fərq 0,3 – 0,4 milyon nəfər olmuşdur.

Belə qənaətə gəlmək olar ki, 2002-ci ildə ölkədən getmiş və başqa ölkələrin ilk növbədə Rusiya Federasiyasının vətəndaşlığını qəbul etmiş gürcüstanlılar Gürcüstanda olan əmlaklarını satmamış, bunun üçün də ölkədə adları qalmışdır. Hakimiyyət üçün "ölü canlar" seçkilərdə manipulyasiya üçün lazım idi. Yerli seçkilər zamanı 2014-cü il iyunun 15-də, yəni siyahıyaalmaya 4,5 ay qalmış ölkədə bütövlükdə 3429748 nəfər seçici qeydə alınmışdı. Belə çıxır ki, əhalinin 92 faizinin 6 yaşından etibarən səsvermə hüququ vardır. 2013-cü il oktyabrın 27-də keçirilən prezident seçkilərində 3537719 nəfər seçici qeydə alınmışdır. 2012-ci i oktyabrın 1-də keçirilən parlament seçkilərində 3613851 nəfər seçici qeydə alınmışdı. Belə çıxır ki, qeydə alınan seçicilərin sayı artıq yazılmışdır.

*1950-2100-cü illərdə Gürcüstan əhalisinin dinamikası və proqnozlaşdırılan artım*

| Gürcüstanda həyatın davamlılığı | | | |
|---|---|---|---|
| **İllər** | **hamısı** | **Kişilər** | **Qadınlar** |
| 1950-1955 | 60,6 | 56,8 | 64,4 |
| 1955-1960 | 62,6 | 58,7 | 66,4 |
| 1960-1965 | 64,6 | 60,7 | 68,3 |
| 1965-1970 | 66,6 | 62,6 | 70,3 |
| 1970-1975 | 68,1 | 64,1 | 71,8 |
| 1975-1980 | 69,6 | 65,6 | 73,2 |
| 1980-1985 | 69,6 | 65,6 | 73,2 |
| 1985-1990 | 70,5 | 66,5 | 74 |
| 1990-1995 | 70,5 | 66,5 | 74,3 |
| 1995-2000 | 71,1 | 67,3 | 74,7 |
| 2000-2005 | 72,5 | 68,8 | 75,9 |
| 2005-2010 | 73 | 69,4 | 76,5 |
| 2010-2015 | 74,1 | 70,5 | 77,3 |
| 2015-2020 | 74,8 | 71,4 | 78 |
| 2020-2025 | 75,5 | 72,1 | 78,6 |
| 2025-2030 | 76,2 | 72,8 | 79,1 |
| 2030-2035 | 76,9 | 73,6 | 79,7 |

| | | | |
|---|---|---|---|
| 2035-2040 | 77,6 | 74,4 | 80,4 |
| 2040-2045 | 78,3 | 75,1 | 81,1 |
| 2045-2050 | 78,9 | 75,8 | 81,7 |
| 2050-2055 | 79,5 | 76,5 | 82,2 |
| 2055-2060 | 80 | 77,1 | 82,8 |
| 2060-2065 | 80,5 | 77,7 | 83,3 |
| 2065-2070 | 81 | 78,2 | 83,8 |
| 2070-2075 | 81,5 | 78,8 | 84,3 |
| 2075-2080 | 82 | 79,3 | 84,8 |
| 2080-2085 | 82,5 | 79,8 | 85,3 |
| 2085-2090 | 83 | 80,3 | 85,8 |
| 2090-2095 | 83,4 | 80,8 | 86,2 |
| 2095-2100 | 83,9 | 81,3 | 86,7 |

Mənbə: http://www.geostat.ge

Gürcüstan əhalisinin sayının məlum dəyişiklikləri ilə əlaqədar statistika idarəsi digər göstəriciləri də dəyişməli olmuşdur. Doğum nisbəti kəskin artaraq 2013-cü ildəki 12,9 faizdən 2014-cü ildə 16,3 faizə qədər artımışdır. Halbuki doğulanların sayı çox az olmuşdur. Eyni zamanda ölüm nisbəti də artmışdır. Ölümün səviyyəsi 2013-cü ildə 10,8 faiz, 2014-cü ildə 13,2 faiz olmuşdur. Ailə quranların sayı 10 faiz aşağı düşdüyü halda, evlilik nisbətini 10 faiz artıq qeyd etmişlər. Doğumun cüzi artı-

mı Gürcüstan əhalisinin yaşlanma prosesini dayandıra bilməz. Əvvəlki illərin qeyri-dəqiq məlumatlarını nəzərə alaraq yaş strukturunu dərindən tədqiq etmədən müqayisə etmək düzgün olmur. Bu məhdud məlumatla bağlı 2014-cü il siyahıyaalınmasına görə əhali arasında 60 yaşdan yuxarı olan – 19,2 faiz, 14 yaşdan yuxarı olan isə – 17,4 faiz təşkil edirdi.[298]

*2014-cü il hesablamalarına görə (təbii artımı və 2014-cü il noyabr – dekabr aylarında olan miqrasiyanı nəzərə alaraq), Gürcüstan əhalisinin 2015-ci il 1 yanvar tarixinə olan cinsi yaş strukturu (min nəfərlə)*

| **Yaş** | **1 yanvar 2015-ci il** | | |
|---|---|---|---|
| | **Hər iki cins** | **Kişilər** | **Qadınlar** |
| **Əhalinin ümumi sayı** | 3729,5 | 1778,5 | 1951,0 |
| O cümlədən | | | |
| 0 il | 59,8 | 30,9 | 28,9 |
| 1 – 4 | 197,0 | 102,0 | 95,0 |
| 5 -9 | 202,6 | 108,4 | 94,2 |
| 10 – 14 | 189,7 | 100,1 | 89,6 |
| 15 – 19 | 226,1 | 117,7 | 108,4 |
| 20 – 24 | 290,1 | 147,1 | 143,0 |
| 25 – 29 | 298,1 | 150,3 | 147,8 |
| 30 – 34 | 277,2 | 138,4 | 138,8 |
| 35 – 39 | 261,3 | 128,2 | 133,1 |
| 40 – 44 | 251,1 | 121,2 | 129,9 |
| 45 – 49 | 247,5 | 116,0 | 131,5 |
| 50 – 54 | 274,9 | 126,5 | 148,4 |

[298] Мосаки Н. *Предварительные итоги переписи населения в Грузии: население Грузии составляет лишь 3,7 млн человек* http://www.demoscope. ru/weekly /2015/0661 /analit05.php 1/4 № 661 – 662 [istifadə tarixi: 8.10.2018]

| | | | |
|---|---|---|---|
| 55 – 59 | 236,2 | 107,4 | 128,8 |
| 60 – 64 | 198,8 | 87,8 | 111,0 |
| 65 – 69 | 129,9 | 55,7 | 74,2 |
| 70 – 74 | 126,7 | 48,2 | 78,5 |
| 75 – 79 | 127,1 | 48,2 | 78,9 |
| 80 – 84 | 72,3 | 25,9 | 46,4 |
| 85 + | 63,1 | 18,5 | 44,6 |

Mənbə: http://www.geostat.ge

2017-ci ilin sonunda Gürcüstan əhalisinin sayı 3872752 nəfər təşkil edirdi. 2017-ci il ərzində əhalinin sayı təxminən 47593 nəfər azalmışdır. Nəzərə almaq lazımdır ki, Gürcüstan əhalisi, ilin əvvəlində 3920345 nəfər idi. İllik artım – 1,21 faiz təşkil edirdi.

2017-ci ildə Gürcüstanda əsas demoqrafik göstəricilər aşağıdakılar idi:

- doğulanlar 53670 nəfər
- ölənlər 44927 nəfər
- Əhalinin təbii artımı 8742 nəfər
- Əhalinin mexaniki artımı 56335 nəfər
- kişilər 1823699 nəfər (2017)
- qadınlar 2049053 nəfər (2017).[299]

2018-ci ildə Gürcüstan əhalisi 47015 nəfər azalaraq ilin axırında 3825737 nəfər olmuşdur. Təbii artım müsbətdir və 8636 nəfər təşkil edir. Bütün il ərzində təxminən 53018 uşaq doğulmuş və 44382 nəfər ölmüşdür. Əgər xaricə miqrasiyanın sayı əvvəlki ildəki kimi olsa, nəticədə əhalinin sayı miqrasiya nəticəsində 55651 nəfər dəyişə bilər.

---

[299] *Население Грузии 2018, Численность населения Грузии. Департамент по экономическим и социальным вопросам ООН: Отдел народонаселения* https:// country-meters. info/ru/ Georgia 1/60 [istifadə tarixi: 8.10.2018]

*Gürcüstan əhalisinin yaş strukturu, 1950-2050 ci illər*







Mənbə: http://www.geostat.ge/

Gürcüstan əhalisinin sayının 2018-ci il üçün dəyişmə dinamikası aşağıdakı kimi olmuşdur:

- Doğum orta hesabla 1 günə 145 uşaq (6,05 saatda)
- Ölüm orta hesabla 1 günə 122 nəfər (5,07 saatda)
- Əhalinin miqrasiya artımı orta hesabla 1 günə 152 nəfər (6,35 saatda)

2018-ci ildə Gürcüstan əhalisinin azalması 1 gündə 129 nəfərdir.

Birləşmiş Millətlər Təşkilatının Statistika Departamentinin verdiyi məlumata görə, Gürcüstanın ümumi ərazisi 69700 kvadrat kilometrdir. Ümumi ərazi dedikdə beynəlxalq sərhəd çərçivəsində yerləşən ölkənin bütün quru və su sahələri, əhalinin sıxlığı dedikdə əhalinin sayının yaşadığı ərazinin sahəsi ilə nisbəti nəzərdə tutulur. Hesablamalara görə, 2018-ci ilin əvvəlində Gürcüstan əhalisi təxminən 3872752 nəfər təşkil etmişdir. Belə ki, Gürcüstan əhalisinin sıxlığı hər kvadrat metr üçün 55,6 nəfər təşkil edir.

2018-ci ilin əvvəlinə olan vəziyyətə görə, Gürcüstan əhalisi yaşa görə bu cür yerləşdirilmişdir:



- 15 yaşdan aşağı insan faizi
- 15 yaşdan 65 yaşa qədər olan insan faizi
- 64 yaşdan yuxarı ola insan faizi

- 605892 nəfər 15 yaşdan kiçik (kişilər 324149 / qadınlar 281743)
- 2645438 nəfər 14 yaşdan yuxarı və 65 yaşdan kiçik (kişilər 1276730 / qadınlar 1368708)
- 621422 nəfər 64 yaşdan yuxarı (kişilər 247546 / qadınlar 373837).[300]

Yaşa və cinsə görə sadələşdirilmiş piramida modeli hazırlanmışdır. Bu model 3 yaş qrupu üçün nəzərdə tutulmuşdur.




Göründüyü kimi, Gürcüstanın yaş dinamikası böhranlı və azalan tipdədir. Bu cür vəziyyətə adətən çox inkişaf etmiş ölkələrdə təsadüf etmək olar. Belə ölkələrdə sağlamlıq xidməti və vətəndaşların təhsil səviyyəsi yüksək olur. Uyğun olaraq da doğum və ölümün sayı az, əhalisi isə uzunömürlü olur. Bu və digər amillər əhalinin demoqrafik baxımdan qocalmasına (orta yaş həddinin uzanmasına) gətirib çıxarır.

[300] *Население Грузии 2018, Численность населения Грузии. Департамент по экономическим и социальным вопросам ООН: Отдел народонаселения* https:// country-meters. info/ru/ Georgia 1/60 [istifadə tarixi: 8.10.2018]

*Gürcüstan əhalisinin yaş strukturunun dinamikası, 1950-2100-cü illər*




Mənbə: http://www.geostat.ge/

Demoqrafik yükün nisbəti əmək qabiliyyəti olmayan əhali tərəfindən cəmiyyətə və iqtisadiyyata təsir edir. Əmək qabiliyyəti olmayanlara 15 yaşa qədərki və 64 yaşdan yuxarı olan, əmək qabiliyyəti olanlara isə uyğun olaraq 15 və 65 yaş arası olan əhali aid edilir. Demoqrafik yükün nisbəti birbaşa dövlətin sosial siyasətinin maliyyə xərclərinə təsir edir. Məsələn, nisbətin böyüməsi ilə təhsil müəssisələrinin genişlənməsinə, tikintisinə, sosial müdafiəyə, sağlamlıq xidmətinə, pensiyaların ödənilməsinə və s. sərf olunan xərclər artır.

Ümumi demoqrafik yük nisbəti, əmək qabiliyyəti olanlar ilə və əhalinin istehsalçı qismi ilə asılı qismi arasındakı münasibət ilə hesablanır. Gürcüstanda ümumi demoqrafik yük 46,4 faizdir. O, əmək qabiliyyəti olanların, əhalinin əmək qabiliyyəti olmayanlardan iki dəfə artıq olduğunu göstərir. Bu münasibət cəmiyyətdə aşağı sosial yük nisbətini yaradır.

Gürcüstanda məşğulluğun yük nisbəti 22,9 faizdir.

Pensiya yükünün nisbəti əhalinin əmək qabiliyyətindən yuxarı yaşının əmək qabiliyyəti olan əhali ilə nisbətidir. Gürcüstanda pensiya yükü 23,5 faiz təşkil edir.

Gözlənilən yaşam davamiyyəti əsas demoqrafik göstəricilərdən biridir. İnsanın yaşaya bildiyi illərin sayı insan ömrünün orta yaş həddini göstərir. Bircə şərtlə ki, bütün ömür boyu doğum və ölüm göstəriciləri dəyişməz qalsın. İnsan ömrünün davamiyyəti 0 yaşdan başlanır. Gürcüstanda orta göstərilən yaş ömrü (hər iki cins üçün) 77,1 ildir. Bu, dünyadakı orta ömürdən artıqdır. BMT-nin Əhali Departamentinin verdiyi məlumata görə, dünyada orta yaş ömrü təxminən 71 yaşdır. Gözlənilən yaşam davamiyyəti kişilər üçün 73,8 il, qadınlar üçün 80,8 ildir.[301]

Əhalinin savadlılıq səviyyəsinə gəldikdə Gürcüstanda 3259033 nəfər 15 yaşdan yuxarı olanlar hər hansı dildə yazıb - oxuya bilir. Bu yaşlı əhalinin 96,76 faizini təşkil edir. Yaşlı əhali dedikdə 15 yaşdan yuxarı nəzərdə tutulur. Uyğun olaraq da 7788 nəfər hələ də savadsız olaraq qalır.

Yaşlı kişi əhalisinin savadlılıq səviyyəsi – 99,79 faizdir (1521106 nəfər), 3170 nəfər isə savadsızdır. Yaşlı qadın əhalisinin savadlılıq səviyyəsi – 99,74 faizdir (1737927 nəfər), 4618 nəfər isə savadsızdır.

Gənclər arasında savadlılıq səviyyəsi uyğun olaraq qadın və kişilər üçün 99,74 faiz və 99,85 faiz təşkil edir.[302] Gənclər arasında ümumi savadlılıq səviyyəsi 99,79 faizdir. [303]

---

[301] *Население Грузии 2018, Численность населения Грузии. Департамент по экономическим и социальным вопросам ООН: Отдел народонаселения* https:// country-meters. info/ru/ Georgia 1/60 [istifadə tarixi: 8.10.2018]

[302] *Население Грузии 2018, Численность населения Грузии. Департамент по экономическим и социальным вопросам ООН: Отдел народонаселения* https:// country-meters. info/ru/ Georgia 1/60 [istifadə tarixi: 8.10.2018]

# NƏTİCƏ

Beləliklə, aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, 1991-ci ildə SSRİ-nin dağılmasından sonra Gürcüstanda digər sahələrdə olduğu kimi, inzibati bölgü və idarəçilik institutlarında da bir sıra dəyişikliklər baş vermişdir. Artıq 1991-ci ilin martında Gürcüstanın inzibati quruluşunda ilk dəyişiklər həyata keçirilmiş və həmin dövrdə ölkə tarixində ilk dəfə olaraq yerli özünüidarəetmə orqanlarına – seçkilər keçirilmişdir. Zaman keçdikcə mərkəzi Tbilisi hökumətinin iqtisadi, maliyyə və siyasi funksiyalarının bir qismi yerli bu özünüidarəetmə orqanlarına ötürülmüşdür. Lakin uzun illər ərzində inzibati amirlik şəraitində yaşamış, mərkəzdən gələn direktivlərlə idarə olunmuş Gürcüstanda əhalinin mərkəzsizləşdirmə prosesinə hazırlıqlı olmadığı tezliklə üzə çıxmış, 1994-1996-cı ildən etibarən isə mərkəzsizləşdirmə prosesləri yenidən mərkəzləşdirmə prosesləri ilə əvəzlənməyə başlamışdır. Gürcüstanın inzibati-ərazi quruluşunun əsas elementləri də məhz o zaman keçirilən islahatlar zamanı formalaşdırılmışdır.

Hazırda Gürcüstanın ərazisi "mxare" adlandırılan diyarlara və iki muxtar respublikaya (Abxaziya və Acarıstan) bölünmüşdür. Diyarların tərkibinə daxil olan munisipalitetlərin (bələdiyyələr) fəaliyyəti yerli özünüidarəçilik prinsiplərinə əsaslanır və ikinci dərəcəli inzibati vahidlər hesab olunurlar. Munisipalitetlər 1994-1996-cı illərdə keçirilən inzibati islahatlara qədər region, 1996-2006-cı illərdəki dövr ərzində rayon adlandırılırdı.

---

303 Yenə orada

Hazırda diyarlar və muxtariyyətlərin ərazisində 67 munisipalitet yaranmışdır. Bunlarla bərabər ölkə ərazisində 14 respublika və diyar əhəmiyyətli şəhər vardır. 2006-cı ilə qədər respublika əhəmiyyətli şəhərlərin sayı yeddi olmuşdur.

Tədqiqatlar nəticəsində inzibati vahidlərin hər birinin sərhədləri, əhalisi, daxili bölgüsü ilə bağlı məsələlərə aydınlıq gətirilmiş, Abxaziyada və Sxinvali regionunda separatçı qurumların mövcudluğu nəticəsində yaranan problemlərə toxunulmuş, Gürcüstanın mərkəzi hakimiyyəti ilə separatçı qurumların inzibati-ərazi bölgüsünə fərqli yanaşmalar müqayisə edilmişdir.

Gürcüstanın müstəqil, demokratik dövlət qurma təcrübəsini təhlil edərkən aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Prezident institutu ölkənin dövlət quruluşunda yeni fenomendir, onun təşkili və fəaliyyəti bir sıra problemlərlə müşayiət olunur. Gürcüstanda prezidentlik institutunun bütün dövrlərində fəaliyyətinin müxtəlif aspektləri qeyri-müəyyən olmuşdur. Bir çox problemlər həll olunmamış qalmışdır ki, bu da prezident hakimiyyətinin səmərəliyini aşağı salmışdır.
2. "Keçid dövrünün" fərqləndirici xüsusiyyəti prezidentin öz mövqeyini möhkəmləndirməsi, ictimai həyata təsirini genişləndirməsi və hakimiyyəti qanuni şəkildə öz əlində birləşdirməsi olmuşdur.
3. Hakimiyyətin əlində olan əsas silah hər prezidentin dövründə dəyişən ölkənin əsas qanunu konstitusiyadır. Təcrübə göstərir ki, bir ölkənin gələcəyi konstitusiyanın tez dəyişikliklərə məruz qalmasından və ümumi xarakter daşımasından deyil, uğurlu tarazlaşdırılmış institutsional nəzarət sistemindən asılıdır.

4. Gürcüstan parlamentli respublikaya keçidi elan etməsinə baxmayaraq, prezident vəzifəsi ətrafında mübarizə səngimir. Çünki o, hələ də ölkədəki gücün birbaşa təmsilçisi hesab olunur. Son prezident seçkiləri göstərdi ki, birbaşa ümumxalq prezident seçkilərini saxlamaq lazımdır. Çünki prezidentin xalq tərəfindən seçilməsi çox vacibdir. Ölkədə demokratik institutlar hələ də zəifdir, ona görə də seçkilər hazırkı hakimiyyətdə seçicinin öz münasibətini ifadə etmək üçün yeganə vasitə kimi qalır.

Gürcüstan əhalisinin milli-etnik tərkibindəki dəyişikliklərin əsas səbəbi onun ərazisindəki qonşu ölkələrdən qeyri-gürcülərin kütləvi miqrasiyası olmuşdur. XVIII əsrdə gürcülər Gürcüstan əhalisinin 85 faizini təşkil edirdi. XIX əsrin sonları - XX əsrin əvvəllərində Rusiyanın müstəmləkə siyasəti nəticəsində Yaxın Şərq ölkələrindən əsasən erməniləri, Rusiya imperiyasının daxili quberniyalarından rusları Gürcüstana köçürmüşlər. Azərbaycanlılar isə yaşadıqları Borçalı (Aşağı Kartli) bölgəsinin aborigen əhalisidir, gürcülərlə dostluq şəraitində yaşamış və indi də yaşayırlar.

Sovet hakimiyyətinin ilk illərində respublika əhalisinin 70 faizini gürcülər təşkil etmişdir. Gürcüstan SSR-də iqtisadiyyatın inkişafı nəticəsində əhalinin ümumi hərəkəti güclənmiş, təsərrüfat və mədəniyyətin müxtəlif sahələrinə digər müttəfiq respublikaların əmək kontingenti cəlb olunmuşdur. Eyni zamanda gürcü əhalisinin müəyyən hissəsi digər respublikalara köçmüşdür. 1950-ci illərdə gürcülər respublikanın bütün əhalisinin 64,3 faizini təşkil etmişdir.

XX əsrin sonlarında SSRİ-nin dağılması, müstəqillik əldə etdikdən sonra milli münasibətlərdəki gərginlik və münaqişələr

nəticəsində Abxaziya və keçmiş Cənubi Osetiya Muxtar Vilayəti Gürcüstanın nəzarətindən çıxmış, gürcülər və qeyri-gürcülər ölkəni tərk etmiş, gürcülərin sayı respublikada 80 faizdən artıq olmuşdur.

Gürcüstan əhalisinin milli-etnik tərkibi olduqca rəngarəngdir. Ərazisi o qədər də böyük olmayan ölkədə əsrlərdir yanaşı yaşayan fərqli dilə, dinə və mənşəyə mənsub xalqlar və etnik qruplar özlərinə məxsus xüsusiyyətləri hələ də qoruyub saxlamaqdadırlar. Aparılmış elmi araşdırmadan bu nəticəyə gəlmək olar ki, bu xalq və etnik qrupların öz mənafeləri uğrunda mübarizələri zaman-zaman ölkə ərazisində münaqişə zonalarının yaranmasına səbəb olmuşdur. Ən diqqət çəkən məsələ isə budur ki, ölkə ərazisində baş qaldıran separatizm meyilləri birbaşa və ya dolayısı ilə ermənilərin adı ilə bağlıdır. Cavaxetiya barədə iddialarını Dağlıq Qarabağ münaqişəsinə görə ikinci plana atan, açıq mübarizədən çəkinən ermənilər Abxaziya məsələsində gürcülərə qarşı açıq şəkildə vuruşmuşlar. Bu, ermənilərin Gürcüstan dövləti üçün nə qədər böyük bir təhlükə olduğunun göstəricisidir. Gürcüstanda əhalisinin sayına görə gürcülərdən sonra ən çox saya malik olan azərbaycanlılar isə ölkənin ərazi bütövlüyünün qorunması üçün gürcülərlə birlikdə çiyin-çiyinə mübarizə aparmışdırlar. Bundan başqa ölkə ərazisində xeyli sayda azsaylı xalqlar və etnik qruplar yaşayırlar ki, onlar Gürcüstan əhalisinin milli-etnik tərkibininin zənginliyi hesab edilirlər.

SSRİ dövründə və Gürcüstanın müstəqilliyinin bərpasından sonrakı ilk illərdə ölkədəki digər xalq və etnik qruplara qarşı ayrı-seçkilik siyasəti həyata keçirilsə də sonrakı dövrdə Qərbə inteqrasiya prosesi çərçivəsində onların hüquq və azadlıqlarının təmin olunmasında müsbət irəliləyişlərə nail olunmuşdur. Xüsu-

silə də 2005-ci ildə Gürcüstan tərəfindən Avropa Şurasının Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası imzalandıqdan sonra bu sahədə bir sıra addımlar atılmışdır.

Gürcüstanda baş verən demoqrafik proseslər dövlətin apardığı iqtisadi siyasətdən, sosial-iqtisadi vəziyyətdən, siyasi şəraitdən asılıdır. Müharibələr, vətəndaş və etnik qarşıdurmalar, bazar iqtisadiyyatına keçid zamanı yaranan çətinliklər, ağır sosial-iqtisadi şərait, istehsalın aşağı düşməsi, iş yerlərinin itirilməsi kütləvi mühacirətin baş verməsinə səbəb oldu.

Gürcüstanda demoqrafik şəraitə təsir edən amillərdən biri olan gənclər siyasəti müxtəlif ölkələrdə olduğu kimi, dövlət siyasətinin sərbəst istiqamətidir. Bu sahədə qəbul olunan proqramlar birbaşa gənclərin maraqlarının inkişafına doğru yönəldilmişdir. Tədqiqatçıların fikrincə, yerli proqramların reallaşdırılması bu ərazidəki demoqrafik, sosial, iqtisadi və siyasi göstəricilərlə tanış olan orqanlar tərəfindən yerinə yetirilməlidir. Ona görə ki, Gürcüstanda gənclərin inkişafına mane olan problemlər hələ də qalmaqdadır. Buna məşğulluq, təhsil, təhlükəsizlik, sağlamlıq, toksikomaniya, narkomanlıq, tibbi xidmət, sahibkarlıq, təşkilatçılıq, yaradıcılıq və ictimai-siyasi fəaliyyət kimi sahələri misal göstərmək olar.

Gənclər siyasətində əsas məqsəd dövlətin gənclərə yanaşmasını müəyyənləşdirməkdən, gənclərin inkişafına şərait yaratmaqdan, onların öz sahələrində davamlı şəkildə fəaliyyətinə şərait yaratmaqdan ibarətdir.

Tədqiqatlar sübüt edir ki, ölkədə gənclərin arasında pis vərdişlərin (alkoqolizm, narkotik aludəçiliyi və s.) geniş yayılmışdır. Bunun qarşısını almaq və gəncləri pis vərdişlərdən qorumaq

üçün xüsusi mexanizmlərin hazırlanması vacibdir. Gənclər arasında daha çox sağlam həyat tərzinə üstünlük verilməlidir.

Gürcüstanda yaşayan azərbaycanlılar üçün onları işlə təmin edə biləcək şirkətlər açılmalıdır. Dövlət işində təmsil olunmaları üçün onlar gürcü dilini öyrənməlidirlər. Ölkədə fəaliyyət göstərən azərbaycandilli məktəblərinə peşəkar müəllimlər cəlb olunmalıdır. Aborigen əhali olan azərbaycanlıların təhsil probleminin həlli istiqamətində təcili addımların atılmasına və iki ölkənin müvafiq qurumları arasında bu problemlərin aradan qaldırılması istiqamətində əlaqələndirilmiş işlərin görülməsinə böyük ehtiyac vardır.

Fiziki məhdudiyyəti olan tələbələr üçün müvafiq infrastrukturun inkişaf etdirilməsi vacibdir. Müvafiq nazirlik fiziki məhdudiyyəti olan şəxslərə keyfiyyətli təhsil almaları üçün xüsusi şərait yaratmalıdır.

Ali təhsil sahəsində tədqiqatların keyfiyyətinin yaxşılaşdırılması gənclər strategiyasının əsas tərkib hissələrindən biridir. Bu baxımdan müəllimlərin qiymətləndirilmə mexanizmlərini hazırlamaq və bu sahədə uğurun əldə olunması üçün ali təhsil müəssisələrinə peşəkar müəllimləri cəlb etmək lazımdır.

Ən vacib məsələlərdən biri isə ölkənin davamlı inkişafını təmin etmək üçün elm, texnologiya və innovasiya sisteminin modernləşdirilməsidir.

Beləliklə, Cənubi Qafqazda Ermənistanla bərabər demoqrafik "autsayder" hesab olunan Gürcüstanda əhalinin təbii artımına təsir edən mənfi və müsbət amillərdən aşağıdakıları göstərmək olar:

Mənfi amillər:

- doğumun azalması, ölümün çoxalması;

- ağır iqtisadi şərait;
- regionda baş verən siyasi hadisələr, münaqişələr, ərazi bütövlüyünün pozulması, beynəlxalq aləmdə baş verən gərgin hadisələr, terrorizm təhlükəsi, qaçqınlarla bağlı böhran;
- iqtisadi mühacirət.

Müsbət amillər:

- Doğumda nisbi artım;
- Təbii artımın yaxşılaşdırılması;
- Nikahların artması;
- Mühacirətin azalması;
- Nikahdan kənar doğumun kəskin azalması;
- Dövlətin çoxuşaqlı ailələrə maddi yardım etməsi;
- Yoxsulluq səviyyəsinin azaldılması üçün tədbirlər görülməsi.

Bütün bunlara baxmayaraq Gürcüstanda demoqrafik fəlakət təhlükəsi qalmaqdadır. Bu təhlükəni aradan qaldırmaq üçün dövlət çoxuşaqlı ailələrə əsaslı maddi yardım etməli və ailədə uşaqların sayının artırılması üçün şərait yaratmalı və əhalini buna təşviq etməlidir.

# ЗАКЛЮЧЕНИЕ

Таким образом, в результате проведенных исследований было установлено, что после распада СССР в 1991 году в Грузии, произошли некоторые изменения в институтах административного деления и управления, как и в других областях. Уже в марте 1991 года были осуществлены первые изменения в административном устройстве Грузии, и тогда же впервые в истории страны были проведены выборы в органы местного самоуправления. Со временем часть экономических, финансовых и политических функций правительства центрального Тбилиси была передана органам местного самоуправления. Однако в Грузии, которая долгие годы жила в условиях административного подчинения, управлялась директивами, поступающими из центра, население не было подготовлено к процессу децентрализации, а в период 1994-1996 гг. процессы децентрализации были снова заменены процессами централизации. Именно в ходе проводимых тогда реформ были сформированы основные элементы административно-территориального устройства Грузии.

В настоящее время территория Грузии разделена на края, называемые "мхаре" и на две автономные республики (Абхазия и Аджария). Деятельность муниципалитетов, входящих в состав краев, основана на принципах местного самоуправления и считаются административными единицами 2-го уровня. Муниципалитеты до проведенных административных реформ в 1994-1996 гг. назывались регио-

нами, а в период 1996-2006 гг. - районами. В настоящее время на территории краев и автономий образовано 67 муниципалитетов. Наряду с этим на территории страны имеется 14 городов республиканского и краевого значений. До 2006 года количество городов республиканского значения достигало семи.

В результате исследования были освещены вопросы, связанные с демографией, внутренним делением каждой из административных единиц; затронуты проблемы, возникающие в результате существования сепаратистских сил в Абхазии и Цхинвальском регионе; сопоставлены различные подходы центральной власти Грузии и сепаратистских структур к административно-территориальному делению.

При анализе опыта построения независимого демократического государства Грузии были достигнуты следующие результаты:

1. Институт президентства - это новое явление в государственном устройстве страны, организация и деятельность которого сопровождаются рядом проблем. За весь период существования института президентства в Грузии неопределенными оставались различные аспекты его функционирования. Нерешенными оставались множество проблем, которые снижали эффективность реализации президентской власти.
2. Отличительной чертой "переходного периода" стало укрепление президентом своей позиции, расширение влияния на общественную жизнь и юридическое сосредоточение власти в своих руках.

3. Основным оружием в руках власти является Конституция - Основной Закон страны, меняющаяся в период каждого президента. Как показывает практика, будущее страны зависит не от Конституции, подвергающейся частным изменениям и носящей всеобъемлющий характер, а от успешной сбалансированной системы институционального контроля.
4. Несмотря на то, что Грузия объявила о переходе на парламентскую республику, борьба вокруг поста президента не прекращается, потому что он по-прежнему считается прямым представителем власти в стране. Последние президентские выборы показали, что необходимо сохранить прямые всенародные президентские выборы, столь важные, для народа. Демократические институты в стране все еще слабы, поэтому выборы остаются единственным средством выразить свое отношение избирателя к существующей власти.

Основной причиной изменений в национально-этническом составе населения Грузии стала массовая миграция из соседних стран. В XVIII веке грузины составляли 85 процентов населения Грузии. В конце XIX - начале XX вв. в результате колониальной политики России армяне, в основном, из стран Ближнего Востока, и русские из внутренних губерний Российской империи были переселены в Грузию. А азербайджанцы проживающие в Борчалинском (Нижняя Картли) регионе, являются аборигенами, жили и живут с грузинами в дружественных условиях.

В первые годы советской власти грузины составляли 70 процентов населения республики. В результате разви-

тия экономики в Грузинской ССР усилилось общее движение населения, был привлечен трудовой контингент из других союзных республик в различные сферы хозяйства и культуры. В то же время часть грузинского населения переселилась в другие республики. В 1950-е годы грузины составляли 64,3 процента всего населения республики.

В конце XX века в результате распада СССР и восстановления независимости Грузии, ее субъекты – Абхазия и Южная Осетия вышли из-под контроля, что вызвало вынужденный эмиграционный отток грузин и негрузин (первых в республике превысило 80 процентов).

Национально-этнический состав населения Грузии довольно разнообразен. Народы и этнические группы принадлежащие к разным языкам, религиям и происхождению, живущие веками в стране с не такой большой территорией, по-прежнему сохраняют свои особенности. Из проведенного научного исследования можно сделать вывод о том, что борьба этих народов и этнических групп за свои интересы периодически вызывала возникновение на территории страны конфликтных зон. Самое примечательное то, что склонности к сепаратизму, происходящие на территории страны, напрямую или косвенно связаны с армянами. Армяне, выдвинувшие претензии на Джавахети на второй план ввиду Нагорно-Карабахского конфликта, воздержавшиеся от открытой борьбы, но, в то же время сражались против грузин в Абхазском конфликте. Это показатель того, насколько большой угрозой армяне являются для грузинского государства. А, азербайджанцы, являющиеся самым большим по численности народом после грузин, в Грузии

вместе с грузинами боролись плечом к плечу за сохранение территориальной целостности страны. Кроме того, на территории страны проживает большое количество народов и этнических групп меньшинств, которые обогащают национально-этнический состав населения Грузии.

Несмотря на то, что во времена СССР и в первые годы после восстановления независимости Грузии была осуществлена дискриминационная политика в отношении других народов и этнических групп в стране, в последующий период в рамках процесса интеграции на Запад были достигнуты позитивные успехи в обеспечении их прав и свобод. В частности, после подписания Грузией в 2005 году Рамочной конвенции Совета Европы о защите национальных меньшинств в этой области был предпринят ряд шагов.

Демографические процессы в Грузии зависят от проводимой государством экономической политики, социально-экономического положения, политических условий. Войны, гражданские и этнические конфликты, трудности при переходе к рыночной экономике, тяжелые социально-экономические условия, падение производства, потеря рабочих мест привели к массовой эмиграции.

Молодежная политика в Грузии, являющаяся одним из направлений государственной политики, как и в других странах, является одним из факторов, влияющих на демографические условия. Принятые в этой области программы направлены непосредственно на развитие интересов молодежи. По мнению исследователей, реализация местных программ должна осуществляться органами, знакомыми с демографическими, социальными, экономическими и поли-

тическими показателями в этой области. Потому что в Грузии все еще остаются проблемы, препятствующие развитию молодежи. Примером этого могут служить такие сферы, как занятость, образование, безопасность, здоровье, токсикомания, наркомания, медицинские услуги, предпринимательство, организация, творчество и общественно-политическая деятельность.

Основной целью молодежной политики является определение подхода государства к молодежи, создание условий для развития молодежи, для ее непрерывной деятельности в своих сферах.

Исследования подтверждают, что среди молодежи в стране плохие привычки (алкоголизм, наркомания и т. д.) широко распространены. Важно разработать специальные механизмы для предотвращения и защиты молодежи от вредных привычек. Среди молодежи следует отдавать предпочтение более здоровому образу жизни.

Для проживающих в Грузии азербайджанцев должны быть открыты компании, способные обеспечить их работой. Для их представления в государственных органах они должны изучать грузинский язык. В действующие в стране азербайджаноязычные школы должны быть привлечены профессиональные учителя. Существует большая необходимость в принятии мер по решению проблемы образования азербайджанцев, аборигенного населения и проведения скоординированной работы по устранению этих проблем между соответствующими структурами двух стран.

Для студентов с ограниченными возможностями важно развивать соответствующую инфраструктуру. Соот-

ветствующие органы должны создать особые условия для лиц с ограниченными возможностями для получения качественного образования.

Улучшение качества исследований в области высшего образования является одним из основных компонентов молодежной политики. С этой точки зрения необходимо разработать механизмы оценки учителей и привлечь профессиональных преподавателей из высших учебных заведений для достижения успеха в этой области.

Одним из важнейших вопросов является модернизация науки, технологий и инновационной системы для обеспечения устойчивого развития страны.

Таким образом, к негативным и позитивным факторам, влияющим на естественный рост населения Грузии, считающимся одновременно с Арменией на Южном Кавказе демографическим “аутсайдером”, можно отнести следующие:

Негативные факторы:

- снижение уровня рождаемости, увеличение уровня смертности;
- тяжелые экономические условия;
- политические события в регионе, конфликты, нарушение территориальной целостности, напряженные события на международной арене, угроза терроризма, кризис, связанный с беженцами;
- экономическая эмиграция.

Положительные факторы:

- относительный рост рождаемости;
- улучшение естественного роста;

- увеличение заключения браков;
- снижение эммиграции;
- резкое снижение рождаемости вне брака;
- -материальная помощь государства многодетным семьям;
- принятие мер по снижению уровня бедности.

Несмотря на все это, в Грузии остается угроза демографической катастрофы. Чтобы устранить эту угрозу, государство должно оказать всестороннюю материальную помощь многодетным семьям и создать условия для увеличения числа детей в семье и поощрять население к росту рождаемости.

# CONCLUSION

The conducted researches demonstrate that after the collapse of the USSR in 1991 in Georgia, several changes occurred in the administrative division and governing bodies, as well as in other areas. In March 1991, the first changes in the administrative structure of Georgia were carried out, and local governments are elected for the first time in the history of the country. Time to time, some of the economic, financial, and political functions of the central government of Tbilisi were shifted to local governments. However, in recent years, it became apparent that in Georgia, people who lived in the disciplinary authority system and guided by directives of the center, were not ready to decentralization, and since 1994-1996, processes of decentralization began to be replaced with centralization. The main elements of the territorial administrative structure of Georgia were formed during these ameliorations.

Currently, the territory of Georgia is divided into counties called "Mkhare" and two autonomous republics (Abkhazia and Adjara). The activity of the municipalities as a part of counties is based on the principles of local governance, and it is considered a collateral administrative unit. Municipalities were called the region before administrative reform in 1994-1996, and during the 1996-2006 period, their status shifted to the county. Currently, 67 municipalities were established in the territory of the counties and autonomous areas. At the same time, there are

14 large cities as a republic and county importance. Till 2006, the number of cities of republic significance was 7.

As a result of the study, the borders, population, and internal division of each administrative units were defined, problems as a result of the existence of separatist organizations in Abkhazia and Tskhinvali were touched, and different approaches of the government of Georgia and the separatist organizations to the administrative-territorial division were compared.

The following results were received by analyzing the experience of Georgia on the establishing independent, democratic state:

1. The presidential institute is a new phenomenon in the state system of the country, several problems follow its organization and activity. In Georgia, various aspects of its activity were uncertain at all times. Many problems remain unresolved, which caused the reduction of efficiency of Presidential Administration.
2. The distinctive feature of “transition period” was strengthening of the position of the president, expansion of influence on public life, and the concentration of power legally.
3. The primary weapon of the government is the constitution, which is changing during the term of each president. Studies show that the future of the country does not depend on the immediate change of the constitution and its general character; however, it is determined by the successfully balanced system of institutional control.

4. Even though Georgia passed into the parliamentary republic, the struggle around the presidency is not slowing down. Thus the presidency is still considered as a direct authority of the country. Recent presidential elections showed that it is necessary to hold direct presidential elections. Therefore, the election of the president by people is essential. Democratic institutes in the country are still weak; therefore, elections remain the only means of expression of a position of the voter in authorities in power.

Changes in the ethnic-national structure of Georgian people became the main reason for a mass migration of non-Georgians from neighboring countries. In the 18th century, Georgians were 85% of the population of Georgia. At the end of the 19th century and the beginning of the 20th century, as a result of the colonial policy of Russia, many Armenians were brought to Georgia from the Middle East as well as many Russians were brought internal governors of the Russian Empire. Azerbaijanians are aboriginal population who live in Borchali (Lower Kartli) they lived and still are living in the friendly atmosphere of Georgia.

In the first years of the Soviet Union, 70 percent of the population of the republic was Georgians. As a result of economic development in the Georgian Soviet Socialist Republic, the general movement of the population amplified, the labor of other federal republics was involved in various fields of economy and culture. At the same time, some part of the Georgian people moved to other republics. In the 1950th years,

Georgians were 64.3 percent of the total number of the population of the republic.

As a result of the collapse of the USSR at the end of the 20th century and tensions and conflicts after gaining independence, Georgia lost control on Abkhazia and the former South Ossetian autonomous region, non-Georgians left the country, and the number of Georgians in the country became more than 80 percent.

The national-ethnic structure of the population of Georgia is entirely various. People of different ethnic origin, religion, and origin who lived in the country throughout centuries still keep the identity. The scientific research indicates that the struggle of these people and ethnic groups for their interests sometimes led to the emergence of zones of the conflict in the country. The most remarkable point is that separatism trends in the country are directly or indirectly connected with the Armenians. Armenians put its claims on Javakheti due to Nagorno-Karabakh conflict and tussled against Georgians on the issue of Abkhazia by avoiding an open scuffle. It is a sign of great danger which Armenians constitute for the Georgian state. Azerbaijanis, which is the second significant population after Georgians in Georgia, defended the territorial integrity of the country together with Georgians. Also, other minorities and ethnic groups living in the country are considered as the richness of national and ethnic structure of the population of Georgia.

During the USSR period as well as the post-independence period of Georgia, discrimination policy was pursued against other nations and ethnic groups; however, in the frame of integration to the West, it was possible to achieve decisive

progress in ensuring the rights and freedoms. Notably, significant steps have been taken in these field after signing the Framework Convention for the Protection of National Minorities in 2005 between the Council of Europe and Georgia.

Demographic processes in Georgia depend on the economic policy of the state, a social and economic situation, and political conditions. Wars, the civil and ethnic conflicts, difficulties upon transition to a market economy, severe social and economic conditions, the decline in production, loss of jobs led to mass emigration.

The youth policy, one of the factors influencing demographic conditions in Georgia, is a self-dependent orientation of state policy, as in many countries. The programs adopted in this area were aimed directly at the development of interests of youth. According to researchers, the realization of local programs has to be enabled by the bodies familiar with demographic, social, economic, and political aspects of the area. Because in Georgia, problems remain the same in the development of youth. Problems in employment, education, medical, health care, business, organizational, creative and socio-political activity fields as well as toxicomania, and drug addiction can be considered as examples.

The main objective of youth policy is to define the state approach to youth, to create conditions for the development of youth and to create conditions for their continuous functioning in the areas.

Researches show that bad habits (alcoholism, drug addiction, etc.) are widespread among young people. In order to prevent it, developing unique mechanisms is vital for the

protection of youth against addictions. Giving preference to the healthy lifestyle is necessary among youth.

The companies should be established to employ Azerbaijanis living in Georgia. They have to learn Georgian to be presented in public affairs. Professional teachers have to be involved in the Azerbaijani-speaking schools functioning in the country. There is a need for urgent steps on a solution to the problems in the education of Azerbaijanis as an indigenous people, and the coordinated work on elimination of these problems between appropriate authorities of two countries.

It is crucial to develop the corresponding infrastructure for disabled students. The relevant ministries have to create special conditions for physically disabled people for receiving a quality education.

Improvement of quality of researches in the sphere of higher education is one of the key components of youth strategy. In this regard, it is necessary to involve professional teachers in higher educational institutions to the preparation of mechanisms of assessment of teachers and achievement of success in this area.

One of the most critical issues is a modernization of a system of science, technologies, and innovations for ensuring sustainable development of the country.

Thus, the negative and positive factors influencing the natural increase of the population in Georgia, which is considered demographic "outsider" along with Armenia in the South Caucasus can be generalized as follows:

Negative factors:

- The decrease in birth rate, increase in mortality;
- Difficult economic conditions;

- Political trends in the region, the conflicts, violation of territorial integrity, intense events on the international scene, a threat of terrorism, refugee crisis;
- Economic emigration.

Positive Factors:

- Relative growth at the birth rate;
- Improvement of natural increase;
- Increase in the number of marriages;
- Emigration reduction;
- A sharp decrease in the birth rate after marriage;
- State subsidies to wealthy families;
- Taking measures to poverty reduction.

Despite all this, in Georgia, there is a risk of a demographic accident. In order to overcome this problem, the state has to provide substantial financial aid to wealthy families, make conditions for an increase in the number of children in the family, and stimulate the population to it.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## *Azərbaycan dilində*


1. *Axısxalı Türklər: Sürgündə keçən 72 il,* http://ahiska.az/?p=338
2. Axmeteli N. *Gürcülər Saakaşvilini necə xatırlayacaq?* www.bbc.com/azeri/region/2013/10/131029_saakash vili _heritage_top10.
3. Aydınlı F. *Abxaziya münaqişəsinin regional inteqrasiyaya təsiri* https://www.academia.edu/37948294/abxaziya_ münaqişəsinin_regional_inteqrasiyaya_təsiri
4. Bakıxanov A. Gülüstani-İrəm (Tərcumə edəni M. Əskərli), Bakı: Minarə, 2000, 94 s.
5. Budaqov B., Qeybullayev Q. *Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti.* Bakı: Nurlan, 2008, 312 s.
6. Cabbarlı H. *Ermənistan-Gürcüstan münasibətlərində Cavaxetiya və Abxaziya dəmir yolu problemləri,* http:// newtimes.az/az/politics/3281/
7. *Ermənilər Gürcüstanda yeni ASALA yaratdı: Terror təhlükəsi* www.axar.az/news/gundem/241271.html
8. *Gürcüstan iqtidarı müxalifəti dialoqa, müxalifət isə əhalini mitinqə çağırır. Azərtac-ın Tbilisi müxbiri ölkədə yaranmış vəziyyət barədə məlumat verir.* www.azertag.az/xeber/gurcustan_iqtidari_muxalifati_dialoq amuxalifat_isa_ahalini_mitinqa_chagirir__azartac_in_tbilisi_m uxbiri_olkada_yaranmis_vaziyyat_barada_malumat_verir-299893.
9. *Gürcüstandakı azərbaycanlıların həyatı prezident üçün prioritetdirsə, hamı üçün də belə olmalıdır*

http://avciya.az/gurcustandaki-az%C9%99rbaycanlilarin-h%C9%99yati-prezident-ucun prioritetdirs%C9%99-hami-ucun-d%C9%99-bel%C9%99-olmalidir/

10. Həbibbəyli Ə.İ. *Ermənilər Qazfqazda daha bir separatist bölgə yaradır-Gürcüstanın ərazi bütövlüyü təhlükədə-araşdirma,* http://strateq.az/manshet/220283/ermənilərqafqazda-daha-bir-separatist-bolgə-yaradir.html
11. Həbibbəyli Ə.İ. *Gürcüstanın ərazi bütövlüyü uğrunda mübarizədə erməni Baqramyan batalyonu ilə Borçalı azərbaycanlıları üz-üzə* http://newtimes.az/az/politics/5432
12. Hüseynov S. *Davamlı insan inkişafının strateji istiqamətləri.* Bakı: Adiloğlu, 2003, 264 s.
13. *İlham Əliyev: "Gürcüstan və Azərbaycan daim həmrəylik göstərir və bir-birini dəstəkləyir".* https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2019/02/27/ilham-liyev-gurcustan-v-az-rbaycan-daim-h-mr-ylik-gost-rir-v-bir-birini-d-st-kl-yir-1153821
14. Kəlbizadə E. *Ahıska türkləri: deportasiyadan Xocalı soyqırımına. //* Qafqazda deportasiyalar. Respublika elmi konfransı 29 noyabr 2018-ci il. Tezislər. Bakı: Mütərcim, 2019, s.86-87
15. Kəlbizadə E. *Qardaşlaşan muxtariyyətlər: Naxçıvan və Acarıstan*. "Şərq qapısı" qəzeti, 1 mart 2013-cü il, № 40, s. 3
16. Qasımlı M. *Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalnadək erməni iddiaları: tarix olduğu kimi (1920-1994-cü illər)*. Bakı: Mütərcim, 2016, 520 s.
17. Qeybullayev Q. *Azərbaycan türklərinin təşəkkülü tarixindən,* Bakı: Azərnəşr, 1994, 248 s.
18. Mehdiyev R. *Demokratiya yolunda: irs haqqında düşünərkən.* Bakı: Şərq-Qərb, 2008, 792 s.
19. Məmmədli Ş. *Alın Yazımız,* Tbilisi: Dayaq, 1997, 104 s.

20. Məmmədli Ş. *Paralanmış Borçalı*. Bakı: Azərnəşr, 83 s.
21. Məmmədov A. *Oğuz səltənəti*, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 300 s.
22. Məmmədov M. *Ermənistan-Gürcüstan sərhədində ilk toqquşma* www.istipress.com/siyaset/03-10-2017/ ermenistangur custan-serhedinde-ilk-toqqusma
23. Mirzə Adıgözəlbəy. *Qarabağnamə*. Bakı: Yazıçı, 1989, I hissə, 216 s.
24. Nemanzadə Ö.F.Gürcüstan İnqilab Komitəsinin Sədri Maxaradze yoldaşa// Nemanzadə Ö.F.*Seçilmiş əsərləri*, Bakı: Yazıçı, 1992, s.345-353 (536 s.)
25. Nərimanoğlu H. *Türk ya erməni soyqırımı?* Bakı: QHT nəşriyyatı, 2005, 73 s.
26. Selaniki M. *Tarixi Selaniki,* Bakı, 1994, 73 s.
27. Seyidov M. *Azərbaycan xalqının soy kökünü düşünürkən.* Bakı: Elm və Təhsil, 1989, 442 s.
28. Staroselski V. *Qafqaz dramı, "Sovet Gürcüstanı"* qəzeti, 17 aprel 1990-çı il.
29. Süleymanov O. *Az-Ya.* Bakı*:* Azərnəşr ,1993, 304 s.
30. Şami N. *Zəfərnamə*, Bakı: Elm, 1992, 40 s.
31. Valehoğlu F. *Qarapapaqlar və onlarin XIX əsr hərb tarixi.* Bakı: Səda, 2005, 248 s.
32. Vəliyev M.H. (Baharlı) *Azərbaycan,* Bakı:Azərnəşr, 1993, 192 s.
33. Voroşil Q, *Qafqaz Albaniyası.* Bakı: Öyrətmən, 1993, 108 s.
34. Zardiaşvili B. *Gürcüstan SSR-in iqtisadi rayonlaşdırması,* Tbilisi, 1970, 120 s.

### *Türk dilində*

35. Aydın Ü. *Abhazya ve Güney Osetya sorunu: Avrupa Birliği-Gürcistan ilişkilerinin "istenmeyen" gündemi* https://www.academia.edu/30958750/abhazya_ve_ gün

ey_osetya_sorunu_avrupa_birliği__gürcistan_ilişkilerinin_istenmeyen_gündemi

36. Aydıngün A, Asker A. *Gürcistan de jure üniter, de fakto parçalı.* Ankara: Atatürk Kültür Merkezi, 208 s.
37. Aydıngün A, Asker A, Aslan Yavuz Şir. *Gürcistan'daki müslüman topluluklar: azınlık hakları, kimlik, siyaset, Avrasya İncemeler Mərkəzi-2016.* Ankara: Terazi Yayıncılık, 192 s.
38. Emine Gün. Abhaz-Gürcü sorunu www.academia.edu/12484463/Abhaz-Gürcü_Sorunu
39. Murtazaoğlu F. *Acaralıların Siyasi Özerklik Hakkının Süjesi Haline Gelmeleri ve Türkiye'nin Bu Sürece Etkisi.* Ahmet Yesevi Üniversitesi Mütevelli Heyet Başkanlığı Bahar, 2004 sayı 29: s. 41-82
40. Səfərov R, Akış A. *Sovyet Döneminden Günümüze Ahıska Türklerinin Yaşadıkları Coğrafyaya Göçlerle Birlikte Genel Bir Bakış* http://dergipark.gov.tr/download/article-file/257903

### *İngilis dilində*

41. *2014 General Population Census Main Results General Information* www. census.ge/en/results/census_release_
42. *Advisory committee on the framework convention for the protection of national minorities.* Second Opinion on Georgia adopted on 17 June 2015, Strastburg 11 January 2016.
43. Charles F. *Georgia's Rose Revolution* // Journal of Democracy. Volume 15, İssue 02.04.2004, 124 p.
44. *Chronicle of Events of the Conflict, 1989-1992* www.caucasus.dk/chapter8.htm#Appendix%201:%20Chronicle%20of%20Events%20of%20the%20Conflict,%201989-1992.

45. *CSEM. Ethnic Composition of Georgia 1926 – 2014.* Infographics are designed and compiled by the Centre for the studies of ethnicity and multiculturalism October, 2016
46. *Georgia Census 2002.* Ethnic group by major administrative-territorial units
47. www.geostat.ge/cms/site_images/_files/english/census/2002/03% 20Ethnic%20Composition.
48. *Georgia Minorities and indigenous peoples.* World Directory of Minorities and Indigenous Peoples. https://minorityrights.org/country/georgia/ World Directory of Minorities and Indigenous Peoples
49. *Georgia Population 2019* http://worldpopulationreview.com/countries/ georgia-population/
50. Giorgi Sordia. *Ossetians in Georgia,* ECMI Working Paper # 45. September 2009, 37 p
51. Jim Nichol. *Russia-Georgia conflict in August 2008.* Context and İmplications for U.S. interests. Congressional research service. March 3, 2009, 36 p.
52. Jonathan W. *Georgia from National Awakening to Rose Revolution: Delayed Transition in the Former Soviet Union.* Post-Soviet Politics. Burlington:Vt. Ashgate 2005, 252 p.
53. Karapetian S. *Javakhk.* Yerevan: Research on Armenian Architecture (RAA) Foundation, 2011, 624 p.
54. Number of Population as of January 1, 2013 National Statistics Office of Georgia. www.geostat.ge
55. Oskari Pentikäinen, Tom Trier. *Between integration and resettlement: the meskhetian turks,* ECMI Working Paper # 21 September 2004, 54 p.
56. Papava V., *The Political Economy of Georgia's Rose Revolution.* // Orbis. Vol. 50, Issue 4, Autumn 2006.

57. Parlamentary Elections of 2016 http://www.ivote.ge/elections/parliamentary-elections/parliamentary-elections-of-2012.html?lang=en-GB
58. Population Census 2014. National Statistics Office of Geo- rgia. November 2014.
www.geostat.ge./index.php?action=page&p_id=473&lang=eng
59. Said Ethem. *The turks of Borçalı in Georgia: ethnic identity in borderland.* A Thesıs Submıtted To The Graduate School Of Social Sciences Of Mıddle East Technical University In The Deptment Of Eurasian Studies. February 2010, 112 p.
60. Sulaberidze A., Tsuladze G., Maglaperidze N.,Vadachkoria A. Demographic Yearbook of Georgian, 2011, 192 p.
61. *Temps*, 1877, Paris, 30 jule.
62. Valerie B. Wolchik S. *Defeating Authoritarian Leaders in Postcommunist Countries.* New-York: Cambridge University Press, 2011, 386 p.
63. Welt C. *Georgia: causes of the Rose Revolution and lessons for democracy assistance*. USAID, 2005, 17 p.

## *Rus dilində*

64. *Абхазия в цифрах за 2014 год.* Сухуми, 2015, 135 с.
65. *Акты Кавказской Археографической Комисии* T.VII, Тифлис: Тип. Главного Управления Наместника Кавказа, 18 1011 с.
66. Алиев И. *История Мидии*, Баку: АН АзССР, 1960, 491с.
67. Арчвадзе И. *Современные демографическое положение Грузии-заложник политико-экономического состояния* //Демографическя ситуация в Грузии (материлы семинара 17 июня 2011 года). Тбилиси, 2011, с. 3-13
68. Басихин П. *Немецкие колонии на Кавказе. "Кавказский вестник"*, 1900, 235 с.

69. Бахтадзе И. *Кочевники Закавказского края*, Тифлис 1883, с. 89
70. Бердзенешвили Н. *Дневник Джавахетский экспедиции 1933 г.* //Вопросы истории Грузии Т1, Тбилиси, 1940, с. 165-174
71. Бердзенишвили А. *К вопросу демографический ситуации в Грузии.* 2014, 142 с.
72. *Бидзина Иванишвили возглавит партию «Грузинская мечта - Демократическая Грузия».* www.1tv.ge/ru/news/bidzina-ivanishvili-vozglavit-partiju-gruzinskaja-mechta-demokraticheskaja-gruzija/
73. Боденщтедт А. *Кавказские народы*. Мунхен, 1847, 126 с.
74. *Большая российская энциклопедия. Мегрел*ы https: //bigenc.ru/ethnology/text/2196916
75. *Большая Советская Энциклопедия*. Гл. ред. А. М. Прохоров, 3-е изд. Т. 14. Куна -Ломами, 1973, 624 с.
76. *В Берлине на конференции обсуждают изменения в конституцию Грузии*. www.newsgeorgia.ge/v-berline-na-konferentsii-obsuzhdayut-izmeneniya-v-konstitutsiyu-gruzii/
77. *В Грузии отмечают ухудшение демографической ситуации.* https://korrespondent.net/world/3677953-v-hruzyy-otmechauit-ukhudshenye-demohrafycheskoi-sytuatsyy/
78. В каждом районе Грузии будет построен спорткомплекс https://sputnik-georgia.ru/society/20170502/235822173 /V-kazhdom-rajone-Gruzii-budet-postroen-sportkompleks.html
79. Вачнадзе М, Гурули В, Бахтадзе М. *История Грузии (с - древнейших времен до наших дней)* www.ereading.club/bookreader.php/4682/Bahtadze%2

C_Vachnadze%2C_Guruli__Istoriya_Gruzii_%28s_drevneiishih_vremen_do_nashih_dneii%29.html
80. *Ведомости Верховного Совета Республики Грузия.* 1991 № 4. 294 с. https://iberiana.wordpress.com/zviad-gamsakhurdia/verxovnisovet/
81. *Военно-Статистическое описание Тифлиской Губернии и Закатальского округа*, Тифлис, 1902, с. 404-405.
82. *Всесоюзная перепись населения 1926 года. Националь-ный состав населения по регионам республик СССР* http://www.demoscope.ru/weekly/ssp/sng_nac_26.php?reg=2330
83. *«Грузинская мечта» признала неизбежность второго тура выборов президента* www.newsgeorgia.ge/gruzinskaya-mechta-priznala-neizbezh nost-vtorogo-tura-vyborov-prezidenta/
84. *«Революция роз» и приход к власти М. Саакашвили.* 11.07.2016, www.hyno.ru/¬tom1/-589.html
85. Газ. *Голос Трудовой Абхазии*. № 50-186, 2 март 1922 г.
86. Грек А. И. *Краткий очерк истории Кавказского перешеека*, вып. 1, Киев: А, 1895, 308 с.
87. *Грузия в цифрах: итоги последной переписи населения*. https://sputnik-georgia.ru/informaties/2016.05.04.231491867html.
88. Гугушвили А. *Население Грузии за 160 лет (1800-1959),* 74 с.
89. *Гурийская республика* http://georoute.ge/Republic_of_Guria
90. Давид Багратиони. *История Грузии.* Тифлис, 1917, 408 с.
91. *Демографическая и социальная экспозиция* www.e.reading.club / capler. php // 468221 / Bahtadre _ Vachnadre _ Gurili _ Istoriya. (Gruziya s drevnih vremen _ do _ nashih _ dney )

92. *Демографическая ситуация в Грузии* (материалы семинара 17 июня 2011 года), Тбилиси, 2011, 110 с.
93. *Демографическая ситуация в Грузии* https://sputnik-georgia.ru/trend/demigraf/
94. *Демографический спад превратил Грузию в вымираюшую нацию* https://ru.sputinik.fi.com(world/20160930/1020768690/html.
95. Джавахшвили Ив. *Границы Грузии.* Тбилиси, 1919, 466 с.
96. Джафаров Ю. Гунны в Азербайджане. Баку: Азернешр, 1993, 107 с.
97. Джонатан Уитли. *Грузия и Европейская хартия региональных языков или языков меньшинств.* Рабочий доклад ECMI, № 42, Июнь 2009 г.
98. Джошвили В.Ш. *Население Грузии. Экономика-географическое исследование.* Тбилиси: Мецниереба, 1968, 380 с.
99. *Дипломатический вестник*, 1993, №6, 76 с.
100. Драсханакертски И. *История Армении*. Ереван: Советакан Горкан, 1986, 400 с.
101. Дубровин Н. *История войны и владычество русских на Кавказе,* СПб, 1886, Т.II., 380 с.
102. Дьяконов И.М. *История Мидии,* Баку: Нагыл Еви, 2012, 439 с.
103. *Европейский год Грузии* https://www.news georgia.ge/evropejskij-god-gruzii/
104. Загурский Л. *Поездка в Ахалцикский уезд в 1872 г.* Тифлис, 1890, 220 с.
105. *Заповедники в Грузии.* www. mygeotrip. com/ru/заповед ники-в-грузии
106. *Известия грузинских летописей и историков о Северном Кавказе и России* // Сборник материалов для описания местностей и племен Кавказа, № 22. 1897,

www.vostlit.info/Texts/rus6/Wachushti/
otryv1.phtml?id=6111
107. *Имерети*, 1913, 8 октября.
108. *Инициативы нового премъер-министра – экономика Грузии будет другой* https://sputnik-georgia.ru /economy/20180619/2409303 65/iniciativy-novogo-premer-ministra-jekonomika-Gruzii-budet-drugoj.html
109. *История Грузии.* Т.1.Тбилиси, 1962, 456 с.
110. *Как живет молодежъ в Грузии - исследование "Фонда Фридриха Эберта"* http://sputnik-georgia.ru/society /20170131/ 2347 01743/Kak-zhivet-molodezh-v-Gruzii-issledovanie-Fonda-Fridriha-Jeberta.html
111. Кальбизаде Э. *Диларам-султан. Грузинка при сефевидском дворе* // Газ. «Каспий», № 85 (981), 12 мая 2018, с. 18
112. Кальбизаде Э. Криптомиацум www.kaspiy.az/ news. php?id =96094#. XNASRz AzbIU
113. Калушкин И.П. Протокол избрания в шахи Тахмас хана. АВПР, ф.СРП, 1736. д.зл.д. 552
114. *Как с веками менялось население Грузии* https://sputnikgeorgia.ru/reviews/20190225/244506398/ Kak-s-vekami-menyalos-naselenie-Gruzii.html
115. Канадцев И.К. *Очерки Закавказской жизни.* Отдельные главы. Баку: Главная редакция Азербайджанской Советской Энциклопедии, 1990, 124 с.
116. *Климат Грузии* www.world-globe.ru/countries/ georgia/climate/
117. *Конституционный закон Грузии О внесении изменений в Конституцию Грузии* https://matsne.gov.ge /ru/document/view 3811818? publication=1
118. Кудряшов К. В. *Генезис, правовая природа и правовая география института президентства в современном*

*мире //* Вестник Ставропольского государственного университета, 2004 г, 294 с.
119. *Летопись Картли*. Тбилиси: Мецниереба, 1982, 480 с.
120. Ломадзе Ш. *Самцхе-Джавахаети.* Тбилиси. “Favorite Print”, 2013, 320 с.
121. Лордкипанидзе Ж. *Нижняя Картли в первой четверти XVIII века,* 1930, *468* с.
122. Маан О., Абжуа В. *Историко-этнологические очерки Очамчирского района Абхазии.* Сухум, 2006, 210 с.
123. *Маргвелашвили: Мы ослабили демократию и государственные институты* www.newsgeorgia -my-oslabili-demokratiyu-i-gosudars tvennye-instiuty/
124. *Международная наблюдательская миссия на выборах в Грузии: «списание долгов» приравнивается к подкупу* https://www.newsgeorgia.ge/mezhdunarodnaya-nablyud atelnaya-missiya-na-vyborah-v-gruzii -spisanie-dolgov-priravnivaetsya-k-podkupu/
125. Метревели Е. *Ключевые тенденции в системе управления в Джавахети // Джавахети вызовы и перспективы*. Тбилиси: GFSIS, 2013, с. 11-34
126. Минасян С. *Ситуация в Джавахке в контексте проблемы вывода Российских военных баз из Грузии* // «21-й ВЕК», № 1, 2005 г., с. 29-46
127. *Министерство спорта и молодежи Грузии* https://ru.m.wikipedia.org/wiki/Министерство_спорта_и_молодежи_Грузии
128. *Молодежная политика и государство Грузия* http://www.georgiamonitor.org/news/254/1308/
129. Мосаки Н. *Предварительные итоги переписи населения в Грузии: население Грузии составляет лишь 3,7 млн человек* http://www.demoscope. ru/weekly /2015/0661 /analit05.php 1/4 № 661 – 662

130. Мосаки Н.З. *Этническая картина Грузии по результата переписи* 2014 г. //Этнографическая обозрение, 2018, № 1, с. 104
131. Мровели Л. *Жизнь Картлийских царей*. 1979, 382 с.
132. Мурадян И. *Политическая ситуация в Самцхе-Джавахетии* www.geopolitica.ru/Articles/769.
133. Мускевишвили Д.Л. *Из исторической географии Восточной Грузии*. Тбилиси, 1982, 320 с.
134. Мухамед Казим. *Тарих-иалем арай-и Надири.* Ленинград Инст. Рукописей. Московский Институт Востоковедения. I Том, Ленинград, 1966, 252 с.
135. *Народная газета*, 15 октября 1913.
136. *Народы Кавказа*, Т. II. М., 1982, 656 с.
137. *Население Абхазии* www.ethno-kavkaz.narod.ru /rnabkhazia.html.
138. *Население Грузии 2018, Численность населения Грузии. Департамент по экономическим и социальным вопросам ООН: Отдел народонаселения* https:// country-meters. info/ru/ Georgia 1/60
139. *Население Грузии* https://ru.wikipedia.org/wiki/ население-грузии
140. *Население Грузии к 2050 году сократится до 2,985 млн человек — исследование* https://eadaily.com/ru/news/ 2017/ 03/23/naselenie-gruzii-k-2050-godu-sokratitsya-do-2985-mln-chelovek-issledovanie 2/
141. *Население и миграция Грузии в 2017-2018 гг. (с прогнозом)* http://www.kavkaz- uzel. eu/ blogs/ 83781/ posts/ 31744.
142. Небиеридзе Л., Дидишвили Г. *Начало развития высшего технического образования в Грузии.* Тбилиси, 1997,126 с.
143. Нерсесян М. *Джавахетия: конфликт неизбежен?!* www.abxaziya.org

144. *Обозрение Российских владений за Кавказом.* Т.1-2. СПб, 1836, 368 с.
145. *Общая и прикладная политология: Учебное пособие.* Под общей редакцией В.И. Жукова, Б.И. Краснова. Москва: Союз, 1997, 268 с.
146. *Первая всеобщая переписка населения Росссийской империи 1897 года,* Т. XIX. Тифлиская губерния, СПб. 1905, 308 с.
147. *Первому президенту Грузии исполнилось бы 78 лет.* www.sputnik- georgia.ru/society/20170331/235426496/ Pervomu-prezide ntu-Gruzii-ispolnilos-by-78let.html
148. *Перепись населения Грузии 1989* https://www. irakley/info/knowledevase/artiklek=24.
149. *Перепись населения Грузии 2002 года* https:/ ru/wikipcolia. orq./ wiki/ перепись га 31 августа 2006 года.
150. Погребова М.Н. *Закавказье и его связи с Передней Азией в скифского время.* М. 1984, 382 с.
151. *Сборник законов грузинского царя Вахтанга.* Тифлись: изд Франкелья, 1876, 568 с.
152. *Сборник материалов для описания племен и местностей Кавказа.* Тифлись: 1881 г., вып.1, 168 с.
153. *Сборник материалов для описания племен и местностей Кавказа,* Тифлись: 1895 г., вып.25, 608 с.
154. *Сводь статических данных о население Закавказского края.* Тифлиская губерния. Тифлись,1893, Т.VII, 390 с.
155. Сихарулидзе А., Урушадзе М*. Ислам в Грузии и политика интеграции* https://www.imemo.ru/files/File/magazines /puty_miru/2016/02/07_Sicharulidze.
156. *Скала*, 1915, № 4, с.15-22
157. Скобницкий М. Пастбища Закавказского края. “Кавказское хозяйство” 1918, № 9, с. 72-91

158. *Сорос капитулировал?* www.stoletie.ru/vzglyad/soros-_kapituliroval364.htm
159. *Стамбульский план действий по борьбе с коррупцией. Грузия.* Отчет о проделанной работе, 2011 г.
160. *Стратегия национальной безопасности Республики Армении* www.mfa.am/u_files/file/doctrine/Doctrinerus.
161. Сулаберидзе А. *Межтиповой демографической переход в Грузии на фоне посткоммунистических стран* http:e.120-bal. ru/ vebal 13640/index.html
162. *Сухумский район 2011 г.* (2011-ci il siyahıyaalmalarının nəticələri) www.ethno-kavkaz.narod.ru/suxum11.html
163. Тотадзе А. *Что будет с Грузией и грузинами - как избежать демографической катастрофы* https://sputnikgeorgia.ru/reviews/20190225/244506197/Chto-budet-s-Gruziey-i-gruzinami-kak-izbezhat-demograficheskoy-katastrofy.html
164. Таркхинишвили Л. *Грузия: путь к демократии?* Пер. с англ. Ирины Синициной. Варшава, 1997 г., 54 с.
165. Хорев Б.С. *Сравнительный анализ социально-экономического и демографического развития стран мира и России для оценки условий и инвестривания.* Научный-аналитический центр, региональные социально-экономический демографический и геополитический исследования и прогнозирования. Москва: СИНС. Слева, 1999, 198 с.
166. Цагарели А. *Грамоты и другие исторические документы*. Т. II Москва, 1891, 518 с.
167. Центральный Государственный Исторический Архив Грузии, ф. 1262, оп. 1, д. 25, л. 18
168. *ЦИК: явка на выборах президента в Грузии составила 46,74%* www.newsgeorgia.ge/tsik-yavka-na-vyborah-prezidenta-v-gruzii-sostavila-46-74/

169. Цуладзе Г. *Демографическая ситуация в Грузии. Мониторинг 2011 г.* (на груз.яз) Тбилиси,2011, 68 с.
170. Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, 120 с.
171. Чедия Б. *Современный грузинский национализм перед вызовами нового тысячелетия*. CA&C Press AB - Института центральноазиатских и кавказских исследований Швеции http://www.ca-c.org/c-g/2011/journal_rus/c-g-1-2/04.shtml
172. Чигорин А. *Российского-Грузинские отношения. Что дальше*. Москва: Красная звезда, 2003, 80 с.
173. Чикава Л., Джанджгава Дж. *Острая демографическая ситуация в Грузии и система мер по ее нормализации. (на груз.яз.)* // Экономисти, 2010, №1 с.10-23
174. Чичинадзе З. *Армяне в Грузии (Армянское духовенство и мечта дашнаков).* Родина, 1916, 15 апреля.
175. *Шеварднадзе и его роль в судьбе советской страны* www.topwar.ru/134473-shevardnadze-i-ego-rol-v-sudbe-sovetskoy-strany .html
176. Шенгелия Н. *Сельджуки и Грузия в XI.* Тбилиси: Мецниереба, 1968, 520 с.
177. Шепотьев А. *О спорных Кавказских территориях на которые имеют право самоопределившиеся азербайджанские тюрки.* // Известия АН Азербайджана, 1990, № 2, с. 42-61
178. Шопен И. *Исторический памятник состояния Армянской области в эпоху ее присодинения к Российской империи,* СПб., 1852, 526 с.

### *Gürcü dilində*

179. *არჩევნების ისტორია. თბილისი, 2009*

180. *ახალი ცხოვრების შანსი* http://www.mes.gov.ge/content.php?id=8569&lang=geo
181. *განათლებისა და მეცნიერების ერთიანი სტრატეგიის (2017-2021) სტრატეგიული ამოცანებისა და სამოქმედო გეგმის შესრულების მონიტორინგის ანგარიში* http://mes.gov.ge/uploads/MESStrategy_2017-2021
182. *დემოგრაფიული ვითარება საქართველოში სტატისტიკური კრებული. თბილისი: საქართველოს სტატისტიკის ეროვნული სამსახური, 2017*
183. *მოსახლეობის რიცხოვნობა 2018 წლის 1 იანვრის მდგომარეობით. სტატისტიკის ეროვნული სამსახური www.geostat.ge/cms/site_images/_files/georgian/population /Population%20press_30%2004%20Geo_1.*
184. *საქართველო - არჩევანის, თბილისი, 2010*
185. *საქართველოს კონსტიტუცია* http://www.parliament.ge/ge/kanonmdebloba/constitution-of-georgia-68
186. *საქართველოს პარლამენტის რეგლამენტი* http://www.parliament.ge/ge/kanonmdebloba/reglamenti
187. *შარაძე ამირან. ხულოს მუნიციპალიტეტი* www.khulo.ge.
188. *ცესკო* www.results.cec.gov.ge/index.html
189. *1991 წლის 22 დეკემბერს თბილისის ომი დაიწყო* www.tabula.ge/ge/-story/127954-1991-tslis-22-dekember s-tbilisis-omi-dait sko

**Vahid Ömərov, Elnur Kəlbizadə, Samirə Həbibbəyli, Naziyə Məmmədova, Kamal Salayev**

**Gürcüstan: İnzibayi-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası**

*Xülasə*


Kitab strukturuna görə ön söz, giriş, üç fəsil, on bir yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahasından ibarətdir.

"**Gürcüstanın tarixi-siyasi coğrafiyası**" adlanan birinci fəsil Cənubi Qafqaz dölətlərindən biri olan Gürcüstanın coğrafiyasının, inzibati ərazi quruluşunun-diyarlarının, rayonlarının, muxtar qurumlarının tətqiqinə həsr olunmuşdur. Gürcüstanda SSRİ-nin dağılmasından sonra inzibati bölgü və inzibati idarəçilikdə baş vermiş dəyişiklər, yerli özünüidarəetmə orqanlarına – qamqeobalara keçirilmiş seçkilər, qeyri-mərkəzləşdirmə proseslərinin mərkəzləşdirmə prosesləri ilə əvəzlənməsi, "mxare" adlandırılan diyarları və muxtar qurumları, diyarların tərkibinə daxil olan munisipalitetlər, inzibati vahidlərin hər birinin sərhədləri, əhalisi, daxili bölgüsü ilə bağlı məsələlər tədqiq edilmiş, Abxaziyada və Sxinvali regionunda separatçı qurumların mövcudluğu nəticəsində yaranan problemlərə toxunulmuşdur.

Əsərin **"Gürcüstanın idarəçilik sistemi"** adlı ikinci fəslində Z.Qamsaxurdia devrildikdən sonra prezidentlik üsul-idarəsinin ləğv edilməsi, əvəzinə dövlət şurası sədri institutunun təsis edilməsi, Gürcüstanın yeni konstitusiyasının qəbul edilməsi ilə prezidentlik institutunun yenidən yaradılması, "Qızılgül inqilabı"ndan sonra onun daha da gücləndirilməsi, Gürcü Arzusu partiyasının hakimiyyətə gəlməsindən sonra prezidentlik üsul-idarəsinin zəifləməsi, prezidentlik səlahiyyətlərinin məhdudlaşdırıl-

ması, parlament üsul-idarəsinin gücləndirilməsi və baş nazirlik institutunun səlahiyyətlərinin genişləndirilməsi, parlament və baş nazir təsisatlarına keçirilməsinin səbəbləri araşdırılmışdır.

**“Gürcüstanın demoqrafiyası”** adlanan üçüncü fəsildə ölkənin demoqrafik şəraiti tarixilik və müasirlik aspektlərindən şərh olunmuş, əhalinin milli - etnik tərkibi, gürcülərlə yanaşı burada müxtəlif xalqların məskunlaşması, aborigen azərbaycanlıların Gürcüstanda yaşamalarının tarixi səbəbləri, ermənilərin bu ölkəyə məqsədyönlü köçrülməsi və onların əsassız iddiaları, müstəqil Gürcüstanda demoqrafik böhrana dair proqnozlar tədqiqata cəlb olunmuşdur.

**“Nəticə”** hissəsində müəlliflərin tədqiqatın gedişində gəldikləri yekun qənaətlər öz əksini tapmışdır.

**Вахид Омаров, Эльнур Кальбизаде, Самира Габиббейли, Назия Мамедова, Кямал Салаев**

## Грузия: административно-территориальная устройство, управление и демография

*Резюме*

Книга по структуре состоит из предисловия слов, введения, трех глав, одиннадцати параграфов , заключения и списка использованной литературы.

Первая глава под названием **“Административно-территориальное устройство Грузии”** посвящена географии, административно-территориальному делению Грузии – краям, районам, автономным структурам. Изменения в административном делении и управлении, произошедшие после распада СССР в Грузии, выборы в органы местного самоуправления, смена процесса децентрализации централизацией, края и автономные структуры, называемые “мхаре”, муниципалитеты, входящие в состав краев, были исследованы границы, население, внутреннее деление каждого из административных единиц, затронуты проблемы, возникающие в результате существования сепаратистских структур в Абхазии и Цхинвальском регионе.

Во второй главе книги, называемая **“Система управления Грузии”,** рассматриваются упразднение президентской администрации после свержения Гамсахурдиа, учреждения института председателя Госсовета, восстановление института президента с принятием новой конституции и его дальнейшего укрепления после “Революции роз”, а также причины ослабления президентской администрации,

ограничения президентских полномочий, укрепления парламентской системы и расширения полномочий премьер-министра, парламентских учреждений после прихода к власти партии “Грузинская мечта”.

В третьей главе под названием **“Демография Грузии”** были рассмотрены демографическое положение с исторической и современной аспектов, национально - этнический состав населения, расселение наряду с грузинами различных народов, исторические причины проживания аборигенных азербайджанцев в Грузии, целенаправленное перемещение армян в эту страну и их необоснованные претензии, были привлечены к исследованию демографические прогнозы в независимой Грузии.

В разделе **“Заключение”** отражены выводы, к которым авторы пришли в ходе исследования.

**Vahid Omarov, Elnur Kelbizadeh, Samira Habibbayli, Naziya Mammadova, Kamal Salayev**

**Georgia: administrative-territorial structure, management and demography**

*Summary*

The book structure consists of a Preface, introduction, three chapters, eleven paragraphs, conclusion, and references. The first Chapter, entitled **"Administrative territorial structure of Georgia",** is devoted to the geography, administrative and territorial structure of Georgia – the edges, districts, Autonomous structures. Changes in the administrative division and the management that occurred after the collapse of the Soviet Union Georgia, elections in bodies of local self-government and the changing process of decentralization centralization, krais and Autonomous structures called "mkhare", the municipalities included in the edges, was investigated boundaries, the population, the internal division of each of the administrative units affected by the problems arising from the existence of separatist entities in Abkhazia and the Tskhinvali region.

The second Chapter of the book, entitled **"The System of governance of Georgia",** deals with the abolition of the presidential administration after the overthrow of Gamsakhurdia, the establishment of the Institute of the Chairman of the State Council, the restoration of the institution of the President with the adoption of the new Constitution and its further strengthening after the "Rose Revolution", as well as the reasons for the weakening of the presidential administration, the restriction of presidential powers,

strengthening of the parliamentary system and the expansion of the powers of the Prime Minister, parliamentary institutions after the Georgian dream party came to power.

In the third Chapter, entitled **"Demography of Georgia",** the demographic situation with historical and modern aspects, the ethnic composition of the population, the resettlement of different peoples along with Georgians, the historical reasons for the residence of indigenous Azerbaijanis in Georgia, the purposeful movement of Armenians to this country and their unfounded claims were involved in the study of demographic forecasts in independent Georgia.

In the **"Conclusion"** the authors summarized the final findings of the study.

Vahid Ömərov, Elnur Kəlbizadə,
Samirə Həbibbəyli, Naziyə Məmmədova, Kamal Salayev

# GÜRCÜSTAN:
# İNZİBATİ-ƏRAZİ QURULUŞU,
# İDARƏÇİLİYİ VƏ DEMOQRAFİYASI

BAKI – 2019

*"SAPFİRA-TƏCHİZAT" MMC-nin sifarişi ilə nəşr edilir.*

"MTM-Innovation" MMC

Çapa imzalanıb: 19.06.2019.
Format: 60x84 1/16. Qarnitur: Cambria.
Həcmi: 20 ç.v. Tiraj: 500.

Bakı, R.Rza kuç., 125